2010

İLLİK HESABAT

SOCAR

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ







«Azərbaycanın zəngin karbohidrogen ehtiyatları ölkənin enerji təhlükəsizliyini uzun illər, onilliklər ərzində təmin edəcəkdir».

**Heydər Əliyev**
**Azərbaycan xalqının**
**Ümummilli Lideri**

Azərbaycanda uğurla gerçəkləşən neft-qaz layihələri Azərbaycanın milli maraqlarına xidmət edir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**



# I. NEFT STRATEGİYASI AZƏRBAYCANI YENİ QƏLƏBƏLƏRƏ APARIR



Azərbaycan bu gün davamlı sosial-iqtisadi yüksəliş dövrünü yaşayır. Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və ölkənin hazırki misilsiz inkişafının etibarlı təməlini yaratmış yeni neft strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında inamla davam etdirilir, müstəqil dövlətimizə ilbəil yeni-yeni nailiyyətlər qazandırır. Azərbaycan artıq bütün dünyada regionun öncül dövləti kimi tanınır və bölgədə baş verən geosiyasi proseslərdə mühüm rol oynayır.

Müasir dövrdə neftə və nisbətən təmiz enerji mənbəyi hesab edilən təbii qaza maraq böyükdür. Dünyanın əsas enerji regionlarında baş verən hadisələr bu gün beynəlxalq diqqəti siyasi cəhətdən sabit, iqtisadi nöqteyi-nəzərdən inkişafda olan Xəzər hövzəsi regionunda cəmləşdirmişdir. Azərbaycanın enerji istehsalçısı kimi artan potensialı, eləcə də Mərkəzi Asiyanın digər enerji ixracatçıları üçün güclü

**Azərbaycan Respublikasında neft hasilatı (mln ton)**




əhəmiyyətə malik tranzit imkanları ölkəmizə marağı daha da artırır. Respublikanın təsdiq edilmiş neft ehtiyatlarının həcmi 2 mlrd. ton, qaz ehtiyatlarının həcmi isə 2,2 trln. $m^3$ təşkil edir. İndiyədək Azərbaycandan 255,5 mln. ton neft, 22,2 mlrd. $m^3$ qaz ixrac olunmuşdur. Biz dünyanın 33 ölkəsinə, o cümlədən, ABŞ, Çin, Braziliya, Çili, Tayland kimi ölkələrə neft və neft məhsulları ixrac edirik. Qaz ixracının coğrafiyası da genişlənməkdədir. Avropa İttifaqının təklif etdiyi "Cənub qaz dəhlizi" layihəsi bu baxımdan qarşıda böyük imkanlar açır.

Yeni neft strategiyası çərçivəsində həyata keçirilən layihələr, SOCAR-ın modernizasiyası istiqamətində görülən tədbirlər nəticəsində son illər Azərbaycanda yüksək hasilat göstəricilərinə nail olunmuş, neftin, qazın, neft və kimya məhsullarının ixracatçısı kimi ölkənin mövqeləri möhkəmlənmişdir. 2010-cu ildə ölkə üzrə 50,8 mln. ton neft, 26,3 mlrd. $m^3$ qaz hasil edilmişdir. SOCAR 8,5 mln. ton neft, 7,3 mlrd. $m^3$ qaz hasil edərək, əvvəlki illərə nisbətən daha yüksək nailiyyət əldə etmişdir.

Şirkətimiz xarici tərəfdaşlarla birlikdə həyata keçirilən irimiqyaslı layihələrdə Azərbaycan dövlətinin ona verdiyi səlahiyyətlər çərçivəsində uğurlu fəaliyyət göstərməklə yanaşı, ötən ildən başlayaraq, müstəqil olaraq "Ümid" perspektiv strukturunda geoloji kəşfiyyat işləri aparmış və yeni bir qaz-kondensat yatağı kəşf edilmişdir. Dənizin 58 metr dərinliyində quraşdırılmış stasionar dəniz özülündən 8 saylı birinci quyunun qazması 6006 metr dərinlikdə güclü qaz axını alınması ilə nəticələnmişdir. İlkin hesablamalara görə, strukturun ehtiyatları 200 mlrd.$m^3$ qaz və




**ARDNŞ üzrə neft hasilatı (mln ton)**




40 mln. ton kondensat həcmində qiymətləndirilir. "Ümid" Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra kəşf olunan birinci yataqdır və uzun sürən fasilədən sonra daxili imkanlar hesabına açılmışdır. Bu, ciddi bir uğurdur və Dövlət Neft Şirkətinin öz inkişafında yeni mərhələyə başladığını göstərir. Digər tərəfdən Xəzərin Azərbaycan sektorunda məhsuldarlıq perspektivlərini yüksəltmiş bu kəşf yeni lay və yataqların açılması ehtimalını da artırmışdır. Artıq "Babək" strukturunun ehtiyatları 400 mlrd. m$^3$ qaz və 80 mln. ton kondensat həcmində qiymətləndirilir. Hesab edirik ki, "Naxçıvan", "Zəfər", "Məşəl" strukturlarında bizi daha böyük perspektivlər gözləyir.

Ölkənin qaz ixrac potensialının artırılması ilə yanaşı, SOCAR respublikanın təchizatı sisteminin yenidən qurulması layihəsi üzərində də səylə çalışır. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq "Azəriqaz" İstehsalat Birliyi tərəfindən respublikanın hər yerində genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılır, indiyədək "mavi yanacaq"la təchiz olunmayan yaşayış massivləri qazlaşdırılır. Ölkə Prezidenti tərəfindən əhali və sənayenin təbii qaza olan tələbatının fasiləsiz ödənilməsi məqsədi ilə SOCAR-ın qarşısında qoyulmuş mövcud yeraltı qaz anbarlarının tutumunun artırılması vəzifəsinə də vaxtında əməl olunmuşdur. Qaradağ yeraltı qaz anbarında yeni kompressor stansiyası tikilib istismara verilmiş, Qalmazda mövcud kompressor stansiyasında modernizasiya və təmir işləri aparılmış, quyu fondu bərpa edilmiş,

**Azərbaycan Respublikasında qaz hasilatı (mlrd $m^3$)**




əlavə quyular qazılmış, anbarların aktiv qaz həcmləri tarixdə ilk dəfə olaraq 3,1 mlrd. $m^3$-ə çatdırılmışdır.

2010-cu il Şirkətin emal kompleksi üçün də uğurlu olmuşdur. Ölkəmizin neft məhsullarına olan tələbatı və bu məhsulların ixracına dair öhdəliklər artıqlaması ilə yerinə yetirilmiş, 6148,8 min ton xam neft emal edilərək proqnoza 102,5% əməl olunmuşdur. Neft emalı zavodlarında səmərəlilik əmsalı yüksəlmişdir. Təkrar emal qurğularının gücündən istifadə göstəricilərinin yaxşılaşdırılması nəticəsində açıq rəngli neft məhsullarının çıxım faizi 2,7% artmışdır. Neftin emal dərinliyinin artırılması üçün son illərdə görülən işlər müvəffəqiyyətlə davam etdirilmiş, həmin göstəricinin miqyası 92,6%-ə çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərikimya" Dövlət Neft Şirkətinin tabeliyinə verildikdən sonra həmin Birliyin müəssisələrində sabit iş rejiminin təmin olunması, istehsal həcminin artırılması və məhsulların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülmüşdür. İstehsalat Birliyinin müəssisələrində əsaslı təmir işləri aparılmış, mühüm istehsalat sahələrinin fəaliyyətində müsbət dönüş yaradılmışdır. EP-300 etilen-propilen istehsal sahəsində ilk dəfə olaraq məhsul çıxımının layihə normaları səviyyəsinə çatdırılması, məhsuldarlığın artırılması, itkilərin azaldılması xüsusi qeyd olunmalıdır. Qısa müddətdə uğurla yerinə yetirilmiş kompleks tədbirlər nəticəsində "Azərikimya" İB-nin müəssisələrində texnoloji proses tam şəkildə təmin edilmiş, "xammal–yarımfabrikat–hazır məhsul"




prinsipi üzrə maneəsiz istehsal fəaliyyətinə nail olunmuşdur. Hazırda istehsal olunan neft-kimya məhsullarının 90 %-i ixrac edilir.

Türkiyədəki aktivimiz olan "Petkim" neft-kimya konserninin fəaliyyətinin genişləndirilməsi məqsədi ilə "SOCAR-Turcas" alyansı yaxın perspektiv üçün konsernin xammala (əsasən, naftaya) tələbatını ödəmək və idxaldan asılılığını aradan qaldırmaq üçün onun nəzdində Egey neft emalı zavodunu inşa etməyə hazırlaşır. Zavodda istehsal olunacaq məhsulların Türkiyə bazarı ilə bərabər, Aralıq dənizi və Cənubi Avropa bazarlarına ixrac edilməsi planlaşdırılır. Bu, qardaş Türkiyənin ekoloji cəhətdən ən təmiz neft emalı müəssisəsi olacaqdır. Yaxın perspektivdə "Petkim"də neftayırma həcminin 10 mln. tona, neft-kimya istehsalının 6 mln. tona çatdırılması məqsədi ilə digər layihələr də həyata kecirilir ki, bunların nəticəsində yaxın illərdə Türkiyədə neft kimyası məhsullarına tələbatın 40 %-ini ödəmək imkanı qazanacağıq. "Petkim" iri logistika mərkəzinə, Türkiyənin ən böyük, Avropanın isə aparıcı istehsal komplekslərindən birinə çevriləcəkdir.

Şirkətimiz artıq bir neçə ildir ki, Gürcüstanın qaz distribusiyası və neft məhsullarının pərakəndə satış bazarında səmərəli fəaliyyət göstərir. Bu günə kimi qonşu ölkədə



65-dən çox yanacaqdoldurma məntəqəsi tikilib istismara verilmişdir. Sevindirici haldır ki, 2010-cu ildən Azərbaycanda da "SOCAR" brendi altında fəaliyyət göstərən yanacaqdoldurma məntəqələri əhaliyə xidmət göstərir. Sevindirici haldır ki, ötən ildən Azərbaycanda da "SOCAR" brendi altında fəaliyyət göstərən 6 yanacaqdoldurma məntəqəsi əhaliyə xidmət göstərir. Gələcəkdə bu məntəqələrin sayını 30-a çatdırmağı düşünürük. Azərbaycan və Gürcüstanda neft məhsullarının satışı sahəsində qazanılmış təcrübədən Ukraynada YDM şəbəkəsinin qurulmasında istifadə olunur. Bu məqsədlə Odessa vilayətində 20 məntəqə alınmışdır və hazırda rebrendinq işləri aparılır. Analoji işlərin Rumıniyada da görülməsini nəzərdə tuturuq.

İsveçrədə təsis etdiyimiz "SOCAR Trading" müəssisəsi 2010-ci ildə Cenevrə və Sinqapurdakı ofisləri, eləcə də Birləşmiş Ərəb Əmirlikləri, Nigeriya və Vyetnamdakı nümayəndəlikləri vasitəsilə beynəlxalq neft və neft məhsulları bazarında, xüsusilə Şərqi və Cənub-Qərbi Avropa, Şimali və Qərbi Afrika, Cənub-Şərqi Asiya və Aralıq dənizi hövzəsində fəaliyyətini uğurla davam etdirmişdir. 30-dan artıq xarici sifarişçisi olan müəssisə Birləşmiş Ərəb Əmirliklərinin Fucayra limanında neft məhsulları terminalının inşası üçün "SOCAR-Aurora" birgə müəssisəsinin yaradılmasına dair razılaşma əldə etmişdir.



Qarşısına rəqabətədavamlı bir qurum olaraq dünya bazarlarında özünə layiqli yer tutmaq vəzifəsi qoymuş Şirkətimiz fəaliyyət sahələrinin genişlənməsinə və diversifikasiya olunmasına xüsusi önəm verir. 2010-cu ildə təməli qoyulmuş müasir Gəmiqayırma zavodunun tikintisinə başlanılmış, yeni Neft-Qaz Emalı və Neft Kimya Kompleksinin inşası üçün hazırlıq işləri sürətləndirilmişdir. Son illərdə SOCAR-ın beynəlxalq auditi həyata keçirilir. Dünyanın nüfuzlu audit şirkətlərindən olan "Fitch Ratings" və "Moody's" agentlikləri tərəfindən Şirkətimizə beynəlxalq reytinqlərin verilməsi Şirkətin mühüm uğurlardandır.

SOCAR istehsalat nailiyyətləri ilə yanaşı, sosial və ekoloji layihələrin həyata keçirilməsini də daim diqqət mərkəzində saxlayır, habelə dövlət büdcəsi qarşısında öhdəliklərini vaxtında yerinə yetirməklə ölkənin ümumi yüksəlişinə dəyərli töhfələr verir. Ən əsası isə SOCAR ilbəil böyüyür, genişlənir, öz mövqeyini durmadan möhkəmləndirir, nüfuzunu artırır ki, bu da neftçilərimizin fədakar əməyinin nəticəsidir.

Rövnəq Abdullayev,
ARDNŞ-nin prezidenti




# II. AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN TƏŞKİLATI STRUKTURU

**Prezident**

- ARDNŞ-nin şurası
- ARDNŞ-nin baş ofisi

- "Azneft" İB
- "Azərkimya" İB
- Geologiya və Geofizika İdarəsi
- Sərmayələr İdarəsi
- Neft kəmərləri İdarəsi
- H.Əliyev ad. BNEZ
- "Azərneftyağ" NEZ
- Heydər Əliyev ad. Bakı dərin özüllər zavodu
- Marketinq və iqtisadi əməliyyatlar idarəsi
- Təhlükəsizlik İdarəsi
- Əmək şəraiti normalarının işlənməsi idarəsi
- Gürcüstan Nümayəndəliyi
- Türkiyə Respublikasındakı Nümayəndəlik
- Rumıniya Nümayəndəliyi
- Avstriya Respublikasındakı Nümayəndəlik
- İsveçrədəki Nümayəndəlik
- "Qobustan"MMC
- "Əlibayramlı" MMC
- "Salyanneft" MMC

- "Azəriqaz" İB
- Ekologiya İdarəsi
- İnformasiya texnologiyaları və rabitə İdarəsi
- Qaz ixrac İdarəsi
- Xəzər Dəniz Neft Donanması
- "Neftqaztikinti" Tresti
- Qaz emalı zavodu
- "Kompleks qazma işləri" Tresti
- "Neftqazelmitədqiqatlayihə" İnstitutu
- Sosial inkişaf İdarəsi
- "Azərbaycan neft təsərrüfatı" jurnalı
- Qazaxıstan Respublikasındakı Nümayəndəlik
- Böyük Britaniya Krallığındakı Nümayəndəlik
- İran İslam Respublikasındakı Nümayəndəlik
- Almaniyadakı Nümayəndəlik
- Ukraynadakı Nümayəndəlik
- "Azərbaycan (Cənubi Qafqaz Boru Xətti)" Limited MMC
- "Azərbaycan (Şah Dəniz)" limited
- "Azərbaycan EySc) limited
- "Azərbaycan (BTC)" limited MMC



# III. ARDNŞ VƏ XARICI ŞIRKƏTLƏRIN TƏSİSÇİLİYİ İLƏ YARADILMIŞ BİRGƏ MÜƏSSİSƏLƏR, ƏMƏLİYYAT ŞİRKƏTLƏRİ VƏ ALYANSLAR HAQQINDA

2010- cu il ərzində ARDNŞ-in və xarici şirkətlərin təsisçiliyi ilə aşağıdakı birgə layihələr üzrə işlər həyata keçirilmişdir:

**I. Neft və qaz hasilatı üzrə:**
**Birgə müəssisələr:**
1. "Azgerneft" MM

**Əməliyyat Şirkətləri:**
1. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti
2. BP (Şahdəniz ) ƏŞ
3. "Salyanoyl" ƏŞ
4. "Qarasu" ƏŞ
5. "Qobustan" ƏŞ
6. "Binəqədioyl" ƏŞ
7. "Suraxanı" ƏŞ
8. "Petro-HongKong-Pirsaat Oil Limited" ƏŞ
9. "Qaraçuxur" ƏŞ
10. "Kura Valley" ƏŞ
11. "Abşeron" ƏŞ
12. "Şirvan" ƏŞ
13. "Neftçala" ƏŞ
14. "Bahar" ƏŞ

**II. Sığorta işləri üzrə:**
**Birgə müəssisələr:**
1. "Atəşgah" Sığorta Şirkəti

**III. Qazıma işləri üzrə:**
**Birgə müəssisələr:**
1. "Azəri Drillinq" MMC
2. Caspian Drillinq company
3. "SOCAR-AQŞ" MMC
4. "SOCAR-Ümid" MMC
5. "SOCAR-UGE" MMC

**IV. Mühəndis-texnoloji tədqiqatlar üzrə:**
**Birgə müəssisələr:**
1. Azəri-Fuqro BM

**V. Barit istehsalı, qazma məhlulları istehsalı üzrə:**
**Birgə müəssisələr:**
1. Azəri M.İ. Drilling Company

**VII. Tikinti sahəsində işlər üzrə:**
**Birgə müəssisələr:**
1. "Azfen" BM
2. "Azneftqaztikinti MMC
3. "Bosşelf" MMC
4. "Caspian Offshore Fabrikatorz"
5. "Caspian Shipyard Company"
6. "Socar Cape"
7. "Sarmatia" MMC

**Alyans:**
1. Socar Mcdermott

**VIII. Analiz və tədqiqat işləri üzrə:**
**Birgə müəssisələr:**
1. "Azlab" QSC





**IX. Sıxılmış qazın marketinqi:**
**Birgə müəssisələr:**
1. Azturqaz BM

**X. Ekoloji işlər üzrə:**
**Birgə müəssisələr:**
1. Ekol Mühəndislik Xidmətləri QSC
2. Socar Baglan

**XI. Partlayıcı maddələrin istehsalı:**
1. Enerji Soluşns Qrup QSC

**XII. Media:**
1. İnterfaks-Azərbaycan MMC

**XIII. Geofiziki işlər üzrə:**
**Birgə müəssisələr:**
1. "Caspian Geophisical Company"

**XIV. Neft-qaz avadanlıqlarına xidmət üzrə:**
**Birgə müəssisələr:**
1. Oyl ənd qaz ProServ MMC
2. "SOCAR-KPŞ" MMC

**XV. Nəqliyyat işləri üzrə:**
**Birgə müəssisələr:**
1. Qros Kaspian ənd Qaz Locistiks MMC

**XVI. Neft məhsullarının satışı:**
1. SOCAR Enerji Georgiya MMC (Gürcüstan Respublikası)

**XVII. Neft terminalının idarə edilməsi:**
1. Carlina Oversiz Korporeyşn

**XVIII. Boru nəqliyyatı üzrə:**
**Əməliyyat Şirkətləri:**
1. BTC Co.
2. Cənubi Qafqaz Boru Xətti

**XIX. Gəmi menecmenti üzrə:**
**Alyanslar:**
1. ARDNŞ XDND - BYUİ
2. ARDNŞ-CMS

**XX. Maddi-texniki təchizat üzrə:**
**Birgə müəssisələr:**
1. Caspian Pipe Coatinqs MMC

**Alyans:**
1. ARDNŞ-ASCO
2. SOCAR-HC

**XXI. Mühəndis-Layihə işləri üzrə:**
**Birgə müəssisələr:**
1. "Azərbaycan coun Braun"

**XXII. Neft və Neft məhsullarının satışı üzrə:**
**Birgə müəssisələr:**
1. "Supra Holding"

**XXIII. Türkiyə Cümhuriyyətində yeni layihələrin həyata keçirilməsi**
**Birgə müəssisələr:**
1. "SOCAR-Turkaz Anonim Şirkəti"

**XXIV. Neftin, qazın emalı və marketinqi**
**Birgə müəssisələr:**
1. "SOCAR-Petroleum MMC"

**XXV. Dalğıc işləri**
**Alyans:**
1. SOCAR-Saipem

# IV. GEOFİZİKİ VƏ GEOLOJİ İŞLƏR

**I. Geofiziki və mühəndisi - geoloji işlər**

2010-cu il ərzində geofiziki və mühəndisi - geoloji işlər ARDNŞ-nin Geofizika və geologiya İdarəsi tərəfindən dənizdə və quru sahələrində yerinə yetirilmişdir.

Kəşfiyyat geofizika işləri üzrə 2010-cu ildə Geofizika və geologiya İdarəsi («Kəşfiyyatgeofizika» İdarəsi və «Geofizika» ETİ) tərəfindən – cəmi 83 $km^2$ həcmində 3D seysmik; 645,15 xətti km həcmində 2D seysmik, o cümlədən ümumi dərinlik nöqtəsi üsulu (ÜDNÜ) ilə 540,15 xətti km və sınan dalğalar üsulu (SDÜ) ilə 105 xətti km; kəsilişin üst hissəsinin öyrənilməsi üçün kiçik sürətlər zonası-sınan dalğalar üsulu ilə (KSZ-SDÜ) 282,5 km həcmində seysmik; 150 xətti km həcmində qravimetrik və 5 quyuda 9190 metr həcmində şaquli seysmik profilləmə (ŞSP) işləri aparılmışdır.

Hesabat dövründə 25,64 $km^2$ həcmində 3D, 1088,85 xətti km həcmində 2D seysmik materialları və 9190 metr həcmində ŞSP materialları emal olunmuşdur.

Eyni zamanda Qalmaz qaz anbarı sahəsində yerinə yetirilmiş 3D və ŞSP materialları kompleks interpretasiya olunaraq hesabat tərtib edilmiş və müdafiə olunmuşdur.

3D seysmik çöl işləri: Dənizdə Bahar-2 sahəsində 76,4 $km^2$ (sifarişçi «Azneft» İB) və quruda Xıllı sahəsində 6,6 $km^2$ (sifarişçi "Neftçala Operatinq Kompani LTD" şirkəti) həcmində aparılmışdır.



2D seysmik çöl işləri: Quruda Cahandar-Tərsdəllər-Borsunlu regional profili üzrə ÜDNÜ ilə 375,45 xətti km, KSZ-SDÜ ilə 141 km, Şimali Naftalan-Naftalan-Gödəkboz sahəsində ÜDNÜ ilə 137,6 xətti km, SDÜ ilə 105 xətti km, KSZ-SDÜ ilə 141,5 km, (sifarişçi «Azneft» İB) və Hacıvəli sahəsində ÜDNÜ ilə 27,1 xətti km (sifarişçi "Qobustan Operatinq Kompani LTD" şirkəti) həcmində aparılmışdır.

Qravimetrik işlər: Quruda Şimali Naftalan-Naftalan-Gödəkboz sahəsində 150 xətti km (sifarişçi «Azneft» İB) həcmində aparılmışdır.

Şaquli seysmik profilləmə işləri: Quruda Qalmaz

qaz anbarı sahəsində 6350 metr (622, 259, 282, 10 nömrəli quyularda) və Qaradağ qaz anbarı sahəsində 2840 metr (433 nömrəli quyuda) həcmində aparılmışdır (sifarişçi «Azneft» İB).

Emal işləri: Quruda Qalmaz qaz anbarı sahəsi üzrə 25,64 $km^2$ həcmində 3D seysmik (sifarişçi «Azneft» İB), 1088,85 xətti km həcmində 2D seysmik materialları, o cümlədən Cahandar-Tərsdəllər sahəsi üzrə 495,25 xətti km, Şimali Naftalan-Naftalan-Gödəkboz sahəsi üzrə 171,3 xətti km (sifarişçi «Azneft» İB) və dənizdə Şah-dəniz sahəsi üzrə 422,3 xətti km (sifarişçi «bp» şirkəti) emal olunmuşdur.

Qalmaz qaz anbarı sahəsi üzrə 6350 m, Qaradağ qaz anbarı sahəsi üzrə 2840 m həcmində ŞSP materialları emal olunmuşdur.

2010-cu ildə kəşfiyyat geofizikası sahəsində aşağıdakı əsas geoloji nəticələr alınmışdır:

- Qalmaz qaz anbarı sahəsində yerinə yetirilmiş 3D və ŞSP işləri nəticəsində Ağcagil, Abşeron, Məhsuldar Qatın (MQ) I, II, III, IV, V və Pont çöküntülərinə uyğun horizontlar üzrə struktur xəritələr qurulmuş, sahənin sürət xarakteristikası, tektonikası dəqiqləşdirilmiş və materialların kompleks təhlili əsasında sahənin üçölçülü modeli qurulmuşdur;




- Cahandar və Tərsdəllər sahələrinin tektonik quruluşları dəqiqləşdirilmiş, Üst Təbaşir, Orta Eosen, Maykop çöküntülərinin aşağıları və Ağcagil çöküntülərinin dabanına uyğun gələn seysmik horizontlar üzrə struktur xəritələr qurulmuş, Cahandar-Tərsdəllər-Borsunlu regional profili üzrə qeyd olunan seysmik horizontlar quyu məlumatları ilə uzlaşdırılaraq korrelyasiya edilmişdir;

- Mərkəzi Xəzər hövzəsi üzrə ümumi və Cənub Xəzər hövzəsinin ayrı-ayrı strukturları Şah-dəniz, Şəfəq-Asiman, Zəfər-Məşəl üzrə və quruda Gəncə NQR-nun Qazanbulaq-Ziyadxan sahələri üzrə seysmik materiallar kompleks interpretasiya olunmuşdur.

**Mədən geofizika işləri** üzrə 2010-cu il ərzində Geofizika və geologiya İdarəsi («Mədəngeofizika» İdarəsi və «Geofizika» ETİ) tərəfindən, «Azneft» İstehsalat Birliyinin və Kompleks Qazma İşləri Trestinin təşkilatlarının, Əməliyyat Şirkətlərinin və kənar təşkilatların sifarişlərinə əsasən Azərbaycanın quru ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda qazmada və istismarda olan neft-qaz və həmçinin




su quyularında cəmi 3863 (1030 quyuda), o cümlədən 3819 neft-qaz (1368 açıq lülədə, 2451 kəmər buraxılmış) və 44 su (açıq lülədə) quyularında quyu geofiziki tədqiqat və perforasiya işləri yerinə yetirilmişdir.

Quyu geofiziki tədqiqat və perforasiya (partlayış-atma) işləri 49 sahədə, o cümlədən neft-qaza 48 sahədə və suya 1 sahədə (Oğuz) aparılmışdır. Neft-qaza dənizdə 15 sahədə (Abşeron küpəsi, Bahar, Bulla-dəniz, Çilov adası, Darvin küpəsi, Duvanı-dəniz, Ələt-dəniz, Günəşli, Gürgan-dəniz, Neft Daşları, Qum-dəniz, Palçıq Pilpiləsi, Pirallahı, Ümid və 8 Mart) və quruda isə 33 sahədə (Atəşgah, Balaxanı, Bəyimdağ-Təkçay, Bibiheybət, Binəqədi, Böyükdüz, Buzovna, Candahar, Cəfərli, Daşgil, Dəliməmmədli, Xıllı, Kürovdağ, Qala, Qalmaz, Qaradağ, Qaraçuxur, Qobustan, Quşxana, Lökbatan, Muradxanlı, Nardaran, Neftçala, Puta, Ramanı, Səadan, Suraxanı, Şıxıqaya, Şurabad, Süleyman-Axtarma, Zağlı, Zarat və Zeyvə) qazmada və istismarda olan quyularda yerinə yetirilmişdir.

2010-cu ildə 2774 sifariş əsasında (588 quyuda) aparılmış quyu geofiziki tədqiqat işləri nəticəsində 6404 dioqram ölçülmüş, 3802 lay dəyərləndirilmiş, o cümlədən, 1184 lay sənaye əhəmiyyətli neftli-qazlı kimi, 13 lay qeyri-müəyyən, 2605 lay sulu kimi qiymətləndirilmişdir.

2010-cu ildə qazma ilə qurtarmış 128 quyuda, o cümlədən tikinti ilə qurtarmış 73 quyuda kompleks geofiziki tədqiqat işləri, yataqların işlənməsinə geofiziki üsullarla nəzarət məqsədilə 298 quyuda 468 sifariş yerinə yetirilmiş, qaz karotajı və qazmaya geoloji-geokimyəvi-texnoloji nəzarət 15 quyuda (Bəyimdağ-Təkçay-31, Bulla-dəniz-89, Ələt-dəniz-64, Günəşli- 56, 57, 59, 79, 80, 311, 312, 313, Şıxıqaya-1, Pirallahı-1200, Ümid-8 və 8 Mart-731 nömrəli quyularda) və lay sınağı işləri 2 quyuda (Candahar-Zarat-1Mz və Dəliməmmədli-23 nömrəli quyularda) aparılmışdır.

Hesabat ilində 1089 sifariş əsasında (708 quyuda) perforasiya (partlayış-atma) işləri yerinə yetirilmiş, laylarda 109651 dəlik açılmışdır.

2010-cu ildə mədən-geofiziki işlər üzrə aşağıdakı əsas nəticələr alınmışdır:

2010-cu ildə yerinə yetirilmiş quyu geofiziki tədqiqat işləri nəticəsində rəy verilmiş 131 layda perforasiya işləri yerinə yetirilmişdir. O cümlədən neftli-qazlı kimi qiymətləndirilmiş 121 lay perforasiya olunmuş və nəticədə neft, sulu kimi qiymətləndirilmiş 8 lay perforasiya olunmuş və nəticədə su alınmış, qeyri-müəyyən kimi qiymətləndirilmiş 2 lay perforasiya olunmuş və nəticədə 1 laydan neft alınmış, digər laydan axın alınmamışdır.

**Mühəndis-geoloji işləri üzrə** 2010-cu il ərzində Geofizika və geologiya İdarəsi («Kompleks geoloji kəşfiyyat və topoqrafiya» İdarəsi) tərəfindən – cəmi 400 metr istismar qazması, 1785 metr struktur-axtarış qazması («Azneft» İB-nin sifarişi ilə), 7352 metr (4432 metr «Azneft» İB-nin sifarişi və 2920 metr digər sifarişlər əsasında) mühəndisi-geoloji qazma, 1755,5 km («Azneft» İB-nin sifarişi ilə) fasiləsiz seysmoakustik profilləmə




(FSAP), 4149,3 km (2802,3 km «Azneft» İB-nin sifarişi və 1347 km «Neftqazelmitədqiqatlayihə» İnstitutunun sifarişi əsasında) sonar planalma və 3899,2 km (2799,2 km «Azneft» İB-nin sifarişi və 1100 km «Neftqazelmitədqiqatlayihə» İnstitutunun sifarişi əsasında) hidroqrafiya (batimetriya) işləri aparılmışdır.

İstismar qazma işləri quruda Bibiheybət yatağında 400 metr (3742 nömrəli quyuda-120 metr, 3743 nömrəli quyuda-280 metr) yerinə yetirilmişdir.

Struktur-axtarış qazma işləri quruda Süleyman-Axtarma sahəsində 773 metr (104 nömrəli quyuda-250 metr, 1 nömrəli quyuda-523 metr) və Şıxıqaya sahəsində 1012 metr (1 nömrəli quyuda-212 metr, 1A nömrəli quyuda-800 metr) yerinə yetirilmişdir.

Mühəndisi - geoloji qazma işləri dənizdə Ağburun-Qərbi Abşeron-Qoşadaş- 1000 metr, Babək- 300m, Bulla-dəniz- 1000 metr, Günəşli- 330 metr, Xərə-Zirə-1000 metr, Neft Daşları- 802 metr (sifarişçi «Azneft» İB), Xəzər dənizinin Rusiya sektorunda- 2070,5 metr (sifarişçi Latviya Respublikasının «Morinjgeologiya» SC) və quruda Olimpiya stadionu- 599,5 metr, Zirə- 250 metr (sifarişçi ARDNŞ-nin Sosial İnkişaf İdarəsi) həcmində yerinə yetirilmişdir.

Fasiləsiz seysmoakustik profilləmə dənizdə Ağburun-Qərbi Abşeron-Qoşadaş- 1473,5 km, Babək- 281 km və Neft Daşları- 1 km (sifarişçi «Azneft» İB) həcmində yerinə yetirilmişdir.

Sonar planalma dənizdə Ağburun-Qərbi Abşeron-Qoşadaş- 1619 km, Babək- 628 km, Darvin küpəsi-51 km, Günəşli- 20 km, Xərə-Zirə- 407 km, Neft Daşları- 43,8 km, Palçıq pilpiləsi- 28 km, Şimal qırışığı-5,5 km (sifarişçi «Azneft» İB) və Dəniz kənarı bulvar- 4 km, Ümid-Qaradağ arası- 1343 km (sifarişçi «Neftqazelmitədqiqatlayihə» İnstitutu) həcmində yerinə yetirilmişdir.

Hidroqrafiya (batimetriya) dənizdə Ağburun-Qərbi Abşeron-Qoşadaş- 1480 km, Babək- 662,5 km, Darvin küpəsi- 40 km, Günəşli- 42 km, Xərə-Zirə- 487 km, Neft Daşları- 22,7 km, Palçıq pilpiləsi- 15 km, Pirallahı adası- 32 km, Şimal qırışığı-18 km (sifarişçi «Azneft» İB) və Dəniz kənarı bulvar- 22 km, Ümid-Qaradağ arası- 1078 km (sifarişçi «Neftqazelmitədqiqatlayihə» İnstitutu) həcmində yerinə yetirilmişdir.

2010-cu ildə aparılmış mühəndis-geoloji işlər üzrə aşağıdakı əsas nəticələr alınmışdır:

- İstismar qazma işləri başa çatdırılan Bibiheybət yatağındakı 3742, 3743 nömrəli quyulardan gündəlik 2-3 ton neft hasilatı alınmış və "Bibiheybət" NQÇİ-nin balansına təhvil verilmişdir;

- Struktur-axtarış qazma işləri başa çatdırılan Süleyman-Axtarma sahəsindəki 104 nömrəli quyuda üç intervalda perforasiya işləri aparılmış və hər intervaldan orta gündəlik hasilat 0,2-0,3 ton neft və 1 nömrəli quyuda üç intervalda perforasiya işləri aparılmış və hər intervaldan orta gündəlik 8-15 min $m^3$ qaz hasilatı alınmış və Ə.Əmirov adına NQÇİ-nin quyuların mənimsəmə fonduna təhvil verilmişdir;

- Babək sahəsində aparılmış mühəndis-geoloji işlər nəticəsində sahənin dəniz dibi relyefi və dənizin dərinliyi öyrənilmişdir;

- Qoşadaş-Ağburun-Qərbi Abşeron sahələrində aparılmış işlərin nəticəsində sahələrin tektonik qırılma pozulmaları, qaz çıxışları, qazla doyumlu sahələr, layların yatım formaları, strukturların tağ və tağ ətrafı zonaları dəqiqləşdirilərək xəritəyə alınmışdır. Sahələrin dəniz dibi relyefi və dənizin dərinliyi öyrənilmişdir.

**Elmi-tədqiqat və tematik işlər** Geofizika və geologiya İdarəsi («Geofizika» ETİ və «Kompleks geoloji kəşfiyyat və topoqrafiya» İdarəsi) tərəfindən 2010-cu il ərzində 21 mövzü üzrə, o cümlədən 16 elmi-tədqiqat və 5 tematik işlər aparılmışdır.

Elmi-tədqiqat işlərindən (icraçı «Geofizika» ETİ) 9-u «Azneft» İB-nin sifarişi və 7-si Geofizika və geologiya İdarəsinin tapşırığı əsasında aparılmışdır. Hesabat ilində 10 mövzü üzrə elmi-tədqiqat işləri tamamlanaraq müdafiə olunmuş sifarişçi təşkilatlara müvafiq qaydada təhvil verilmiş və 6 mövzu üzrə işlər davam etdirilir.

«Azneft» İB-nin sifarişi əsasında 5 mövzü üzrə tematik işlər aparılmış və işlər tamamlanmışdır (icraçı «Kompleks geoloji kəşfiyyat və topoqrafiya» İdarəsi).

## II. Axtarış-kəşfiyyat qazma işləri

2010-cu ildə axtarış-kəşfiyyat qazma işləri Azərbaycan Respublikasının quru və dəniz sahələrində (neft- qaz yataqlarında və perspektivli strukturlarda) ARDNŞ-nin öz gücü ilə və xarici şirkətlərlə birlikdə aparılmışdır.

Ümumılıkdə axtarış-kəşfiyyat qazma işlərini beş sahədə - quruda Bəyimdağ-Təkçay sahəsində, dənizdə isə Pirallahı adası yatağında, Bulladəniz yatağında, Ümid strukturunda və Şahdəniz yatağında 12025m həcmində həyata keçirilmişdir.

Cari ildə ARDNŞ öz gücü ilə dənizdə Ümid (8№-li quyu), Bulladəniz (89 №-li quyu), Pirallahı (1200 №-li quyu) və quruda Bəyimdağ-Təkçay (31 №-li quyu) sahələrində 6681 m və BP şirkəti tərəfindən Şah-dəniz yatağında 5344 m həcmində axtarış-kəşfiyyat qazma işləri aparılmışdır.

İl ərzində 1 quyu - Ümid strukturunda 8№-li quyu qazma ilə qurtarmış, 1 quyu - Şah-dəniz yatağında SDX-6№-li quyu qazma ilə başlamışdır.

Bəyimdağ-Təkçay strukturu 31№-li axtarış quyusu (layihə dərinliyi 1850 m, layihə





horizontu Valanjin ). Quyu 2010-cu ilə 1220 m dərinliklə keçmişdir. İl ərzində 415 m həcmində qazma işləri görülmüşdür. Quyu 2011-ci ilə 1635 m dərinliklə keçib, hazırda qazma qurgusunun dəyişdirilməsi ilə əlaqədar olaraq quyu konservasiyadadır.

Pirallahı adası yatağı 1200 №-li axtarış quyusu (layihə dərinliyi 2050 m, layihə horizontu MQ-nin QaLD). Quyunun 01.01.2010-cu il tarixinə dərinliyi 1677 m olmuşdur. İl ərzində 181 m həcmində qazma işləri görülmüşdür. Quyu 1858m dərinliyə qazılıb. Quyu 962 m dərinlikdə məhsuldar qatdan aşağıda yatan çöküntülərə daxil olub və 1050-1445m intervalında Miosen çöküntülərini, 1445-1858m intervalında Maykop çöküntülərini açmışdır. Hazırda quyu geoloji səbəbdən ləğv gözləyir.

Bulla-dəniz yatağı 89№-li axtarış quyusu (layihə dərinliyi 6400 m, layihə horizontu MQ-nin VIII horizontu). Quyu 2010-cu ilə 2800 m dərinliklə qazma ilə keçmişdir. İl ərzində 2719 m həcmində qazma işləri görülmüşdür. Quyu 2011-ci ilə 5519 m dərinliklə qazma ilə keçib.

Ümid strukturunda 8 №-li axtarış quyusu. Quyu 1№-li stasionar özüldən (dənizin dərinliyi 58 m) layihə dərinliyi 6500 m, layihə horizontu MQ-nin VII horizontu olmaqla qazılıb. Quyu 2010-cu ilə 2640 m dərinliklə qazma ilə keçmişdir. İl ərzində 3366 m həcmində qazma işləri görülmüşdür. Quyu 5923 m-də MQ-nin VII horizontuna daxil olmuşdur. Quyuda aparılmış geofiziki tədqiqatlar nəticəsində məhsuldar qatın VII (5923-6006 m) və V horizontunun (5475-5582m) qazla doymuş olduğu müəyyən edilmişdir. Məhsuldar qatın VII horizontundan güclü qaz axını alınmışdır. Quyu 2011-ci ilə tikinti ilə keçib.

Şah-dəniz yatağında SDX-6№-li axtarış quyusu. SDX-6№-li axtarış quyusu 28.07.2010-cu il tarixində "İstiqlal" YDQQ ilə (dənizin dərinliyi 71 m) layihə dərinliyi 6285 m, layihə horizontu MQ-nin Fasilə LD olmaqla qazılmağa başlanmışdır və il ərzində 5344 m həcmində qazma işləri həyata keçirilmişdir. Quyuda geofiziki tədqiqat işləri aparılmışdır. Quyu 2011-cu ilə 5344 m dərinliklə qazma ilə keçib.

Aparılmış axtarış-kəşfiyyat qazması nəticəsində qeyd olunan sahələrin geoloji quruluşu və neft-qazlılıq perspektivliyi öyrənilmişdir.

2010-cu ildə geoloji kəşfiyyat sahəsində əldə edilmiş ən əsas nailiyyət, Xəzərin Azərbaycan sektorunda nəhəng qazkondensat yatağı olan Ümid yatağının kəşf edilməsidir. İlkin hesablamalara görə Ümid strukturunun karbohidrogen ehtiyatları 200 mlrd.$m^3$ qaz və 40 mln. ton kondensat həcmində qiymətləndirilir. "Ümid" yatağının kəşfi xüsusən bir də ona görə əlamətdardır ki, yataq bu rayonun neft-qazlılıq perspektivliyini yüksəltmiş, yeni neft-qaz yataq və laylarının açılması ehtimalını artırmış oldu.




# V. NEFT VƏ QAZ YATAQLARININ İŞLƏNMƏSİ

Hal-hazırda ARDNŞ üzrə 58 neft-qaz yatağından karbohidrogen hasil edilir ki, onlardan da 41 Azərbaycanın quru və 17-si isə dəniz ərazisindədir.

İşlənmənin əvvəlindən 01.01.2011-ci il tarixədək Azərbaycan Respublikası üzrə istismarda olmuş yataqlardan 1707,6 mln.ton neft+kondensat və 596,6 mlrd.$m^3$ qaz çıxarılmışdır.

2010-cu ildə Respublika üzrə 50795 min ton neft+kond. və 26350 mln.$m^3$ qaz çıxarılmışdır ki, bundan da Neft Şirkəti üzrə 7279 min ton neft+kond., 7021 mln.$m^3$ qaz, ABƏŞ-in istismar etdiyi Azəri-Çiraq-Günəşli (AÇQ) yatağı üzrə 40487 min ton neft və 12278 mln.$m^3$ qaz (o cümlədən AÇQ-dən qəbul ARDNŞ üçün 3439 mln.$m^3$), Şah-dəniz yatağı üzrə 1848 min ton kond. və 6893 mln.$m^3$ qaz (o cümlədən Şah dəniz yatağından qəbul ARDNŞ üçün 1792 mln.$m^3$), quruda fəaliyyət göstərən MM-lər və Hasilatın Pay Bölgüsü Sazişləri (HPBS) üzrə fəaliyyət göstərən Əməliyyat Şirkətlərində (ƏŞ) 1181 min ton neft+kond. və 158 mln.$m^3$ qaz hasil edilmişdir.

**ARDNŞ-nin 2009-2010-cu illərdə hasilat göstəricilərinin müqayisəli cədvəli**

**Cədvəl V.1**

| | 2009-ci il, min.t | 2010-cu il, min.t | Dəyişmə tempi % | "+, -" |
|---|---|---|---|---|
| | | **neft+kond. min ton** | | |
| Respublika üzrə | 50419,25 | 50795,4 | 100,7 | 376,15 |
| ARDNŞ | 8543,26 | 8459,6 | 99,0 | -83,66 |
| NQÇİ-lər üzrə | 7301,41 | 7278,9 | 99,7 | -22,51 |
| MM-lər üzrə | 1241,85 | 1180,7 | 95,1 | -61,15 |
| AÇG | 40224,25 | 40487,4 | 100,7 | 263,15 |
| Şahdəniz | 1651,74 | 1848,4 | 111,9 | 196,66 |
| | | | | |
| | | **qaz mln.$m^3$** | | |
| **Respublika üzrə** | 23681,13 | 26349,6 | 111,3 | 2668,47 |
| ARDNŞ | 6903,04 | 7178,9 | 104,0 | 275,86 |
| NQÇİ-lər üzrə | 6801,62 | 7021,1 | 103,2 | 219,48 |
| MM-lər üzrə | 101,42 | 157,8 | 155,6 | 56,38 |
| AÇG | 10522,58/3901,75 | 12277,5/3437,8 | 116,7 | 1754,92 |
| Şahdəniz | 6255,51/830,42 | 6893,2/1792,3 | 110,2 | 637,69 |





**Respublika üzrə 2009-2010-cu illərdə
neft və qaz hasilatı**




**Qrafik V - 1**

ABƏŞ tərəfindən Azəri-Çıraq-Günəşli yatağında işlənmənin əvvəlindən etibarən (1997-ci ildən) cəmi 221,9 mln.ton neft, 54,3 mlrd.$m^3$ qaz hasil edilmişdir. Lay təzyiqlərinin saxlanılması məqsədilə 2000-ci ilin may ayından etibarən yatağa su 2006-cı ilin may ayından isə qaz vurulmasına başlanılmışdır. 01.01.11- tarixinədək cəmi 134,7 mln $m^3$ su və 23,0 mlrd. $m^3$ qaz vurulmuşdur.

2010-cu ildə "Azneft" İB üzrə qazma plan göstəriciləri (144379 metr) 8055 metr kəsirdə qalmışdır, ötən illə müqaysədə 31858 metr az qazıma işi aparılmışdır.

İB üzrə 2010-cu il ərzində qazmadan istismara 88 quyu daxil edilmişdir ki, bunlardan 85-i istismar, 3- isə qazvurma ("Qalmaz" qaz anbarı) quyusudur. 85 istismar quyusundan 143,9 min ton neft, o cümlədən quru yataqları üzrə 24 yeni quyudan 14,2 min ton, dəniz yataqları üzrə 61 yeni quyudan 129,7 min ton neft hasil edilmişdir.

ARDNŞ üzrə qazmadan istismara 110 yeni quyu (o cümlədən MM və ƏŞ üzrə 22) verilmişdir.

Son illər aparılmış istismar qazması nəticələrinin təhlili yeni quyuların qazılaraq istismara verilməsinin yataqlar üzrə hasilatın sabitləşməsi və artırılması üçün əsas şərtlərdən biri olduğunu təsdiq edir. İstismar qazması hesabına işlənmədə olan obyektlərdə quyu şəbəkəsi qismən bərpa edilir, texniki səbəbdən sıradan çıxmış köhnə quyular yeniləri ilə əvəz olunur və yatağın lazımi texnoloji rejimdə istismarı üçün şərait yaranır.

ARDNŞ üzrə 01.01.2011-ci il tarixə işlək quyu fondundan çıxarılan və bu fonda daxil edilən quyular balansı ötən il illə müqayisədə aşağıdakı kimi olmuşdur:




2009-cu ildə fonda 385 quyu daxil edilib, 825 quyu isə çıxarılmışdır (–440 quyu), 2010-cu ildə işlək fonda 356 quyu daxil edilib, 387 quyu isə çıxarılmışdır (– 31 quyu).

"Azneft" İB-nin NQÇİlə-ri üzrə yataqların lay təzyiqlərinin düşməsinin qarşısının alınması üçün laylara nəzərdə tutulmuş 8013,8 min $m^3$ əvəzinə 4632,1 min $m^3$ su vurulmuş və 194,4 min ton plana qarşı 180,7 min ton əlavə neft hasil edilmişdir. Dəniz yataqlarında laylara süni təsir məqsədilə 1848,9 min $m^3$ su vurulmuş, nəticədə 114,2 min ton əlavə neft hasil edilmişdir. Həmçinin quru yataqlarında laylara süni təsir məqsədilə 2783,2 min $m^3$ su vurulmuş, nəticədə 66,5 min ton əlavə neft hasil edilmişdir. 2010-cu il ərzində "Azneft" İB və MM-lər üzrə su vurulan obyektlərdən 369,3 min ton, o cümlədən, dəniz üzrə – 114,2 min ton, quru üzrə - 255,1 min. ton əlavə neft hasil edilmişdir.

Layların neft veriminin artırılmasının digər üsulları vasitəsilə (III təsir üsulları) «Azneft» İB-i üzrə 26 min ton plana qarşı 10,8 min ton, o cümlədən dənizdə 10,6 min ton, quruda 0,2 min ton əlavə neft hasil edilmişdir.

«Azneft» İB 791 geoloji tədbir planına qarşı 914 tədbir həyata keçirmiş və bu tədbirlər hesabına 325,8 min ton plana qarşı 393,5 min ton əlavə neft hasil edilmişdir. Dəniz yataqları üzrə 177 geoloji tədbir planına qarşı 225 tədbir həyata keçirilmiş və bu tədbirlər hesabına 263 min ton plana qarşı 326,3 min ton əlavə neft hasil edilmişdir. Həmçinin quru yataqları üzrə 614 geoloji tədbir planına qarşı 689 tədbir həyata keçirmiş və bunun nəticəsində 62,8 min ton plana qarşı 67,2 min ton əlavə neft hasil edilmişdir.

**2010-cu ildə "Azneft" İB-də aparılmış geoloji tədbirlərin sayı**




**Qrafik V - 2**


2010-cu ildə "Azneft" İB üzrə geoloji tədbirlər nəticəsində
alınmış əlavə neft
350
300
250
200
150
100
50
0
344,9
291,8
263
326,3
62,8
67,2
Plan üzrə əlavə neft hasilatı
Fakt üzrə əlavə neft hasilatı
Cəmi
Dəniz yataqları üzrə
Quru yataqları üzrə

**Qrafik V - 3**



# VI. QAZMA

2010-cu ildə ARDNŞ-in qazma təşkilatları tərəfindən 144 379 m plana qarşı 136324 m qazma işi görülmüşdür, o cümlədən istismar qazması üzrə 127858 m (plan 131356 m), kəşfiyyat qazması üzrə 8466 m (plan 13023 m). 2010-cu ildə 86 quyu tikinti ilə (plan 93) qurtarmış, bunlarda, 82 istismar, 4 kəşfiyyat guyuları olmuşdur.

Dəniz sahələrində ümumilikdə 97466 m plana qarşı 92348 m qazma işi görülmüş, o cümlədən istismar qazması üzrə 86263 m (plan 90006 m), kəşfiyyat qazması üzrə 6085 m (plan 7 460 m). Tikintisi başa çatdırılması nəzərdə tutulmuş 47 istismar və 2 kəşfiyyat quyusundan yalnız 41 istismar quyusu tikinti ilə başa çatdırılmışdır.

Quru sahələri üzrə 43976 m qazma işi görülmüşdür (plan 46913 m), o cümlədən istismar qazması üzrə 41595 m (plan 41350 m), kəşfiyyat qazması üzrə isə 2381 m (plan 5563 m). 2010-cu ildə cəmi quruda tikinti ilə qurtaran 45 quyu olmuşdur (plan 46), onlardan 41 quyu istismar (plan 38), 4 isə kəşfiyyat guyuları olmuşdur (plan 8).

Dənizdə - Günəşli, Neft Daşları, Ələt-dəniz, Bahar, Qum-dəniz, Bulla-dəniz, Darvin bankası, Pirallahı, Palçıq Pilpiləsi, 8 Mart yataqlarında istismar qazması və Ümid, Bulla-dəniz yataqlarında kəşfiyyat qazma işləri aparılmışdır.

Quruda – Balaxanı, Bibiheybət, Qalmaz, Lökbatan, Pirallahı, Puta, Cəfərli, Muradxanlı, Zağlı, Səadan yataqlarında istismar qazması və Pirallahı, Bəyimdağ-Təkçay yataqlarında kəşfiyyat qazma işləri aparılmışdır.

"Kompleks Qazma İsləri" Tresti üzrə nəzərdə tutulan 115349 m əvəzinə 108892 m qazma işi görülmüşdür. Hər iki məqsəd üzrə plan 94.4% yerinə yetirilmişdir, istismar qazması planı 96.4 %; 105976 m plana qarşı 102211 m qazma işi görülmüşdür. Kəşfiyyat qazması planı il ərzində 71.3% yerinə yetirilmişdir 9373 m plana qarşı 6 681 m qazma işi aparılmışdır. Trest üzrə tikintisi qurtaran quyular üzrə plan 92.4% yerinə yetirilmişdir, 79 quyu əvəzinə cəmi 73 quyu (-6) təhvil verilmişdir. Bayıl Limanı DKQİ 14 quyu əvəzinə 13 quyu (-1) , Qum Adası 3 quyu əvəzinə 4 quyu (+1), Neft Daşları 20 quyu əvəzinə 18 quyu (-2), Abşeron QİÌ 32 quyu əvəzinə 33 quyu (+1), Qobustan KQİ 7 quyu əvəzinə 5 quyu (-2) istismara təhvil verilmişlər.

Geologiya və geofizika İdarəsi 2010-cu ildə qazma gedişi planını yerinə yetirməmişdir. 4 030 m əvəzinə 2185 m qazma işi aparılmışdır ki, bu da illik planın 54.2%-ni təşkil edir. Planda nəzərdə tutulan 7 quyu tikinti ilə qurtararaq sifarişçiyə təhvil verilmişdir (100%).





**ARDNŞ-də (MM və ƏŞ-lər nəzərə alınmadan) qazıma keçidi, min metr**




**Qrafik VI - 1**

SOCAR-AGŞ MMC 2010-cu ildə qazma gedişi planını 101.0% yerinə yetirmişdir. 25000 m əvəzinə faktiki 25247 m həcmində qazma işi aparılmışdır. Nəzərdə tutulmuş 7 quyu əvəzinə 6 quyu tikintisi qurtarıb istismara təhvil verilmişdir.

2010-cu ildə ARDNŞ-də qazma işlərinin inkişafina dair texniki vasitələrin müasirləşdirilməsi, yeni və müasir texnologiyalardan istifadə edilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Ümid 8, Bulla-dəniz 89 nömrəli kəşfiyyat quyularında yeni müasir, ABŞ və Çin şirkətlərinin istehsalı olan qazma qurğuları və avadanlıqlar quraşdırılmışdır. Həmin avadanlıqların istifadəsi qazma işlərinin keyfiyyətinin, iqtisadi-texniki göstəricilərinin artırılmasına müsbət təsir göstərmişdir.

Ümid 8 N-li axtarış-kəşfiyyat quyusunda istifadə edilmiş müasir texnologiyaların vasitəsi ilə qazma işi görülərək 6006 m dərinliyində yeni qaz-kondensat yatağı kəşf olunmuşdur.

Quyularda yeni və müasir texnologiyaların istifadəsi (yüksək hidromonitor effektli PDC baltalar, quyudibi motorlar, MWD cihazlar, stabilizatorlar, Jar, qalın divarlı qaz–ma boruları, polimer və karbohidrogen əsaslı qazma məhlullarının tətbiqi və s.) qazmanın sürətinin artması, istehsal prosesində risk və qəzaların qarşısını alınması baxımından əhəmiyyətli olmuşdur.

Maili istiqamətləndirilmiş quyuların qazılmasında, quyunun parametrlərinə daimi nəzarət etmək məqsədi ilə MWD, LWD cihazlarından istifadə olunmuşdur.

**2011-ci ildə ARDNŞ-ın qazma işlərinə dair plan haqqında** ARDNŞ üzrə 2011-ci ildə 175 381 m qazma işləri görülməsi və bunun müqabilində 101 quyunun təhvil verilməsi proqnozlaşdırılmışdır.

**ARDNŞ-ın istehsalat-maliyyə vəziyyətinin yaxşılaşdırılmasına dair qazma sahəsi üzrə təkliflər:**

ARDNŞ-ın qazma işlərinin təhlükəsiz və səmərəli inkişafı üçün, qazma işlərinin beynəlxalq standartlara uyğun təşkili, müasir texnika və texnologiyaların geniş istifadəsi vacibdir.

Qarşıdakı məqsədə nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır:

- Günəşli, Neft Daşları, 8 Mart, Ələt-dəniz, Bulla-dəniz yataqlarından illik neft və qaz hasilatının sabit saxlanması üçün mövcud dəniz qazma qurğuları vasitəsilə istismar quyularının qazılması həyata keçirilməlidir;
- Ümid strukturunda axtarış-kəşfiyyat işləri davam etdirilməli, Babək strukturu üzrə hazırlıq işləri başlanılmalıdır;
- Qazma avadanlıqları parkı müasir tələblərə uyğun yeniləşdirilməlidir;
- Müasir texnika və texnologiyalardan istifadə etməklə səriştəli xidmət göstərən subpodratçılarla birgə iş apararaq, qazma göstəricilərini yaxşılaşdırmaq;
- Mütəxəssislərin düzgün seçilməsi, yerləşdirilməsi və ixtisas səviyyələrinin artırılması; görülən işlərin səmərəliliyini artırmaq məqsədilə şirkət daxili seminarların, müzakirələrin təşkili, xarici şirkətlərlə və beynəlxalq qurumlarda keçirilən seminar və konfranslarda iştirak edilməsi. (Qrafik VI 1)



# VII. NEFT-QAZ HASİLATI

- Azərbaycanda neft-qaz hasilatının artım tempi 2010-cu ildə də davam etdirilmiş, 50.8 mln ton neft, 26.3 mlrd kub metr qaz hasil olunmuşdur. 2009-cu illə müqayisədə neft hasilatı 0.4 mln ton, qaz hasilatı isə 2.7 mlrd kub metr çox olmuşdur;
- Azəri-Çıraq-Günəşli layihəsi üzrə əlavə quyuların qazılması və neft-qaz hasilatının artırılması məqsədilə Çıraq Neft Layihəsinin icrasına başlanılmışdır. Bu layihə əsasında ilk neft hasilatına 2013-cü ildə başlanılacağı nəzərdə tutulur;
- Şahdəniz yatağının işlənilməsinin daha da intensivləşdirilməsi məqsədilə nəzərdə tutulan Faza-2 layihəsi üzərində işlər tamamlanma mərhələsinə çatdırılmışdır.
- ARDNŞ istismar etdiyi neft və qaz yataqlarında 2010-cu ildə 8459.7 min ton neft (kondensatla birgə), 7178.9 mln m$^3$ qaz hasil edilmişdir. O cümlədən, quru sahəsindəki yataqlardan 1718.0 min ton neft və 195.0 mln m$^3$ qaz, dəniz sahəsindəki yataqlardan isə 6741.7 min ton neft və 6983.9 mln m$^3$ qaz hasil edilmişdir.

**ARDNŞ üzrə neft hasilatı**

**Cədvəl VII-1**

| | 2010-cu il | | | | 2009-cu il faktiki | 2010/2009 müqayisədə +;- |
|---|---|---|---|---|---|---|
| | proqnoz | faktiki | +/- | faiz | | |
| ARDNŞ | 8450.0 | 8459.7 | 9.7 | 100.1 | 8543,3 | -83.6 |
| - "Azneft"İB | 7219.3 | 7278.9 | 59.6 | 100.8 | 7288.2 | -9.3 |
| - ƏŞ/ MM | 1230.7 | 1180.8 | -49.9 | 95.9 | 1255.1 | -74.3 |

**ARDNŞ üzrə 2010-cu ildə neft hasilatı**




**Qrafik VII - 1**

2010-cu ildə ARDNŞ-in istismar etdiyi yataqlardan 8459.7 min ton neft hasil edilmişdir ki, nəticədə proqnoz 9,7 min ton çox və ya 100.1 % yerinə yetirilmişdir. 2009-cu il ilə müqayisədə 0.98% az neft hasil edilmişdir.

2010-cu ildə AÇG yatağından 40487.4 min ton, Şah dəniz üzrə 1848.4 min ton kondensat hasil edilmişdir.

2010-cu ildə AÇG yatağından - 40487.4 min ton, Şah dəniz üzrə 1848.4 min ton kondensat hasil edilmişdir.

Qaz hasilatı 2010-cu ildə ARDNŞ üzrə proqnozu 97.0 % yerinə yetirilərək 7178.9 mln. $m^3$ olmuşdur. Bu da 2009-cu il ilə müqayisədə 275.8 mln. $m^3$ çoxdur.

### ARDNŞ üzrə qaz hasilatı

**Cədvəl VII-2**

milyon $m^3$

| | 2010-cu il | | | | 2009-cu il faktiki | 2010/2009 müqayisədə +;- |
|---|---|---|---|---|---|---|
| | proqnoz | faktiki | +;- | faiz | | |
| ARDNŞ | 7400.0 | 7178.9 | -221.1 | 97.0 | 6903,0 | 275.9 |
| - "Azneft" İB | 7220.4 | 7021.1 | -199.3 | 97.2 | 6739.8 | 281.2 |
| - ƏŞ/ MM | 179.6 | 157.8 | -21.8 | 87.9 | 163.2 | -5.4 |

Hesabat dövründə ARDNŞ tərəfindən AÇG-dən 3437.8 mln. $m^3$, Şahdəniz yatağından isə 1792.3 mln.$m^3$ qaz qəbul edilmişdir.

Hasil edilmiş neftin 96,9%-i keçici fond quyularının, 2,3%-i yeni quyuların, 0,8%-i isə fəaliyyətsiz fonddan alınan quyuların payına düşür:

**Qrafik VII - 2**




**Cədvəl VII-3**

| | Ümumi neft hasilatı, min ton | o cümlədən: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Keçici fond quyuları üzrə | | Fəaliyyətsiz fonddan alınan quyular üzrə | | Yeni quyular üzrə | |
| | | Hasilat, min ton | Ümumi hasilatda payı, % | Hasilat, min ton | Ümumi hasilatda payı, % | Hasilat min ton | Ümumi hasilatda payı, % |
| **ARDNŞ** | 8459.7 | **8197.8** | **96.9** | **66.0** | **0.8** | **195.7** | **2.3** |
| -"Azneft" İB | 7278.9 | 7068.9 | 97.1 | 48.6 | 0.7 | 161.3 | 2.2 |
| - ƏŞ/MM | 1180.8 | 1128.9 | 95.6 | 17.4 | 1.5 | 34.4 | 2.9 |





**ARDNŞ üzrə 2010-cu il hasilatının quyu fonduna görə paylanması.**




**Qrafik VII - 3**

Ümumi neft hasilatının 23.8%-i fontan, 56.3%-i qazlift, 19.9%-i dərinlik nasosu üsulunun payına düşür:

**Cədvəl VII-4**

| | Ümumi neft hasilatı, (min ton) | o cümlədən: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Fontan | | Qazlift (erlift) | | Dərinlik nasosları və svablama | |
| | | Hasilat (min ton) | Ümumi hasilatda payı, % | Hasilat (min ton) | Ümumi hasilatda payı, %-lə | Hasilat, min t | Ümumi hasilatda payı, % |
| ARDNŞ | 8459.7 | 2016.6 | 23.8 | 4761.1 | 56.3 | 1681.8 | 19.9 |
| -"Azneft" İB | 7278.9 | 1965.5 | 27.0 | 4650.4 | 63.9 | 662.8 | 9.1 |
| - ƏŞ/MM | 1180.8 | 51.1 | 4.3 | 110.7 | 9.4 | 1019.0 | 86.3 |

**ARDNŞ-nin 2010-cu ildə istismar üsulları üzrə neft hasilatı (min t)**




**Qrafik VII - 4**

01.01.2011-ci il tarixinə ARDNŞ üzrə quyu fondu aşağıdakı cədvəldə göstərilmişdir: istismarda olan quyu fondu 9385 quyu (o c. 177 qaz quyuları), fəaliyyətdə olan quyu fondu 6664 quyu (o c. 118 qaz quyuları) təşkil etmişdir:

**Cədvəl VII-5**

| | İstismar quyu fondu | | Fəaliyyətdə olan quyu fondu | | Fəaliyyətsiz quyu fondu | | Qazmadan sonra mənimsəmədə olan quyular | |
|---|---|---|---|---|---|---|---|---|
| | 01.01. 2010 | 01.01. 2011 | 01.01. 2010 | 01.01. 2011 | 01.01. 2010 | 01.01. 2011 | 01.01. 2010 | 01.01. 2011 |
| "Azneft" İB | 5937 | 5748 | 4421 | 4385 | 1491 | 1339 | 25 | 24 |
| ƏŞ/MM-lər | 3562 | 3637 | 2274 | 2279 | 1284 | 1355 | 4 | 3 |
| **ARDNŞ** | **9499** | **9385** | **6695** | **6664** | **2775** | **2694** | **29** | **27** |
| **YQA** | **159** | **153** | **118** | **137** | **41** | **16** | **0** | **0** |




**Qrafik VII - 3**

Axırıncı 3 il ərzində NQÇİ-lərdə quyu fondu üzərində nəzarət artırılaraq texniki səbəbdən qüsurlu olan və fəaliyyətini bərpa etdirilməsi mümkün olmayan quyulardan 1337 quyu ləğv olunmuşdur.

ARDNŞ üzrə neft və qaz hasilatının qismən sabitləşdirilməsi üçün yataqların işlənmə layihələri optimallaşdırılır, qalıq neft-qaz ehtiyatları baxımından perspektiv sahələr dəqiqləşdirilir, əlavə quyular qazılır, səmərəli geoloji-texniki tədbirlər həyata keçirilir, infrastruktur yenidən qurulur, geniş spektrdə elmi-tədqiqat işləri aparılır, yeni texnika-texnologiyalar sınaqdan keçirilərək, istehsalatda tətbiq olunur;

- 107 hasilat quyusu və yeraltı qaz anbarında 3 quyu qazmadan istismara daxil edilmişdir. Neft-qaz quyularından 195,7 min ton neft, 435,5 mln $m^3$ qaz hasil edilmişdir;
- fəaliyyətsiz fonddan 200 quyu istismara daxil edilmiş və bu quyulardan 65,9 min ton neft hasil edilmişdir;
- həyata keçirilmiş 5167 geoloji-texniki tədbir nəticəsində 470,8 min ton neft hasil edilmişdir;
- Neftqazçıxarma sahələrinin yenidən qurulması və modernizasiyası işləri daha da genişləndirilmiş, bu məqsədlə elmi, texniki və iqtisadi baxımdan əsaslandırılmış yeni proqram və layihələr işlənib həyata keçirilmişdir;
- Köhnə yataqların reabilitasiyası istiqamətində layihə və tikinti işləri daha



da genişləndirilmiş, neft-qaz yığım-nəql sistemlərinın optimallaşdırılması və lay sularının utilizasiyası məqsədilə yenidənqurma işləri aparılmışdır;

- Yeraltı qaz anbarlarının yenidən qurulmasının 1-ci mərhələsi başa çatdırılmış, həyata keçirilən kompleks proqram hesabına Qaradağ yeraltı qaz anbarında yeni kompressor stansiyası tikilib istismara verilmiş, Qalmazda mövcud kompressor stansiyasında yenidənqurma və təmir-bərpa işləri aparılmış, quyu fondu bərpa edilmiş, əlavə 3 quyu qazılmış, hər iki qaz anbarı üzrə aktiv qaz həcmləri ilk dəfə olaraq 3,1 mlrd $m^3$-ə çatdırılmışdır.

Hazırda yenidənqurma layihəsinin növbəti mərhələsi üzrə yeni quyuların qazılması, seysmik və geofiziki tədqiqatlar hesabına sahələrin geoloji imkanlarının dəqiqləşdirilməsi, arta biləcək tələbata müvafiq potensialın müəyyənləşdirilməsi istiqamətlərində tədbirlər həyata keçirilir;

- Qaz təchizatı sisteminin müxtəlif sahələrində 4250 km əlavə qaz kəmərləri çəkilmiş, 1180 km kəmər isə əsaslı təmir olunmuşdur;
- 2010-cu ildə 18 inzibati ərazidə yerləşən 39 yaşayış məntəqəsinə qaz verilmiş, ümumilikdə 67 272 əhali abunəçinin qaz təchizatı bərpa olunmuşdur;
- Neft Daşlarında qaz nəql sisteminin genişləndirilməsi və təkmilləşdirilməsi üçün 2 saylı SKS-in ümumi gündəlik məhsuldarlığı 3,6 mln $m^3$ olan 4 ədəd qazturbin aqreqatları ilə genişləndirilmişdir;
- "Neft Daşları" NQÇİ-də alçaq təzyiqli qazların yığılması üçün meydançalarda vakuum kompressorlarının quraşdırılması davam etdirilmiş, ümumi kompressorların sayı 55-ə, yığılıb nəql edilən gündəlik qaz həcmi isə 850 min $m^3$-ə çatdırılmışdır;
- "Günəşli" yatağında alçaq təzyiqli qazın yığılaraq nəql sisteminə verilməsi üçün 4 saylı platformada hər birinin məhsuldarlığı 2 mln. $m^3$/gün olan 2 ədəd qazturbinli kompressordan ibarət stansiyanın tikintisi tamamlanma mərhələsinə çatdırılmışdır;
- Qaradağ Yeraltı Qazsaxlama Anbarında yeni kompressor stansiyası tikilib, istismara verilmiş və gündəlik vurulan qazın həcminin 7,0 – 7,5 mln $m^3$-ə qədər artırılması mümkün olmuşdur;
- Qalmaz Yeraltı Qazsaxlama Anbarının kompressor stansiyasında aparılmış yenidənqurma və təmir-bərpa işləri nəticəsində vurulan qazın təzyiqi 150 atmosferə qədər yüksəldilmişdir;
- Rusiya Federasiyasına ixrac olunan qazın gələcəkdə tələb olunan həcmdə və təzyiqdə nəqlini təmin etmək məqsədilə Siyəzən kompressor stansiyasında yenidənqurma və təmir-bərpa işləri aparılmışdır ki, bunun da hesabına 2011-ci ildə Rusiya Federasiyasına 2,0 milyard kub metr qazın ixracı nəzərdə tutulur;
- İran İslam Respublikasına nəql olunan qazın gələcəkdə tələb olunan həcmdə və təzyiqdə nəqlini təmin etmək məqsədilə Astara kompressor stansiyasında əlavə kompressor aqreqatları quraşdırılmaqla genişləndirmə işləri aparılmışdır.

# VIII. QAZIN YIĞILMASI VƏ NƏQLİ

**Qazın yığılması və nəqli sahəsi üzrə aşağıdakı tədbirlər işlənib həyata keçirilmişdir:**

- Neft Daşlarında 2 saylı SKS-in ümumi gündəlik məhsuldarlığı 3,6 mln m$^3$ olan TAURAS tipli 4 ədəd qazturbin aqreqatları ilə genişləndirilməsi üçün tikinti işləri başa çatdırılıb, kompressorlar istismara buraxılmışdır;
- "Günəşli" yatağında şama verilən alçaq təzyiqli qazın yığılaraq Neft Daşlarında 2 saylı SKS-in qəbuluna nəql etmək üçün 4 saylı DDÖ-də hər birinin məhsuldarlığı 2 mln. m$^3$/gün olan 2 ədəd qazturbinli kompressordan ibarət kompressor stansiyasının quraşdırılması davam etdirilmişdir;
- "Neft Daşları" NQÇİ-də alçaq təzyiqli qazların yığılması üçün meydançalarda NQK tipli vakuum kompressorlarının quraşdırılması davam etdirilib. NQÇİ-də cəmi 55 ədəd NQK tipli vakuum kompressoru quraşdırılmış və quyulardan gündəlik 840 - 850 min m$^3$ səmt qazı yığılaraq sistemə qaytarılır;
- "Səngəçal Baş Qurğuları - 47-ci km" arası diametri 1000 mm, uzunluğu 24,0 km, layihə təzyiqi 55 atm olan magistral qaz kəməri tikilib, istismara verilmişdir;
- "Səngəçal Baş Qurğuları - Qazıməmməd KS" arası (2-ci növbə: 23-cü km - Qazıməmməd KS hissəsi) 1000 mm-lik magistral qaz kəməri tikilib, istismara verilmişdir;
- "Hacıqabul Kompressor stansiyası - Qalmaz YQA" arası ikinci xətt diametri 700 mm, uzunluğu 42,0 km, layihə təzyiqi 55 atm olan qaz kəmərinin "47-ci km – Qal–maz YQA" arası 14 km hissəsinin tikintisi başa çatdırılmışdır;
- Hacıqabul Kompressor stansiyasında təmir bərpa işləri aparılmışdır;
- Quruda yerləşən NQÇİ-lərdə qazın yığılması və nəqli sahəsində bir sıra işlər yerinə yetirilmişdir;
- Qaradağ Yeraltı Qazsaxlama Anbarının həcminin artırılması məqsədilə yenidənqurma işləri davam etdirilmişdir. Yerinə yetirilən işlər daxilində Qaradağ YQA-da 5 ədəd MKS12 tipli kompressorlardan ibarət yeni kompressor stansiyası tikilib. Bu da Qaradağ YQA-ya gündəlik vurulan qazın həcminin 7,0 – 7,5 mln m$^3$ qədər artırılmasına imkan yaradıb;
- Qalmaz YQA-nın kompressor stansiyasında yenidənqurma və təmir-bərpa işləri aparılıb. Belə ki, KS-da istismar olunan 16 ədəd 10 QKN tipli qazmühərrikli kom-




pressorlar təmir olunub, onlardan 13 ədədi 1-ci pillə kimi işləyir, 3 ədədi isə 2-ci pillə kimi işlədilməsi üçün rekonstruksiya olunub və KS-da 2-ci pillə kimi işlədilməsi üçün əlavə 2 ədəd kompressor quraşdırılıb. Bu da qazvurma mövsümündə YQA-ya qazın 150 atm. qədər təzyiqlə vurulmasını təmin edir;

- Qaradağ və Qalmaz YQA-larda aparılmış işlər nəticəsində 3,1 milyard kub metr qazın tədarükünə imkan yaranmışdır;
- Rusiya Federasiyasına ixrac olunan qazın gələcəkdə tələb olunan həcmdə və təzyiqdə nəqlini təmin etmək məqsədilə Siyəzən kompressor stansiyasında yenidənqurma və təmir-bərpa işləri aparılıb, KS-da istismar olunan kompressorlar işçi vəziyyətə gətirilmişdir. Bunun hesabına 2011-ci ildə Rusiya Federasiyasına 2,0 milyard kub metr qazın ixracı nəzərdə tutulub;
- İran İslam Respublikasına nəql olunan qazın gələcəkdə tələb olunan həcmdə və təzyiqdə nəqlini təmin etmək məqsədilə Astara KS-da əlavə kompressor aqreqatları quraşdırılmaqla genişləndirmə işləri aparılmışdır;

## Qazın Respublika daxilində təchizatı sahəsində görülən tədbirlər

ARDNŞ-in "Azəriqaz" İstehsalat Birliyi Azərbaycan Respublikası Prezidentinin 01 iyul 2009-cu il tarixli 366 nömrəli "Neft və qaz sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Sərəncamı ilə "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin maddi texniki bazasında yaradılmışdır.

"Azəriqaz" İB Azərbaycan Respublikası ərazisində təbii qazın nəqli, paylanması və satışını həyata keçirir.

"Azəriqaz" İB ARDNŞ-nin hasil etdiyi təbii qazın İran İslam Respublikasına, Gürcüstana və Rusiya Federasiyasına nəqlini təmin edir. Birlik il ərzində xaricə və Res–publika daxilində 12,6 millyard $m^3$ qaz nəql edir. "Azəriqaz" İB-nin respublikanın energetika sahəsində böyük əhəmiyyəti vardır, Birlik ölkə ərazisindəki bütün İstilik elektrik stansiyalarını təbii qazla təmin edir.

Tərkibində istehsalat funksiyalarını yerinə yetirən 6 idarə və təşkilatı birləşdirən "Azəriqaz" İB-də alim, mühəndis, qulluqçu və texniki heyətdən təşkil olunmuş 13929 (01.01.2011-ci il tarixinə) əməkdaş fəaliyyət göstərir.

Bakı şəhəri və respublikanın rayon, qəsəbə, kənd yaşayış məntəqələrinin fərdi yaşayış evlərinin, kommunal-məişət və sənaye (kommersiya) müəssisələrini qazlaşdırılması üçün layihə-smeta sənədlərinin hazırlanması "Azəriqaz" İB-nin tərkibində olan Layihə-Konstruktor Bürosu tərəfindən həyata keçirilir.

Respublika ərazisində təmir-tikinti və yeni qazlaşma istiqamətində aparılan işlər,



fərdi layihələr əsasında evlərin və qeyri-yaşayış obyektlərinin qazlaşdırılması, me–xaniki qaz sayğaclarının "smart-kart" tipli qaz sayğacları ilə əvəz olunması işlərini İstehsalat Birliyinin Təmir-tikinti İdarəsi həyata keçirir.

"Azəriqaz" İB-nin balansında olan qaz kəmərlərinin korroziyadan mühafizə edilməsi üçün 236 ədəd elektrokimyəvi mühafizə qurğularına texniki xidmətin göstərilməsi, onların səmərəli istifadəsinin təmin edilməsini və cari təmir işlərini qaz kəmərlərinin korroziyadan mühafizə xidməti həyata keçirir.

"Azəriqaz" İB-nin Qazsazlama İdarəsi respublika ərazisində yerləşən istehlakçıların təbii qazdan səmərəli istifadə etməsini, qaz itkisinin qarşısının alınmasını, nəzarət ölçü cihazlarının və avtomatika vasitələrinin quraşdırma işlərinin icrasının təmin olunmasını, qazdan istifadə edən bütün müəssisələrdə qaz sərfölçən cihazlarını, sənaye və məişət qaz sayğaclarını quraşdırılmasını, təmir edib sazlanmasını, metroloji təminatını və sınaqdan keçirilməsini həyata keçirir.

İstehsalat Birliyinin elmi-texniki potensialı ölkəmizin müxtəlif regionlarını əhatə edən 1,3 milyona yaxın istehlakçının təbii qazla təchizatını təmin edir, bu funkisiyanın icrası üçün 8 Magistral qaz kəmərləri sahəsi, 7 Kompressor stansiyası, 67 Qaz istismar sahəsi, 79 Avtomat qaz paylayıcı stansiya, 77 Qaz paylayıcı stansiya, 35 Qaz paylayıcı məntəqə, ümumi uzunluğu 44 372 kilometr olan boru kəmərləri, o cümlədən 3 290 km magistral qaz kəmərləri və digər çoxsaylı texnoloji obyektlərdən ibarət olan texniki şəbəkənin optimal idarəetmə mexanizmi mövcuddur.

2010-cu il ərzində cəmi 1558 km qaz kəmərləri və 17 qaz paylayıcı stansiya əsaslı təmir edilmişdir, o cümlədən magistral qaz kəmərləri - 64 km, regionların qaz təchizatı şəbəkəsində - 536 km, Bakı şəhərinin qaz təchizatı şəbəkəsində - 958 km qaz kəməri.

2010-cu il ərzində cəmi 4242,1 km uzunluğunda yeni qaz kəmərləri quraşdırılmışdır, o cümlədən magistral qaz kəmərləri - 98,6 km, regionların qaz təchizatı şəbəkəsində – 3767,8 km, Bakı şəhərinin qaz təchizatı şəbəkəsində - 375,7 km qaz kəməri.

Əhali abonentlərində cəmi 158561 ədəd mexaniki və smart-kart tipli məişət qaz sayğacı quraşdırılmış və əvəz olunmuşdur, o cümlədən Bakı şəhərində - 51882 ədəd, regionlarda - 106679 ədəd. Ümumən respublika üzrə təbii qazla təmin olunan əhali abonentlərində sayğaclaşma səviyyəsi 98,2 faizə çatdırılmışdır.

Əhali abonentlərində 33349 ədəd "smart-kart" tipli məişət qaz sayğacı quraşdırılmış və əvəz olunmuşdur, o cümlədən Bakı şəhərində - 21344 ədəd, regionlarda - 12005 ədəd.

Qazlaşdırılmış əhali abonentlərinin sayı 76713 abonent olmuşdur, o cümlədən regionlarda - 50158 abonent, Bakı şəhərində - 26555 abonent.

Aşağıdakı qrafiklərdə (Qrafik VIII-1 və Qrafik VIII-2) il ərzində qazlaşdırılmış əhali abonentlərinin və təbii qazdan istifadəçi abonentlərin sayı göstərilmişdir.

2010-cu ildə qazlaşdırılmış əhali abonentlərinin sayı




**Qrafik VIII - 1**

01.01.2011-ci il tarixinə təbii qazdan istifadə edən əhali abonentlərinin sayı 1259065 abonent olmuşdur, o cümlədən regionlarda - 660033 abonent, Bakı şəhərində - 599032 abonent.

01.01.2011-ci il tarixinə təbii qazdan istifadə edən əhali abonentlərinin sayı




**Qrafik VIII - 2**

# IX. NEFT QAZ EMALI VƏ NEFT-KİMYA

Neft emalı və neft məhsullarının istehsalı 2010-cu il ərzində ARDNŞ üzrə 6220,6 min ton xam neft emal edilərək proqnoz 103,7% yerinə yetirilmişdir. İl ərzində neft emalı kompleksində əsas neft məhsullarından olan avtomobil benzinlərinin istehsalına 100,5%, kerosin və dizel yanacaqlarının istehsalına isə 113,5% əməl edilmişdir. Zavodlarda emal qurğularının potensialından səmərəli istifadə olunmasına diqqətin artırılması nəticəsində açıq rəngli məhsulların çıxım faizi 2010-cu ildə proqnozda nəzərdə tutulmuş 69,2% əvəzinə 71,9% təşkil etmişdir ki, bunun nəticəsində göstərilən dövrdə 322,9 min tondan artıq müxtəlif növdə məhsullar istehsal olunmuşdur. 2009-cu il ilə müqayisədə neftin emal həcmi 3,1%, açıq rəngli neft məhsullarının çıxım faizi 0,7%, avtomobil benzinlərinin istehsalı 1,1%, kerosin və dizel yanacaqlarının istehsalı isə 6,7% çox olmuşdur. Zavodlarda neftin ağır fraksiyalarının təkrar emal qurğularının gücündən daha səmərəli istifadə olunması nəticəsində neftin emal dərinliyi göstəricisinin miqyası artıq 92,6%-ə çatdırılmışdır ki, bu keçən ilin müvafiq dövründə olduğundan 1,1 % çoxdur . (Qrafik IX 1).

**2009-2010-cu illərdə neft emalının müqayisəsi**




**Qrafik IX - 1**

Neft emalı zavodlarında neftin emalı və neft məhsullarının istehsalı haqqında məlumat (min ton)

**Cədvəl IX-1**

(min ton)

| Neft və neft məhsulları | 2009-cu il fakt | 2010-cu il | | | |
|---|---|---|---|---|---|
| | | Proqnoz | Fakt | proqnoza nisbətən % | 2009-cu ilə nisbətən % |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Neft emalı** | **6032,79** | **6000,00** | **6220,56** | **103,7** | **103,1** |
| o c. Heydər Əliyev ad. BNEZ | 4053,09 | 4200,00 | 4406,81 | 104,9 | 108,7 |
| Azərneftyağ NEZ | 1979,70 | 1800,00 | 1813,75 | 100,8 | 91,6 |
| **Benzinlər** | **1467,60** | **1492,30** | **1453,24** | **97,6** | **99,3** |
| o c. avtomobil benzinləri | 1235,04 | 1242,30 | 1248,92 | 100,5 | 101,1 |
| ondan A-95 | 54,48 | 60,00 | 43,43 | 72,4 | 79,7 |
| A-92 | 1160,32 | 1162,30 | 1185,74 | 102,0 | 102,2 |
| A-80 | 20,24 | 20,00 | 19,75 | 98,8 | 97,6 |
| ilkin emal benzini | 232,56 | 250,00 | 204.32 | 81.7 | 89,3 |
| o c. kimya üçün ilkin benzin fr | 232,56 | 250,00 | 161,25 | 64,5 | 69,3 |
| Məişət soba yanacağı | -0.46 | 0.0 | -1.39 | | -0.93 |
| Kerosin və dizel yanacağı | 2829,38 | 2660,3 | 3020,14 | 113,5 | 106,7 |
| **Açıq rəngli məhsullar** | **4296,52** | **4152,60** | **4471,99** | **107,69** | **104,08** |
| Maye qazlar | 173,30 | 250,60 | 214,00 | 85,4 | 123,5 |
| Mühərrik yanacağı DT | 145,27 | 347,80 | 65,83 | 18,9 | 45,3 |
| Sürtkü yağları | 44,18 | 64,60 | 86,54 | 134,0 | 195,9 |
| **Soba mazutu əmtəəlik, cəmi** | **272,44** | **149,00** | **220,64** | **148,1** | **81,0** |
| **Neft bitumu** | **236,36** | **251,60** | **241,46** | **96,0** | **102,2** |
| **Neft koksu** | **220,84** | **195,20** | **267,50** | **137,0** | **121,1** |
| **Emal dərinliyi %** | **91,63** | **93,70** | **92,60** | **98,8** | **101,1** |






**Qrafik IX - 2**

Məlumatlardan görünür ki, 2010-cu ildə emal edilmiş xam neftdən 1248,9 min ton avtomobil benzinləri, 204,3 min ton ilkin emal benzini, 3020,1 min ton kerosin və dizel yanacağı, 214,0 min ton maye qazlar, 220,6 min ton soba mazutu və 661,3 min ton isə digər (koks, bitum və yağlar) məhsullar istehsal olunmuşdur.

Neft məhsullarının istehsalı emal zavodlarında istismar edilən texnoloji qurğuların istismarından asılılığını nəzərə alaraq onların xammal ilə yüklənməsi haqqında məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir.



**ARDNŞ-in emal kompleksində texnoloji qurğuların istismarı haqqında məlumat (min ton)**

**Cədvəl IX-2**

(min ton)

| Qurğular | 2010-cu il | | | 2009-cu il hesabat | 2009-cu ilə nisbətən 2010–cu ildə % |
|---|---|---|---|---|---|
| | Proqnoz | Hesabat | %-lə | | |
| **BNEZ-də:** | | | | | |
| 21 N-li qurğu | 4200,00 | 4433,57 | 105,6 | 4089,74 | 108,4 |
| 31 N-li qurğu | 533,30 | 564,92 | 105,9 | 591,45 | 95,5 |
| 43 N-li qurğu | 929,50 | 1077,91 | 116,0 | 997,80 | 108,0 |
| 55 N-li qurğu | 1790,30 | 1797,65 | 100,4 | 1690,43 | 106,3 |
| 100-cü bölmə | 2103,00 | 2028,92 | 96,5 | 1953,70 | 103,9 |
| **"Azərneftyağ" NEZ-də:** | | | | | |
| 202 N-li qurğu | 800,00 | 873,05 | 109,1 | 1104,63 | 79,0 |
| 305 N-li qurğu | 1000,00 | 969,34 | 96,9 | 878,67 | 110,3 |
| 701 N-li qurğu | | | | | |
| 401 N-li qurğu | 252,86 | 242,62 | 96,0 | 237,79 | 102,0 |
| Yağ istehsalı | 85,65 | 92,70 | 108,2 | 63,14 | 146,8 |

Məlumatlardan görünür ki, 2009-cu ilə nisbətən 2010-cu ildə Heydər Əliyev adına BNEZ-in katalitik riforminq qurğusundan, "Azərneftyağ" NEZ-in isə 202 N-li neftin ilkin emalı qurğusundan başqa bütün texnoloji qurğuların xammal ilə yüklənməsi artıqlaması ilə yerinə yetirilib. Katalitik riforminq qurğusunun az yüklənməsinin səbəbi qurğunun may – iyun aylarında 26 gün təmirə dayandırılması ilə, 202 N-li qurğuda kəsirin səbəbi isə 2009-cu ildə bituma tələbatın artması ilə bağlı proqnoza nisbətən daha çox neftin emal olunması ilə bağlıdır.

Zavodlarda xammalın səmərəli emal olunmasını və məqsədli məhsullara xammalın sərfini xarakterizə edən keyfiyyət göstəricilərindən olan, texnoloji qurğularda məqsədli məhsulların çıxım faizləri haqqında məlumatlar nəzərdən keçirilmişdir.

## Texnoloji qurğularda məqsədli məhsulların çıxım faizləri haqqında məlumat

**Cədvəl IX-3**

(min ton)

| Texnoloji qurğular | 2010-cu il | | | 2009-cu il | |
|---|---|---|---|---|---|
| | proqnoz | fakt | fərq | fakt | fərq |
| **BNEZ-də:** | | | | | |
| 21 N-li qurğu | 46,0 | 46,9 | 0,9 | 46,2 | 0,7 |
| 31 N-li qurğu | 83,0 | 83,0 | 0,0 | 83,0 | 0,0 |
| 43 N-li qurğu | 84,0 | 85,6 | 1,6 | 83,6 | 2,0 |
| 55 N-li qurğu | 58,0 | 55,0 | -3,0 | 53,2 | 1,8 |
| **"Azərneftyağ" NEZ-də:** | | | | | |
| 202 N-li qurğu | 52,4 | 55,0 | 2,6 | 52,5 | 2,5 |
| 305 N-li qurğu | 53,6 | 54,2 | 0,6 | 51,8 | 2,4 |
| 401 N-li qurğu | 99,5 | 99,4 | -0,1 | 99,4 | 0,0 |

Cədvəldəki məlumatlardan görünür ki, 2009-cu ilə nisbətən 2010-cu ildə Heydər Əliyev adına BNEZ-in və "Azərneftyağ" NEZ-in bütün texnoloji qurğularında məqsədli məhsulların çıxım faizində artım müşahidə olunur. Bu artım nəticəsində məqsədli məhsulların istehsalına xammalın sərfi 21 N-li qurğuda 30,0 min ton, 43 N-li qurğuda 21,6 min ton, 55 N-li qurğuda 32,4 min ton, 202 və 305 N-li qurğularda isə 45,0 min ton az olmuşdur.

2010-cu ildə istehsal olunmuş əmtəəlik məhsullar daxili tələbatı ödəməklə yanaşı yaxın və uzaq xaricə ixrac olunmuşdur. Satışa göndərilən neft məhsullarının 56,5%-i daxilə, 43,5%-i isə yaxın və uzaq xaricə ixrac olunmuşdur.

Neft və neft məhsullarının itkiləri haqqında. Neft emalı kompleksində istismar edilən hər bir texnoloji qurğunun layihə və reqlament sənədlərində həmin proses zamanı əmələ gələn itki normaları haqqında məlumatlar göstərilir ki, bunlar zavodlarda hər bir proses üçün itki norması qəbul edilir. Buna görə zavodlarda istər proqnozda və istərsə də faktiki fəaliyyət zamanı itkilərin formalaşması ilkin emal və təkrar emal qurğularında emal olunmuş xammalın həcmindən asılıdır. 2010-cu ildə Heydər Əliyev adına BNEZ-də neft və neft məhsullarının itkiləri faktiki emal olunmuş xammal üçün normalarla gözlənilən miqdardan 2,8 min ton və yaxud 0,05%, "Azərneftyağ" NEZ-də isə 4,2 min ton və yaxud 0,23% aşağı olmuşdur. Bütün neft emalı kompleksində itkilərin ümumi miqdarı proqnoz normaları ilə faktiki emal üçün gözlənilən miqdardan 7,0 min ton az olmuşdur.

Katalizator və reagentlərin sərfi haqqında. Zavodlarda istismar edilən texnoloji qurğularda hər bir prosesin reqlamentə uyğun normal fəaliyyəti üçün müxtəlif ka–

talizator və reagentlərdən istifadə olunur. 2010-cu ildə emal kompleksinin ayrı-ayrı zavodlarında və şirkət üzrə texnoloji qurğularda katalizator və reagentlərin sərfi haqqında məlumatlar aşağıdakı cədvəldə göstərilib. Hesabat ilində BNEZ-də və NEZ-də katalizator və reagentlərin sərfi proqnoz normaları ilə faktiki emal üçün hesablanmış miqdardan uyğun olaraq 2,0 və 3,6 min ton aşağı olmuşdur.

Hesabat ilində neft emalı zavodlarında 5,6 min ton müxtəlif katalizator və reagentlərə qənaət olunmuşdur ki, bunun 4,0 min tonu kaustik sodanın, sulfat turşusunun və qumbrinin payına düşüb.

Yanacaq və enerji resurslarının sərfi haqqında. Neft məhsullarının istehsalına aid olan xərclərin formalaşmasında yanacaq və enerji resurslarının sərfinin xüsusi əhəmiyyət daşımasını nəzərə alaraq, hesabat ilində onların sərfi ilə əlaqədar məlumatlar nəzərdən keçirilmişdir Neft emalı zavodlarında enerji resurslarının aşağı salınması istiqamətində aparılmış müxtəlif təşkilatı-texniki tədbirlər nəticəsində hər iki zavodda onlara qənaət olunmuş və baxılan dövrdə ARDNŞ-nin bütün neft emalı kompleksində 80,5 milyon kvt/saat elektrik enerjisinə və 313,8 min Hkal istilik enerjisinə qənaət edilmişdir. Yanacaq resursunun normativ göstəricilərdən çox istifadə olunmasının səbəbi, hesabat ilində də emal dərinliyinin artırılması və ekoloji göstəricilərin yaxşılaşdırılması məqsədilə zavodun qurğularında texnoloji yanacaq kimi istifadəsi nəzərdə tutulan maye yanacağın təkrar emala verilməsi və sobalarda maye yanacaqdan fərqli yanan təbii qazla əvəz edilməsi olmuşdur.

Qazın emalı və qaz emalından alınan məhsullar. 2010-cu ildə Qaz emalı zavodu üzrə təbii qazın emalı və hazır məhsulların istehsalı üzrə əsas göstəricilər planının yerinə yetirilmə səviyyəsi aşağıdakı kimi olmuşdur

**Cədvəl IX-4**

| Sıra sayı | Məhsulların adı | Ölçü vahidi | 2010-cu il | | | 2009-cu il fakt | 2009-cu ilə nisbətən % |
|---|---|---|---|---|---|---|---|
| | | | Plan | Fakt | % | | |
| | Xam qaz | mln $m^3$ | 4380,0 | 4096,4 | 93,5 | 3899,9 | 105,0 |
| 1 | Təmizlənmiş quru qaz | mln $m^3$ | 4305,0 | 4030,5 | 93,6 | 3824,2 | 105,4 |
| 2 | Texniki butan istehsalı | min ton | 20,0 | 25.4 | 127,0 | 21,8 | 116,5 |
| 3 | Qaz benzini (nafta) istehsalı | min ton | 26,1 | 28.1 | 107,7 | 27,2 | 103.3 |

**2009-2010-cu illər üzrə qaz emalı və qaz emalından alınan məhsullar**




**Qrafik IX - 3**

Neft-kimya məhsullarının istehsalı. 2010-cu ildə "Azərikimya" İstehsalat Birliyi müəssisələrində məhsul istehsalı barədə məlumat cədvəl IX 5 -də göstərilmişdir.



**2010-cu ildə Azərikimya İB-də xammalın emalı və əmtəəlik məhsulların istehsalı haqqında məlumat**

**Cədvəl IX-5**

| Məhsulların adı | Ölcü vahidi | 2009-cu il fakt | 2010-cu il | | | |
|---|---|---|---|---|---|---|
| | | | Proqnoz | Fakt | proqnoza nisbətən % | 2009-cu ilə nisbətən % |
| Xammal | ton | 189471 | 250000 | 224295 | 89,7 | 118,4 |
| | | | | | | |
| Etilen | ton | 43452,9 | 60751 | 55007,8 | 90,5 | 126,6 |
| Propilen | ton | 22967,3 | 31876 | 28556,2 | 89,6 | 124,3 |
| Polietilen | ton | 42248,8 | 59092 | 53517,5 | 90,6 | 126,7 |
| BBF | ton | 17005 | 23500 | 21612 | 92,0 | 127,1 |
| Kaustik soda maye | ton | 7690 | 28000 | 7105 | 25,4 | 92,4 |
| Maye xlor | ton | 3933 | 14000 | 2658 | 19,0 | 67,6 |
| Sulfat turşusu | ton | 4242,6 | 8250 | 4652,7 | 56,4 | 109,7 |
| Propilen oksidi | ton | 3819,7 | 14000 | 3376,2 | 24,1 | 88,4 |
| Poliefir qətranı | ton | 2131 | 9000 | 814,5 | 9,1 | 38,2 |
| Azot | $mm^3$ | 13882,4 | 20800 | 15099,5 | 72,6 | 108,8 |
| Saf İzopropil spirti | ton | 9967,7 | 19588 | 10532,5 | 53,8 | 105,7 |
| Piroliz qətranı | ton | 45695 | 62500 | 52693 | 84,3 | 115,3 |
| Ağır qətran | ton | 10509 | 10000 | 13076 | 130,8 | 124,4 |

2010-cu ildə "Azərikimya" İB-nin etilen-propilen zavodunda 224,3 min ton xammal emal olunmuş və 83,6 min ton etilen-propilen monomerləri istehsal edilib ki, bunlar 2009-cu ildə olduğundan, uyğun olaraq 34,8 və 17,2 min ton çoxdur. Piroliz qurğusunda etilen və propilenin orta çıxım faizi 2,2 % artaraq 37,3 %-ə çatdırılmışdır. Bunun nəticəsində İB-də 2009-cu ilə nisbətən 1 ton etilen-propilen istehsalına xammalın sərfi 0,17 ton aşağı düşmüş, izopropil spirtinin istehsalı 5,7 %, polietilen istehsalı 26,7 % və birliyin əmtəəlik məhsulunun həcmi 10,9 % artmışdır.

Hazırda həmin qurğunun xammal bazasının genişləndirilməsi istiqamətində aparılan işlər nəticəsində Heydər Əliyev adına BNEZ-də alınan maye qazların müəyyən miqdarı və Qaradağ Qaz emalı zavodunun qaz benzini "Azərikimya" İB-nin EP-300 qurğusunda emalı tamamilə mənimsənilmiş və bu il uyğun olaraq 4,6 min ton maye qaz və 16,6 min ton qaz benzini piroliz qurğusunda emal olunmuşdur.

Satışa göndərilən neft-kimya məhsullarının 14,5 %-i daxilə, 85,5 %-i isə ixrac olunmuşdur.




# X. MAYA DƏYƏRİ

Dövlət Neft Şirkətinin əsas son məhsulları neft, qaz və neft məhsullarıdır. Neft məhsullarının maya dəyərinin 85-90%-ni xam neftin alınmasına çəkilən xərclər təşkil edir. Buna görə də neftin və qazın maya dəyərinin təhlili böyük əhəmiyyət kəsb edir. Maya dəyəri yalnız Şirkətin tərkibində olan neftqazçıxarma idarələri üzrə araşdırılır.

2010-cu ildə əmtəəlik neftin tam maya dəyəri 554850 min manat, 1 ton neftin maya dəyəri isə 76.63 manat təşkil etmişdir. Aşağıdakı cədvəldə Şirkət üzrə neft hasilatına çəkilən faktiki xərclərin smetası verilir. Cədvəl X 1

**Cədvəl X-1**

| Xərc maddələri | Ölçü vahidi | 2009 | Xüsusi çəkisi | 2010 | Xüsusi çəkisi |
|---|---|---|---|---|---|
| 1. İstifadə edilmiş material və komponentlər | min manat | 30700 | 6.9 | 41022 | 7.6 |
| 2. Əmək haqqı | -"- | 97116 | 21.9 | 94041 | 17.4 |
| 3. Sosial sığorta və pensiya fondu xərcləri | -"- | 19432 | 4.4 | 19176 | 3.5 |
| 4 .Əsas vəsaitlərin amortizasiyası cəmi | -"- | 73792 | 16.6 | 96383 | 17.8 |
| 5. Təmir və texniki xidmət xərcləri | -"- | 50762 | 11.4 | 86489 | 16.0 |
| 6. Nəqliyyat və nəqliyyat vasitələrinin istis. | -"- | 28788 | 6.5 | 42703 | 7.9 |
| 7. Mühafizə xidməti | -"- | 13469 | 3.0 | 14658 | 2.7 |
| 8. Elektrik enerjisi | -"- | 10459 | 2.4 | 10460 | 1.9 |
| 9. Mədən vergisi | -"- | 78731 | 17.7 | 80791 | 14.9 |
| 10.Digər vergilər | -"- | 16307 | 3.7 | 20244 | 3.7 |
| 11.Kommunal xərclər | -"- | 2359 | 0.5 | 2135 | 0.4 |
| 12.Digər xərclər | -"- | 22292 | 5.0 | 33290 | 6.2 |
| o cümlədən: köməkçilər | | 8865 | 2.0 | 12498 | 2.3 |
| **Cəmi istehsal xərcləri** | -"- | **444207** | 100.0 | **541391** | 100.0 |
| Bitməmiş istehsal qalığının dəyişməsi | -"- | --623 | | 1654 | |
| Əmtəəlik məhsul istehsalına çəkilən x. | -"- | 444830 | | 539737 | |
| Ümumi məhsul | ton | 7288186 | | 7278713 | |
| 1 ton məhsula çəkilən xərclər | **manat** | 60.95 | | 74.38 | |
| Emala verilən neftin nəql xərcləri | min manat | 15694 | | 16041 | |
| Əmtəəlik məhsul | ton | 7251532 | | 7240601 | |
| 1 ton məhsula çəkilən xərclər | **manat** | 63.51 | | 76.76 | |
| NKİ sistemində qalığın dəyişməsi | min manat | -1079 | | 928 | |
| **Əmtəəlik məhsula çəkilən xərclər** | min manat | **461603** | | **554850** | |
| NKİ sistemində qalığın dəyişməsi nəzərə alınmaqla | ton | 7278105 | | 7240616 | |
| **NEZ-ə bildirilən 1 ton üçün çəkilən xərclər** | **manat** | **63.42** | | **76.63** | |





**Şirkət üzrə 2009-2010-cu illərdə neft hasilatına çəkilən xərclərin smetası (min man)**




**Qrafik X - 1**

Şirkət üzrə neftin hasilatına çəkilən cəmi istehsal xərclərinin tərkibində əmək haqqı xərclərinin xüsusi çəkisi – 17.4%, sosial ehtiyaclara ayırmalar – 3,5%, amortizasiya ayırmaları – 17,8%, material xərcləri – 7,6%, mədən vergisi -14,9% və digər xərclər –6,2% təşkil edir.

2010-cu ildə Şirkət üzrə əmtəəlik qazın tam maya dəyəri 248584 min manat olmuşdur. 1000 $m^3$ qaz hasilatına çəkilən faktiki istehsal xərcləri 40.07 manat təşkil edir

Aşağıdakı cədvəldə Şirkət üzrə qaz hasilatına çəkilən faktiki xərclərin smetası verilir.

**Cədvəl X-2**

| Xərc maddələri | Ölçü vahidi | 2009 | Xüsusi çəkisi | 2010 | Xüsusi çəkisi |
|---|---|---|---|---|---|
| 1. İstifadə edilmiş material və komponentlər | min manat | 18449 | 6.8 | 16934 | 6.8 |
| 2. Əmək haqqı | -"- | 27866 | 10.3 | 25426 | 10.2 |
| 3. Sosial sığorta və pensiya fondu xərcləri | -"- | 5946 | 2.2 | 5052 | 2.0 |
| 4 .Əsas vəsaitlərin amortizasiyası-cəmi | -"- | 80312 | 29.7 | 73271 | 29.5 |
| 5. Təmir və texniki xidmət xərcləri | -"- | 36110 | 13.4 | 36219 | 14.6 |
| 6. Nəqliyyat və nəqliyyat vasitələrinin istis. | -"- | 26855 | 10.0 | 22886 | 9.2 |
| 7. Mühafizə xidməti | -"- | 8346 | 3.1 | 5484 | 2.2 |
| 8. Elektrik enerjisi | -"- | 2421 | 0.9 | 2507 | 1.0 |
| 9. Mədən vergisi | -"- | 41159 | 15.2 | 40768 | 16.4 |
| 10.Digər vergilər | -"- | 6575 | 2.4 | 7379 | 3.0 |
| 11.Kommunal xərclər | -"- | 954 | 0.4 | 523 | 0.2 |
| 12.Digər xərclər | -"- | 15216 | 5.6 | 12135 | 4.9 |
| o cümlədən: köməkçilər | | 1322 | 0.5 | 4630 | 1.9 |
| **Cəmi istehsal xərcləri** | -"- | **270209** | 100.0 | **248584** | 100.0 |
| Əmtəəlik məhsul istehsalına çəkilən x. | -"- | 270209 | | 248584 | |
| Ümumi məhsul | min $m.^3$ | 6739826 | | 7021087 | |
| 1000 $m^3$ məhsula çəkilən xərclər | **manat** | 40.09 | | 35.41 | |
| Əmtəəlik məhsul | min $m^3$ | 5981054 | | 6204175 | |
| 1000$m^3$ məhsula çəkilən xərclər | **manat** | 45.18 | | 40.07 | |
| **Əmtəəlik məhsula çəkilən xərclər** | min manat | **270209** | | **248584** | |
| **1000$m^3$ qaz üçün çəkilən xərclər** | **manat** | **45.18** | | **40.07** | |

**ARDNŞ üzrə 2009-2010-cu illər üzrə qaz hasilatına çəkilən faktiki xərclərin smetası (min man)**




**Qrafik X - 2**

Şirkət üzrə qaz hasilatına çəkilən cəmi xərclərin tərkibində əmək haqqı xərclərinin xüsusi çəkisi – 10,2%, sosial ehtiyaclara ayırmalar – 2.0%, amortizasiya ayırmaları – 29,5%, material xərcləri – 6,8%, mədən vergisi – 16,4% və digər xərclər – 4,9% təşkil edir. Şirkət üzrə 1000 m3 qazın maya dəyəri 2009-cu illə müqayisədə 5.11 manat (11.3%) azalmışdır. Bununla əlaqədar olaraq, cədvəl üzrə ümumi məhsul vahidinin istehsal maya dəyərini (mədən vergisiz) göstəricisini müqayisə edək.

**Cədvəl X-3**

| | Ümumi məhsulun istehsal maya dəyəri (mədən vergisiz), manat | | 2009-cu ilə nisbətən | |
|---|---|---|---|---|
| | 2010 | 2009 | % | +,- |
| 1. Neft, 1 ton | 63.28 | 50.15 | 126.2 | 13.13 |
| 2. Qaz, 1000 $m^3$ | 29.60 | 33.98 | 87.1 | -4.38 |

Cədvəldən göründüyü kimi, Şirkət üzrə neftin maya dəyəri artmış, qazın maya dəyəri isə azalmışdır. Neftin maya dəyərinin artması keçən ilə nisbətən amortizasiya və digər xərclərin artması hesabına baş vermişdir. Belə ki, Şirkət üzrə amortizasiya neft üzrə-22591 min manat (30.6%), digər xərclər neft üzrə - 10998 min manat (49.3%), artmışdır. Qazın maya dəyərinin azalması xərclərin azalması hesabına olmuşdur. Belə ki, amortizasiya qaz üzrə - 7041 min manat, əmək haqqı -2440 min manat, istifadə edilmiş materiallar -1515 min manat, digər xərclər -3081 min manat azalmışdır. Təhlil göstərir ki, neftin maya dəyərinin artması ümumi maya dəyərinin artması və ümumi hasilatın aşağı düşməsi ilə bağlıdır.

**2008-2009-cu illər üzrə neft və qazın istehsalının maya dəyəri.**




**Qrafik X - 1**



# XI. PERSONAL VƏ ƏMƏK HAQQI

2010-cu ildə ARDNŞ üzrə işçilərin orta siyahı sayı 75502 nəfər, orta aylıq əməkhaqqı isə 559,38 manat təşkil etmişdir. 2009-cu il ilə müqayisədə işçilərin orta siyahı sayı 3917 nəfər, orta aylıq əmək haqqı isə 25,72 manat məbləğində artmışdır.

Hesabat ilində ARDNŞ üzrə illik əməkhaqqı fondu 506,81 mln manat olmuşdur ki, bu da keçən il ilə müqayisədə 44,3 mln. manat və ya 9% artmışdır. Şirkət üzrə əməkhaqqı fondunun artmasının əsas səbəbi işçilərin sayının artması ilə və həmçinin əməyin ödənilmə dərəcələri arasında olan nisbətin uyğunlaşdırılması nəticəsində əməyin ödənilmə dərəcəsi 15 və daha yuxarı olan işçilərin əməkhaqlarında olan artımla əlaqədardır.

Belə ki, 2009-cu ilə nisbətən işçilərin orta sayı, ARDNŞ-nin Baş ofisində 36 nəfər, "Azəriqaz" İstehsalat Birliyi üzrə 236 nəfər, Geofizika və geologiya İdarəsi üzrə 69 nəfər, "Neft Kəmərləri" İdarəsi üzrə 18 nəfər, Qaz Emalı Zavodu üzrə 18 nəfər, Sosial İnkişaf İdarəsi üzrə 969 nəfər, Təhlükəsizlik İdarəsi üzrə 133 nəfər, Qaz İxrac İdarəsi üzrə 10 nəfər, Xəzər Dəniz Neft Donanması üzrə 10 nəfər, "Neftqaztikinti" tresti üzrə 122 nəfər, Neftqazelmitədqiqatlayihə" İnstitutu üzrə 81 nəfər, Əmək şəraiti normalarının işlənməsi İdarəsində 14 nəfər (cəmi 1716 nəfər) artmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin "Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" 2 aprel 2010-cu il tarixli 829 nömrəli Sərəncamı ilə "Azərikimya" Dövlət Şirkəti "Azərikimya" İstehsalat Birliyi adlandırılaraq Şirkətin birbaşa tabeliyinə verilmişdir ki, bu da Şirkət üzrə işçilərin orta siyahı sayının 3867 nəfər artmasına səbəb olmuşdur.

**ARDNŞ üzrə işçilərin orta siyahı sayı və əmək haqqının dinamikası**




**Qrafik XI - 1**

Şirkət tərəfindən aparılan ardıcıl islahatlar nəticəsində işçilərin sayı "Azneft" İstehsalat Birliyi üzrə 784 nəfər, Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi üzrə 264 nəfər, "Azərneftyağ" neft emal zavodu üzrə 135 nəfər, Heydər Əliyev adına Bakı neft emalı zavodu üzrə 127 nəfər, Heydər Əliyev adına dərin özüllər zavodu üzrə 96 nəfər, "Kompleks qazma işləri" tresti üzrə 251 nəfər (cəmi 1657 nəfər) azalmışdır.

ARDNŞ-də aparılan struktur dəyişiklikləri ilə əlaqədar "ARDNŞ-də işçilərin əməyinin ödənilməsi haqqında Əsasnamə"yə aşağıdakı dəyişikliklər edilmişdir və buna uyğun olaraq müəssisə və təşkilatların təşkilati strukturları, ştat cədvəlləri müvafiq qaydada hazırlanmış və təsdiq edilmişdir.

ARDNŞ-nin 30 dekabr 2009-cu il tarixli 103 və 07-81ə nömrəli Əmr-qərarı ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətində işçilərin əməyinin ödənilməsi haqqında Əsasnamə"yə 01.01.2010-cu il il tarixdən dəyişikliklər və əlavələr edilmişdir ki. Şirkət üzrə əməyin ödənilmə dərəcəsi 15-ci dərəcədən yuxarı olan qulluqçuların vəzifə (tarif) maaşları arasında olan nisbət (tarif əmsalı) bərabərləşdirilmişdir ki, bu da əməyin ödənilmə sistemində təkmilləşmə ilə əlaqədar atılmış növbəti addımdır.

Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2010-cu il tarixli 258 nömrəli "ARDNŞ-nin strukturunun təkmilləşdirilməsi haqqında" Fərmanının və ARDNŞ-nin 28 aprel 2010-cu il tarixli 58 nömrəli "Azərikimya" İstehsalat Birliyinin strukturunun təşkil edilməsi barədə əmrinin icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətində işçilərin əməyinin ödənilməsi haqqında Əsasnamə"yə müvafiq əlavə və dəyişikliklər edilmiş, 01.05.2010-cu il tarixdən Azərikimya" İstehsalat Birliyində işçilərə tətbiq edilən ödəniş sistemi ARDNŞ-də tətbiq edilən ödəniş sisteminə uyğunlaşdırılmışdır. Ştat cədvəlləri və təşkilati strukturlar ARDNŞ-nin müvafiq qaydalarına uyğun tərtib edilib və ARDNŞ tərəfindən təsdiq edilmişdir.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətində işçilərin əməyinin ödənilməsi haqqında Əsasnamə"də emal müəssisələrində və neftqazçıxarma sahəsində çalışan eyni peşə və eyni ödəniş dərəcəsi olan işçilərə müxtəlif tarif blokları tətbiq edilirdi. Belə ki, emal müəssisələrində çalışan fəhlələrə tətbiq edilən tarif stavkaları neftqazçıxarma sahəsində çalışan fəhlələrə tətbiq edilən tarif stavkalarından 40% çox idi. ARDNŞ-nin və ANQSİHİRK-nın "ARDNŞ-də işçilərin əməyinin ödənilməsi haqqında Əsasnamə"yə əlavə və dəyişikliklər haqqında 06.07.2010-cu il tarixli 85 və 09-04 nömrəli birgə Əmr-Qərarına müvafiq olaraq 01 iyul 2010-cu il tarixdən qeyd edilən fərq aradan qaldırılmışdır. Belə ki, neftqazçıxarma sahəsində çalışan işçilərin tarif stavkaları 40%-ə qədər artırıldı. Bu da Şirkətin 30000 nəfərdən çox işçisinə şamil edilir ki, bu da ayda orta hesabla 5,0 mln manat təşkil edir.

ARDNŞ-nin idarəetmə strukturuna daxil olan qurumlarında əmək normalarının, onların təşkilati strukturunun, ştat cədvəllərinin, gəlir və xərclər smetasının müəyyən və təsdiq edilməsi üçün "ARDNŞ-nin 12 avqust 2010-cu il tarixli 103 nömrəli Əmri ilə "Şirkətin idarəetmə strukturuna daxil olan qurumlarında əmək normalarının, onların



təşkilati strukturlarının, gəlir və xərclər smetasının müəyyən edilməsi üzrə fəaliyyətin tənzimlənməsi haqqında daimi fəaliyyət göstərən komissiyası yaradılmışdır. Şöbəyə daxil olan əksər sənədlər şöbə tərəfindən araşdırıldıqdan sonra komissiyanın iclasına baxılmaq üçün təqdim olunur və komissiyanın üzvləri tərəfindən müzakirə olunduqdan sonra sənədlər müvafiq qaydada rəsmiləşdirilir.

Qeyd olunanlarla yanaşı Personal və əmək haqqı şöbəsi tərəfindən Şirkətin strukturuna daxil olan müəssisələrində iş vaxtından istifadə balansının vəziyyəti haqqında məlumat yığılır və təhlil edilir. Belə ki, Şirkət üzrə 2010-cu il ərzində mümkün olan maksimal iş vaxtı fondu 16052750 adam/ gün təşkil edilr və bunun 95%-dən və ya 15226873 adam/günündən səmərəli istifadə edilmişdir. Bir nəfərə düşən orta aylıq iş vaxtı 17 adam/gün, 1 nəfərə düşən iş vaxtından artıq iş 235936 adam/gün və ya 1,5% təşkil edir.

ARDNŞ-nin 25.08.2008-ci il tarixli 136 nömrəli Əmri ilə təsdiq edilmiş "ARDNŞ-nin strukturuna daxil olan müəssisə və təşkilatlarda iş yerlərinin attestasiyasının keçirilməsi Qrafiki"nə uyğun olaraq 2010-cu il ərzində ARDNŞ-nin müəssisə və təşkilatlarında 3760 iş yerində attestasiya aparılmış, 472 zərərli istehsalat amillərinin normadan artıq olan iş yeri müəyyən edilmişdir.

2010-cu il ərzində ARDNŞ-nin müəssisə və təşkilatlarında işçilərin sayının optimallaşdırılması ilə bağlı mütəmadi olaraq müvafiq tədbirlər həyata keçirilmişdir.





**ARDNŞ müəssisələri üzrə işçilərin orta siyahı sayı, əmək haqqı fondu və orta aylıq əməkhaqqı haqqında məlumat**

**Cədvəl XI-1**

| | İşçilərin orta siyahı sayı, nəfər | | 2010-cu ildə əmək haqqı fondu, min manat | Orta aylıq əmək haqqı, manatla | |
|---|---|---|---|---|---|
| | 01.01.2010 | 01.01.2011 | | 2009-cu il | 2010-cu il |
| ARDNŞ-nin Baş ofisi | 298 | 334 | **4676.07** | 914.38 | 1166.68 |
| "Azneft" İB | 20140 | 19356 | **148935.2** | 615.47 | 641.21 |
| "Azəriqaz" İB | 12133 | 12369 | **58467.68** | 334.07 | 393.91 |
| "Azərikimya" İB | - | 3867 | **16827.82** | - | 362.64 |
| Geofizika və Geologiya İdarəsi | 1725 | 1794 | **13128.8** | 586.65 | 609.85 |
| Neft Kəmərləri İdarəsi | 1078 | 1096 | **6499.73** | 469.7 | 494.20 |
| Mark. və İqt. Əməl. İd. | 1005 | 741 | **4042,11** | 335.18 | 454.58 |
| Sərmayələr İdarəsi | 45 | 44 | **471.68** | 797.83 | 893.33 |
| "Azərneftyağ" NEZ | 2463 | 2328 | **14173.83** | 506.34 | 507.37 |
| H.Əliyev ad. BNEZ | 2597 | 2470 | **15087.98** | 500.25 | 509.04 |
| H.Əliyev ad. BDÖZ | 1878 | 1782 | **12351.53** | 577.72 | 577.61 |
| Qaz emalı zavodu | 619 | 637 | **4084** | 520.35 | 534.28 |
| Sosial İnkişaf İdarəsi | 6023 | 6992 | **35261.23** | 322.92 | 420.20 |
| Təhlükəsizlik İdarəsi | 3991 | 4124 | **25308.12** | 514.86 | 511.4 |
| Ekologiya İdarəsi | 296 | 298 | **1919.64** | 12.45 | 536.81 |
| Qaz İxrac İd. | 154 | 164 | **1196.71** | 596.24 | 608.08 |
| İnf. texnol. və rabitə İd. | 840 | 828 | **4924.17** | 458.24 | 495.59 |
| Xəzər Dəniz Neft Donanması | 5112 | 5122 | **43703.74** | 726.92 | 711.05 |
| "Neftqaztikinti" Tresti | 4961 | 5083 | **43944.17** | 696.51 | 720.44 |
| "Kompleks qazma" işləri Tresti | 5175 | 4924 | **43416.3** | 681.21 | 734.77 |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 957 | 1038 | **7595.75** | 564.75 | 609.81 |
| Əmək şəraiti normalarının işlənməsi İdarəsi | 76 | 90 | **607.78** | 545.8 | 562.76 |
| Azərbaycan Neft təsərrüfatı jurnalı | 19 | **21** | **187.04** | 663.15 | **742.22** |
| **Cəmi:** | **71585** | **75502** | **506811.08** | **533.66** | **559.37** |

**Qeyd: İşçilərin orta illik sayı və orta aylıq əmək haqqı siyahı tərkibində olan işçilər üçün, əməkhaqqı fondunun məbləği isə bütün işçilər üçün göstərilib.**



# XII. MEXANİKA VƏ ENERGETİKA

Neftin və qazın hasilatı, onun hazırlanması, nəqli və emalı üzrə 2010-cu ildə Dövlət tapşırıqlarının yerinə yetirilməsində əsas rolu olan mexanika və energetika təsərrüfatında qurğuların və avadanlıqların işi təhlil edilməklə, onların istismar müddətinin və təmirlərarası vaxtının artırılması, fasiləsiz, etibarlı və ritmik işinin təmini ilə əlaqədar, müvafiq tədbirlər həyata keçirilmişdir.

2010-2011-ci illərin payız-qış mövsümünə hazırlıq tədbirləri yerinə yetirilmiş, enerji qurğularında, mexaniki və energetik avadanlıqlarda, həmçinin enerji ötürücü xətlərində yenidənqurma, əsaslı və cari təmir, təmir-sazlama və işəsalma işləri vaxtlı-vaxtında həyata keçirilmişdir.

Mexanika və energetika təsərrüfatında mancanaq dəzgahlarının, nasos qurğularının və onların idarəetmə bloklarının, cari təmiri nəzərdə tutulmuş plan üzrə aparılmış və tələbatı nəzərə alaraq, elektrik mühərriklərinin yenisi ilə əvəz edilməsi təmin edilmişdir.

ARDNŞ-nin müəssisə və təşkilatlarının daxili elektrik şəbəkəsinin 35/6kV-luq və 6/0,4kV-luq yarımstansiyalarında və paylayıcı qurğularında 2755273 manat həcmində sınaq-sazlama işləri görülmüş və mexanika-energetika avadanlıqlarının işləmə saatlarının artırılması məqsədi ilə 37240604 manat həcmində əsaslı təmir işləri həyata keçirilmişdir.

**Cədvəl XII-1**

| Aparılan təmir işləri cəmi (min. manatla) | Mexaniki avadanlıqların təmiri (min. manatla) | Elektrik avadanlıqlarının təmiri (min. manatla) | Sınaq-sazlama işləri (min. manatla) |
|---|---|---|---|
| **37240.6** | **31910.1** | **2575.2** | **2755.3** |

Qazmadan çıxan quyuların vaxtında istismara verilməsi üçün quyuağzı avadanlıqlarla təchiz olunması vaxtında təmin olunmuşdur ki, bu da neft-qaz hasilatına öz müsbət təsirini göstərmişdir.

Görülmüş tədbirlər nəticəsində elektrik təchizatında güc çatışmamazlığı aradan qaldırılmış, güc ehtiyatının artırılmasına nail olunmuş və avadanlıqların vaxtından qabaq sıradan çıxması hallarına yol verilməmişdir.





"Neft-Daşları"nda Palçıq-pilpiləsinin elektrik təchizatının yaxşılaşdırılması üzrə 10 ədəd 6/0,4kV-luq yarımstansiyada yenidənqurma işləri başa çatdırılmış, ötürücü qurğular tam istifadəyə verilmiş, yatağın elektrik təchizatı etibarlı təmin edilmişdir.

ARDNŞ-nin 06.11.2006-cı il tarixli 181 nömrəli əmrinə əsasən "Neft Daşlarında" yeni inşa edilən istilik elektrik stansiyasının tikintisi üzrə işlər davam etdirilmiş, aqreqatların seçilməsi və yerləşdirilməsi barədə danışıqlar aparılmışdır. QTES-48 də uzun müddət dəniz şəraitində istismar edilən 2x10MVA güc transformatorları zavod şəraitində əsaslı təmir edilmiş, bir ədəd qazturbin mühərriki təmirdən gələnlə əvəz edilərək, istifadəyə verilmiş və stansiyanın orta yükü qaldırılaraq 16,5 MVt-a çatdırılmışdır.

"Günəşli" yatağında elektrik təchizatının yaxşılaşdırılması məqsədi ilə, sualtı kabellərin təmiri və kabel şaxtalarının bərkidilməsi həyata keçirilmiş, 2 saylı DDÖ-də 2x10MVA güc transformatorları zavod şəraitində əsaslı təmir edilmiş, yağ açarlı 35kV-luq və 6kV-luq yuvaların yeni müasir tipli vakuum açarlı yeni yuvalarla əvəz edilməsinə başlanmış, DDÖ-9 da 6/0,4 kV-luq yarımstansiya və BKNS qurğusu (2x1600 kVt) işə salınmış, DDÖ-4 də SKS elektrik enerjisi ilə təmin edilmişdir.

H. Z. Tağıyev adına NQÇİ-də 1 və 2 saylı NQÇS -lərinin mədəndaxili elektrik şəbəkələrinin 2kV gərginlikdən 6 kV gərginliyə keçirilməsi işləri davam etdirilmişdir.

"Bakıelektrikşəbəkə" ASC-nin istifadəsində olan Ə.Əmirov adına NQÇİ-nin 1 saylı NQÇS-ni qidalandıran 87 saylı 35/6kV -luq yarımstansiyasının 110/10 kV gərginliyə

keçirilməsi ilə əlaqədar, mədəndaxili elektrik şəbəkənin 10 kV gərginliyə keçirilməsi və quraşdırılmış yeni müasir tipli elektrik avadanlıqları vaxtında istifadəyə verilməsi təmin olunmuşdur.

Elektrik intiqalı ilə qazılan quyularda hər bir metr keçid üçün 362,7 kVt.saat elektrik enerjisi sərf olunmaqla, 41 ədəd quyu (ümumilikdə 42442 metr) qazılaraq istismara verilmiş və hal-hazırda 6 quyunun elektrik intiqalı ilə qazılması üzrə işlər davam etdirilir.

Ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair tədbirləri həyata keçirilməsi ilə əlaqədar "Bibiheybətneft" NQÇİ-nin 4 nömrəli NQÇ sahəsinin elektrik təchizatı tamamilə yenidən qurulmuş, 1, 2 və 5 nömrəli sahələr üzrə elektrik təchizatında yenidənqurma işləri davam etdirilir.

"Azneft" İB-nin neftqazçıxarma idarələrinin və ARDNŞ-nin iştirakı ilə yaradılmış birgə müəssisələrin elektrik təchizatının yenidənqurulması, layihə tapşırığının işlənməsi barədə ARDNŞ-nin 11 avqust 121nömrəli 2008-ci il tarixli əmri üzrə işləri davam etdirilir.

Ümumiyyətlə, 2010-cu ilin yanvar-dekabr ayları ərzində ARDNŞ-nin müəssisələri kənar təşkilatlardan müqavilə əsasında, 1076276 min kVt.saat elektrik enerjisi almışdır.

O cümlədən;

"Bakıelektrikşəbəkə"ASC-dən alınan 851701 min Kvt.saat,"Sumqayıtelektrikşəbəkə"

ASC-dən alınan 149421 min kVt.saat, "Azərenerji"ASC dən alınan 74715 min kVt.saat, digər müəssisələrdən 439 min kVt.saat; (Diaqramlarda əksini tapmışdır.)

Özünün istehsalı 163552 min kVt.saat




**Cədvəl XII-2**

| Sıra №-si | Müəssisələrin adı | Cəmi alınmışdır | O cümlədən | | | | | Öz istehsalı |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Bakı elektrik şəbəkəsi | Sumqayıt elektrik şəbəkəsi | "Azər-enerji" ASC | ARDNŞ-nin İdarələ-rindən | Kənar təşkilat-lardan | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | "Azneft" İB | 344072 | 298286 | | 45397 | 389 | | 118437 |
| | "Azəriqaz" İB (avq-dək) | 26254 | 4356 | 85 | 21797 | 14 | 2 | |
| | "Azərikimya" İB | 143556 | | 143556 | | | | 45115 |
| | "Azərneftyağ" NEZ | 61086 | 59671 | | | 1415 | | |
| | H.Əliyev adına BNEZ | 360615 | 358831 | 82 | 5 | 1691 | 6 | |
| | H.Əliyev adına BDÖZ | 20124 | 20124 | | | | | |
| | "Neft Kəmərləri" İdarəsi | 23374 | 15101 | 5441 | 2380 | 145 | 307 | |
| | Marketinq və İ.Ə.İ | 1375 | 521 | | 854 | | | |
| | Geofizika və G.İ | 2738 | 2108 | 37 | 108 | 485 | | |
| | Sosial İnkişaf İdarəsi | 39043 | 34940 | | 3933 | 170 | | |
| | Təhlükəsizlik İdarəsi | 333 | 333 | | | | | |
| | İnformasiya T və Rİ | 1878 | 1536 | | | 314 | 28 | |
| | Ekologiya İdarəsi | 449 | 233 | | | 216 | | |
| | "Kompleks Qazma İşləri" Tresti | 27726 | 5150 | 172 | 158 | 22246 | | |
| | Xəzər Dəniz Neft Donanmasl | 16384 | 12951 | | | 3433 | | |
| | "Neftqaztikinti" Tresti | 9888 | 7520 | | 62 | 2210 | 96 | |
| | Qaz İxrac İdarəsi | 16558 | 267 | 48 | 21 | | | |
| | "Neftqazelmitədqiqat-layihə" institutu | 336 | 1310 | | | 23 | | |
| | Qaz Emalı Zavodu (okt-dək) | 28463 | 28463 | | | 32751 | 439 | 163552 |
| | Cəmi: | 1109027 | | 149421 | 74715 | | | |
| | ARDNŞ üzrə cəmi: | 1076276 | 851701 | 149421 | 74715 | | 439 | 163552 |

ARDNŞ-nin aldığı elektrik enerjisi (min kVt/saat)

**Qrafik XII - 1**




O cümlədən;
"Azneft"İB -118437 min kVt.saat, (QTES-48 110337min kVt.saat və DES- 8100 min kVt.saat). "Azərikimya" İB-45115min kVt.saat, (Cədvəl və diaqramda əksini tapmışdır

**Cədvəl XII-3**

| Sıra №-si | Müəssisələrin adı | Elektrik enerjisi sərf edilmişdir | O cümlədən (min kVt.saat) | | | | Məhsulun 1-tonuna sərf edilən elektrik enerjisi |
|---|---|---|---|---|---|---|---|
| | | | İstehsalata sərf edilib | Əhaliyə satılmışdır | ARDNŞ-nin müəssisələr buraxılmış | Kənar təşkilatlara satılmışdır | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | "Azneft" İB | 462509 | 387780 | 227 | 31781 | 42721 | 38.2 |
| | "Azəriqaz" İB | 26254 | 26086 | 32 | 67 | 69 | |
| | "Azərikimya" İB | 188671 | 187351 | 1320 | | | |
| | "Azərneftyağ" NEZ | 61086 | 57528 | | 3467 | 91 | |
| | H.Əliyev adına BNEZ | 360615 | 359050 | | 1563 | | |
| | H.Əliyev adına BDÖZ | 20124 | 13316 | | | 6808 | |
| | Neft Kəmərləri İdarəsi | 23374 | 23358 | | 16 | | 0.023 |
| | Marketinq və İ.ə.İ | 1375 | 1375 | | | | |
| | Geofizika və G.İ | 2738 | 2124 | | 393 | 221 | |
| | Sosial İnkişaf İdarəsi | 39043 | 39022 | | | 21 | |
| | Təhlükəsizlik İdarəsi | 333 | 333 | | | | |
| | İnformasiya T və Rİ | 1878 | 1800 | | 78 | | |
| | Ekologiya İdarəsi | 449 | 449 | | | | |

| Sıra №-si | Müəssisələrin adı | Elektrik enerjisi sərf edilmişdir | O cümlədən (min kVt.saat) | | | | Məhsulun 1-tonuna sərf edilən elektrik enerjisi |
|---|---|---|---|---|---|---|---|
| | | | İstehsalata sərf edilib | Əhaliyə satılmışdır | ARDNŞ-nin müəssisələr buraxılmış | Kənar təşkilatlara satılmışdır | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | "Kompleks Qazma İdarəsi" Tresti | 27726 | 25251 | | 1925 | 550 | 362.7 |
| | Xəzər Dəniz Neft Donanması | 16384 | 15911 | | 324 | 149 | |
| | "Neftqaztikinti" Tresti | 9888 | 9702 | | 166 | 20 | 0.00005 |
| | Qaz İxrac İdarəsi | 336 | 336 | | | | |
| | "Neftqazelmitədqiqat-layihə" institutu | 1333 | 1333 | | | | |
| | Qaz Emalı Zavo | 28463 | 28278 | | 70 | 115 | |
| | Cəmi: | 1272579 | 1180383 | 1579 | 39852 | 50765 | |
| | **ARDNŞ üzrə cəmi:** | **1239828** | **1187484** | **1579** | **-** | **50765** | |

**ARDNŞ-nin 2010-cu ildə sərf etdiyi elektrik enerjisi (min kVt/saat)**




**Qrafik XII - 2**

2010-cu ildə ARDNŞ üzrə cəmi istehsalat proseslərinə 1180383 min kVt.saat elektrik enerjisi sərf olunmuş, kənar təşkilatlara 50765 min kVt.saat və əhaliyə 1579 minkVt.saat elektrik enerjisi satılmışdır.(Diaqramlarda əksini tapmışdır.)

**2010-cu ildə ARDNŞ üzrı sərf olunmuş və satılmış elektrik enerjisi (min kVt saat)**




**Qrafik XII - 3**

Elektrik enerjisindən səmərəli istifadə barədə müvafiq tədbirlər həyata keçirilmiş, texnoloji qurğuların daha optimal iş rejimlərinə uyğun variantlar seçilməklə istismarda olan elektrik avadanlıqları, aqreqatların güclərinə uyğun olaraq nisbətən kiçik güclü avadanlıqlarla əvəz edilmişdir.

2010-cu ildə istehsalata yararsız qurğu və avadanlıqların balansdan silinməsindən 50905 ton qara metal qırıntı və tullantıları müqavilə əsasında təhvil verilmiş və 60 ton-a yaxın əlvan metal qırıntısı tədarük edilmişdir.

"Bibiheybətneft" NQÇİ-də, H. Z.Tağıyev adına NQÇİ-də və uzunmüddətli istismarla bağlı iş saatlarını başa vurmuş elektrik avadanlıqları və elektrik ötürücü qurğularının bir hissəsi müasir tipli elektrik qurğu və avadanlıqları ilə əvəz olunmuş, şəbəkədə yenidənqurma işləri aparılmışdır.

"Azərikimya"İB-nin yarımstansiyalarında güc transformatorlarının təmiri ilə yanaşı elektrik ötürücü qurğularında sınaq-sazlama işləri görülmüş akkumulyatorların əsaslı təmiri həyata keçirilmişdir.

Astarada "Azəriqaz"İB-nin KS-nin tikintisi ilə əlaqədar yeni qapalı tipli 35/6 kV-luq yarımstansiya inşa edilərək istifadəyə verilmiş, Hacıqabul və Qaradağ KS-lərində, H.Əliyev adına Bakı NEZ-da və Qaz Emalı Zavodunda, 6kV və 10kV-luq elektrik avadanlıqlarının bir hissəsinin yeni müasir tipli avadanlıqlarla əvəz edilməsi həyata keçirilmişdir.

Elektrik sistem və şəbəkələrində baş vermiş qəzalara görə boş dayanmalara təsadüf olunsa da, energetik xidmət heyətinin təqsiri ucbatından açılma hallarına yol verilməmişdir.

Avadanlıqların vaxtından qabaq sıradan çıxması hallarına və ehtiyat hissələrinin çatışmamazlığından boşdayanmalara yol verilməmişdir.

Yanğından mühafizə sahəsində də müəyyən işlər görülmüşdür. "Vixr" tipli yanğınsöndürən

gəmilərin nəzərdə tutulan neft-qaz yataqlarında daim növbə çəkməsinə nail olunmuşdur. Özüllərdə köpüklə yanğınsöndürmə sisteminin quraşdırılmasına başlanmışdır.İdarə və müəssisələr mütəmadi olaraq ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmuşlar.

DDÖ–nin əksəriyyətində su çiləmə sistemləri, dairəvi yanğınsöndürmə su xətləri,yanğınsöndürmə dayaqları, dalma nasoslarının şaxtaları və gəmi yanalma meydançaları təmir edilmişdir.

Təhlükə mənbəyi istehsalat sahələrində texniki təhlükəsizliyin gücləndirilməsi tədbirlərinə dair ARDNŞ-nin 07.05.2010-cu il tarixli 61 nömrəli əmrinin icrası ilə əlaqədar Əməyin mühafizəsinə və texnika təhlükəsizliyinə aid "Kompleks Tədbirlər Proqramı" hazırlanmış və nəzərdə tutulan tədbirlər yerinə yetirilir.

2010-cu il ərzində Qaradağ YQA-nda 21 ədəd , Qalmaz YQA – nda 51 ədəd quyuda əsaslı təmir işləri aparılmış və quyuağzı avadanlıqlar yenisi ilə əvəz edilmişdir.

2010-cu ildə "Günəşli" yatağındandakı DDÖ – lərdə istismarda olan KEQ-12/18 tipli kranların , AT-30, AT-42 tipli xilasedici qayıqların və onların postamentlərinin əksəriyyətinin əsaslı təmiri aparılmışdır. Çin istehsalı olan 17 ədəd 42 nəfərlik xilasedici qayıqlar alınmış və onların DDÖ-lərdə quraşdırılmasına başlanmışdır.

Qaz hasilatının artırılması üzrə tədbirlər proqramının yerinə yetirilməsi ilə əlaqədar nəzərdə tutulmuş qazma obyektlərinin elektrik təchizatı müvafiq qaydada təmin olunmuşdur.

"Ümid" yatağında inşa edilən 1 saylı DSÖ qazma, neft-mədən avadanlığı ilə dəstləşdirilmiş, quraşdırma, sazlama işləri başa çatdırılmışdır. Qazma işləri davam etdirilir.

"28 May" NQÇİ-nin "Günəşli" yatağındakı quyuların əsaslı təmiri üçün 10 dəst NBO-160 tipli qazma qurğusu alınmışdır.Onların postamentləri hazırlanır və 2011-ci il ərzində quraşdrlaraq istismara veriləcəkdir.

Mövsüm ilində elektrik təchizatında baş vermiş fasilələrin səbəbləri araşdırılmış və müəyyən edilmişdir ki, təchizatçının və istehlakçının şəbəkəsində istismarda olan əsas elektrik qurğu avadanlıqlarının içərisində iş saatlarını qutarmış və müasir tələblərə mənəvi cavab verməyənləri aşkar edilmişdir və onların yenidənqurulması və yaxud yenisi ilə əvəz olunmasına ehtiyac duyulduğu üçün 2011-ci ildə neft-mədən obyektlərinin elektrik təchizatının yaxşılaşdırılması sahəsində aşağıdakı problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi vacibdir:

-"Neft-Daşları"nda Qaz turbinli elektrik stansiyasının tikintisi,

-"28 May" NQÇİ-də 2 saylı DDÖ-də elektrik təchizatının yenidən qurulması işlərinin davam etdirilməsi, 13 və 19 saylı DDÖ-lərdə 6/0,4 kV y/stansiyaların elektrik avadanlıqlarının müasir tipli yeni avadanlıqlarla dəyişdirilməsi,

- N. Nərimanov adına NQÇİ-də dəniz obyektlərinin elektrik təchizatının yenidən qurulması, 110/35/10kV-luq "Duvannı-dartıcı" yarımstansiyası ilə 35/6kV-luq "Səngəçal-burnu" yarımstansiyası arasında 35 kV-luq hava elektrik ötürücü xəttinin bir hissəsinin (su altında qalan) yenidən qurulması.

- "Azəriqaz"İB-nin "Hacıqabul" KS-də mövcud 110/6kV-luq və "Siyəzən" KS-də mövcud 35/6kV-luq yarım stansiyalarının layihə əsasında yenidən qurulması.

- Qaradağ Neft Kəmərləri İdarəsinin "Daşgil" 35/6kV-luq yarımstansiyasının yenidən qurma layihəsi üzrə işlərin həyata keçirilməsi, Dübəndi NYM-də 11 saylı əmtəə çənlər parkında köpüklə avtomatlaşdırılmış yanğınsöndürmə sisteminin quraşdırılması,

- Ə. Əmirov adına NQÇİ-də 2kV-luq şəbəkənin 6kV-a keçirilməsi, 532 saylı 35/6 kV-luq yarımstansiyanın yenidə qurulması.

- H.Əliyev adına Bakı NEZ-in elektrik təchizatının yaxşılaşdırılması məqsədi ilə, 220/110/6kV-luq "204P və 204N" saylı yarımstansiyalarda iş saatlarını başa vurmuş elektrik avadanlıqlarının müasir tipli avadanlıqlarla ilə əvəz edilməsi üçün, yarımstansiyanın yenidənqurulmasının işlənmiş layihə əsasında həyata keçirilməsi.

2011-ci il ərzində aşağıdakı məsələlərin də həyata keçirilməsi zəruridir.

- Yanğından mühafizəyə aid tədbirlərin həyata keçirilməsinə nəzarətin gücləndirilməsi.

- Qazılması nəzərdə tutulan quyularda istifadə edilməsi üçün, iki ədəd yeni ZJ70/4500 DZM markalı qazma qurğusunun və üç ədəd PZ-11 tipli qaz-ma nasoslarının alınması.

- Yanacaq – sürtkü materiallarına və neft-mədən avadanlıqlarına tələb olunan ehtiyat hissələrinə qənaət edilməsi.

- Qazma və neft-mədən avadan-lıqlarının əsaslı təmirinin daxili imkanlar hesabına təmin edilməsi.

- Zəruri ehtiyat hissələrinin sifarişini "Xəzər dəniz neft donanması"-nın Bakı Gəmi Təmiri Zavodunda yerləşdirilməsi.

- İstehsalata yararsız mənəvi və fiziki cəhətdən köhnəlmiş avadanlıqların balansdan silinərək qara və əlvan metal qırıntısı kimi tədarük və təhvil verilməsi.

- DDÖ-lərdə KEQ – 12/18 tipli yeni ABŞ istehsalı olan kranların alınması istiqamətində işlərin davam etdirilməsi.



# XIII. KAPİTAL QOYULUŞU VƏ ƏSASLI TƏMİR

ARDNŞ üzrə 2010-cu ildə kapital qoyuluşu proqramı 990846,4 min manat planlaşdırılmışdır, o cümlədən qazma üzrə 254485,1 min manat, tikinti üzrə 587859,4 min manat, quraşdırılması tələb olunmayan avadanlıqlar üzrə 141967,6 min manat, geoloji axtarış işləri üzrə 6534,3 min manat.

2010-cu ildə ARDNŞ üzrə faktiki əsaslı vəsait qoyuluşu 1274626,1 min manat (128,6%) yerinə yetirilmişdir. O cümlədən, qazma üzrə 391794,9 min manat (154,0%), tikinti üzrə 522402,2min manat (88,9%), quraşdırılması tələb olunmayan avadanlıqlar üzrə 358706,5 min manat (252,7%), geoloji axtarış işləri 1722,5 min manat (26,4%) yerinə yetirilmişdir.

**2009-2010-cu illərdə ARDNŞ-də faktiki əsaslı kapital qoyuluşu**




**Qrafik XIII - 1**

**Əsaslı vəsait qoyuluşunun strukturuna daxil olan əsas göstəricilərin 2009-cu illə müqayisəsi (min manat)**

**Cədvəl XIII-1** min manat

| | 2010-ci il | | | 2009-cu il | | |
|---|---|---|---|---|---|---|
| | plan | fakt | % | plan | fakt | % |
| Kapital qoyuluşu | 990846,4 | 1274626,1 | 128,6 | 1179288,3 | 785057,6 | 66,6 |
| o cümlədən: | | | | | | |
| Qazma | 254485,1 | 391794,9 | 154,0 | 268509,6 | 317815,3 | 118,4 |
| - kəşfiyyat | 11424,1 | 42340,9 | 370,6 | 38858,3 | 11581,5 | 29,8 |
| - istismar | 243061,0 | 349454,0 | 143,8 | 229651,3 | 306233,8 | 133,3 |
| Geoloji axtarış işləri | 6534,3 | 1722,5 | 26,4 | 2703,0 | 1483,7 | 54,9 |
| Tikinti | 587859,4 | 522402,2 | 88,9 | 744888,3 | 302721,3 | 40,6 |
| Quraşdırılması tələb olunmayan avadanlıqlar | 141967,6 | 358706,5 | 252,7 | 163187,4 | 163037,3 | 99,9 |
| Sənaye tikintisi üzrə kapital qoyuluşu | 848878,8 | 1215341,3 | 143,2 | 1133494,1 | 744200,5 | 65,7 |
| Qeyri-sənaye tikintisi üzrə kapital qoyuluşu | 107221,1 | 59284,8 | 55,3 | 45794,2 | 40857,1 | 89,2 |
| o cümlədən: | | | | | | |
| - yaşayış tikintisi | 21377,9 | 14166,0 | 66,3 | 13070,4 | 6965,5 | 53,3 |
| - kommunal tikintisi | 100,0 | | | 100,0 | | |
| - xalq təhsili | 3500,0 | 1225,0 | 35,0 | 1500,0 | 7665,6 | 511,0 |
| - səhiyyə tikintisi | 79020,6 | 38747,6 | 49,0 | 30673,8 | 25880,4 | 84,4 |
| - mədəniyyət | 3222,6 | 5146,2 | 159,7 | 450,0 | 345,6 | 76,8 |

**2010-cu ildə ARDNŞ-in müəssisələri üzrə kapital qoyuluşunun yerinə yetirilməsi aşağıdakı kimidir: (min manat)**

**Cədvəl XIII-2** **min manat**

| № | Müəssisələrin adı | Plan | Fakt | % |
|---|---|---|---|---|
| 1 | "Azneft" İB | 581341,0 | 623159,2 | 107,2 |
| 2 | "Azəriqaz" İB | 137260,0 | 330505,7 | 240,8 |
| 3 | "Azərikimya" İB | | 493,7 | |
| 4 | "Azərneftyağ" Neft Emalı Zavodu | 13929,0 | 7659,9 | 55,0 |
| 5 | H.Əliyev ad. Bakı Neft Emalı Zavodu | 19587,1 | 17825,6 | 91,0 |
| 6 | Qaz Emali Zavodu | 5913,4 | 2533,5 | 42,8 |
| 7 | "Neft Kəmərləri" İdarəsi | 6712,0 | 4466,1 | 66,5 |
| 8 | H.Əliyev ad. Bakı Dərin Özüllər Zavodu | 6268,0 | 1129,4 | 18,0 |
| 9 | Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 600,0 | 127,8 | 21,3 |
| 10 | Geofizika və Geologiya İdarəsi | 4580,0 | 18996,3 | 414,8 |
| 11 | Sosial İnkişaf İdarəsi | 116758,4 | 109272,1 | 93,6 |
| 12 | Sərmayələr İdarəsi | 40,0 | 13,2 | 33,0 |
| 13 | Təhlükəsizlik İdarəsi | 590,0 | 667,5 | 113,1 |
| 14 | Ekologiya İdarəsi | 7170,8 | 7743,0 | 108,0 |
| 15 | Qaz İxrac İdarəsi | 6151,0 | 2197,7 | 35,7 |
| 16 | İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | 10687,6 | 8289,6 | 77,6 |
| 17 | Xəzər Dəniz Neft Donanması | 38994,6 | 8478,1 | 21,7 |
| 18 | "Neftqaztikinti" Tresti | 17155,2 | 9441,3 | 55,0 |
| 19 | "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 5950,0 | 5289,2 | 88,9 |
| 20 | "Kompleks Qazma İşləri" Tresti | 11158,3 | 116337,2 | 10,4d |




**ARDNŞ üzrə əsas fondların təhvil göstəricilərinin 2009-cu illə müqayisəsi (min manat)**

**Cədvəl XIII-3**

min manat

| | 2010-ci il | | | 2009-ci il | | |
|---|---|---|---|---|---|---|
| | plan | fakt | % | plan | fakt | % |
| Əsas fondların təhvili | 846814,1 | 1157751,4 | 136,7 | 1253805,5 | 731637,9 | 58,4 |
| o cümlədən: | | | | | | |
| - qazma | 239693,1 | 373539,0 | 155,8 | 242612,9 | 257577,4 | 106,2 |
| - tikinti | 470153,4 | 422492,1 | 89,9 | 858005,2 | 309937,9 | 36,1 |
| - avadanlıq | 136967,6 | 358706,5 | 261,9 | 153187,4 | 163037,3 | 106,4 |
| - geoloji axtarış işləri | | 3013,8 | | | 1085,3 | |

Cədvəldən göründüyü kimi, 2010-ci ildə ARDNŞ üzrə əsas fondların təhvili 1157751,4 min manat olmuşdur. Bu da 2009-cı ildən 426113,5 min manat çoxdur. Qazma üzrə əsas fondların təhvili 373539,0 min manat olmuşdur. Bu da 2009-cı illə müqayisədə 115961,6 min manat çoxdur. Tikinti üzrə əsas fondlar 422492,1 min manat təhvil verilmişdir, bu da 2009-cı ildən 112554,2 min manat çoxdur.

ARDNŞ-in təşkilatları üzrə 2010-ci ildə cəmi əsas fondların təhvil göstəriciləri aşağıdakı kimi olmuşdur:

**ARDNŞ-nın təşkilatları üzrə əsas fondların təhvil göstəriciləri (2010-cu il)**

**Cədvəl XIII-4**

min manat

| № | Müəssisələrin adı | Plan | Fakt | % |
|---|---|---|---|---|
| 1 | "Azneft" İB | 427265,1 | 650532,6 | 152,3 |
| 2 | "Azəriqaz" İB | 123346,0 | 176147,6 | 142,8 |
| 3 | "Azərikimya" İB | | 493,7 | |
| 4 | "Azərneftyağ" Neft Emalı Zavodu | 22618,6 | 10944,2 | 48,4 |
| 5 | H.Əliyev ad. Bakı Neft Emalı Zavodu | 27848,2 | 24687,5 | 88,7 |
| 6 | Qaz Emali Zavodu | 6003,9 | 2427,4 | 40,4 |
| 7 | "Neft Kəmərləri" İdarəsi | 4501,0 | 4953,0 | 110,0 |
| 8 | H.Əliyev ad. Bakı Dərin Özüllər Zavodu | 6431,6 | 688,5 | 10,7 |
| 9 | Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 475,0 | 53,5 | 11,3 |
| 10 | Geofizika və Geologiya İdarəsi | 4612,8 | 18629,5 | 403,9 |
| 11 | Sosial İnkişaf İdarəsi | 133847,0 | 123351,7 | 92,2 |
| 12 | Sərmayələr İdarəsi | 40,0 | 13,2 | 33,0 |
| 13 | Təhlükəsizlik İdarəsi | 590,0 | 667,5 | 113,1 |
| 14 | Ekologiya İdarəsi | 8528,7 | 1142,2 | 13,4 |
| 15 | Qaz İxrac İdarəsi | 6228,9 | 786,6 | 12,6 |
| 16 | İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | 10730,6 | 8287,7 | 77,2 |
| 17 | Xəzər Dəniz Neft Donanması | 32655,0 | 5716,6 | 17,5 |
| 18 | "Neftqaztikinti" Tresti | 11621,3 | 10001,9 | 86,1 |
| 19 | "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 5950,0 | 2922,3 | 49,1 |
| 20 | "Kompleks Qazma İşləri" Tresti | 13520,4 | 115304,2 | 852,8 |

ARDNŞ-nın təşkilatları üzrə 2010-cu ildə əsas fondlar üzrə quraşdırılması tələb olunmayan avadanlıqların alınması aşağıdakı kimi olmuşdur:

**ARDNŞ-nın təşkilatları üzrə əsas fondlar üzrə quraşdırılması tələb olunmayan avadanlıqların alınması (2010-cu il)**

**Cədvəl XIII-5**

min manat

| № | Müəssisələrin adı | Plan | Fakt | % |
|---|---|---|---|---|
| 1 | "Azneft" İB | 29705,3 | 58917,1 | 198,3 |
| 2 | "Azəriqaz" İB | 16175,5 | 70163,8 | 433,8 |
| 3 | "Azərikimya" İB | | 493,7 | |
| 4 | "Azərneftyağ" Neft Emalı Zavodu | 2575,0 | 1958,7 | 76,1 |
| 5 | H.Əliyev ad. Bakı Neft Emalı Zavodu | 5397,2 | 14919,6 | 276,4 |
| 6 | Qaz Emalı Zavodu | 2400,0 | 2427,4 | 101,1 |
| 7 | "Neft Kəmərləri" İdarəsi | 2800,0 | 2252,9 | 80,5 |
| 8 | H.Əliyev ad. Bakı Dərin Özüllər Zavodu | 1398,0 | 688,5 | 49,2 |
| 9 | Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 475,0 | 53,5 | 11,3 |
| 10 | Geofizika və Geologiya İdarəsi | 3824,9 | 18629,5 | 487,1 |
| 11 | Sosial İnkişaf İdarəsi | 12000,0 | 45462,7 | 378,9 |
| 12 | Sərmayələr İdarəsi | 40,0 | 13,2 | 33,0 |
| 13 | Təhlükəsizlik İdarəsi | 590,0 | 667,5 | 113,1 |
| 14 | Ekologiya İdarəsi | 1807,0 | 1142,2 | 63,2 |
| 15 | Qaz İxrac İdarəsi | 600,0 | 786,6 | 131,1 |
| 16 | İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | 4567,0 | 8287,7 | 181,5 |
| 17 | Xəzər Dəniz Neft Donanması | 30904,0 | 5716,6 | 18,5 |
| 18 | "Neftqaztikinti" tresti | 8688,3 | 7957,2 | 91,6 |
| 19 | "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 3000,0 | 2863,9 | 95,5 |
| 20 | "Kompleks Qazma İşləri" Tresti | 10020,4 | 115304,2 | 11,5d |

ARDNŞ üzrə 2010-ci ildə 21178 $m^2$ yaşayış binası təhvil verilmişdir. 2009-cu ildə bu göstərici 11575 $m^2$ olmuşdur




# XIV. ƏSASLI TƏMIR

2010-ci ildə ARDNŞ üzrə yerinə yetirilən əsaslı təmir işlərinin həcmi 435500.2 min manat (plan 225550.7 min manat) təşkıl edmişdır.

2010-cu ildə ARDNŞ-nin strukturuna daxil olan təşkilatlar üzrə əsas fondların əsaslı təmiri işlərinin yerinə yetirilməsi aşağıdakı cədvəldə göstərilir:

**Cədvəl XIV-1** min manatla

| №-si | SİFARİŞÇİ TƏŞKİLATLAR | 2010-cu il üzrə proqram | 2010-cu ildə yerinə yetirilib | 2009-cu ildə yerinə yetirilib |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 5 | 6 |
| 1 | "Azneft" İB | 60000,0 | 94518,4 | 59952.9 |
| 2 | "Azəriqaz" İB | 33511,5 | 109963,0 | 1532.4 |
| 3 | "Azərikimya" İB | 16545,3 | 7135.2 | - |
| 4 | H.Əliyev ad. BNEZ | 17000,0 | 12047,8 | 7361.7 |
| 5 | "Azneftyap" NEZ | 10000,0 | 11849,7 | 6703.9 |
| 6 | Qaz Emalı zavodu | 5000,0 | 4999.1 | 5015.8 |
| 7 | H.Əliyev ad. BDUZ | 2000,0 | 2544,9 | 1089.4 |
| 8 | Neft Kəmərləri İdarəsi | 8000,0 | 11277,3 | 10914.7 |
| 9 | Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 1500,0 | 250,9 | 11.4 |
| 10 | "Geofizika Geologiyası" İB | 1679,9 | 389,9 | 378.9 |
| 11 | Sosial İnkişaf İdarəsi | 60000,0 | 173973.2 | 96051.4 |
| | o cümlədən: | | | |
| 11.1 | ARDNŞ-nin obyektləri üzrə | 12000,0 | 24302.77 | 8816.28 |
| 11.2 | Regionlar üzrə yerinə yetirilmiş ə/təmir işləri | 5000,0 | 33665.09 | 12713.18 |
| 11.3 | Bakı ş. İcra Hakimiyyətinin məktubuna əsasən | 43000,0 | 116005.3 | 74511.89 |
| 12 | Təhlükəsizlik İdarəsi | 180,0 | 0,0 | 0.0 |
| 13 | İnformasiya Texnoloqiyaları və Rabitə İdarəsi | 1161,3 | 157.6 | 54.3 |
| 14 | Ekologiya İdarəsi | 398,8 | 58.1 | 251.0 |
| 15 | Xarici Sərmayələr İdarəsi | 0,0 | 0,0 | 0.0 |
| 16 | "Qaz İxrac" İdarəsi (Qaz Əməliyyatları İdarəsi) | 0,0 | 17,8 | 1178.6 |
| 17 | Neftqaztikinti Tresti | 850,1 | 1148,1 | 905.4 |
| 18 | Kompleks Qazma İşləri Tresti | 2000,0 | 153,3 | 613.4 |
| 19 | Xəzər Dəniz Neft Donanması | 2723,8 | 3508,2 | 1177.5 |
| 20 | Neftqazelmitətqiqatlayihə İnstitutu | 3000,0 | 1498,8 | 1842.0 |
| | **ARDNŞ üzrə cəmi:** | **225550.7** | **435500.2** | **195034.7** |

**ARDNŞ üzrə 2010-cu ildə yerinə yetirilmiş əsaslı təmir işləri (min man)**




**Qrafik XIV 1**

Cədvəldən göründüyü kimi, 2010-cu ildə neft hasilatının stabilləşdirilməsi və qaz hasilatının artırılması məqsədilə mütərəqqi qazma texnologiyalarını tədbiq etməklə yüksək hasilatlı neftqaz quyularının qazılması, hasil olunan neft və qazın yığılması, hazırlanması və nəqli üçün müasir infrastrukturun yaradılması və mövcud sistemin yenidənqurulması və təmiri istiqamətində mühüm işlər görülmüşdür. Neftin sahilə fasiləsiz və etibarlı nəqli üçün 2010-ci ildə Neft Daşları –Dübəndi arası 500mm-lik sualtı neft kəməri əsaslı təmir olunmuşdur. "Günəşli", Neft Daşları, "Palçiq Pilpiləsi" və sair dəniz yataqlarında neftin və qazın yığım-nəql sisteminin fasiləsiz və etibarlı istismarı məqsədilə, özüllərin, müxtəlif diametrli sualtı neftqaz xətləri və müvafiq kommunikasiya sistemlərinin əsaslı təmiri istiqamətində işlərin həcmi 94518,4 min manat olmuşdur. O cümlədən dəniz neft-mədən hidrotexniki qurğuların təmiri üzrə 53375,7 min manat təmir işləri yerinə yetirilmişdir. Cəmi L=2174 pm estakada və S=10155 $m^2$ meydançaların əsaslı təmiri başa çatdırılaraq dövlət qəbul komissiyası tərəfindən istismara qəbul edilmişdir.

"Günəşli" yatağında 5 və 8 saylı DDÖ-lərdə yaşayış bloklarının əsaslı təmiri başa çatdırılmış və yaxın günlərdə dövlət qəbul komissiyasının təyin olunması nəzərdə tutulmuşdur.

Eyni zamanda Respublika ərazisində yaşayış məntəqələrinin fasiləsiz, təhlükəsiz qaz təchizatı və xaricə qaz ixracının artırılması üçün movcud infrastrukturun, kompessor və qazpaylayıcı stansiyaların, avadanlıqların uzun müddət istismarda olduqlarını nəzərə alaraq onların təmiri və bərpası istiqamətində 2010-cu ildə 109963.0 min manat həcmində işlər görülmüşdür. O cümlədən:

- Siyəzən KS-nın təmiri başa çatdırılıb
- Hacıqabul KS-nin təmiri başa çatdırılıb
- Korroziyaya uğramış qaz xətlərinin dəyişdirilməsi – 1558 km



- Dş1200mm-lik Astara-Qazıməmməd  və Qazıməmməd-Mozdok magistral qaz kəmərlərinin 10 km-dən artıq hissələrinin təmiri
- Yevlax-Şəki-Balakən qaz kəmərinin 10.5 km hissəsinin təmiri
- Müxtəlif istiqamətlərdə Dş700mm qaz kəmərlərinin təmiri – 15.5km
- Qaz sayqaclarının quraşdırılması – 141628 ədəd

Emal sahəsində əsasən emalın səviyyəsinin dərinləşdirilməsi və ekoloji cəhətdən daha təmiz yanacaq istehsal olunması məqsədilə mövcud qurğuların və yanacağın saxlanması və nəqli üçün kommunikasiya sistemlərinin əsaslı təmirinə diqqət artırılmışdır. Neft və qazın emalı sahəsində 2010-cu ildə yerinə yetiirilmiş əsaslı təmir işlərinin həcmi 28896.6 min manat təşkil edir.

H.Əliyev adına NEZ-da neftin ilkin emalı qurğusu (ELOAVT-6), koks qurğusu (43 saylı), reforminq qurğusu və reagent təsərrüfatı qurğuları əsaslı təmir olunmuşdur.( 12047.8 min manat.)

"Azərneftyağ" zavodunda yağların hidrotəmizləmə qurğusu (43 saylı),bitum qurğusu (401 saylı), 202 və 305  saylı qurğularında 2010-cu ildə əsaslı təmir işləri aparılmışdır. ( 11849.7 min manat.)

"Azərkimya" İB-də mövcud  texnoloji qurğuların, elektrik təsərrüfatı və sosial xarakterli obyektlərin əsaslı təmiri üzrə 2010-cu ildə 7135.2 min manata yaxın əsaslı təmir işləri yerinə yetirilmişdir.

Sosial İnkişaf İdarəsi tərəfindən 2010-cu ildə ( 173973.2 min manat) ARDNŞ-nin balansında olan əsas fondların  təmiri ilə yanaşı Respublikanın regionlarında və Bakı şəhəri İH-nin sosial  layihələrı üzrə də əsaslı təmir işləri görülmüşdür:

- ARDNŞ-nin obyektlərinin əsaslı təmiri  -  24302.77 min manat
- Bakı şəhəri İH-nin obyektləri üzrə     -   116005.3 min manat
- Regionlarda sosial obyektlər üzrə   -  33665.09 min manat

Bu obyektlərin təmiri Azərbaycan Respublikası Prezidentinin məlum Sərəncamları ilə təsdiq edilmiş "2009-2013-cu illərdə Bakı şəhəri və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"  və "Azərbaycan Respublikası regionların 2009-2013-cü illərdə  sosial iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçirilir.

Layihə-smeta sənədlərinin ekspertizası şöbəsi üzrə

2010-cu il ərzində ekspertiza olunmaq üçün şöbəyə 34 obyektin layihə-smeta sənədləri daxil olmuşdur. Bütün obyektlərin layihə-smeta sənədləri şöbədə araşdırılmış, sənədlərdə aşkar olunmuş çatışmazlıqlar işçi qaydada layihə təşkilatı tərəfindən aradan qaldırılmış, şirkətin müvafiq struktur bölmələri ilə birlikdə müzakirəsi təşkil olunmuş və razılaşdırılmış və təsdiq olunmaq üçün təqdim edilmişdir. Təqdim olunmuş layihə-smeta sənədlərindən 1 obyektin layihə-smeta sənədləri təshih olunmaq üçün qaytarılmış, 1 obyektin layihə-smeta sənədləri tam olmadığı üçün geri qaytarılmış, 1 obyektin layihə-smeta sənədləri obyektin tikintisi hal-hazırda məqsədəuyğun olmadığı üçün təsdiq olunmamışdır. Təsdiq olunmuş obyektlərin layihə-smeta sənədlərində tikinti norma və qaydalarının tələblərinə uyğun olmayan xərclərin düzəldilməsi artıq hesablanmış iş həcmlərinin azaldılması nəticəsində tikinti-quraşdırma işlərinin dəyəri 1991-ci il bazis qiymətləri ilə cəmi 995,32 min manat həcmində azalmışdır. Təqdim olunmuş layihə-smeta

sənədlərindən 4 obyekt ekoloji sahə üzrə, 5 obyekt sosial sahə üzrə olan obyektlərdir. Təqdim olunmuş layihə-smeta sənədlərindən biri özəl layihə təşkilatı tərəfindən, 33-ü isə ARDNŞ-nin "Neftqazelmitədqiqatlayihə" institutu tərəfindən hazırlanıb.

2010-cu il ərzində ARDNŞ-də təsdiq olunmaq üçün təqdim edilmiş 224 obyektin layihə tapşırığı şöbə tərəfindən araşdırılmışdır. Onlardan 15 obyektin layihə tapşırığının təsdiq olunması məqsədəuyğun hesab edilməmişdir. 209 obyektin layihə tapşırığı araşdırılmış, iradlar işçi qaydada sifarişçi təşkilatlar tərəfindən aradan qaldırılmış, Şirkətin müvafiq struktur bölmələri ilə razılaşdırılmış (NQÇİ-lər üzrə lay məhsullarının yığım-nəql sisteminin yenidən qurulması obyektlərinin layihə tapşırıqlarının şirkətin müvafiq struktur bölmələrinin, sifarişçi və layihəçi təşkilatların nümayəndələrinin iştirakı ilə müzakirəsi təşkil edilmişdir) və təsdiq olunmaq üçün təqdim edilmişdir.

2010-cu ildə "Neftqazelmitədqiqatlayihə" institutu tərəfindən yenidən işlənərək təsdiq olunmaq üçün təqdim edilmiş "Xəzər dənizində neftqazmədən hidrotexniki qurğularının istismarı" MS 1669347-13-2009 "Müəssisə standartı" normativ sənədi araşdırılmış, irad və təkliflərlə yenidən işlənməsi üçün instituta qaytarılmış, institut tərəfindən müvafiq düzəlişlər aparıldıqdan sonra, Şirkətin müvafiq struktur bölmələri ilə razılaşdırıldıqdan sonra təsdiq olunmaq üçün təqdim edilmişdir.

"Neftqazelmitədqiqatlayihə" institutu tərəfindən hazırlanmış "Neft və Qaz quyularının tikintisi üçün layihə-smeta sənədlərinin tərkibi, hazırlanması, razılaşdırılması və təsdiq edilməsi qaydaları üzrə" təlimat araşdırılmış, irad və təkliflərlə yenidən işlənməsi üçün instituta qaytarılmışdır.

Hesabat ili ərzində şöbənin funksiyalarına daxil olan digər işlər vaxtında və tələb olunan səviyyədə yerinə yetirilmişdir.

Tikinti-təmir işlərinə nəsarət şöbəsi üzrə Kapital Qoyuluşları İdarəsinin Tikinti-təmir işlərinə nəzarət şöbəsinin əsas fəaliyyəti ARDNŞ-ın Kapital Qoyuluşları İdarəsi üzrə əsaslı tikinti və əsaslı təmir planlarının ARDNŞ-in struktur təşkilatları tərəfindən vaxtında yüksək keyfiyyətlə, layihə smeta sənədlərinə uyğun yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsindən ibarətdir.

Hesabat dövrü ərzində şöbə tərəfindən ARDNŞ-in tərkibinə daxil olan: "Azneft" İB, "Geofizika və Geoloiya" İdarəsi,"Neft Kəmərləri" İdarəsi , H.Əliyev adına Bakı neft emalı zavodu, "Azərneftyağ" neft emalı zavodu, H.Əliyev adına Bakı dərin özüllər zavodu, "Azərkimya"İB,"Sosial İnkişaf" İdarəsi, "Ekologiya" İdarəsi, Xəzər Dəniz Neft Donanması, "Kompleks qazma işləri" tresti, "Qaz emalı zavodu", "Neftqazelmitədqiqatlayihə" İnstitutu struktur təşkilatlarında əsaslı tikinti və əsaslı təmir planlarının icrasına cəlb olunmuş podratçı təşkilatların gücü ilə yerinə yetirilən TQİ-yə nəzarət edilmişdir. Eyni zamanda bir sıra təşkilatlarda ayrı-ayrı obyektlər üzrə fiziki iş həcmlərinin qəbulu yoxlanılmışdır.

Şöbə tərəfindən "Azneft" İB-in "H.Z.Tağıyev adına NQÇİ-nin Qala sahəsində 1 və 2 saylı neft məntəqələrini qidalandıran 2kv-luq elektrik şəbəkənin 6kv-luq gərginliyə keçirilməsi stansiyasının yenidən qurulması", "Azəriqaz" İB-in "530mm-lik Oğuz qaz kəməri qolunun əsaslı təmiri", "0-5km arası Turan kəndi ərazisində qanunsuz tikililərlə əlaqədar kəmərin təhlükəsiz yerə köçürülməsi", "Kompleks Qazma İşləri Trestinin

"Neft əsaslı məhlul və benzoyl çənlərinin tikintisi", "Neftqazelmitədqiqatlayihə" İnstitutun "9 mərtəbəli istehsalat korpusunun əsaslı təmiri" və "5 mərtəbəli laboratoriya binasının tikintisi", "Ekologiya" İdarəsinin "H.Z.Tağıyev adına NQÇİ-nin ərazisində 9.3 ha sahədə şitilliyin salınması"(inzibati bina və təsərrüfat obyektləri daxil olmaqla,təshih) və "H.Z.Tağıyev adına NQÇİ-nin ərazisində ekoloji parkın yaradılması", H.Əliyev adına BNEZ-in "9 saylı sexin içməli və texniki su təchizatı sahəsində 257/1 və 257/2 tutumların təmiri", H.Əliyev adına Bakı dərin özüllər zavodunun "9 saylı və 6 saylı sexlərin dam örtüklərinin əsaslı təmiri", "Neft Kəmərləri" İdarəsinin "Dübəndi-Böyükşor D300mm,D500mm və D700mm neft kəmərlərinin təmiri" və "Nəqliyyat sexinin 3 saylı avtodəstəsində mexaniki sexin təmiri" obyektlərində fiziki iş həcmlərinin qəbulu və sənədləşdirilməsi, TQİ-nin keyfiyyəti bilavasitə yerində yoxlanılmışdır.Yoxlama nəticəsində aşkar olunmuş qüsurlar müvafiq təşkilatın tikinti rəhbərlərinin nəzərinə çatdırılmış və bu qüsurların aradan qaldırılmasına nəzarət edilmişdir.



Aparılan araşdırma nəticəsində məlum olmuşdur ki, obyektlərdə bütün təşkilatlar üçün xarakterik olan bir sıra çatışmazlıqlar vardır. Belə ki, tikinti quraşdırma işləri bəzi obyektlərdə düzgün sənədləşdirilmir, bəzi obyektlərdə layihə smeta sənədləri tərtib olunmadan yerinə yetirilir, bəzi obyektlərdə təsdiq olunmuş layihə smeta sənədlərinə əsasən inşaat işləri aparılan dövrdə bu layihə sənədlərinin tərkib hissəsi olan Tikintinin Təşkili Planın tələblərinə axıra kimi əməl edilmir, təmir tikinti işlərinin keyfiyyətində,istifadə olunan materialların keyfiyyətində qüsurlara yol verilir. Həmçinin, yerlərdə podratçı təşkilatlar tərəfindən İşlərin İcrası Planı tərtib olunmadan işlər aparılır. Bütün bunlar tikintinin maya dəyərinin artmasına və tikinti müddətinin üzanmasına səbəb olur.

Odur ki, şöbə tərəfindən 2010-cu ilin yekunlarına əsasən təşkilatlarda əsaslı tikinti və əsaslı təmir proqramlarının yerinə yetirilməsinin təhlili aparılmış, görülən işlərin dəyərinin artmasına səbəb olan amillərin aradan qaldırılması və işlərin daha keyfiyyətli yerinə yetirilməsi üçün tədbirlər görülmüşdür.

Şöbə öz fəaliyyəti dövründə Azərbaycan Respublikasının mövcud qanunlarını, digər normativ-hüquqi aktları, ARDNŞ-nin əmr, qərar və sərəncamlarını şirkətin normativ sənədlərini, ARDNŞ-nin Prezidentinin, Kapital Qoyuluşları İdarəsi rəisinin tapşırıq və göstərişlərini rəhbər tutmuşdur.

# XV. MADDİ-TEXNİKİ TƏCHİZAT

Təchizat İdarəsinin əsas vəzifələri ARDNŞ-nin müəssisələrinin material ehtiyatlarına olan ümumi tələbatının təhlili, proqnozlaşdırılması və təchizatı, keçirilən satınalma əməliyyatlarında metodik köməklik göstərilməsindən ibarətdir.

İdarə tərəfindən 2010-cu ildə neft və qaz hasilatının sabit saxlanmasında, tikinti, qazıma, emal və digər sahələrdə işlərin görülməsinə tələb olunan material ehtiyatları üzrə aylıq satınalma əməliyyatları haqqında hesabatların vaxtlı-vaxtında alınması təmin edilmiş, il ərzində aparılmış belə əməliyyatların, habelə tərtib edilmiş hesabatların düzgünlüyü müvafiq qaydada araşdırılmışdır.



ARDNŞ üzrə satınalmaların "ARDNŞ-nin satınalmaların təşkili və idarə olunması üzrə normativ sənədləri"nə uyğun aparılmasına bilavasitə nəzarətin gücləndirilməsi məqsədilə, Şirkətin müəssisə və təşkilatlarında keçirilən satınalma əməliyyatları zamanı, yaradılan satınalmalar qruplarının iş prosesinə Təchizat İdarəsinin mütəxəssisləri tərəfindən nəzarət edilmişdir.

İdarəyə ayrı-ayrı tədarükçü və istehsalçılardan daim daxil olan təkliflər öyrənilmiş, araşdırılmış, müvafiq strukturlar bu təkliflərlə məlumatlandırılmışdır. Həmin təkliflərdən

və istehsalçıların internet saytlarından əldə edilmiş qiymət göstəriciləri idarənin mütəxəssisləri tərəfindən təhlil edilmiş, və struktur bölmələrinin satınalma qruplarının iş prosesi zamanı "qiymət nəzarəti" amili kimi istifadə edilmişdir.

Şirkətin müəssisələrinin anbarlarında olan material ehtiyatlarının qalıqlarının məqsədyönlü istifadə edilməsini, qalıq əmələ gətirən material ehtiyatların alınmasına yol verilməməsini və ayrılmış maliyyə vəsaitinə uyğun ən zəruri material ehtiyatlarının alınmasını təmin etmək məqsədilə mütəmadi olaraq anbar qalıqları barədə təqdim olunmuş aylıq arayışlar əsasında yerlərdə anbarlara nəzarət edilmişdir.

ARDNŞ-nin struktur bölmələri tərəfindən təqdim olunmuş arayışlara əsasən 2010-cu ildə material ehtiyatlarının alınmasına 901954,18 min manat sərf edilmişdir.

**Cədvəl XV-1**

| Struktur bölmələrinin adı | İl ərzində material ehtiyatlarına sərf edilən məbləğ (min man) |
|---|---|
| "Azneft" İB | 163602,4 |
| H.Əliyev adına BNEZ | 22559,65 |
| Azərneftyağ NEZ | 3712,98 |
| H.Əliyev adına BDÖZ | 23097,99 |
| Xəzər Dəniz Neft Donanması | 44789,98 |
| Sosial İnkişaf İdarəsi | 70502,8 |
| Geofizika və Geologiya İdarəsi | 26203,64 |
| Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 158,6 |
| İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | 27576 |
| Qaz İxrac İdarəsi | 1513,3 |
| "Neft Kəmərləri" İdarəsi | 4779,74 |
| Ekologiya İdarəsi | 2171,87 |
| Təhlükəsizlik İdarəsi | 324,5 |
| "Kompleks Qazma İşləri" Tresti | 98677,21 |
| "Neftqaztikinti" Tresti | 289303,01 |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 807,45 |
| "Azəriqaz" İB | 113998,12 |
| "Qaz Emalı zavodu" | 8174,94 |
| **Cəmi ARDNŞ üzrə:** | **901954,18** |

## 2010-cu il üzrə ARDNŞ müəssisələrində material ehtiyatlarına sərf edilən məbləğ (min manat)

Cəmi ARDNŞ üzrə
901954,18 min man

**Qrafik XV - 1**



# XVI. ELM VƏ TEXNİKA

ARDNŞ-nin tərkibində iki elmi-tədqiqat və layihə institutu fəaliyyət göstərir – "Neftqazelmitədqiqatlayihə" institutu və "Geofizika" ETİ. Bu institutlarda 1264 nəfər işçi çalışir ki, onlardan 150 nəfər elmi dərəcəyə, o cümlədən 28 nəfər elmlər doktoru və 122 nəfər fəlsəfə doktoru elmi dərəcəsinə malikdir. İnstitutlar üzrə bu göstəricilər aşağıdakı cədvəldə verilir:

**Cədvəl XVI-1**

| İnstitutun adı | İşçilərin sayı | Elmi dərəcəli işçilərin sayı | | |
|---|---|---|---|---|
| | | Elmlər doktoru | Fəlsəfə doktoru | Cəmi |
| "Neftqazelmitədqiqatlayihə" institutu | 1096 | 23 | 116 | 139 |
| "Geofizika" ETİ | 168 | 5 | 6 | 11 |
| Cəmi: | 1264 | 28 | 122 | 150 |

2010-cu il üzrə ARDNŞ-nin institutlarında
elmi dərəcəsi olan işçilərin sayı




**Qrafik XVI 1**





"Neftqazelmitədqiqatlayihə" institutu və "Geofizika" ETİ-nin nəzdində neft sahəsi üçün yüksək ixtisaslı elmi kadrlar hazırlayan doktoranturalar fəaliyyət göstərir. Bu doktoranturalarda hazırda 22 nəfər kadr hazırlanır.

ARDNŞ-nin müəssisələri üzrə yaranan hər hansı bir elmi problemin həlli üçün institutlarda aparılan elmi-tədqiqat işlərinin tənzimlənməsi və ona nəzarət edilməsi məqsədi ilə, hər ilin əvvəlində ARDNŞ-nin rəhbərliyi tərəfindən təsdiq edilən "Elmi-tədqiqat, təcrübi-sınaq, normativ sənədlərin işlənməsi və tətbiqinə dair işlərin Tematik planı" tərtib olunur. Tematik planda qoyulan problemlərin həllinə əsasən ARDNŞ-nin aparıcı elmi-tədqiqat və layihə müəssisəsi olan "Neftqazelmitədqiqatlayihə" institutu cəlb olunur.

2010-cu ildə ARDNŞ-nin ETİ-ləri, "İnformasiya Texnologiyaları və Rabitə" İdarəsi və "Azəriqaz" İB və kənar təşkilatlar tərəfindən 107 yeni mövzu və 29 əvvəlki illərdən keçici mövzular üzrə elmi-tədqiqat işləri aparılmışdır. Tematik plana ARDNŞ-nin müxtəlif fəaliyyət istiqamətlərini əhatə edən normativ sənədlər (standartlar, qaydalar, təlimatlar və s.) də daxil edilmişdir. Bu göstəricilər aşağıdakı cədvəldə verilir:

**ARDNŞ-nin müəssisələri və kənar təşkilatları tərəfindən 2010-cu ildə yerinə yetirilən elmi-tədqiqat işləri**

**Cədvəl XVI-2**

| **2010 -CU İL ÜÇÜN ARDNŞ-nin MÜƏSSİSƏLƏRİ ÜZRƏ İŞLƏRİN YEKUN SAYI: 136 o cümlədən: keçid işlər - 29 yeni işlər - 107** | | **"Neftqazelmitədqiqatlayihə" institutu** | | **"Geofizika" ETİ** | | **İTRİ** | | **"Azəriqaz" İB** | | **Kənar təşkilatlar** | | **C Ə M İ:** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | keçid | yeni | keçid | yeni | keçid | yeni | keçid | yeni | keçid | yeni | keçid | yeni | |
| **"Azneft" İB** | keçid | **15** | | **3** | | | | | | **5** | | **23** | | **100** |
| | yeni | | **51** | | **6** | | **2** | | | | **18** | | **77** | |
| **"Azəriqaz" İB** | keçid | | | | | | | | | | | **0** | | **4** |
| | yeni | | **2** | | | | **1** | | **1** | | | | **4** | |
| **"Geofizika və geologiya" idarəsi** | keçid | | | **2** | | | | | | | | **2** | | **3** |
| | yeni | | | | **1** | | | | | | | | **1** | |
| **"Kompleks Qazma işləri" tresti** | keçid | **2** | | | | | | | | | | **2** | | **13** |
| | yeni | | **7** | | | | **1** | | | | **3** | | **11** | |
| **"Mədəngeofizika" tresti** | keçid | | | **1** | | | | | | | | **1** | | **3** |
| | yeni | | | | **2** | | | | | | | | **2** | |
| **H.Əliyev adına BDÖZ** | keçid | | | | | | | | | | | **0** | | **1** |
| | yeni | | **1** | | | | | | | | | | **1** | |
| **"Neftqaztikinti" tresti** | keçid | | | | | | | | | | | **0** | | **3** |
| | yeni | | **3** | | | | | | | | | | **3** | |
| **"Qaz İxrac" idarəsi** | keçid | **1** | | | | | | | | | | **1** | | **1** |
| | yeni | | | | | | | | | | | | **0** | |

| 2010 -CU İL ÜÇÜN ARDNŞ-nin MÜƏSSİSƏLƏRİ ÜZRƏ İŞLƏRİN YEKUN SAYI: 136 o cümlədən: keçid işlər - 29 yeni işlər - 107 | | "Neftqazelmitəd-qiqatlayihə" institutu | | "Geofizika" ETİ | | İTRİ | | "Azəriqaz" İB | | Kənar təşkilatlar | | C Ə M İ: | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| "Qaz İxrac" idarəsi | keçid | 1 | | | | | | | | | | 1 | | 1 |
| | yeni | | | | | | | | | | | | 0 | |
| "Neft Kəmərləri" idarəsi | keçid | | | | | | | | | | | 0 | | 1 |
| | yeni | | | | | | | | | | 1 | | 1 | |
| ARDNŞ | keçid | | | | | | | | | | | 0 | | 7 |
| | yeni | | 2 | | | | | | | | 5 | | 7 | |
| C Ə M İ: | keçid | 18 | | 6 | | 0 | | 0 | | 5 | | 29 | | 136 |
| | yeni | | 66 | | 9 | | 4 | | 1 | | 27 | | 107 | |
| | | 84 | | 15 | | 4 | | 1 | | 32 | | 136 | | |

## 2010-cu ildə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin sayı (Cəmi: 136 iş; 107 yeni və 29 keçid işi)




**Qrafik XVI - 2**





ARDNŞ-nin müxtəlif idarə və təşkilatlarının sifarişi üzrə Respublikanın 13 kənar təşkilatları ilə, o cümlədən, ADNA-nın "Neftin, qazın geotexnoloji problemləri və kimya" ETİ, AMEA-nın "Neft-kimya prosesləri" institutu (NKPİ), "Neftqazavtomat" EİM, Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-tədqiqat institutu (AzDƏMTT ETİ), "İnformasiya və Kommunikasiya Texnologiyaları Mərkəzi", Azərbaycan Mühəndislik Akademiyası (AMA), AMEA-nın Geologiya İnstitutu, Azərbaycan Texniki Universiteti, ADNA, "Şərq" ETM və "Ustad" firması tərəfindən 32 mövzu (onlardan 27 yeni, 5 keçid işlər) üzrə elmi-tədqiqat işləri aparılmışdır.

Cədvəldən göründüyü kimi, Tematik plan üzrə ARDNŞ-nin strukturuna daxil olan "Azneft" İB-nin NQÇİ-lərlə birlikdə (100 mövzu), "Azəriqaz" İB-nin (4) "Geofizika və Geologiya" idarəsinin (3 mövzu), "Kompleks Qazma İşləri" trestinin (13 mövzu), "Mədəngeofizika" idarəsinin (3 mövzu), H.Əliyev ad. BDÖZ-ün (1 mövzu), "Neftqaztikinti" trestinin (3 mövzu), "Qaz İxrac" idarəsinin (1 mövzu), "Neft kəmərləri" idarəsinin (1 mövzu), ARDNŞ Baş ofisinin (7 mövzu) sifarişləri ilə "Neftqazelmitədqiqatlayihə" İnstitutu (84 mövzu), "Geofizika" ETİ (15 mövzu), "Azəriqaz" İB (1 mövzu), "İnformasiya Texnologiyaları və Rabitə" İdarəsi (4 mövzu) və kənar təşkilatlar (32 mövzu) tərəfindən cəmi 136 mövzu üzrə elmi-tədqiqat işləri aparılmışdır.

ARDNŞ-nin institutlarının 2010-cu ildəki fəaliyyəti ilə bağlı aşağıda qısa məlumat verilir:

"Neftqazelmitədqiqatlayihə" institutunun gəlir və xərclər smetasına əsasən 2010-cu il ərzində elmi-tədqiqat, layihə-axtarış-konstruktor (ETLAK) işləri üzrə 18581 min manat plana qarşı 19292 min manat həcmində, o cümlədən 19040 min manat öz qüvvəsi ilə, 252 min manat dəyərində iş kənar təşkilat tərəfindən icra edilmişdir.

2010-cu il ərzində institut tərəfindən 8483 min manat həcmində 89 elmi-tədqiqat işləri icra edilmişdir ki, onlardan da əsas hissəsi, yəni 64 mövzu üzrə 6045 min manat "Azneft" İB üzrə təşkil etmişdir

İnstitutun ARDNŞ-nin digər müəssisələri ilə bağlanmış 18 müqavilə üzrə faktiki yerinə yetirilən elmi-tədqiqat işlərinin həcmi 14 mövzu üzrə 1855,711 min manat təşkil etmişdir.

Layihə-axtarış işləri üzrə plan tapşırıqları 106,8% yerinə yetirilmişdir. Belə ki, layihə sahəsi üzrə 2010-cu ildə yerinə yetirilməsi nəzərdə tutulan 10120,903 min manat həcmində layihə-axtarış-konstruktor (LAK) işləri 10808,350 min manat təşkil etmişdir.

"Geofizika" ETİ hesabat dövründə tematik plan üzrə 15(6 keçid, 9 yeni), tematik plandan əlavə isə 1 yeni, cəmi 16 mövzu üzrə elmi-tədqiqat və təcrübi-metodik işləri aparmışdır. Onlardan 9-u (3 keçid, 6 yeni) "Azneft" İB, 7-si isə(3 keçid, 4 yeni) "Geofizika və Geologiya" İdarəsi ilə müqavilə əsaslı işlərdir.

Hesabat dövründə 8 mövzu üzrə elmi-tədqiqat işləri tamamlanmışdır. İki möv-

zu üzrə informasiya hesabatları dinlənilmiş, nəzərə alınmış və yerinə yetirilmiş işlər sifarişçi təşkilata – "Mədəngeofizika" İdarəsinə müvafiq qaydada aktla təhvil verilmişdir. 6 mövzu üzrə elmi-tədqiqat işlərinin bir hissəsi 2010-cu ilin iş proqramına uyğun olaraq 2011-cu ilə keçirilmişdir.

"Geofizika" ETİ 2010-cu ildə 16 mövzu üzrə 1748827 manat həcmində elmi-tədqiqat və təcrübi metodik işləri yerinə yetirmişdir. Bu işlər "Azneft" İB üzrə 1 333 167manat, "Geofizika və Geologiya" İdarəsi üzrə 238 827 manat və "Mədəngeofizika" İdarəsi üzrə 210 min manat təşkil etmişdir.

İnstitut 2010-cu ildə ARDNŞ-dən kənar təşkilatlara heç bir iş yerinə yetirməmişdir.

2010-cu il ərzində Baş ofisin Elm və texnika şöbəsinin təşəbbüsü və bilavasitə iştirakı ilə ARDNŞ-nin Elmi-Texniki Şurasının (ETŞ) iclaslarında Şirkətin tabeliyində olan müəssisələr üzrə elmi-tədqiqat, layihə-konstruktor və normativ sənədlərin işlənməsinə və tətbiqinə dair Tematik planlar müzakirə edilmiş və müvafiq düzəlişlərin aparılması tövsiyə edilmişdir. Bununla yanaşı elmi-texniki və texnoloji yeniliklərin ARDNŞ-nin müəssisələrində tətbiqinə dair məsələlər də ETŞ-nin iclaslarında geniş müzakirə edilmişdir.

"Azneft" İB-nin NQÇİ-də neftçıxarmanın səmərəliliyinin artırılması məqsədilə 2010-cu il ərzində 59 adda 740 obyektində, o cümlədən "Neftqazelmitədqiqatlayihə" institutu – 31, "Neftin, qazın geotexnoloji problemləri və kimya" ETİ (ADNA) – 5, "Azneft" İB – 4, "Neftqazavtomat" EİM – 12, "AzİNMAŞ" TASC – 2, "Neftmaş" XKB – 1, NQÇİ-lər – 3, "Tikinti Avtomatika Servis" MMC – 1 yeni texnika və texnologiya tədbirləri planlaşdırılmışdır.

Plan üzrə 2010-cu il üçün tətbiqi nəzərdə tutulmuş 59 adda yeni texnika və texnologiyalarından il ərzində 43 tədbir tam, 6 tədbir qismən, 10 tədbirin isə lazımi avadanlıq və reagentlərin əldə edilməməsi səbəbindən icrası mümkün olmamışdır.

Tam və qismən yerinə yetirilmiş 49 tədbir 740 obyektində tətbiq olunaraq 828 əməliyyatla başa çatdırılmışdır.

ARDNŞ-nin nailiyyətlərinin təbliğ olunmasında, sahə üzrə elmi-texniki yeniliklərin, qabaqcıl xarici təcrübənin öyrənilməsində beynəlxalq sərgi və konfranslarda iştirakının müstəsna əhəmiyyəti vardır.

Bununla bağlı 1-4 iyun 2010-cu ildə Bakı şəhərində ənənəvi olaraq keçirilmiş "Xəzər Neft, Qaz, Neftayırma və Neftkimyası" 17-ci Beynəlxalq Sərgi-Konfransını xüsusilə qeyd etmək lazımdır. ARDNŞ bu Sərgi-Konfransın təşkilində və keçirilməsində yaxından iştirak etmişdir. Sərgidə ARDNŞ-nin pavilyonunda Şirkətin fəaliyyətini, əldə etdiyi nailiyyətlərini əks etdirən eksponat, maket və yeniləşmiş bukletlər nümayiş etdirilmişdir.

2010-cu ilin iyul-avqust ayında əsas mövzusu "Enerji" müəyyən olunmuş İzmir Beynəlxalq Sərgisində, 2010-cu ilin oktyabr ayında Almatı şəhərində XVIII Qazaxıstan Beynəlxalq Neft Qaz Sərgi və Konfransında, noyabrın 5-də Daşkənddə




keçirilən Azərbaycan Milli Sərgisində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti də təmsil olunmuşdur. Dövlət Neft Şirkətinin pavilyonu sərgi iştirakçılarının böyük marağına səbəb olmuşdur. İştirakçıları maraqlandıran suallar ARDNŞ təmsilçiləri tərəfindən ətraflı cavablandırılmışdır.

Bakıda və Qazaxıstanda keçirilən sərgilərdə SOCAR milli neft qaz şirkətləri arasında"Ən yaxşı pavilyon dizaynı" mükafatına layiq görülmüşdür.

25.11.10-cu il tarixində ARDNŞ-nin Baş ofisi, müvafiq institut və müəssisələrinin mütəxəssislərinin iştirakı ilə Rusiya Federasiyasının "PSM-İMPEKS" MMC-nin istehsalı olan "Geyzer" adlı quyuların ştanqlı nasoslarla istismarı üçün hidravliki avtomatlaşdırılmış quyuüstü avadanlığın təsdiqetməsinə həsr olunmuş texniki yığıncaq keçirilmişdir.

2010-cu ildə şirkətin fəaliyyətini, texniki-iqtisadi göstəricilərini əks etdirən buklet, broşura və ARDNŞ-nin 2009-cu il üçün illik hesabatı nəfis şəkildə hazırlanmış, nəşri təşkil edilmiş və müvafiq təşkilatlara və yuxarı orqanlara çatdırılmışdır.




# XVII. KADRLARLA İŞ

**1. ARDNŞ-nin Baş ofisinin işçiləri və ARDNŞ müəssisələrinin rəhbər işçiləri haqqında**

1 yanvar 2011-ci il tarixə Azərbaycan  Respublikası Dövlət Neft Şirkətinin Baş ofisi üzrə işçilərin faktiki sayı 361 nəfər olmuşdur. Hesabat ili ərzində ARDNŞ-nin Baş ofisinə 58 nəfər işçi işə qəbul edilmişdir, onlardan 25 nəfəri ARDNŞ-nin müəssisələrindəndir.  İşə qəbul edilənlərdən 4 nəfərinə ilk iş yeri olduğuna görə əmək kitabçası açılmışdır. Həmin müddət ərzində 15 nəfər işdən azad olunmuşdur.

Hesabat dövrünün əvvəlinə Baş ofisdə işləyənlərdən 353 nəfəri rəhbər işçi və mütəxəssis, 8 nəfəri texniki icraçılardır. O cümlədən 112 nəfəri qadınlar, 27 nəfəri təqaüdçü, 74 nəfər isə yaşı 29-a qədər olan gənclərdir. Əməkdaşlardan 342 nəfəri ali təhsillidir, onlardan 3 nəfəri elmlər doktoru, 23 nəfəri isə elmlər namizədidir.

01 yanvar 2011-ci il tarixə şirkətin müəssisə və təşkilatları üzrə "ARDNŞ-nin Kadrların İdarə Edilməsi Komitəsinin təşkil edilməsi haqqında" 03 iyun 2010-cu il tarixli 72 nömrəli əmrə əsasən əmək müqavilələri ARDNŞ-nin prezidenti və Kadrların İdarə Edilməsi Komitəsi  ilə bağlanılan və xitam verilən 392 nəfər rəhbər işçi ilə əmək müqavilələri bağlanmışdır.

2010-cu ildə vəzifəyə təyin olunmaları ilə əlaqədar 167 nəfərlə ARDNŞ-nin prezidenti və Kadrların İdarə Edilməsi Komitəsi tərəfindən əmək müqaviləsi bağlanmış, 57 nəfərin əmək müqaviləsinə müvafiq dəyişikliklər edilmiş, 79 nəfərlə bağlanmış əmək müqaviləsinə isə xitam verilmişdir. O cümlədən, işçinin təşəbbüsü ilə 63 nəfər, əmək müqaviləsinin müddətinin bitməsi ilə əlaqədar 2 nəfər, müəssisənin ləğvi və ya ştatların ixtisarı ilə 12 nəfər, işçinin vəfatı ilə əlaqədar  2 nəfərlə bağlanmış əmək müqavilələrinə xitam verilmişdir.

Ümumilikdə 2010-cu il ərzində Baş ofis və nomenklatur ilə bağlı şəxsi heyət üzrə ARDNŞ-nin 180 əmri və Kadrların İdarə Edilməsi Komitəsinin 271 qərarı hazırlanmış və rəsmiləşdirilmişdir.

ARDNŞ-nin 11 yanvar 2006-cı il tarixli 02 nömrəli və 03 iyun 2010-cu il tarixli 72 nomrəli əmrlərinə uyğun olaraq vəzifəyə təyin edilməsi ARDNŞ-nin müvafiq struktur bölmələri ilə razılaşdırılan 330 nəfərin vəzifəyə təyin olunmasına şirkətin müvafiq struktur bölmələrinin rəhbərləri ilə razılaşdırılmaqla icazə verilmişdir. 7 nəfər təqdim olunan işçinin şəxsi işləri vəzifəyə təyin olunması məqsədəuyğun sayılmadığından geri qaytarılmışdır.

Qeyd etmək lazımdır ki, ARDNŞ üzrə SAP ERP sisteminin HR modulunun tətbiqi ilə əlaqədar şirkətin bütün strukturlarında kadrlar uçotunun avtomatlaşdırılması bu sistem vasitəsilə təmin olunmuşdur. Şirkətdə calışan işçilər haqqında məlumatlar sistemin bazasına tam daxil edilmiş, məzuniyyət, ezamiyyət, işə qəbul, başqa işə keçirmə və işdən azad olma əmrləri, digər məlumatlar, müxtəlif hesabatlar və statistik məlumatlar hazırda SAP ERP sistemi vasitəsi ilə aparılır.

ARDNŞ-nin Baş ofisinin işçilərinin və nomenklatura daxil olan rəhbər işçilərin əmək kitabçaları Kadrlar şöbəsində saxlanılır, onlara lazımi qeydlər edilir və müvafiq qaydada uçotu aparılır.

### 2. ARDNŞ üzrə işçilərin sayı, kateqoriyası, dinamikası və kadr axını

01 yanvar 2011-ci il tarixə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə işçilərin faktiki sayı keçən ilə nisbətən 10001 nəfər artaraq 79569 nəfər olmuşdur. Bu da əsasən Azərbaycan Respublikası Prezidentinin 02 aprel 2010-cu il tarixli 829 nömrəli Sərəncamı ilə "Azərikimya" Dövlət Şirkətinin 6134 nəfərlə "Azərikimya" İB kimi ARDNŞ-nin strukturuna daxil edilməsi ilə əlaqədardır. Eyni zamanda hesabat ilində işçilərin faktiki sayı "Azəriqaz" İB üzrə 2525 nəfər, Sosial İnlişaf İdarəsi üzrə 1038 nəfər, Təhlükəsizlik idarəsi üzrə 650 nəfər artmışdır. Şirkətin strukturuna daxil olan müəssisələr üzrə işçilərin faktiki sayı aşağıdakı cədvəldə göstərilmişdir

**ARDNŞ-nin strukturuna daxil olan müəssisələr üzrə işçilərin faktiki sayı**

**Cədvəl XVII-1**

(nəfər)

| Müəssisələrin adı | 01.01.2010 | 01.01.2011 |
|---|---|---|
| ARDNŞ-nin Baş ofisi | 318 | 361 |
| "Azneft" İB | 19505 | 18694 |
| "Azəriqaz" İB | 11404 | 13929 |
| "Azərikimya" İB | - | 5775 |
| Geofizika və Geologiya İdarəsi | 1661 | 1933 |
| Neft Kəmərləri İdarəsi | 1060 | 1143 |
| Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 914 | 754 |
| Sərmayələr İdarəsi | 45 | 47 |
| "Azərneftyağ" Neft Emalı Zavodu | 2326 | 2335 |
| H.Əliyev adına Bakı Neft Emalı Zavodu | 2474 | 2516 |
| H.Əliyev adına Bakı Dərin Ozüllər Zavodu | 1827 | 1744 |
| Qaz Emalı Zavodu | 626 | 657 |

| Müəssisələrin adı | 01.01.2010 | 01.01.2011 |
|---|---|---|
| Sosial İnkişaf İdarəsi | 6093 | 7131 |
| Təhlükəsizlik İdarəsi | 3848 | 4496 |
| Ekologiya İdarəsi | 285 | 324 |
| Qaz İxrac İdarəsi | 146 | 174 |
| İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | 817 | 860 |
| Xəzər Dəniz Neft Donanması | 4976 | 5266 |
| "Neftqaztikinti" Tresti | 4892 | 5263 |
| "Kompleks Qazma İşləri" Tresti | 5137 | 4900 |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 1052 | 1096 |
| "Əmək şəraiti normalarının işlənməsi" idarəsi | 89 | 92 |
| Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaksiyası | 19 | 22 |

01 yanvar 2011-ci il tarixə ARDNŞ üzrə faktiki işçilərin tərkibi aşağıdakı kimi olmuşdur:

**ARDNŞ-də işçilərin faktiki sayı (01.01.11-ci il tarixinə)**

| Cəmi | 79569 | % |
|---|---|---|
| Fəhlələr | 53163 | 66,8 |
| Rəhbər işçi və mütəxəssislər | 24413 | 30,7 |
| Texniki icraçılar | 1993 | 2,5 |
| qadınlar | 17665 | 22,2 |
| təqaüdçilər | 6375 | 8,0 |
| ali təhsillilər | 21760 | 27,3 |

ARDNŞ-də işçilərin faktiki sayı (01.01.11)




**Qrafik XVII - 1**

2010-cu ildə ARDNŞ-nin müəssisələrinə 24168 nəfər işə qəbul olunmuşdur.

O cümlədən:

- 10621 nəfər neft sənayesində daxili yerdəyişmə ilə əlaqədar;
- 13547 nəfər kənardan. Onlardan:

- 786 nəfər müvəqqəti mövsumi işçilər
- 45 nəfər hərbi xidmətdən qayıdanlar
- 19 nəfər məşğulluq mərkəzlərinin göndərişi əsasında
- 196 nəfər birgə layihələrdə işləyən işçilərin müqavilə müddətinin bitməsi ilə əlaqədar
- 41 nəfər ARDNŞ-nin Təlim-tədris Mərkəzindən
- 111 nəfər ARDNŞ-nin Təqaüd Proqramının məzunları
- 12349 nəfər istehsalat zərurəti ilə əlaqədar.

İl ərzində 20391 nəfər işçi işdən azad edilmişdir. O cümlədən:

- 7118 nəfər öz təşəbbüsü ilə
- 223 nəfər üzrsüz səbəbdən işə gəlməməsi (proqul) və başqa əmək pozuntularına görə
- 526 nəfər əmək müqaviləsinin müddətinin bitməsi ilə əlaqədar
- 19 nəfər hərbi xidmətə çağırışla əlaqədar
- 2769 nəfər müəssisənin ləğvi və ixtisarla əlaqədar
- 301 nəfər vəfat etdiyinə görə
- 212 nəfər səhhəti ilə əlaqədar
- 9223 nəfər başqa işəgötürənlə əmək müqaviləsinin bağlanması ilə əlaqədar və s.

2010-cu ildə ARDNŞ üzrə kadr axını 8,9 faiz təşkil etmişdir.

ARDNŞ üzrə 2010-cu ildə işçilərin illik orta siyahı sayı 75502 nəfər olmuşdur, müəssisələr üzrə onların sayı aşağıdakı cədvəldə göstərilir:

**Cədvəl XVII-2**

(nəfər)

(01 yanvar 2011-ci il tarixə)

| **Müəssisələr** | **01.01.2011 tarixə işçilərin faktiki sayı** | **İşçilərin illik orta siyahı sayı** |
|---|---|---|
| ARDNŞ-nin Baş ofisi | 361 | 334 |
| "Azneft" İB | 18694 | 19356 |
| "Azəriqaz" İB | 13929 | 12369 |
| "Azərikimya" İB | 5775 | 3867 |
| Geofizika və Geologiya İdarəsi | 1933 | 1794 |
| Neft Kəmərləri İdarəsi | 1143 | 1096 |
| Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 754 | 741 |
| Sərmayələr İdarəsi | 47 | 44 |
| "Azərneftyağ" Neft Emalı Zavodu | 2335 | 2328 |
| H.Əliyev adına Bakı Neft Emalı Zavodu | 2516 | 2470 |
| H.Əliyev adına Bakı Dərin Ozüllər Zavodu | 1744 | 1782 |
| Qaz Emalı Zavodu | 657 | 637 |
| Sosial İnkişaf İdarəsi | 7131 | 6992 |
| Təhlükəsizlik İdarəsi | 4496 | 4124 |
| Ekologiya İdarəsi | 324 | 298 |
| Qaz İxrac İdarəsi | 174 | 164 |
| İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | 860 | 828 |
| Xəzər Dəniz Neft Donanması | 5266 | 5122 |
| " Neftqaztikinti" Tresti | 5263 | 5083 |
| "Kompleks Qazma İşləri" Tresti | 4900 | 4924 |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 1096 | 1038 |
| "Əmək şəraiti normalarının işlənməsi" İdarəsi | 92 | 90 |
| "Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaksiyası | 22 | 21 |
| ARDNŞ-nin beynəlxalq layihələri üzrə şirkətlər | 57 | - |
| Cəmi: | 79569 | 75502 |



Son illər ARDNŞ üzrə kadrların keyfiyyət tərkibində müsbət dəyişikliklər baş vermişdir. Axırıncı beş ildə gənclərin sayı artmışdır. Belə ki, 01.01.2011-ci il tarixə 29 yaşa qədər gənclərin sayı 13345 nəfər olmuşdur, bu da işçilərin ümumi sayının 16,8 faizini təşkil edir. Təhlil göstərir ki, 01.01.2011-ci il tarixə ARDNŞ üzrə işçilərin orta yaş həddi 42 yaş təşkil edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, 01.01.2011-ci il tarixə təqaüdçülərin sayı 6375 nəfər olmuş, bu da ümumi işçilərın sayının 8 faizini təşkil edir. Onlardan 5150 nəfəri güzəştli şərtlərlə, 1225 nəfəri yaşa görə təqaüdə çıxanlardır.

Bir müsbət tendensiya da müşahidə olunur. Sahədə işləyən ali təhsilli işçilərin sayı artmaqdadır. Belə ki, 01.01.2006-cı il tarixə ARDNŞ üzrə ümumi işçilərin sayından ali təhsililər 22,4 faiz təşkil edirdisə, 01.01.2011-ci il tarixə onların sayı 21760 nəfərə çatmış və 27,3% təşkil edir. Eyni zamanda qeyd olunmalıdır ki, işləyən 24,4 min rəhbər işçi və mütəxəssislərdən 2,6 min nəfərin ali təhsili yoxdur və onların əksəriyyəti orta və ya orta-ixtisas təhsillidir.

Hesabat dövründə işləyən ahılların (yaşı 70-dən yuxarı) sayı 01.01.2011-ci il tarixə 223 nəfər olmuşdur, onların da əksəriyyəti "Azərikimya" İB və "Neftqazelmitədqiqatlayihə" İnstitutunda fəaliyyət göstərir.

ARDNŞ üzrə işləyən işçilərin neft sənayesində iş stajı aşağıdakı kimidir:

- 20 ilə qədər - 58,9 min nəfər;
- 20 ildən yuxarı - 20,6 min nəfər.

01.01.2011-ci il tarixə ARDNŞ üzrə 340 nəfərin elmi dərəcəsi vardır. Onlardan 40 nəfəri elmlər doktoru, 300 nəfəri isə elmlər namizədidir.

Cədvəl XVII-3

(nəfər)

| Müəssisələr | elmlər doktoru | | elmlər namizədi | |
|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın |
| ARDNŞ-nin Baş ofisi | 3 | - | 21 | 2 |
| "Azneft" İB | 1 | - | 21 | 3 |
| "Azəriqaz" İB | - | - | 8 | 1 |
| "Azərikimya" İB | - | - | 15 | - |
| Geofizika və Geologiya İdarəsi | 7 | - | 13 | 2 |
| Neft Kəmərləri İdarəsi | - | - | 2 | 1 |
| Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | - | - | 4 | 1 |
| Sərmayələr İdarəsi | - | - | 5 | 2 |
| "Azərneftyağ" Neft Emalı Zavodu | - | - | 3 | - |
| H.Əliyev adına Bakı Neft Emalı Zavodu | - | - | 11 | 1 |
| H.Əliyev adına Bakı Dərin Özüllər Zavodu | - | - | - | - |
| Qaz Emalı Zavodu | - | - | 1 | - |
| Sosial İnkişaf İdarəsi | 2 | - | 25 | 8 |
| Təhlükəsizlik İdarəsi | - | - | 1 | - |
| Ekologiya İdarəsi | 2 | - | 11 | - |
| Qaz İxrac İdarəsi | - | - | 2 | - |
| İnformasiya Texnologiyaları və Rabitə İdarəsi | - | - | 4 | 2 |
| Xəzər Dəniz Neft Donanması | - | - | 1 | - |
| "Neftqaztikinti" Tresti | - | - | 2 | - |
| "Kompleks Qazma İşləri" Tresti | - | - | 5 | - |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 21 | 2 | 94 | 25 |
| "Əmək şəraiti normalarının işlənməsi" İdarəsi | - | - | - | - |
| "Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaks. | 1 | - | 1 | - |
| ARDNŞ-nin beynəlxalq layihələri üzrə şirkətlər | 1 | - | 3 | - |
| **Cəmi:** | **38** | **2** | **252** | **48** |

ARDNŞ üzrə 01.01.2011-ci il tarixə 17665 nəfər qadın işləyir ki, bu da ümumi işçilərin sayının 22,2 faizini təşkil edir. İşləyən qadınlardan 909 nəfəri rəhbər işçi, 5895 nəfəri mütəxəssis, 9072 nəfəri fəhlə və 1789 nəfəri texniki icraçıdır. 1892 nəfərin yaşı 29-a qədərdir, 4524 nəfəri və yaxud 25,6% ali təhsillidir. Qadınların 2279 nəfəri təqaüdçü, 23 nəfərin yaşı isə 70-dən yuxarıdır. Qadınların xüsusi çəkisi ən çox elmi-tədqiqat institutlarında və Sosial İnkişaf İdarəsində - 57%, "Əmək şəraiti normalarının işlənməsi idarəsində - 59,7 %, "Azərikimya" İB üzrə - 46,7%, İnformasiya Texnologiyaları və Rabitə İdarəsində - 41,8 %, neft emalı zavodlarında 31-35 faizdir. ARDNŞ üzrə elmi dərəcəsi olan 340 işçidən 50 nəfəri qadındır. Onlardan 2 elmlər doktoru, 48 isə elmlər namizədidir. İşləyən qadınların 632 nəfəri qaçqın və məcburi köçkündür, 47 qadın istehsalat əlilidir. 01.01.2011-ci il tarixə ARDNŞ-nin ümumi işçilərinin sayından 221 nəfəri şəhid ailəsi üzvü, 3428 nəfəri Qarabağ Müharibəsi iştirakçısı, 3161 nəfəri məcburi köçkün və qaçqındır. Qeyd etmək lazımdır ki, ARDNŞ-nin müəssisələrində 525 nəfər əlil işləyir. Onlardan 166 nəfəri Qarabağ, 2 nəfəri 20 Yanvar, 13 nəfəri Əfqanistan, 74 nəfəri Çernobıl, 270 nəfəri isə istehsalat əlilidir.

**3.Təltiflər**

Azərbaycan neftçilərinin peşə bayramı ilə əlaqədar ölkənin neft sənayesinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2010-cu il tarixli 1101 nömrəli Sərəncamı ilə 3 nəfər "Şöhrət" ordeni və 44 nəfər "Tərəqqi" medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2010-cu il tarixli 1102 nömrəli Sərəncamı ilə 4 nəfərə "Əməkdar mühəndis" fəxri adı verilmiş, Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2010-cu il tarixli 1103 nömrəli Sərəncamı ilə neft sənayesində səmərəli fəaliyyətinə görə 6 nəfər qocaman neftçiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Təltiflər ilə əlaqədar kadrlar şöbəsi tərəfindən tələb olunan sənədləşdirmə işi aparılmış, təltif olunan işçilərə dövlət mükafatları təntənəli surətdə təqdim edilmiş və müfaviq protokollar, şəxsi işlər və təltif olunanların qeyd vərəqələri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

2010-cu ildə neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə 155 nəfər işçi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Onlardan:

| | |
|---|---|
| - "Neftçilər günü" peşə bayramı münasibəti ilə | 132 nəfər |
| - Heydər Əliyev adına BNEZ-də Katalitik reforminq qurğusunun istismara buraxılmasının 30 illik yubileyi ilə əlaqədar | 10 nəfər |

- Azərbaycan Milli mətbuatının 135 illik yubileyi ilə əlaqədar 4 nəfər
- Müxtəlif şəxslər (yubiley və xüsusi xidmətlərə görə) 9 nəfər

### 4.Əmək intizamı

2010-cu ildə əmək və icra intizamına ciddi əməl edilməsi məqsədi ilə ARDNŞ-nin Baş ofisi və bütün struktur bölmələrində tələbkarlığın artırılması istiqamətində müvafiq işlərin görülməsi davam etdirilmişdir. Buna xüsusi diqqət yetirərək müəssisələrdən hər ayın yekunlarına görə ARDNŞ-ə hesabat verilir. 2009-cu illə müqayisədə 2010-cu ilin yekunlarına görə nizam-intizamın vəziyyəti haqqında göstəricilər ARDNŞ-nin müəssisələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur:

**Cədvəl XVII-4**

(nəfər)

| | Göstəricilər | 2009-cu il | 2010-cu il |
|---|---|---|---|
| 1 | Əmək intizamı pozuntularının sayı (hadisə) | 2359 | 3235 |
| 2 | Əmək intizamını pozanlar | 4017 | 5093 |
| 3 | Səbəbsiz işə çıxmayanlar | 272 | 343 |
| 4 | İstehsalat intizamını pozanlar | 1385 | 2095 |
| 5 | İcazəsiz işdən gedənlər | 107 | 199 |
| 6 | Rəhbərliyin tapşırığını yerinə yetirməyənlərin sayı | 1563 | 1348 |
| 7 | İşə gecikənlər | 212 | 375 |
| 8 | Sərxoş halda işə gələnlər | 32 | 78 |
| 9 | Təhlükəsizlik texnikası qaydalarını pozanlar | 267 | 398 |
| 10 | Tənbeh olunan işçilərin sayı | 3971 | 4894 |
| 11 | Proqul və başqa əmək pozuntularına görə işdən azad olunmuşdur | 250 | 219 |

Əmək pozuntularının artması əsasən "Azərikimya" İB-nin ARDNŞ-nin strukturuna daxil edilməsi və Təhlükəsizlik İdarəsində tələbkarlığın gücləndirilməsi ilə bağlıdır.

**5. Vətəndaşların müraciətlərinə baxılması**

2010-cu ildə Kadrlar şöbəsinə 3727 ərizə, müraciət, müxtəlif məktublar və digər sənədlər daxil olmuşdur. Onlardan 888 məktub və ərizə vətəndaşlardan daxil olmuşdur ki, onların da böyük əksəriyyəti ARDNŞ-nin müəssisələrində işə qəbul olunmaqla bağlıdır. Bunlardan 286-si Azərbaycan Respublikası Prezidentinin İcra Aparatından, 45-çi Milli Məclisdən, 7-çi Nazirlər Kabinetindən, 22-çi digər dövlət orqanları və müxtəlif təşkilatlardan baxılmaq üçün ARDNŞ-ə göndərilmişdir. Daxil olan 741 müraciət şöbənin işçiləri tərəfindən araşdırılmış və ərizələrə yazılı cavab verilmişdir, 147 isə baxılmaq üçün aidiyyatı üzrə təşkilatlara göndərilmişdir. ARDNŞ-nin qəbul otağında 300-ə yaxın müraciət etmiş vətəndaşa qaldırılan məsələlərlə əlaqədar Kadrlar şöbəsinin işçiləri tərəfindən müvafiq şifahi izahatlar verilmişdir.

**6. "Əmək veteranı" adının verilməsi**

"Əmək veteranı" adının verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli, 1999-cu il 24 sentyabr tarixli 150 nömrəli qərarlarına uyğun olaraq aparılır.

Müəssisələrdən "Əmək veteranı" adının verilməsi ilə əlaqədar şöbəyə daxil olan bütün sənədlər şöbə tərəfindən bir daha yoxlanılır və ARDNŞ-nin müvafiq əmrləri ilə rəsmiləşdirilir. 2010-cu ildə "Əmək veteranı" adının verilməsi, vəsiqənin dəyişdirilməsi məqsədi ilə ARDNŞ üzrə 19 əmr hazırlanaraq 64 işçiyə "Əmək veteranı" adı verilmiş, 1 nəfərin itirilmiş və yaxud yararsız hala düşmüş vəsiqəsi yenisi ilə əvəz edilmişdir. Ümumilikdə ötən il ARDNŞ üzrə 65 ədəd "Əmək veteranı" vəsiqəsi doldurulmuş və müraciət edən şəxslərə təqdim edilmişdir.

**7. Rəhbər işçi və mütəxəssislərin attestasiyası barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında attestasiyanın keçirilməsi qaydalarının təsdiq edilməsi barədə" 23 may 2001-ci il tarixli 97 saylı qərarına uyğun olaraq, 2010-cu ildə "Azneft" İB-nin təşkilatları, Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, Heydər Əliyev adına Bakı Dərin Özüllər zavodu, Qaz emalı zavodu, Sosial İnkişaf İdarəsi, Təhlükəsizlik İdarəsi, Xəzər Dəniz Neft Donanması, "Neftqaztikinti" Tresti, "Kompleks Qazma İşləri" Tresti və "Neftqazelmitədqiqatlayihə" İnstitutunda işçilərin attestasiyası keçirilmişdir.

Keçən il ARDNŞ-nin idarə və müəssisələrində nəzərdə tutulmuş 3140 nəfər rəhbər işçi və mütəxəssislərdən 2604 nəfər attestasiyadan keçmişdir. Attestasiyadan keçənlərdən 2536 nəfər tutduğu vəzifəyə uyğun olmuş, 28 nəfər isə uyğun olmamışdır. Attestasiya nəticəsində 72 nəfərin dərəcəsi artırılmış, 10 nəfər aşağı vəzifəyə keçirilmişdir, 15 nəfəri isə işdən azad olunmuşdur.

**8. Əmək məzuniyyətlərinin istifadə olunması və əmək qabiliyyətinin müvəqqəti itirməsi haqqında**

2010-cu ildə şöbə tərəfindən ARDNŞ-nin Baş ofisi və nomenklatura daxil olan işçilərinin məzuniyyətlərindən istifadə edilməsi ilə əlaqədar 299 müvafiq əmr və Kadrların İdarə Edilməsi Komitəsinin 707 Qərarı hazırlanmış və rəhbərlik tərəfindən imzalanmışdır.

2010-cu ildə ARDNŞ-nin Baş ofisinin işçiləri 580 dəfə əmək məzuniyyətinə çıxmışdır. 2 nəfər təhsil və yaradıcılıqla əlaqədar, 2 nəfər isə sosial məzuniyyətdə olmuşdur. ARDNŞ Baş ofisinin 120 işçisinə isə istifadə edilməmiş əmək məzuniyyətinin əvəzinə 3211 təqvim günü kompensasiya ödənilmişdir.

01 yanvar 2011-ci il tarixə ümumilikdə ARDNŞ-nin müəssisə və təşkilatları üzrə istifadə edilməmiş əmək məzuniyyətlərinin günlərinin sayı 38434, ARDNŞ-nin Baş ofisi üzrə bu rəqəm - 3322 təqvim günüdür. Müqayisə üçün 2010-cu ilin əvvəlinə şirkət üzrə istifadə edilməmiş əmək məzuniyyətlərin günlərinin sayı 81077 təqvim günü təşkil edirdi. 2010-cu ildə ARDNŞ-nin müəssisələri üzrə əmək qabiliyyətinin müvəqqəti itirliməsi ilə əlaqədar 27845 nəfər 442534 gün işə çıxmamışdır. Müqayisə üçün 2009-cu ildə bu rəqəmlər müvafiq olaraq 29182 və 404729 olmuşdur. ARDNŞ-in Baş ofisi üzrə 151 nəfər xəstəlik vərəqəsi təqdim etmiş və bu səbəbdən 1945 gün işə çıxmamışdır.

**ARDNŞ-də Kadrların hazırlanması sahəsində görülən işlər.** Hesabat ilində ARDNŞ-də kadrların hazırlanması üzrə işlər iki istiqamətdə aparilmışdır:

- mövcud kadrların ixtisaslarının artırılması;
- yeni kadrların hazırlanması.

2010-cu ildə ARDNŞ-nin işçiləri ixtisaslarını artırmaq məqsədilə ölkəmizdə və xaricdə keçirilən müxtəlif uzun və qısa müddətli təlim kurslarında iştirak etmişlər. Bu kurslar Sosial İnkişaf İdarəsinin Təlim-Tədris Mərkəzinin və İnformasiya və Rabitə Texnologiyaları İdarəsinin binalarında (TTM), nüfuzlu şirkətlər ("PricewaterhouseCoopers", "İnfosystem-Link", "Gustav Kaeser", Böyük Britaniyanın Açıq Universiteti və sairə) və dövlət ali təhsil müəssisələri (Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyası və sairə) tərəfindən təşkil olunmuşdur. İxtisasartırma kurslarına ARDNŞ-nin 2577 rəhbər və mütəxəssisi, o cümlədən 756 nəfər rəhbər işçi, 1606 nəfər mütəxəssis və 215 nəfər qulluqçu cəlb olunmuşdur. Onlardan 88 nəfəri, o cümlədən 26 nəfər rəhbər işçi, 62 nəfər mütəxəssis xarici ölkələrdə ixtisaslarını artırmışlar.

Peşə kurslarına isə 2185 nəfər fəhlə cəlb olunmuşdur. Onlardan 489 nəfər peşə hazırlığı keçmiş, 1696 nəfər isə ixtisaslarını artırmışlar. Peşə hazırlığı keçmiş fəhlələrdən 82 nəfər təlim tədris mərkəzlərində yeni hazırlanmış, 219 nəfər ikinci

(əlaqədar) peşə öyrədilmiş və 188 nəfər yenidən hazırlanmışdır. 991 nəfər bilavasitə işlədiyi müəssisədə peşə səviyyəsini yüksəltmişdir.

2008-ci ildən etibarən Şirkət və onun struktur müəssisələrinin beynəlxalq mühasibat uçotu standartlarına keçidi ilə əlaqədar mühasibat uçotunun təşkili sahəsində müasir biliklərə malik kadrların hazırlanması 2009 və 2010-cu illərdə də davam etdirilmişdir. Bununla əlaqədar ARDNŞ-nin Sosial İnkişaf İdarəsinin Təlim, Tədris və Sertifikatlaşdırma Departamentinin və İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin binalarında kurslar təşkil olunmuşdur. Bu kurslardan əlavə ARDNŞ əməkdaşları audit, hüquq, marketinq, ekologiya və kadrlarla əlaqəli mövzuları əhatə edən kurslarda iştirak etmişlər.

İxtisasartırma və peşə kurslarına cəlb olunmuş işçilərin ümumi sayı 4762 nəfər təşkil etmişdir. Bu da ARDNŞ işçilərinin, təxminən, 5,9%-ni təşkil edir. Aydındır ki, şirkətimizin indiki templə inkişafını davamlı etmək üçün ixtisasartırma tədbirlərinə daha çox işçi cəlb olunmalı və ixtisasartırma sahəsində keyfiyyət dəyişiklikləri həyata keçirilməlidir.

Bu məqsədlə hesabat ilində bütün kateqoriyalardan kadrların ixtisasartırma sisteminin təkmilləşdirilməsi məqsədilə işlərə başlanmışdır. ARDNŞ-nin indiyədək kadrların ixtisasartırma işlərinin təşkili üzrə daxili normativ sənədi olmamışdır. Müəssisələrdə indiyədək Sovetlər dövrünün artıq köhnəlmiş, yeni tələblərə və şəraitə uyğun gəlməyən normativ-hüquqi sənədlərindən istifadə olunur. 2008-ci ildə bu fəaliyyət sahəsi üzrə işlərin hazırkı vəziyyəti, ehtiyaclar, qarşıdakı məqsədlər, kadrlara olan müasir tələblər və ARDNŞ-nin maliyyə-texniki imkanları nəzərə alınaraq, vahid Əsasnamə layihəsi işlənib hazırlanmış və Əsasnamə barədə bütün müəssisələrin irad, rəy və təklifləri toplanmışdır. Hazırda Əsasnamənin ikinci redaksiyası üzərində iş gedir. Paralel olaraq, müəssisələrdə kadrlar üzrə mütəxəssislər və ixtisasartırma kurslarına cəlb olunmuş işçilər arasında bu kursların keyfiyyəti, nəticələri və sairə məsələlərlə bağlı sosioloji sorğular aparılır.

ARDNŞ savadlı gənc neftçi mütəxəssislərin yetişdirilməsi, kadr potensialının cavanlaşdırılması və müasirləşdirilməsi istiqamətində də məqsədyönlü işlər aparır.

İstedadlı və perspektivli yerli gənclərin ARDNŞ-nin vəsaiti hesabına xarici ölkələrin aparıcı universitetlərində təhsilini təşkil etmək məqsədi ilə 2006-cı ildə ARDNŞ-də Təqaüd Proqramı qəbul edilmişdir. Proqram çərçivəsində hər il 50 gəncin xarici ölkədə təhsil almasına imkan yaradılır. İndiyədək Təqaüd Proqramına 121 gənc cəlb edilmişdir. Onlardan 23 tələbə Almaniyada, 54 tələbə Böyük Britaniyada, 12 tələbə ABŞ-da, 15 tələbə Fransada, 6 tələbə Türkiyədə, 2 tələbə Kanadada, 2 tələbə Hollandiyada, 3 tələbə Norveçdə, 1 tələbə Maltada, 1 tələbə İsveçdə, 1 tələbə Avstriyada və 1 tələbə Rusiyada təhsil almış və ya hazırda təhsilini davam etdirirlər. Hazırda təhsili maliyyələşdirilən 82 tələbədən 37 nəfəri bakalavr və 45 nəfəri magistr dərəcəsi üzrə təhsil alır.

Bunu da qeyd etmək lazımdır ki, 2007, 2008, 2009 və 2010-cu illərdə ARDNŞ-nin Təqaüd Proqramında iştirak edən 39 tələbə təhsillərini müvəffəqiyyətlə bitirib geri qayıtmışdır. Bu tələbələrdən 1 nəfəri hal-hazırda hərbi xidmətdə, 2 nəfəri müxtəlif səbəblərdən proqramdan çıxmış və 36 nəfəri ARDNŞ-də işlə təmin olunmuşlar.

Təqaüd Proqramı çərçivəsində tələbələrin xaricdə təhsil almaları üçün ARDNŞ Almaniyanın DAAD (Alman Akademik Mübadilə Xidməti) təşkilatı, Amerika Birləşmiş Ştatlarının Oklahoma və Texas Universitetləri, Fransanın TOTAL şirkəti vasitəsi ilə Paris Neft İnstitutu və digər universitetlər ilə sıx əməkdaşlıq edir. ARDNŞ ilə DAAD arasında 18.04.2007-ci il tarixində bu məqsədlə müqavilə bağlanmışdır. Bunun nəticəsi olaraq, Təqaüd Proqramına qoşulan tələbələrin əksəriyyəti təhsillərini Almaniyada davam etdirirlər. Fransanın TOTAL şirkəti ilə əməkdaşlığın nəticəsi olaraq ARDNŞ-nin Təqaüd Proqramına cəlb olunan tələbələrdən 9 nəfəri hazırda Fransanın müxtəlif universitetlərində təhsil alır, 6 nəfəri isə təhsilini başa vurmuşdur. Bu istiqamətdə işlər davam etdirilir və qarşıdakı illərdə əməkdaşlığa cəlb olunacaq xarici ölkə universitetlərinin sayının artırılması planlaşdırılır.

Regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində ARDNŞ-nin vəsaiti hesabına inşa edilmiş və edilməkdə olan regional müalicə-diaqnostika mərkəzlərinin ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə Sosial İnkişaf İdarəsinin Səhiyyə departamenti və Mərkəzi Neftçilər Xəstəxanası ilə birlikdə ARDNŞ Baş ofisinin müvafiq mütəxəssisləri həm Azərbaycan Dövlət Tibb Universitetinin məzunları, həm də Türkiyənin müxtəlif şəhərlərində yerləşən universitetlərin uzmanlıq pilləsinin 60-a yaxın həkimləri ilə əlaqələr qurulmuşdur. Türkiyədə uzmanlıq pilləsini bitirmiş həkimlər dünyanın istənilən səhiyyə müəssəsində işləmək hüququ əldə edirlər. Bu tələbələr arasında radiasiya onkologiyası, qulaq-burun-boğaz və baş-boyun cərrahiyyəsi, uşaq cərrahiyyəsi, uşaq neyropsixiatriyası, neyrocərrahiyyə, göz xəstəlikləri və cərrahiyyəsi, kardioloq, anestezioloq və reanimatoloq, pediatr və sair ixtisaslar üzrə uzmanlıq öyrənən həkimlər vardır.

ARDNŞ savadlı gənc neftçi mütəxəssislərin yetişdirilməsi, tələbələrin neft-qaz sənayesi sahəsində müasir elmi və təcrübi biliklərə yiyələnməyə həvəsləndirilməsi məqsədilə ardıcıl işlər aparır. 08.05.2005-ci ildə ARDNŞ və Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) "Azərbaycan Dövlət Neft Akademiyasının tələbələrinə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təqaüdünün verilməsi haqqında" əsasnaməni birgə təsdiq etmişlər. Həmin əsasnamənin tələblərinə müvafiq olaraq, ARDNŞ ADNA-nın birinci kursdan etibarən seçilmiş fakültələr (Geoloji kəşfiyyat, Qaz-neft-mədən, Kimya-texnologiya, Neft-mexanika, Energetika, İstehsalat proseslərinin avtomatlaşdırılması, İqtisadiyyat, beynəlxalq iqtisadi münasibətlər və menecment) üzrə yüksək tədris göstəricilərinə malik olan hər kurs üzrə

20 tələbəsinə 40 manatlıq təqaüd təyin etmişdir. Tələbələrin arasından ən layiqlilərinin seçilməsi məqsədilə ARDNŞ-nin Müsabiqə Komissiyası yaradılmışdır.

ARDNŞ-nin yuxarıda qeyd olunan Əsasnaməsinə 25.09.2006-cı il tarixində edilmiş düzəlişlərə görə 2006-cı ildən etibarən tələbələr təqaüdlərini onların hər biri üçün ARDNŞ tərəfindən açılmış fərdi plastik kart vasitəsilə ilə istənilən bankdan ala bilir.

Hesabat ilində ADNA-nın bakalavriat pilləsində ARDNŞ təqaüdçüləri olmuş Abadlı Fərid Norveç Elm və Texnologiya Universitetinin (Norveç) neft mühəndisliyi, Abbaslı Tural Varvik Universitetinin (Böyük Britaniya) kompüter elmləri və tətbiqi, Ağayev Hüseyn Edinburq Universitetinin iqtisadiyyat, Cəfərov Bəxtiyar Nansi Universitetinin lay mühəndisliyi (Fransa), Dəmirov Ənvər Nyukasl Universitetinin əməliyyatların idarə edilməsi və loqistika (Böyük Britaniya), Quliyev Kamal Paris Neft İnstitutunun neftin iqtisadiyyatı və menecment (Fransa) və Dadaşov Əli RWTH Aachen Universitetində elektrik güc mühəndisliyi (Almaniya) üzrə magistraturasına, Salmanov Orxan Aberdin Universitetinin neft-qaz mühəndisliyi (Böyük Britaniya) və Xalıqov Nicat Şeffild Universitetinin kompüter mühəndisliyi (Böyük Britaniya) üzrə bakalavriatına qəbul olunmuşlar. ARDNŞ onların xaricdə təhsillərini Təqaüd Proqramı çərçivəsində maliyyələşdirməyi öhdəsinə götürmüşdür.

Ötən illərin təcrübəsi göstərir ki, bu təşəbbüs öz bəhrəsini vermişdir: neft-qaz sənayesinə aid ixtisaslara qəbul üçün sənəd verənlər arasında yüksək hazırlıqlı abituriyentlərin xüsusi çəkisi yüksəlmiş, tələbələrin elmi-praktiki biliklərə daha dərindən yiyələnməyə marağı artmış, ARDNŞ-nin müəllim-tələbə kollektivləri arasında müsbət imicinin formalaşmasına mühüm təsir göstərmişdir. Son illər ARDNŞ-nin prioritetləri dəyişmiş, kadrların hazırlanması və idarə edilməsi sahəsində tələbkarlıq artmış, həmçinin ölkəmizdə gənc kadrların hazırlanmasında yeni nüfuzlu ali təhsil müəssisələri formalaşmışdır. Qeyd olunan Əsasnamənin mövcud tələblər səviyyəsində təkmilləşdirilməsinə yaranan ehtiyacı nəzərə alaraq, ARDNŞ 20.06.2008-ci il tarixli 93 nömrəli əmrlə yuxarıda qeyd olunan Əsasnaməni ləğv etmiş və yeni - “Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələrinə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təqaüdünün verilməsini haqqında” Əsasnamə təsdiq etmişdir. ARDNŞ təqaüdü ayda 70 manat məbləğində təyin olunmuşdur.

2010-cu ilin noyabr ayından etibarən aylıq təqaüdün məbləği 100 manata qaldırılmışdır. Müsabiqələr ildə 2 dəfə, semestr imtahanları başa çatdıqdan sonra elan olunur. 2009-cu ildən müsabiqəyə sənəd qəbulu yalnız elektron qeydiyyat vasitəsilə aparılır. Müsabiqə 2 turda həyata keçirilir: 1-ci turda iddiaçıların məntiqi təfəkkürü TQDK vasitəsilə keçirilən test imtahanları vasitəsilə yoxlanılır, müvafiq ballar toplayan tələbələrlə 2-ci turda ARDNŞ-nin xüsusi komissiyası fərdi müsahibələr keçirir. Müsabiqənin bütün gedişi internet saytında (http://www.socar.az/tehsil.html) əks olunur.

2009-2010-cu tədris ilinin 1-ci semestrinin nəticələrinə görə keçirilmiş müsabiqədə turları uğurla keçmiş 140 nəfər tələbə, 2009-2010-cu tədris ilinin



2-ci semestrinin nəticələrinə görə keçirilmiş müsabiqədə turları uğurla keçmiş 119 nəfər tələbə ARDNŞ-nin təqaüdünə layiq görülmüşdür. ARDNŞ bu tələbələri daim diqqət mərkəzində saxlayır: istehsalat təcrübələri, kurs və layihə işləri, təhsilini başa vurmuş təqaüdçülərin işlə təmin olunması və ya xarici ölkələrdə magistratura təhsili almaları üçün şərait yaradılması. Təqaüd proqramı ilə işə qəbul olunan işçilərə mənzil şəraitinin yaxşılaşdırılması imkanları da yaradılmışdır.

Eyni məqsədlə ARDNŞ-nin Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu (BNEZ) tərəfindən də 2004-2005-ci tədris ilindən etibarən ADNA-nın Kimya-texnologiya, Neft-mexanika, Energetika, İstehsalat proseslərinin avtomatlaşdırılması fakültələrinin 3-cü və 4-cü kursları, 1-ci və 2-ci kurs magistratura üzrə yüksək tədris göstəricilərinə malik olan 29 tələbəsinə aylıq təqaüd təyin etmişdir. Zavodun təqaüdçüsü olmuş tələbələr ixtisasları üzrə magistraturanın əyani bölməsinə qəbul olunduqda, onlara təqaüd verilməsi davam etdirilir. BNEZ bu tələbələri özünün diqqət mərkəzində saxlayır, istehsalat təcrübəsinin zavodda keçməsi, kurs və layihə işlərinin mövzularının müəyyən olunması, bu işlərin zavodun faktiki məlumatları əsasında tərtib edilməsində, təqaüdçü məzunların işlə təmin olunmasında onlara köməklik göstərir.

.ARDNŞ-nin Gürcüstan Nümayəndəliyi də 2010-cu ilin yanvar ayından etibarən Gürcüstan Respublikasının müxtəlif təhsil müəssisələrində təhsil alan 113 nəfər istedadlı azərbaycanlı tələbəyə 100 lari təqaüd ayırır.

ARDNŞ-nin fəaliyyətlərindən biri də orta məktəblərdə oxuyan şagirdlərin beynəlxalq olimpiadalarda iştirakına maddi və mənəvi dəstəyin verilməsidir.

Bu dəstək nəticəsində, son 5 tədris ili ərzində Tayvan, Rumıniya, Çin, Türkiyə, Makedoniya, Braziliya, Qazaxıstanda və digər ölkələrdə keçirilən müxtəlif beynəlxalq fənn olimpiadalarında iştirak etmiş şagirlər vətənə cəmi 79,  o cümlədən 14 qızıl, 17 gümüş və 48 bürünc medalla qayıtmışlar. Bunlardan əlavə, ARDNŞ-nin maliyyə dəstəyi ilə 2007-ci il aprel ayının 5–7-də ekologiya və təbii fəlakətlər, ekstremal hallara həsr edilmiş İNEPO Beynəlxalq Ətraf Mühitin Mühafizəsi Layihə Olimpiadası, 2008-ci il aprel ayının 4-5-də 2-ci İNEPO olimpiadası və 2009-cu ilin aprel ayının 1-5-də isə 3-cü İNEPO olimpiadası keçirilmişdir. 2010-cu ildə Bakıda keçirilən 4-cü "İNEPO-Avrasiya" Layihə Olimpiadasında 33 ölkənin (ABŞ, Türkiyə, Rusiya, Hindistan, Nigeriya, Slovakiya, Tacikistan, Ukrayna, Tayvan və s.), həmçinin Azərbaycanın müxtəlif bölgələrinin qabaqcıl məktəblərinin şagirdləri iştirak etdilər. Azərbaycan məktəbliləri bu olimpiadalarda 23 medal, o cümlədən 5 qızıl, 7 gümüş və 11 bürünc medal qazanmışdılar. 2011-ci ildə də bu istiqamətdə elmi-mədəni fəaliyyətlərin təşkili və dəstəyi planlaşdırılır. ARDNŞ rəhbərliyi istedadlı şagirdlərlə mütəmadi olaraq görüşlər keçirir, müxtəlif beynəlxalq yarışlarda fərqlənən şagirdlərə mükafatlar və xatirə hədiyyələri təqdim edir.

Bu il ilk dəfə olaraq ARDNŞ Azərbaycan Respublikasının və xarici ölkələrin

müxtəlif ali məktəblərində neft-qaz, neft-qaz qurğuları, qazma, geofizika, geologiya, proseslərin avtomatlaşdırılması, kompüter, inşaat, boru kəmərləri, ekologiya, neft-kimya və kimya mühəndisliyi, energetika, iqtisadiyyat, proqramçı və insan resurslarının idarəedilməsi ixtisasları üzrə təhsil alan Azərbaycan vətəndaşı olan tələbələrə yay tətili müddətində istehsalat təcrübəsi keçmək üçün "Yay təcrübəsi proqramı"na başlamışdır. Proqram tələbələrin neft sənayesinin müxtəlif sahələrində təcrübi biliklərinin artırılması, onların real iş şəraiti ilə yaxından tanış olması, nəzəri biliklərinin təcrübədə yoxlanılması, həmçinin iş keyfiyyətləri barədə ARDNŞ-də daha dolğun informasiyanın toplanması məqsədi ilə həyata keçirilmişdir. Yay təcrübəsi tələbənin istəyindən asılı olaraq, 1 və ya 2 ay müddətində davam etmişdir. Proqramın şərtlərinə görə tələbə ilə həmin müddətə müvəqqəti əmək müqaviləsi bağlanmış və o ən aşağı dərəcəli mütəxəssis vəzifəsində işə qəbul olunmuşdur. Təcrübəçi işlədiyi vaxta və vəzifəsinə müvafiq olaraq, əmək haqqı almışdır. Eyni zamanda ARDNŞ işçiləri üçün mövcud olan bütün güzəştlər təcrübəçilərə də şamil edilmişdir. Proqramda təhsil aldığı ali məktəbdən asılı olmayaraq, qeyd olunan ixtisaslar üzrə bakalavriatın 2, 3, 4-cü kursları və magistraturanın 1 və 2-ci kurslarını bitirən tələbələr iştirak etmişlər. 7 iyun 2010-cu il tarixində ARDNŞ-nin saytında elan olunmuş müsabiqəyə bir həftə ərzində ölkə daxilində və xaricdə 21 ali məktəbdə təhsil alan 298 tələbə müraciət etmişdir. 13 ali məktəb üzrə 126 tələbə yay təcrübəsinə qəbul edilmişdir. Tələbələrin yay təçrübəsi ARDNŞ-nin "Azneft" İB, "Azərikimya" İB, "Kompleks Qazma İşləri" Tresti, "Neftqaztikinti" tresti, Xəzər Dəniz Neft Donanması, Geofizika və Geologiya İdarəsi, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, "Azərneftyağ" Neft Emalı Zavodu, Qaz Emalı Zavodu, İnformasiya Texnologiyaları və Rabitə İdarəsi, Neft Kəmərləri İdarəsi və Ekologiya İdarəsində təşkil edilmişdir.

Bu il ilk dəfə olaraq ARDNŞ respublikanın enerji sektorunda gənc kadrlara tələbatın yüksək olduğunu nəzərə alaraq, ölkə daxilində və xaricdə təhsil alan tələbə və gənc mütəxəssislərin enerji sektoruna marağını artırmaq məqsədi ilə SOCAR Yay Məktəbi təşkil etmişdi. Məktəbdə respublika daxilində və xaricində ali məktəblərin bakalavriat və magistratura pillələrində avtomatika və İKT, boru kəmərləri, ekologiya, energetika, geoloji kəşfiyyat, hüquq, qaz-neft-mədən, qazma, iqtisadiyyat, kimya-texnologiya, neft-mexanika və inşaat ixtisasları üzrə təhsil alan, əsasən, "yaxşı" və "əla" qiymətlərlə oxuyan 30 nəfər Azərbaycan vətəndaşı olan gənclər iştirak etmişlər. SOCAR Yay Məktəbi 29 avqust – 6 sentyabr 2010-cu il tarixlərində Şıx cimərliyində yerləşən "Ramada" otelində keçirilmiş və bu müddət ərzində iştirakçılar oteldə qalmışlar. Yay Məktəbi ARDNŞ-nin fəalliyət göstərdiyi enerji sektorunun - neft-qaz yataqlarının geologiya-geofizikası, quyuların qazılması, neft-qaz hasilatı, nəqli və saxlanması, emalı və neft-kimya, ekoloji normalar və alternativ enerji mənbələri, neft-qaz hasilatı və emalı sənayesinin iqtisadiyyatı, neft və neft məhsullarının satışını əhatə etmişdir. Hər gün şirkətin müxtəlif idarə



və müəssisələrində çalışan işçilər Yay Məktəb iştirakçılarına mühazirələr vermiş, onlarla praktiki məşğələlər aparılmış, ekskursiyalar təşkil olunmuşdur. Hər axşam ARDNŞ vitse-prezidentləri Məktəb iştirakçıları ilə görüşmüş və onları maraqlandıran sualları cavablandırmışlar. Məktəb tədris proqramı və təşkilati məsələlərinin həllinə görə tələbələr arasında böyük əks-səda yaratmış və gənclər arasında ARDNŞ-nin nüfuzunun artmasına səbəb olmuşdur. Yay Məktəbindən sonra keçirilən elektron rəy sorğusu da bunu təsdiq etmişdir.

2007-ci ildə Kadrların hazırlanması şöbəsi Azərbaycanda və ölkədən kənarda təhsil alan tələbə və şagirdlərlə əlaqə yaratmaq, onların müraciətlərini vaxtında cavablandırmaq üçün ARDNŞ-nin korporativ veb səhifəsinin bir bölməsi olan Təqaüd Proqramı bölməsi – saytı (www.socar.az/tehsil.html) yaradılmışdır və hazırda fəaliyyət göstərir. Bu bölmədə şöbənin tələbələr və şagirdlərlə fəaliyyət istiqamətlərinə aid bütün məlumatlar: proqramların şərtləri, müsabiqələr, namizədlər və təqaüdçülər haqda məlumatlar, universitet və ixtisasların siyahısı, tarixçə, fotoalbom, ən çox verilən suallar və cavabları, əlaqə məlumatları yerləşdirilmişdir və daim yenilənir.

# XVIII. ƏMƏYİN MÜHAFİZƏSİ

Hesabat ilində ARDNŞ-nin müəssisələrində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması və təmin edilməsi, istehsalat sahələrinin, binaların, iş yerlərinin müasir standartların tələblərinə uyğun səviyyədə yenidən qurulması, istehsalat xəsarətalmalarının, qəzaların, peşə xəstəliklərinin qarşısının alınması sahəsində böyük işlər görülmüşdür.

ARDNŞ hər il istehsalatda təhlükəsiz və sağlam əmək şəraitinin vəziyyətindən asılı olaraq əməyin mühafizəsi üzrə tədbirlərin hazırlanıb həyata keçirilməsinə, əl əməyinin yüngülləşdirilməsinə, istehsalat proseslərinin mexanikləşdirilməsinə maliyyə vəsaiti ayırır. Bu məqsədlə 2010-cu ildə müəssisələrdə əmək şəraitinin yaxşılaşdırılması üzrə tədbirlərə 12 196 572 manat vəsait planlaşdırıldığı halda, bu məqsədlə 14 407 463 manat pul xərclənmişdir ki, bu da nəzərdə tutulan məbləğin 118,1 %-ni təşkil edir.

İdarə və müəssisələrdə çalışan işçilər xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri ilə təmin olunmuş və bir çox müəssisələrdə işçilərin bu geyim və vasitələrdən tam istifadə etmələrinə nail olunmuşdur. İl ərzində işçilərin xüsusi geyim, ayaqqabı və fərdi mühafizə vasitələri ilə təmin olunmasına 9.480.500 manat vəsait xərclənmişdir. Həmçinin ARDNŞ-nin Baş Ofisinin istehsalatla bilavasitə təmasda olan mühəndis texniki işçiləri xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin olunmuşlar.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 223-cü maddəsinin tələblərini icra edərək əməyin mühafizəsi işlərin təşkilini gücləndirmək məqsədilə işçilərinin sayı beş yüz nəfərdən artıq olan bir sıra müəssisələrdə – "Azneft", "Azəriqaz" və "Azərikimya" İstehsalat Birliklərində, "Neftqaztikinti" və "Kompleks Qazma İşləri" Trestlərində, "Azərneftyağ" və H.Əliyev adına Bakı Neft Emalı Zavodlarında, Xəzər Dəniz Neft Donanmasında, Geofizika və Geologiya İdarəsində, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda, Neft Kəmərləri İdarəsində müəssisə rəhbərinin əməyin mühafizəsi üzrə müavini, İnformasiya Texnologiyaları və Rabitə İdarəsində və "Neftqazelmitədqiqatlayihə" İnstitutunda baş mühəndisin əməyin mühafizəsi üzrə müavini vəzifələri ştatları yaradılmışdır.

İstehsalat sahələrində qəzaların, yanğınların, bədbəxt hadisələrin baş verməsinə və peşə xəstəliklərinin yaranmasına səbəb ola biləcək risklərin müəyyən edilməsi, onların ləğv edilməsi və ya minimum səviyyəyə endirilməsi məqsədilə 2010-cu ildə Şirkətin Əməyin mühafizəsi və təhlükəsizliyi şöbəsi və əməyin təhlükəsizliyi üzrə daimi fəaliyyət komissiyası tərəfindən Şirkətin 15 müəssisəsinin 63 təşkilatında əmək şəraitinin vəziyyəti yoxlanılmış, 1600-dən çox təhlükəsizlik qaydalarının pozuntuları və digər nöqsanlar aşkar edilmişdir ki, bunların da aradan qaldırılması üçün tədbirlər görülmüş və müəyyən hissəsi ləğv edilmişdir.

İşçilərin fərdi və kollektiv xilasetmə vasitələri ilə təmin olunmaları üçün müəyyən işlər görülmüşdür. İstismarda olan özüllərdəki xilasetmə vasitələrinin yenisi ilə əvəz olunması üçün 22 ədəd xilasetmə qayığı alınmış və onların quraşdırılması işlərinə başlanmış, 27 ədəd əlavə qayığın alınması üçün müqavilə bağlanmışdır.



Dəniz özüllərində və gəmilərdə qəza və yanğın zamanı dənizdə insan həyatını qoruyub saxlamaq, qəza xilasetmə əməliyyatlarını effektli, səmərəli aparmaq, dəniz obyektlərini tərketmə və xilasetmə vasitələrindən istifadə etməklə insanların sağ qalması üzrə hərəkətləri öyrətmək məqsədilə ARDNŞ-nin Xəzər Dəniz Neft Donanmasının tərkibində yaradılmış Dənizdə İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzinin müvafiq tədris-trenajor mərkəzlərində xüsusi kurslar təşkil olunmuşdur və bu kurslarda 1860 nəfərə yaxın işçi təlim keçmişdir (o cümlədən 191 nəfər işçi "yanğınla mübarizə" üzrə kurslarda, 531 nəfər "xilasedici qayıq və sallar növbətçi qayıqlar, sürətli olmayan qayıqlar üzrə mütəxəssislərin hazırlığı" kurslarında və s.).

İşçilərə təhlükəsiz iş şəraitinin yaradılması və işlərin təhlükəsiz aparılması qaydalarını öyrətmək məqsədilə müəssisələrdə işçilərin maarifləndirilməsinə, təlimatlandırılmasına və onların biliklərinin artırılmasına böyük diqqət verilmişdir. Əməyin təhlükəsizliyi üzrə qaydaların, standartların və normaların azərbaycan dilində işlənməsi və onlarla müəssisələrin təmin olunması sahəsində müəyyən işlər görülmüşdür. Şöbənin iştirakı ilə "Magistral neft kəmərlərinin istismarında texniki təhlükəsizlik Qaydaları" və "Neft və qaz quyularında aparılan geofiziki tədqiqat işlərində əməyin təhlükəsizliyi Qaydaları" Elmi-Tədqiqat İnstitutları tərəfindən standartların tələblərinə uyğun yenidən işlənmişdir. Eyni zamanda 4 mövzu üzrə Qaydalar Şirkətin Əməyin mühafizəsi və Təhlükəsizliyi şöbəsi ilə birgə Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutu tərəfindən yenidən işlənilir. İdarə və müəssisələrdə cari ildə 9327 nəfər mühəndis-texniki işçilərin bilikləri yoxlanılmışdır.

Görülmüş tədbirlərə baxmayaraq 2010-cu ildə ARDNŞ-nin müəssisələrində istehsalatla əlaqədar 19 bədbəxt hadisə baş vermişdir. Bu bədbəxt hadisələrdən 4-ü ölümlə nəticələnmişdir.

Əməyin təhlükəsizliyi qaydalarını və normalarını pozduqlarına görə idarə və müəssisələrin əmrləri ilə intizam məsuliyyətinə cəlb olunan işçilərin ümumi sayı 609 nəfər olmuşdur ki, bunlardan 295 nəfərə töhmət, 151 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmiş, 2 nəfər tutduğu vəzifədən azad edilmiş və 161 nəfər işçi isə cərimə edilmişdir.





# XIX. EKOLOGİYA

Azərbaycan Respublikası Prezidentinin "Ekologiya ili" elan etdiyi 2010-cu ildə ARDNŞ-nin struktur bölmələrinin cari fəaliyyəti ilə bağlı və keçmişdən miras qalmış ekoloji problemlərin aradan qaldırılması məqsədilə bir sıra layihələr həyata keçirilmişdir. Neft yataqlarının ərazilərində torpaq neft, qazma şlamı və su anbarlarının, istismara yararsız texnoloji qurğu və avadanlıqların ləğvi, açıq torpaq kanalların örtülü beton kanallarla əvəz edilməsi üzrə işlərin həcmi xeyli artmışdır.

Neft və lay sularının ətraf mühitə sızmasının qarşısını almaq məqsədilə korroziyaya uğramış neft xəttləri əsaslı təmir olunmuş və ya yenisi ilə əvəz edilmiş, çoxlu sayda yüksək təzyiqli siyirtmə dəyişdirilmiş, 1020 metr açıq torpaq kanal üstü örtülü beton kanalla əvəz edilmişdir.

Bibiheybət və Siyəzən yataqlarında ümumi sahəsi 38,5 hektar olan çirkli torpaq sahələri bioloji üsulla təmizlənmiş, 18,2 hektar ərazi sənaye və məişət tullantılarından təmizlənmiş, ümumi sahəsi 13,6 hektar olan süni gölməçə və bataqlıq qurudularaq abadlaşdırılmışdır. H.Z. Tağıyev adına, "Balaxanıneft" və "Abşeronneft" NQÇİ-lərində ümumi sahəsi 61 hektar olan ərazilərdə bioremediasiya işləri aparılır. 44 hektar sahənin rekultivasiya sənədləri tərtib edilmişdir.

Bu günə kimi neft yataqlarının bərpa edilmiş ərazilərində 91996 ədəd ağac, 12100 ədəd kol və gül tingləri əkilmiş, 1880 kvadrat metr qazon salınmışdır. Əlavə olaraq ARDNŞ-nin digər struktur bölmələrinin inzibati ərazilərində 52322 ədəd ağac, 2630 ədəd kol və gül tingləri əkilmiş, 1600 kvadrat metr yaşıl ot örtüyü salınmışdır. Hesabat dövrü ərzində yeni və əvvəllər əkilmiş ağaclara, gül kolları və ot örtüklərinə mütəmadi aqrotexniki qulluq göstərilmişdir.

Təmizlənmiş torpaqları yaşıllaşdırmaq və landşaftarxitektura planına uyğun bərpa etmək məqsədilə H. Z. Tağıyev adına NQÇİ-nin 9,3 hektar ərazisində Ekoloji Park salınır. Onun qızdırılması və işıqlanması üçün tələb olunan elektrik enerjisinin təxminən 40 faizi alternativ enerji hesabına təmin olunacaq. Parkın ərazisini daha 8,4 hektar genişləndirmək planlaşdırılır ki, bu da rekultivasiya ediləcək əraziləri yaşıllaşdırmaq üçün ildə 200 min ədəd ağac tingi və gül kolları yetişdirməyə imkan verəcək. Park cəmiyyətimizin və gənc nəslin ekoloji maarifləndirilməsinə, elmi-praktik konfrans, seminar və forumların keçirilməsinə xidmət edəcəkdir.

Mövcud neft-qaz yataqlarında bugünkü fəaliyyət nəticəsində yaranan tullantıların, xüsusən lay suları və qazma şlamlarının tam utilizə edilməsinin təmini, yeni və yenidən qurulan obyektlərdə isə ətraf mühitə "sıfır tullantı" prinsipinə əməl edilməsinə nail olmaq məqsədilə dəniz özüllərində və estakadayanı meydançalarda, quru ərazilərindəki




yataqlarda, həmçinin neft emalı zavodlarının və bu ilin aprel ayından ARDNŞ-nin tərkibinə daxil edilmiş "Azərikimya" İB-nin istehsalat obyektlərində monitorinq aparılmışdır. Aşkar olunmuş nöqsanlar obyektlərin ətraf mühitə təsirlərinin dərəcəsini nəzərə almaqla təsdiq olunmuş qrafik əsasında aradan qaldırılır.

"Neft Daşları" və "28 May" adına neftqazçıxarma idarələrinin yataqlarında hasil olunan lay sularını dərindən təmizləyib yeraltı horizontlara vurmaq məqsədilə, "Neft daşları" yatağında inşa edilən neft yığım məntəqəsində quraşdırmaq üçün ABŞ-dən məhsuldarlığı 7100 kub metr/gün olan 2 ədəd müasir təmizləyici qurğu alınmışdır.

İstismarda olan yataqlarda bir çox təcridetmə və yuxarı horizontlara qaytarma işləri aparılmış, istismarı səmərəsiz olan 128 quyu ləğv edilmiş və lay sularının gündəlik hasilatı 1400 kub metr azaldılmışdır.

Bu il istehsalat obyektlərinin istismar müddəti bitmiş qurğu və avadanlıqlardan, iri qabaritli metal konstruksiyalardan təmizlənməsi davam etdirilmişdir.

Qeyd etmək lazımdır ki, təbii ehtiyatlardan səmərəli istifadəyə xüsusi diqqət yetirilmişdir. Belə ki, gəmilərlə mədənlərə daşınan içməli suya qənaət edilməsi məqsədilə Çilov adasında və Neft Daşları NQÇİ-də dəniz suyunu duzsuzlaşdırmaq üçün gücü 300 və 500 kub metr/gün olan əks osmos qurğuları quraşdırılmışdır. Bu qurğulardan "Neft daşları", "28 May", N. Nərimanov adına və "Abşeronneft" NQÇİ-lərində də quraşdırmaq üçün layihə-smeta sənədləri hazırlanır.

"Neft Daşları" NQÇİ-də və Çilov adasında formalaşan məişət-çirkab sularını təmizləyib təkrar istifadə etmək üçün gücü uyğun olaraq 500 və 400 kub metr/gün olan bioloji təmizləyici qurğular tikilib istismara daxil edilmişlər.



Neftayırma zavodlarında təxminən 18 milyon kub metr sənaye-axıntı suları dərindən təmizlənib təkrar istifadə edilmiş, 22 min kub metr neft şlamı təkrar emal edilərək zərərsizləşdirilmiş, məşəl təsərrüfatının və çirkli suların bioloji təmizləyici qurğularının aerasiya sisteminin yenidən qurulması işləri davam etdirilmişdir.

Bakı buxtasının akvatoriyasında suyun səthində üzən neft ləkələrinin və müxtəlif növ məişət tullantılarının təmizlənməsi məqsədilə spesifik qurğularla təchiz edilmiş "Bulvar-1" gəmisi alınmışdır. Onun işinin effektivliyindən asılı olaraq bu tip daha iri qabaritli gəminin alınması məsələsinə baxılacaq.

Nəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli tullantılara nəzarət etmək məqsədilə "Qum adası", "Balaxanıneft" və "Bibiheybətneft" NQÇİ-lərində ekoloji ölçmə məntəqələri istismara daxil edilmiş və 5479 avtomobil müayinədən keçirilmişdir. Bu ölçmə məntəqələri Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində akkreditasiyadan keçmiş və respublikanın digər təşkilatlarına da analoji xidmət göstərə bilər.

Bu il "Tullantıların idarə olunması planı" təsdiq edilmişdir. Plan struktur bölmələrdə formalaşan tullantıları növlər və toksiklik dərəcələrinə görə qruplaşdırmağı və təkrar istifadə etmək imkanlarını araşdırmağı nəzərdə tutur. Bu məqsədlə Qaradağ rayonu ərazisində yerləşən Tullantı Mərkəzinin yenidənqurulması və genişləndirilməsinin texniki-iqtisadi əsaslandırılması(TİƏ) sənədini hazırlamaq üçün ABŞ-nin Ticarət və İnkişaf Agentliyi arasında bağlanmış "Qrant Sazişi"nə əsasən keçirilmiş tenderdə qalib gəlmiş ABŞ-nin Mİ-LLC şirkəti yaxın vaxtlarda TİƏ-nı təqdim edəcək.

# XX. NƏQLİYYAT

**a) Avtomobil nəqliyyatı** 01.01.2011-ci il tarixinə ARDNŞ-nin idarə və müəssisələrinin balansında 6243 ədəd müxtəlif markalı avtonəqliyyat və xüsusi texnika vasitələri olmuşdur. Onlardan avtobenzinlə işləyənlər 3311 ədəd, dizel yanacağı ilə işləyənlər 2691 ədəd, elektrik enerjisi ilə işləyənlər 10 ədəd və qoşqular 231 ədəd təşkil edir.

ARDNŞ-nin idarə və müəssisələrinin balansında olan avtonəqliyyat və xüsusi texnika vasitələrinin təsnifatı aşağıda göstərilən cədvəldə xarakterizə edilmişdir.

**Cədvəl XX-1**

| № | İdarə və müəssisələrin adları | Minik | Avtobus | M/ avtobus | Yük | Xüsusi texnika | Trak- torlar | Qoş- qular | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | «Azneft» İB | 535 | 226 | 50 | 687 | 547 | 384 | 61 | 2490 |
| 2 | "Azərikimya" İB | 60 | 16 | 5 | 43 | 34 | 59 | 10 | 227 |
| 3 | "Azəriqaz" İB | 345 | 25 | 7 | 233 | 100 | 131 | 31 | 872 |
| 4 | Geofizika və Geologiya İdarəsi | 57 | 17 | 5 | 61 | 124 | 3 | 6 | 273 |
| 5 | "Neft kəmərləri" İdarəsi | 103 | 16 | 8 | 32 | 32 | 14 | 8 | 213 |
| 6 | "Marketinq və İƏ"İ | 13 | 2 | 1 | 9 | 5 | 7 | 2 | 39 |
| 7 | H.Əliyev ad. BDÖZ | 28 | 30 | 2 | 31 | 18 | 49 | 10 | 168 |
| 8 | «Azərnefyağ» NEZ | 51 | 11 | 9 | 38 | 34 | 14 | 11 | 168 |
| 9 | H.Əliyev ad. BNEZ | 73 | 18 | 5 | 38 | 28 | 12 | 4 | 178 |
| 10 | Sosial İnkişaf İdarəsi | 0 | 0 | 0 | 0 | 3 | 0 | 0 | 3 |
| 11 | Təhlükəsizlik İdarəsi | 73 | 14 | 4 | 3 | 3 | 0 | 0 | 97 |
| 12 | "İTRİ" | 22 | 4 | 1 | 13 | 2 | 3 | 0 | 45 |
| 13 | "Ekologiya" İdarəsi | 24 | 5 | 0 | 7 | 0 | 3 | 0 | 39 |
| 14 | "Kompleks qazma iş" Tresti | 76 | 78 | 4 | 181 | 101 | 82 | 47 | 569 |
| 15 | «Neftqaztikinti» Tresti | 113 | 54 | 12 | 224 | 66 | 183 | 40 | 692 |
| 16 | Xəzər DND | 45 | 27 | 6 | 19 | 5 | 0 | 0 | 102 |
| 17 | Qaz emalı zavodu | 20 | 10 | 1 | 12 | 18 | 6 | 1 | 68 |
| | ARDNŞ üzrə cəmi | 1638 | 553 | 120 | 1631 | 1120 | 950 | 231 | 6243 |

Hesabat ilində avtomobil nəqliyyatı, xüsusi texnika vasitələrindən və yanacaq-sürtkü materiallarından səmərəli istifadə edilməsi sahəsində xeyli işlər görülmüşdür.

Belə ki, aparılan məqsədyönlü işlərin nəticəsində avtomobil nəqliyyatı və xüsusi texnika vasitələrinin texniki sazlığının saxlanılması məqsədilə vaxtlı-vaxtında ehtiyat hissələri ilə təmin edilmiş, bunun nəticəsində onların texniki qulluqları və təmir işlərinin keyfiyyəti artmışdır. Ona görə 2010-cu ilin 12 ayı ərzində avtomobil nəqliyyatı və xüsusi texnika vasitələrinin parkdan istifadə əmsalı 0,70 təşkil etmişdir.

2010-cu ilin 12 ayı ərzində ARDNŞ üzrə normativ istismar müddəti bitmiş, fiziki və mənəvi cəhətdən aşınmış, istismarı və təmiri iqtisadi cəhətdən əlverişli olmayan 994 ədəd avtomobil nəqliyyatı və xüsusi texnika vasitələri idarə və müəssisələrin balansından silinmiş və 727 ədəd müxtəlif markalı yeni avtomobil nəqliyyatı və xüsusi texnika vasitələri alınmış və istismara buraxılmışdır.

ARDNŞ-nin idarə və müəssisələri üzrə 2010-cu ildə balansından silinən və yeni alınan avtomobil nəqliyyatı və xüsusi texnika vasitələrinin siyahısı cədvəldə göstərilmişdir.

**Cədvəl XX-2**

| № | İdarə və müəssisələrin adları | 2010-cu ildə alınan | 2010-cu ildə silinən |
|---|---|---|---|
| 1 | «Azneft» İB | 243 | 437 |
| 2 | "Azərikimya" İB | 44 | 76 |
| 3 | "Azəriqaz" İB | 243 | 181 |
| 4 | Geofizika və Geologiya İdarəsi | 17 | 19 |
| 5 | "Neft kəmərləri" İdarəsi | 14 | 34 |
| 6 | "Marketinq və İƏ" İdarəsi | 0 | 11 |
| 7 | H.Əliyev ad. BDÖZ | 1 | 11 |
| 8 | «Azərnefyağ» NEZ | 1 | 27 |
| 9 | H.Əliyev ad. BNEZ | 7 | 21 |
| 10 | Təhlükəsizlik İdarəsi | 8 | 6 |
| 11 | "İTRİ" | 9 | 3 |
| 12 | "Ekologiya" İdarəsi | 7 | 0 |
| 13 | "Kompleks qazma işləri" Tresti | 46 | 113 |
| 14 | «Neftqaztikinti» Tresti | 67 | 26 |
| 15 | Xəzər DND | 12 | 18 |
| 16 | "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 0 | 3 |
| 17 | Qaz emalı zavodu. | 8 | 8 |
| | ARDNŞ üzrə cəmi | 727 | 994 |



ARDNŞ rəhbərliyinin göstərişi əsasında bir çox müəssisələrdə təsdiq edilmiş proqram üzrə köhnə avtomobil nəqliyyatı və xüsusi texnika vasitələrinin mərhələ-mərhələ yeniləşməsinin həyata keçirilməsi davam etdirilir.

Hesabat ilində yanacaq-sürtkü materiallarından istifadə edilməsi sahəsində də müəyyən işlər görülmüşdür. ARDNŞ-nin idarə və müəssisələri tərəfindən 2010-cu ildə yanacağın istifadəsi haqqında təqdim olunan hesabatlar araşdırılmışdır.

Görülən tədbirlərin nəticəsində 2010-cu ilin 12 ayı ərzində 3247.1522 ton avtobenzinə və 13467.994 ton dizel yanacağına qənaət edildiyi müəyyən edilmişdir.

Cədvəllərdən göründüyü kimi bütün idarə və müəssisələr yanacaqdan qənaət və səmərəli istifadə etməklə 2010-cu il üçün ayrılmış yanacaq fondundan az yanacaq istifadə etmişdirlər.

**Cədvəl XX-3**

| Idarə və müəssisələrin adları | Avtobenzin ( ton) | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 01.01.10 qalıq | 4 rübün fondu | 12 ayın fondu | 12 ayda alınıb | 12 ayın sərfi | Sərf +, - fond | 01.01.11. qalıq |
| «Azneft» İB | 204.047 | 11166.125 | 11166.125 | 9978.169 | 9971.281 | -1194.844 | 203.334 |
| "Azərikimya" İB | 19.233 | 685.9 | 685.9 | 343.45 | 360.66 | -325.24 | 2.023 |
| "Azəriqaz" İB | 31.909 | 1684.0 | 1684.0 | 1424.66 | 1410.6098 | -237.3902 | 45.802 |
| Geofizika və Geologiya İdarəsi | 36.6 | 566.44 | 566.44 | 581.54 | 578.29 | 11.85 | 20.05 |
| "Neft kəmərləri" İdarəsi | 0 | 504.0 | 504.0 | 400.57 | 399.57 | -104.43 | 1.0 |
| "Marketinq və İƏ" İdarəsi | 0 | 35.36 | 35.36 | 34.383 | 34.383 | -0.977 | 0 |
| H.Əliyev ad. BDÖZ | 20.148 | 375.74 | 375.74 | 316.641 | 319.003 | -56.737 | 17.786 |
| «Azərnefyağ» NEZ | 1.179 | 332.426 | 332.426 | 310.941 | 311.04 | -21.389 | 1.083 |
| H.Əliyev ad. BNEZ | 1.0 | 480.4 | 480.4 | 395.8 | 395.9 | -84.5 | 0.9 |
| Sosial İnkişaf İdarəsi | 0 | 1.0 | 1.0 | 1.0 | 0.07 | -0.93 | 0.93 |
| Təhlükəsizlik İdarəsi | 1.249 | 349.6 | 349.6 | 325.337 | 325.252 | -24.348 | 1.334 |
| "İTRİ" | 0.36 | 111.0 | 111.0 | 98.224 | 98.344 | -12.656 | 0.24 |
| "Ekologiya" İdarəsi | 0.24 | 88.0 | 88.0 | 77.265 | 77.249 | -10.751 | 0.256 |
| "Kompleks qazma iş" Tresti | 36.1 | 2478.6 | 2478.6 | 1468.6 | 1457.8 | -1020.8 | 46.9 |
| «Neftqaztikinti» Tresti | 73.854 | 1847.64 | 1847.64 | 1830.511 | 1844.253 | -3.387 | 60.112 |
| Xəzər DND | 1.077 | 516.5 | 516.5 | 430,904 | 430,736 | -85,764 | 1,245 |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| "Qaz ixrac" İdarəsi | 0,006 | 0 | 0 | 0,035 | 0,041 | 0,041 | 0 |
| Qaz emalı zavodu. | 0 | 210,0 | 210,0 | 171,8 | 171,1 | -38,9 | 0,7 |
| ARDNŞ üzrə | 427,002 | | 21432,731 | 18189,83 | 18185,5788 | -3247,1522 | 403,695 |

**Cədvəl XX-4**

| İdarə və müəssisələrin adları | Dizel yanacağı (ton) | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 01.01.10 qalıq | 4 rübün fondu | 12 ayın fondu | 12 ayda alınıb | 12 ayın sərfi | Sərf +, - fond | 01.01.11. qalıq |
| «Azneft» İB | 889,8 | 18197,085 | 18197,085 | 15213,949 | 15105,803 | -309128 | 918,334 |
| "Azərikimya" İB | 12,577 | 968,6 | 968,6 | 374,7 | 381,357 | -587,24 | 5,87 |
| "Azəriqaz" İB | 51,026 | 1769,0 | 1769,0 | 1149,907 | 1138,706 | -630,29 | 62,101 |
| Geofizika və Geologiya İdarəsi | 52,73 | 731,19 | 731,19 | 700,98 | 677,82 | -53,37 | 63,79 |
| "Neft kəmərləri" İdarəsi | 0,065 | 708,9 | 708,9 | 705,378 | 704,293 | -4,61 | 1,15 |
| "Marketinq və İƏ" İdarəsi | 0 | 102,2 | 102,2 | 82,993 | 82,993 | -19,21 | 0 |
| H.Əliyev ad. BDÖZ | 9,909 | 644,62 | 644,62 | 609,007 | 596,146 | -48,47 | 22,77 |
| «Azərnefyağ» NEZ | 5,815 | 316,692 | 316,692 | 294,699 | 295,599 | -21,09 | 4,915 |
| H.Əliyev ad. BNEZ | 9,1 | 638,5 | 638,5 | 391,5 | 393,7 | -244,80 | 6,9 |
| Sosial İnkişaf İdarəsi | 13,755 | 137,0 | 137,0 | 113,074 | 97,469 | -39,53 | 29,36 |
| Təhlükəsizlik İdarəsi | 0,563 | 139,0 | 139,0 | 139,035 | 139,002 | 0,002 | 0,596 |
| "İTRİ" | 0,63 | 66,1 | 66,1 | 61,5 | 60,63 | -5,47 | 1,5 |
| "Ekologiya" İdarəsi | 8,663 | 168,8 | 168,8 | 129,889 | 137,896 | -30,90 | 0,656 |
| "Kompleks qazma iş" Tresti | 689,7 | 16778,3 | 16778,3 | 12982,0 | 13164,7 | -3613,60 | 507,0 |
| «Neftqaztikinti» Tresti | 102,138 | 6053,812 | 6053,812 | 603,806 | 5994,511 | -59,30 | 138,433 |
| Xəzər DND | 5563,425 | 39565,4 | 39565,4 | 32894,31 | 34598,007 | -4967,39 | 3859,728 |
| "Neftqazelmitədqiqatlayihə" İnstitutu | 0 | 1,0 | 1,0 | 0 | 0 | -1,0 | 0 |
| "Qaz ixrac" İdarəsi | 0,497 | 6,17 | 6,17 | 6,267 | 6,043 | -0,13 | 0,721 |
| Qaz emalı zavodu. | 0 | 235,0 | 235,0 | 185,4 | 184,7 | -50,30 | 0,7 |
| ARDNŞ üzrə | 7410,393 | 87227,369 | 87227,369 | 72065,344 | 73759,375 | -13467,994 | 5624,524 |



Hesabat ilində şöbənin rəhbərliyi və mütəxəssisləri tərəfindən "Azneft", "Azəriqaz", "Azərikimya" İB-nin müəssisələrində və Geofizika və geologiya idarəsinin "Nəqliyyat və Xüsusi texnika" idarəsində nəqliyyat vasitələrindən və yanacaq-sürtkü materiallarının istifadəsi araşdırılarkən müəyyən edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müəssisə rəhbərlərinə müvafiq göstərişlər verilmişdir.

İl ərzində yerlərdən balansdan silinməyə təqdim edilən 994 ədəd nəqliyyat vasitəsinin vəziyyəti aidiyyatı şöbələrlə birlikdə araşdırılmış və onların silinməsi üçün müvafiq rəylər hazırlanmışdır.

Müəssisələr tərəfindən ehtiyat hissələrinin alınması üçün təqdim olunan tələbat şöbə tərəfindən araşdırılmış və onların alınması üçün təkliflər verilmişdir.

Bundan başqa ötən illərdən fərqli olaraq, yeni avtonəqliyyat və xüsusi texnika vasitələrinin alınması haqqında müəssisələrdən daxil olan müraciətlər tərəfimizdən əsaslı qaydada araşdırılmış, texniki göstəriciləri dəqiq təhlil edilib və araşdırıldıqdan sonra onların alınması üçün rəhbərliyə təkliflər verilmişdir. Bu hal hal-hazırda da davam etdirilməkdədir.

Qeyd edək ki, səmərəliliyin artırılması məqsədi ilə şöbəyə daxil olan bütün hesabatlar, təklif və rəylərin alınması elektron poçt vasitəsi ilə həyata keçirilir.

ARDNŞ-nin struktur bölmələrində nəqliyyat vasitələrinin istismarının səmərəliliyinin artırılması və bu sahədə yerlərdə nəzarətin gücləndirilməsi məqsədilə hesabat ilində ARDNŞ-nin müvafiq əmr və sərəncamları ilə nəqliyyat vasitələrinin idarəetmə sistemində aşağıdakı struktur dəyişiklikləri edilmişdir.

1. 41 nömrəli, 17 avqust 2010-cu il tarixli əmrə əsasən "Neft Kəmərləri" idarəsinin Nəqliyyat sexinin Maddi - Texniki bazasında hüquqi şəxs statusuna malik olmayan təşkilat kimi, İdarənin birbaşa tabeliyində olan "Nəqliyyat Departamenti" yaradılmışdır.

2. 58 nömrəli, 28 avqust 2010-cu il tarixli əmrə əsasən "Azərikimya" İB-nin tərkibində hüquqi şəxs statusuna malik olmayan "Nəqliyyat və Xüsusi texnika" idarəsi yaradılmışdır.

3. 129 S nömrəli, 29 noyabr 2010-cu il tarixli sərəncama əsasən H.Əliyev adına BDÖ zavodunun, İTRİ-nin, XDND-nin, "Neftqaztikinti" trestinin, "Ekologiya" idarəsinin, "Azərneftyağ" NEZ-in və Qaz Emalı zavodunun balansında olan bəzi minik avtomobilləri "Azneft" İB-nin "Nəqliyyat Departamenti"nin balansına verilmişdir.

4. 58 nömrəli, 16 iyun 2010-cu il tarixli Sərancama əsasən "Azneft" İB-nin "Abşeronneft" və "N.Z.Tağıyev" adına NQÇİ-lərin Nəqliyyat sexləri onlara aid əmlakları ilə birlikdə həmin birliyin Nəqliyyat Departamentinin balansına verilmişdir.

Yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə yerlərdə müvafiq tədbirlər planı hazirlanıb həyata keçirilmişdir.

Qeyd olunanlarla yanaşı şöbə gündəlik cari işlərlə və ARDNŞ rəhbərliyinin müvafiq tapşırıqlarının yerinə yetirilməsi ilə də məşğul olmuşdur.

**b) Dəniz nəqliyyatı** 2010-cu ildə Dəniz Nəqliyyatı şöbəsi tərəfindən neftqazçıxarma,





qazma, tikinti ,geoloji, texnoloji prosseslərin və dalğıc işlərinin görülməsinə lazım olan dəniz nəqliyyatı xidmətlərinin təşkil olunması ilə bağlı ARDNŞ-nin tabeliyində olan idarə və müəssisələrin rəhbərləri ilə birlikdə xidmətlərin vaxtında operativ həll olunması üçün müvafiq təkliflərin hazırlanmasına və həyata keçirilməsinə köməklik göstərilmişdir. Dəniz nəqliyyatı vasitələrinin sifarişçilər tərəfindən səmərəli istifadə olunmasına və boş dayanmalara yol verilməməsi üçün müvafiq təkliflərin hazırlanması və həyata keçirilməsi təmin olunmuşdur.

ARDNŞ-nin tabeliyində olan idarə və müəssisələrin balansında 01.01.2011-ci il tarixinə 275 ədəd üzən vasitələr (gəmilər, üzən qazma qurğuları, kərəçilər, 3 ədəd üzən tərsanələr və 4 ədəd üzən emalatxanalar nəzərə alınmaqla) olmuşdur.

Bunları belə göstərmək olar:

**Cədvəl XX-5**

| S.S | İdarə və müəssisələrin adı | Balansda olan üzən vasitələrin sayı (ədəd) | Qeyd |
|---|---|---|---|
| 1 | Xəzər Dəniz Neft Donanması | 253 | 4 ədəd üzən emalatxana və 3 ədəd üzən tərsanə nəzərə alınmışdır |
| 2 | "H.Əliyev adına Bakı dərin özüllər zavodu" | 1 | Xidmət kateri RK-"862" |
| 3 | "Kompleks qazma işləri" Tresti | 9 | "Xəzər" tipli 6 ədəd, yarımdalma "Şelf" tipli 3 ədəd |
| 4 | "Azneft" İB | 8 | Kərəçilər (kirjim) |
| 5 | "Neftqaztikinti" Tresti | 4 | Kərəçilər (kirjim) |
| Cəmi: | | 275 | |

Fiziki və mənəvi cəhətdən aşınmış , istismarı böyük risk tələb edən və iqtisadi cəhətdən səmərəli olmayan gəmilərin balansdan silinməsi barədə Şirkətə daxil olan təkliflərə baxılmış və müvafiq rəylər verilmişdir.

2010-cu ildə ARDNŞ-nin tabeliyində olan idarə və müəssisələrin balansından 12 ədəd üzən vasitələr silinmişdir. O cümlədən, XDND-nin balansından 11 ədəd gəmi və Geofizika və Geologiya İdarəsinin balansından "Abşeron" üzən qazma qurğusu.

2010-cu ildə XDND-nin balansına 1 ədəd "Bulvar-1" ekoloji gəmi qəbul olunmuşdur.

XDND-nin balansında 01 yanvar 2011-ci il tarixinə ümumi balans dəyəri 726690 min manat müxtəlif tipli, ümumi yükqaldırma qabiliyyəti 82 323,6 ton və 411 143,2 at gücünə malik 253 gəmi vardır. 253 gəmidən 196 (77,5 %) gəmi istismarda, (9 gəmi icarədədir),

38 (15,0 %) gəmi təmirdə, 11 (4,3 %) gəmi təmir gözləmədə, 8 (3,2 %) gəmi isə silinmə gözləmədə olmuşdur.

XDND-nin iqtisadi göstəriciləri, gəmilərin təyinatına görə və ARDNŞ-nin müəssisələrinə, digər təşkilatlara göstərilmiş gəmi saatı (daxili dövriyyə ilə birlikdə) xidmətləri haqda məlumatlar əlavə olunur (cədvəl 1,2,3 )

Donanma gəmiləri üçün ARDNŞ-ə təqdim olunmuş dizel yanacağı və sürtkü materiallarına olan illik tələbatlar şöbə mütəxəssisləri tərəfindən araşdırılmış və təkliflər verilmişdir. İl ərzində ayrılmış fond üzrə dizel yancağı və sürtkü materiallarının sərfinə daimi nəzarət edilmişdir

**Xarici şirkətlərlə əməkdaşlıq** ARDNŞ-nin dəniz nəqliyyatı sahəsinin inkişafına xarici sərmayənin cəlb edilməsi məqsədilə müvafiq rəylər və təkliflər verılmişdır. Şirkət və struktur bölmələrinin dəniz nəqliyyatı sahəsində xarici firmalarla əməkdaşlıq əlaqələrinin, Müştərək Müəssisə və ya Alyansların yaradılması barədə təkliflərin verilməsi, aparılan işlərlə bağlı aidiyyatı üzrə hesabatlara nəzarət edilmişdir.

2010-cu il ərzində xarici şirkət və müştərək müəssisələrlə imzalanmış Müqavilələr üzrə dəniz nəqliyyatı xidmətindən 15 874 159,0 manat gəlir əldə edilmişdir. Bu da donanma üzrə ümumi gəlirin 16,2 %-ni təşkil edir.

Keçən ilin müvafiq dövründə bu sahə üzrə gəlir 12 558 662,0 manat olmuşdur. Yəni dəniz nəqliyyatı xidmətindən gəlir 2009-cu ilə nisbətən 3 315 497,0 manat çox olmuşdur.

2010-cu il ərzində Xəzərin Azərbaycan sektorunda fəaliyyət göstərən əməliyyat şirkətlərinə (ABƏŞ və BP Şahdəniz) və onların podratçılarına ( BUE Kaspian, Saipem, CMS və s.) xidmətlərin göstərilməsi davam etdirilmişdir.

XDND/BYUİ Kaspiyan Alyansı vasitəsi ilə Xəzərin Azərbaycan sektorunda fəaliyyət göstərən xarici neft şirkətlərinə uzunmüddətli müqavilələr əsasında xidmətlərin göstərilməsi davam etdirilmişdir.

Alyansın sərəncamında olan gəmilərdən əlavə Azərbaycan Respublikasına 3 ədəd müasir təchizat-yedək gəmiləri gətirilmişdir ki , bunlar da Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqlarında özülləri təchizatla təminata, yedəkləmə əməliyyatlarına və s. işlərə cəlb edilmişlər.

ARDNŞ ilə "Saipem S.p.A." şirkəti arasında imzalanmış 20.11.2007-ci il tarixli Alyans Müqaviləsinə əsasən 2010-cu il ərzində təftiş, texniki xidmət, təmir işləri eləcə də nəql və quraşdırma layihəsi üzrə sualtı texniki əməliyyatlar yerinə yetirilmişdir.

ARDNŞ və "Caspian Marine Services (UK) Ltd." arasında imzalanmış Alyans Müqaviləsinə əsasən XDND-nin 31 ədəd müxtəlif təyinatlı gəmisi Xəzərin Azərbaycan və digər sektorlarında qısa və uzunmüddətli layihə əməliyyatlarina cəlb edilmişdir. Bunların arasında "Ak.T.İsmayılov", "İ.Hüseynov", "Azərbaycan" və "Ə.Şıxlinski" gəmilərini qeyd etmək olar. Alyans tərəfindən Azərbaycan Respublikasına gətirilən 5 ədəd sərnişin gəmiləri sifarişçilərin istifadəsinə verilmişdir.

**Təmir işləri** Şöbə tərəfindən üzmə vasitələrinə tələb olunan profilaktika və əsaslı təmir işlərinin görülməsi üçün təmir proqramının hazırlanmasına, təmirin əksər hallarda Donanmanın Gəmi Təmiri Zavodunda (GTZ) görülməsinə, GTZ-də mümkün olmadıqda tender keçirilməklə kənar təşkilatların zavodlarında aparılması üçün müvafiq müqavilələrin

bağlanmasına köməklik göstərilmişdir. Təmir ərəfəsində şöbənin mütəxəssisləri tərəfindən mütəmadi olaraq yoxlamalar keçirilmiş, bu məqsədlə aparılan müşavirələrdə təmir işlərinin sürətləndirilməsi məqsədi ilə təkliflər verilmişdir.

Yeni gəmi tikilməsi, mövcud gəmilərin təmiri, modernləşdirilməsi üzrə təklif və rəylərin verilməsi təmin olunmuşdur.

2010-cu ildə ümumi 30 955 330,41 manat məbləğində gəmi təmiri işləri yerinə yetirilmişdir. O cümlədən öz müəssisələrimizdə 17 653 975,58 manat məbləğində təmir işləri yerinə yetirilmişdir (Gəmi Təmiri Zavodunda 16 165 265,0 manat məbləğində təmir işləri, təmir emalatxalarında isə 1 488 710,58 manat məbləğində təmir işləri görülmüşdür). Kənar təşkilatlarda 13 301 354,83 manat məbləğində təmir işləri yerinə yetirilmişdir.

2009-cu ildə Donanmanın öz müəssisələrində 15 272 612,96 manat gəmi təmiri işləri aparılmışdır. Onlardan Gəmi təmiri zavodunda 13 846 492,0 manat, emalat-xanalarda isə 1 426 120,96 manat məbləğində təmir işləri yerinə yetirilmişdir. Kənar təşkilatlarda isə 9 429 565,42 manat məbləğində təmir işləri görülmüşdür. 2010-cu il ərzində 79 gəmi təmir olunmuşdur. (2009-ci ildə 94 gəmi təmir olunmuşdur.)

**Dənizdə təhlükəsiz üzmə xidməti** Beynəlxalq Dəniz Təşkilatının qəbul etdiyi Konvensiyaların, milli standartların və s. normativ sənədlərdən irəli gələn tələblərə əsaslanaraq, gəmilərin təhlükəsiz istismarının təmin edilməsi ilk növbədə dənizdə insan həyatının qorunması, baş vermiş qəza hadisələrinin yaranma səbəblərinin qısa bir zamanda aradan qaldırılması, həmçinin dənizin ekoloji cəhətdən çirklənməsinin qarşısının alınması məqsədi ilə şöbə tərəfindən XDND-də müvafiq tədbirlər həyata keçirilməsinə mütəmadi olaraq nəzarət olunmuşdur.

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının, Azərbaycan Respublikasında Dəniz Gəmiçiliyi Registri QTSC tərəfindən dəniz nəqliyyatı vasitələrinin təhlükəsiz üzmələrinə





aid tərtib olunmuş sənədlərin icrasına və həyata keçirilməsinə şöbə tərəfindən müvafiq köməklik göstərilmişdir. Dövlət Gəmi və Liman Nəzarəti Müfəttişliyi tərəfindən gəmilərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə verilmiş tövsiyələrin icrasına nəzarət olunmuşdur.

2010-cu ildə XDND-yə məxsus gəmilərdə 4 qəza yönümlü hadisə baş vermişdir. 2009-cu ildə 5 qəza yönümlü hadisə baş vermişdir.

Hadisələrin baş verməsində günahkar və aidiyyətı şəxslər tutduqları vəzifələrdən azad edilmiş, inzibati məsuliyyətə cəlb edilərək aşağı vəzifələrə və aşağı qrup gəmilərə təyin olunmuşlar.

Beynəlxalq Dəniz Təşkilatı tərəfindən qəbul edilmiş "Səyyar dəniz rabitə və dəniz peyk rabitə xidmətlərinə dair Rəhbər Sənəd"-ə əsaslanaraq 2009-cu ildə Xəzər Dəniz Neft Donanması gəmilərinin uzaq məsafədən tanınma və izlənməsi məqsədilə Universal Avtomatik İdentifikasiya Sistemi (UAİS) quraşdırılması nəticəsində dispetçer məntəqəsində monitor vasitəsi ilə izlənən gəmilərin sayı 85-dən 89-a çatdırılmışdır.

Beynəlxalq səfərlər edən 24 gəmidə "Gəmi və Liman Vasitələrinin Təhlükəsizliyi Kodeksi (İSPS)"-nin tələblərinə müvafiq olaraq Gəmi Təhlükəsizlik xəbərdarlığı sistemi bazası əsasında "Uzaq Məsafədən Tanınma və İzlənmə" sistemi quraşdırılmış və Rusiya Federasiyasının "Morsvyazsputnik" Federal Dövlət Unitar Müəssisəsinin monitorinq mərkəzi vasitəsi ilə onların müşahidəsi həyata keçirilir.

**Əməyin mühafizəsi və təhlükəsizlik texnikası** Əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının pozulması, dalğıc işləri və gəmilərin təhlükəsiz istismarı ilə əlaqədar baş vermiş qəza hadisələrinin təhqiqatında şöbənin mütəxəssisləri iştirak etmiş və bununla bağlı müvafiq təkliflər verilmişdir.

2010-cu il ərzində donanmanın gəmilərində və sahil obyektlərində 416 yoxlama işləri aparılmışdır. İl ərzində 1049 nəfər mühəndis-texniki işçilərin bilikləri yoxlanılmışdır.

Cari ildə XDND-də istehsalatla əlaqədar bir bədbəxt hadisə baş vermişdir.

2009-ci ildə də istehsalatla bağlı bir bədbəxt hadisə baş vermişdir.

Əməyin mühafizəsi sahəsində nəzərdə tutulmuş nomenklatur tədbirlərinə 1 123 500,0 manat vəsait ayrılmış, faktiki olaraq 1 127 020 manat vəsait xərclənmişdir.

**Ətraf mühitin mühafizəsi** Gəmi və sahil obyektlərində ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün tərtib olunmuş ekoloji tədbirlərin icrasına daima nəzarət olunmuş, mütəxəssislər tərəfindən yoxlamalar nəticəsində aşkar olunmuş çatışmazlıqların aradan qaldırılmasına şöbə tərəfindən köməklik göstərilmişdir.

İl ərzində XDND-də ətraf mühitin mühafizəsi sahəsində aşağıdakı işlər görülmüşdür:

- Təmirdən çıxan 63 ədəd gəminin qəza-qurutma sistemləri və digər atqı klapanlarında plomblama və aktlaşdırma işləri aparılmışdır.(2009-cu ildə bu işlər 85 gəmidə aparılmışdır)
- Əsaslı təmirə dayandırılmış "Atlet-5", "Atlet-24","Aura", "Nerça", "Nefteqaz-64","E.Xalıqov" gəmilərində əlavə məişət –təssərrüfat fekal çirkab su tutumlarının quraşdırılması və ya həcmcə genişləndirilməsi işləri yerinə yetirilmişdir.
- Konstruksiyası imkan verən kiçik su tutumlu bir ədəd gəmidə qapalı çirkab fekal və fan sistemlərinə çən quraşdırılmışdır.
- Gəmilərdə neft məhsulları ilə çirklənmiş döşəməaltı-lyal suların, sahil obyektlərində çirkab təsərrüfat məişət fekal suların, işlənmiş texniki yağların, quru zibillərin, yağlı əski və yeyinti qalıqlarının normalara uyğun yığılıb və lazımı məntəqələrə təhvil verilməsi təmin olunmuşdur.





**Dalğıc və sualtı-texniki işlər** Dalğıc xidməti işlərinin vaxtında aparılmasına, yeni sualtı texnikanın alınması, sınaqdan keçirilməsi və tətbiqi ilə bağlı işlərin görülməsinə şöbənin mütəxəssisləri tərəfindən nəzarət edilmişdir. Dalğıc xidmətinin fəaliyyətini reqlamentləşdirən normativ sənədlərin tətbiqi təmin edilmişdir.

Dalğıc və sualtı-texniki işlər üzrə 2010-cu ildə aşağıda qeyd olunmuş işlər həyata keçirilmişdir:

Neft hasilatının fasiləsiz təminatı ilə əlaqədar hidrotexniki qurğulara dalğıc xidməti, sualtı dəniz magistral, mədəndaxili boru və DDÖ-lər arası kəmərlərin təmiri, hidrotexniki qurğuların dəniz stasionar özüllərin tədqiqi, dənizi çirkləndirən mənbələrin aradan qaldırılması, gəmilərin gövdə, digər sualtı hissələrinin, pər-sükan qurğularının təmizlənməsi və tədqiqi, dəniz obyektlərində qəza-xilasetmə xidmətinin təşkili, sualtı boru kəmərlərinin, dik dayaqlarının, elektrik kabellərinin, şaxtalarının, rabitə dayaqlarının, quyu şaxtalarının bərkidilməsi və tədqiqi, DDÖ-rin metal konstruksiyalarının, sualtı boru kəmərlərinin, onların dik dayaqlarının, elektrik kabellərinin, şaxtaların heyətsiz sualtı aparatla (HSA) tədqiqi.

**İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzi** XDND-nin tərkibində yaradılmış İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzində ARDNŞ-nin tərkibindəki müəssisələrdə çalışan, eləcə də ARDNŞ ilə müxtəlif müqavilələr əsasında tərəfdaş kimi çıxış edən müəssisələrdəki dənizçilərin və dəniz neftçilərinin Beynəlxalq Standartlara və Beynəlxalq Dəniz Konvensiyalarının tələblərinə uyğun olaraq dənizdə insan həyatının mühafizəsini təmin etmək üçün müasir tələblərə cavab verən kursların təşkil edilməsinə şöbənin mütəxəsisləri tərəfindən köməklik göstərilmiş və bu kursların müasir tələblərə uyğun aparılmasına daima nəzarət edilir.

Təlim Mərkəzi tərəfindən aşağıdakı əsas işlər yerinə yetirilmişdir:

Təlim Mərkəzində 2010-cu ildə təşkil olunmuş kurslarda ümumi (neftçilər və xarici şirkətlər nəzərə alınmaqla) 1903 nəfər iştirak etmişdir:

O cümlədən:

- Gəmi heyətinin hazırlanması - 275 nəfər (NBJS);
- Əmniyyətli idarəetmə üzrə beynəlxalq məcəllə - 269 nəfər (MKUB);
- Gəmi və liman vasitələrinin mühafizəsinə aid beynəlxalq məcəllə - 109 nəfər (OSPS);
- Gəmi idarə heyətinin yanğınla mübarizəsi üçün genişləndirilmiş kurs – 176 nəfər (SOLAS);
- Qlobal dəniz fəlakətləri zamanı əmniyyətli rabitə sistemi – 142 nəfər (QMSSB);
- Xilasedici qayıq və sallar üzrə hazırlıq kursları -531 (XQSHK);

2010-cu ildə aşağıda göstərilmiş yeni kurslar təşkil olunmuşdur;

- Dalğıcların hazırlanması,
- İlk tibbi yardım göstərilməsi,
- Sürətli qayıqların idarə edilməsi,
- Gəmi sürücülərinin elektron-kartoqrafiya trenajorunda hazırlanması,
- Yanğın üzrə trenajorun hazırlanması və müvafiq hazırlıq kursu

Yaradılmış kurslar üzrə lazımı təlimatların keçirilməsi davam etdirilir.



**2011-ci ildə aşağıdakı tədbirlərin şöbə tərəfindən həyata keçirilməsi zəruri hesab edilir:**

-XDND-nin maliyyə borclarının ixtisar edilməsi və xidməti maya dəyərinin aşağı salınması üzrə tədbirlərin həyata keçirilməsi;

-ARDNŞ-nin 30 avqust 2011-ci il tarixli 111 nömrəli əmri ilə 2025-ci ilə kimi ARDNŞ-nin strateji inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi;

-ARDNŞ-nin 12 iyul 2008-ci il tarixli 91 nömrəli əmri ilə əlaqədar risklərin idarə edilməsi üzrə müvafiq tapşırıqların yerinə yetirilməsinin davam etdirilməsi;

-Xarici şirkətlərlə və Alyanslarla iqtisadi əməkdaşlığın davam etdirilməsi;

-İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzində dənizçilərin və dəniz neftçilərinin Beynəlxalq Standartlara və BDT-nin "Solas-74" Konvensiyasının tələblərinə uyğun olaraq kurslarda hazırlıqların keçirilməsinin davam etdirilməsi;

-Təlim Mərkəzində İxtisaslaşdırılmış üstüörtülü hovuzun layihələndirilməsi və tikintisinə başlanılması.

-Ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün gəmilərdə və sahil obyektlərində müvafiq tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

-Yanacaq və sürtkü materiallarından, elektrik enerjisindən səmərəli istifadə edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

-ARDNŞ-nin tabeliyində olan idarə və müəsisələrə xidmət göstərən gəmilərin istismarına nəzarətin gücləndirilməsi və boş dayanmalara yol verilməməsi;

-Təhlükəsizlik texnikası qaydalarının pozulmasının qarşısının alınması, qəza və qəza yönəmli hadisələrin baş verməməsi məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi;

-2011-2012-ci illər üçün payız-qış mövsümü ilə əlaqədar hazırlıq işlərinə başlanılması;

-Gəmi Təmiri Zavodunda gəmilərin qrafik üzrə təmir olunmaları ilə əlaqədar tədbirlərin həyata keçirilməsi davam etdirilsməsi;

-Registr üzmə sənədlərinin müddətləri qurtarmış gəmilərin istismarına yol verilməməsi və onların digər gəmilər ilə əvəz olunmaları ilə əlaqədar tədbirlərin həyata keçirilməsi;

-Günəşli yatağında yerləşən stasionar platfomalarda sualtı dalğıc işlərinin vaxtında təmin edilməsi məqsədi ilə yeni Hava Mobil Dalğıc Kompleksinin alınmasının həyata keçirilməsi;

-"Təbriz Xəlilbəyli" gəmisində quraşdırılmış yeni Heyətsiz Sualtı Dalğıc Aparatının istismara verilməsinin təmin edilməsi.

**2010-cu ildə ARDNŞ-nin kommersiya daşımaları sahəsində aşağıdakı işlər görülmüşdür:** ARDNŞ və "Palmali" İnternational Holdinq Kompani Limited aralarında 2 may 2007-ci il tarixdə bağlanmış daşınma xidmətləri üzrə 237 saylı müqaviləyə əsasən ARDNŞ-ə məxsus olan xam neft və neft məhsullarının daşınması razılaşdırılmış qrafiklə həyata keçirilmişdir. Xam neft və neft məhsullarının 3 000-dən 300 000 dedveyt tona qədər olan partiyalarla müxtəlif növ gəmilərlə təhlükəsiz limanlara daşınması təmin olunmuşdur. Əməliyyatların koordinasiyası və işlərə ümumi nəzarət ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi tərəfindən aparılır.

Dəniz plarformalarına, Cilov adasına və Neft Daşlarına növbə (sərnişin) və yük daşımaları üzrə ARDNŞ və Es Dablyu Helicopter Services MMC ilə bağlanmış müqavilələr üzrə vertolyot xidmətləri təşkil olunmuşdur. Əsasən Mİ-8, ES-155 və "Super Puma" tipli vertolyotlar xidmət göstərmişdir. ARDNŞ-nin strukturuna daxil olan müvafiq təşkilatlar tərəfindən ("Azneft" İB, "Kompleks Qazma İşləri" tresti) vertolyotlara olan gündəlik tələbat müəyyənləşdirilərək sifarişlər hazirlanıb və bu sifarişlərə əsasən, hava şəraiti və tələb olunan müvafiq tipli vertolyotların mövcudluğundan asılı olaraq, xidmətlər yerinə yetirilmişdir.

**2010-cu il ərzində göstərilmiş xidmətlər aşağıdaki kimi olmuşdur:**

**Cədvəl XX-6**

| Tarix | Sifariş olunan reyslərin sayı | | | Faktiki reyslərin sayı | | | Sərnişinlərin sayı | Yük (ton) |
|---|---|---|---|---|---|---|---|---|
| | ES-155 | Super Puma | Mİ-8 | ES-155 | Super Puma | Mİ-8 | | |
| Yanvar | 141 | 4 | 298 | 91 | 4 | 201 | 4 043 | 60,4 |
| Fefral | 134 | 20 | 280 | 82 | 31 | 190 | 4 138 | 69,9 |
| Mart | 97 | - | 304 | 76 | 36 | 214 | 4 467 | 73,6 |
| Aprel | 54 | - | 307 | 83 | - | 225 | 4 053 | 70,4 |
| May | 71 | - | 308 | 106 | - | 206 | 3 865 | 77,5 |
| İyun | 98 | 2 | 241 | 104 | 4 | 215 | 4 018 | 82,1 |
| İyul | 124 | 6 | 222 | 137 | 38 | 189 | 4 256 | 105,9 |
| Avqust | 147 | - | 213 | 145 | - | 201 | 4 063 | 67,7 |
| Sentyabr | 123 | - | 215 | 134 | 4 | 217 | 4 705 | 78,3 |
| Oktyabr | 116 | 6 | 222 | 107 | 36 | 205 | 4 799 | 78,8 |
| Noyabr | 125 | 6 | 225 | 86 | 40 | 181 | 4 083 | 69,9 |
| Dekabr | 149 | 10 | 242 | 101 | 30 | 184 | 4 079 | 78,1 |
| **CƏMİ** | **1 379** | **54** | **3 077** | **1 252** | **223** | **2 428** | **50 569** | **912,6** |

ARDNŞ və Dassault Aviation şirkəti arasında Falcon 900 EX təyyarəsinin alınmasına dair müqaviləyə əsasən təyyərənin təhvil-təslimi 2010-cu ilin mart ayında həyata keçirilmişdir. Müqavilə əsasında Palmali Hava Taşımaçılığı AŞ şirkəti tərəfindən idarə olunan ARDNŞ-ə məxsus Falcon 900 EX və Challenger 300 təyyarələri vaxtaşırı olaraq şirkətin məqsədləri üçün uçuşlar yerinə yetirir. Uçuşlar Kommersiya daşımaları şöbəsi tərəfindən koordinasiya edilir və onlarla bağlı xərclərə nəzarət olunur.

Azərbaycanda yeni gəmiqayırma zavodunun inşasına dair ARDNŞ (65% iştirakcı payı), Azərbaycan İnvestisiya Şirkəti (25%), və Sinqapurun "Keppel Singmarine Pte Ltd" (Keppel) şirkəti (10%) arasında danışıqlar aparılmış və razılıq əldə olunmuşdur. 2010-cu ilin dekabr ayında səhmdarlar arasında müqavilə imzalanmışdır. Layihənin operatoru Keppel şirkətidir. ARDNŞ tərəfindən layihənin həyata keçirilməsində Kommersiya daşımaları şöbəsi



yaxından iştirak edir. Layihənin texniki-iqtisadi əsaslandırması və biznes planı hazırlanıb başa çatdırılmışdır. 2010-cu ilin mart ayında zavodun təməlqoyma mərasimi keçirilmişdir. Layihədə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi üçün ilkin tender sənədləri hazırlanmış və səhmdarlar tərəfindən razılaşdırılılaraq tenderdə iştirak edən şirkətlərə göndərilmişdir. Hal-hazırda tender prosesi davam edir. Zavod tikiləcək ərazidə süxürların və torpağın təhlili aparılmış və torpaq səthinin düzəlmə işləri həyata keçirilmişdir.

Bunlarla yanaşı, loqistika sahəsində dünyada baş verən proseslər izlənilir və müvafiq təhlillər aparılıb.

Xarici firmalarla əməkdaşlıq əlaqələrinin, Müştərək Müəssisə və Alyansların yaradılması barədə təkliflər verilmiş, bu sahədə, xüsusi ilə də dəniz nəqliyyatı xidməti üzrə, yaradılmış Müştərək Müəssisə və Alyansların fəaliyyətləri ilə əlaqədar aidiyyatı üzrə hesabatların verilməsinə nəzarət olunmuş, onların fəaliyyətinin koordinasiyası şöbə tərəfindən həyata keçirilmişdir.





# XXI. SOSİAL MƏSƏLƏLƏR

ARDNŞ-nin struktur bölmələrinin tabeliyində hazırda 2,5 milyon kv.m. yaxın mənzil fondu (o cümlədən, 73 yataqxana), 40 məktəbəqədər uşaq müəssisəsi, Təlim-Tədris Mərkəzi, 16 mədəniyyət evi və klub, 15 idman kompleksi və meydançası, 450 çarpayılıq xəstəxana, 10 ədəd hər biri 20 çarpayılıq Müalicə-Diaqnostika Mərkəzləri (Lənkəran, Şirvan, Zaqatala, Qəbələ, Bərdə, Qazax, Gəncə, Quba, Şamaxı və Cəlilabad), idarə və müəssisələrdə sanitariya nəzarətini həyata keçirən Gigiyena və Epidemiologiya Mərkəzi, 15 istirahət zonası və sair sosial təyinatlı obyektlər vardır.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə və müəssisələrində çalışan işçilərin sosial rifahının yaxşılaşdırılması məqsədilə 2007-2010-cu illər üçün Sosial-İnkişaf Proqramı"na uyğun olaraq, yerinə yetirilməsi nəzərdə tutulmuş 224 bənddən ibarət tədbirlərdən 100 bənd üzrə işlər tam, 64 bənd üzrə işlər qismən yerinə yetirilmiş və digər işlərin başlanması üçün hazırlıq işləri aparılır. Belə ki:

- işçilərin isti yeməklə təmin edilmələri üçün 18 sahədə yeni yeməkxana binası tikilmiş, 56 sahədə yeməkxanalar əsaslı təmir olunaraq hər biri müasir avadanlıqlarla təchiz edilmişdir;
- əlahiddə dəniz özüllərində, estakadalarda və digər sahildəki istehsalat sahələrində çalışan işçilərin yaşayış, məişət şəraitlərinin yaxşılaşdırılması üçün 129 ədəd vaqon-evlər alınaraq quraşdırılmış, bəzi sahələrdə isə əsaslı təmir edilərək yeni məişət avadanlıqları ilə təchiz olunmuşdur.
- "Neft Daşları" NQÇİ-nin balansında olan 6 yataqxanada (ümumi sahəsi 24560 kv.m.) yenidənqurma işləri aparılaraq əsaslı təmir edilmiş və müasir avadanlıqlarla (televizor, soyuducu, kondisioner və sair) təchiz olunaraq istifadəyə verilmişdir. Təmir nəticəsində boş və əlavə lazımsız yardımçı sahələrin ləğvi ilə əlaqədar yaşayış otaqlarının sayı 965-dən 1260 ədədə çatdırılaraq 2320 çarpayı yeri yaradılmışdır ki, bunun nəticəsində əlavə 900 nəfər işçi yaşayış sahəsi ilə təmin olunmuşdur. İdarənin inzibati binası əsaslı təmir olunaraq avadanlıqlarla təmin olunmuşdur. 9 mərtəbəli kişilər korpusunda hazırda əsaslı təmir işləri aparılır.
- "28 May" NQÇİ-nin 5 və 8 saylı Dərin Dəniz Özüllərində yaşayış blokları əsaslı təmir edilmiş, yeni məişət avadanlıqları ilə təmin edilmişdir. 6 ədəd DDÖ-də kondisionerlər




quraşdırılmış, sanitar qovşaqlarında aksesuarlar yeniləri ilə əvəz edilmişdir. Hazırda 10 saylı DDÖ-də yaşayış blokunun, Çilov adasında yeni inzibati binanın, 4 saylı yataqxana binasının və qonaq evinin tikiltisi davam edir. Ərzağın sanitar qaydalara uyğun saxlanılması üçün 13 ədəd yeni konteyner-refrejerator alınaraq sahələrdə quraşdırılmışdır ;

- "Günəşli" yatağında yerləşən Dərin Dəniz Özüllərində, "Ümid" strukturu 1 saylı Dərin Dəniz Stasionar Özülündə, həmçinin "28 May" NQÇİ-nin Neft Daşları ərazisində yerləşən QYHN və KTS-nin Sıxıcı kompressor stansiyalarında növbəli iş üsulu ilə (vaxt metodu ilə) işləyən 2426 nəfər işçi gündəlik keyfiyyətli və yüksək kalorili isti yeməklə pulsuz təmin olunmuşlar ;
- 5 idarə üçün müasir standartlara cavab verən yeni inzibati bina tikilmiş, 9 idarənun inzibati binası əsaslı təmir olunaraq iş otaqları müasir avadanlıqlarla təchiz edilmiş, 4 idarədə isə hal-hazırda əsaslı təmir işləri davam edir;
- 28 sex və sahədə olan iş yerlərində duşxana tikilmiş, soyunub-geyinmə otaqlarında təmir işləri aparılmış,yeni şkaflarla təchiz olunmuşdur.Sex və sahələrdə 200 ədədə yaxın su dispenseri quraşdırılmış və işçilər mütəmadi olaraq içməli su ilə təmin




edilirlər;

- idarə və müəssisələrdə fəaliyyət göstərən 3 ədəd tibb məntəqəsi əsaslı təmir olunmuş, 6 sahədə isə tələbat nəzərə alınaraq yenisi yaradılmış və hər biri lazımı avadanlıqlarla təchiz edilmişdir. "Azərikimya" İB-də və H.Əliyev adına BDÖZ-də işçilərə ilkin tibbi yardım göstərilməsi və tibbi müayinə aparılması üçün Mərkəzi Neftçilər Xəstəxanasının Təcili Tibbi Yardım şöbəsinin bölmələri yaradılmışdır;

- işçilərin iş yerlərinə rahat aparılıb-gətirilməsi üçün 36 ədəd avtobuslar alınmışdır;

ARDNŞ-nin mənzil fondunda olan yaşayış binalarında 8389,5 $m^2$ şifer dam örtüyünün, 32452,5 $m^2$ ruberoid dam örtüyünün, 8389 p/m istilik xəttinin və 784p/m çirkab su xətlərinin təmiri işləri görülmüşdür. Yaşayış binalarının, yataqxanaların, inzibati binaların və digər sosial obyektlərin əsaslı və cari təmiri, liftlərin elektrik lövhələrinin, xətlərinin təmiri və ya köhnə kabel xətlərinin yenisi ilə əvəz olunması, orada yerləşən elektrik mühərriklərinin faza qoruyucularının, nasoslarının təmir olunması, bunlarla yanaşı bütün obyektlərdə sayğacların quraşdırılması həyata keçirilmişdir.

Hazırda Mərkəzi Neftçilər Xəstəxanasının nəzdində 15 stasionar şöbə, poliklinika şöbəsi və köməkçi bölmələrlə yanaşı, "Neft Daşları" Tibbi Sanitar Hissəsi, 8 həkim,

27 fedşer tibb məntəqəsi fəaliyyət göstərir. Bu xəstəxana bütün sahələrdə inkişaf edərək, yüksək kadr potensialına, ən unikal əməliyyatların həyata keçirilməsi üçün lazım olan müasir tibbi avadanlıqlara malik müasir tələblərə cavab verən çoxprofilli klinikaya çevrilmişdir. Burada 1228 nəfər işçi heyəti yüksək peşəkarlıq nümayiş etdirərək, 80 minə yaxın neft sənayesi işçilərinə və bundan əlavə müalicəyə ehtiyacı olan digər insanların sağlamlığının keşiyində dayanırlar. MNX-da yaradılmış dializ şöbəsində 69 nəfər xəstə hemodializ müalicəsi qəbul etmişdir.

MNX-nın "Ürək və damar cərrahiyyəsi" şöbəsində 399 nəfərdə anqioqrafiya müayinəsi, 75 nəfərdə ballon və stendlərin qoyulması və 59 nəfərdə açıq ürək əməliyyatı ARDNŞ tərəfindən tam pulsuz həyata keçirilmişdir.

Məlum olduğu kimi, ölkəmizdə ilk dəfə böyrək köçürülməsi əməliyyatı məhz bu səhiyyə ocağında həyata keçirilmişdir. Bu günədək MNX-da 13 analoji əməliyyat həyata keçirilmişdir.

Respublikanın bölgələrində fəaliyyət göstərən Lənkəran, Şirvan, Zaqatala, Qəbələ, Qazax, Bərdə, Gəncə, Quba, Şamaxı və Cəlilabad Müalicə-Diaqnostika Mərkəzləri





sözügedən bölgələrin əhalisinə yüksək səviyyədə tibbi xidmət göstərir. Bölgələrdə böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin çox olduğunu nəzərə alaraq, MDM-də yaradılmış dializ şöbələrində ötən dövr ərzində 774 nəfər xəstə hemodializ müalicəsi qəbul etmişdir.

ARDNŞ üzrə oturacaq yerlərinin sayı 3700 ədəd, işçilərinin sayı 380 nəfər olan 15 mədəniyyət evlərinin və klublarında təşkil olunan Yeni il şənliklərində və digər bayramlarda 50 minə yaxın uşaq iştirak etmiş, onların hər birinə hədiyyələr təqdim edilmişdir.

ARDNŞ-nin strukrur bölmələrinin tabeliyində fəaliyyət göstərən 40 uşaq bağçasında 3561 nəfərə yaxın uşaq tərbiyə alır ki, onlardan 1761 nəfəri neftçi, 1000 nəfəri güzəştli əsaslarla 800 nəfəri isə qeyri-neft sektorunda çalışanların övladlarıdır. 2010-cu ildə 12 uşaq bağçasında əsaslı və cari təmir işləri yerinə yetirilmişdir.

ARDNŞ-nin Sosial İnkişaf İdarəsinin "Neftçi" İdman Sağlamlıq Mərkəzinin tabeliyində olan 10 idman qurğusunda idmanın 28 növü üzrə 168 peşəkar məşqçi-

müəllimin rəhbərliyi altında 4000-ə yaxın yeniyetmə və gənclərə, eləcə də 1000-ə yaxın neftçilərə bədən tərbiyəsi və idman xidmətləri göstərilir.

2010-cu ildə mərkəzin idmançıları 200-dən çox müxtəlif səviyyəli yarışlarda iştirak edərək 1582 medal qazanmışlar ki, onlardan 564-ü qızıl, 419-u gümüş və 599-u bürüncdür.

Əldə olunmuş yüksək nəaliyyətlərin nəticəsi olaraq, "Neftçi" İSM dörd il ardıcıl olaraq (2007-2008-2009-2010-cu il) Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "İlin ən yaxşi idman cəmiyyəti" adına layiq görülmüşdür.

İşçilərin və onların ailə üzvlərinin istirahətlərinin səmərəli keçirilməsi üçün "Geofizik" və "Nabran" istirahət zonalarında 2010-cu ilin yay mövsümündə 3 min nəfərə yaxın və Respublikanın digər istirahət zonalarında isə 6,3 min nəfərə yaxın neftçinin və onların ailə üzvlərinin, 2-3 günlük və çoxgünlük istirahətləri təşkil edilmişdir. Bundan əlavə müalicəyə ehtiyacı olan neftçilərdən 980 nəfər sanotor-kurort müalicəsi üçün yollayışla təmin olunmuşlar.






Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin işçilərinə maddi yardım verilməsi haqqında Əsasnaməyə uyğun 2010-cu ildə işçilərə maddi yardım olunması davam etdirilmiş, şəhid ailələri və müharibə əlilləri daimi diqqət mərkəzində saxlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ARDNŞ-nin himayəsinə verilmiş, Ağdam rayonu ərazisində yerləşən, "Dördyol 1, 2" və "Təzəkənd" qəsəbələrində, Tərtər şəhərində, Füzuli rayonunun Əhmədalılar, Mirzənağılı və Qazaxlar kəndlərində məskunlaşmış 22 070 nəfər məcburi köçkünə və Sumqayıt şəhərində məskunlaşmış 2100 nəfər məcburi köçkün və şəhid ailələrinə 2010-cu ildə bayramlar münasibəti ilə 844,2 min. manat ərzaq yardımı, məcburi köçkün ailələrinin uşaqlarına isə 3600 ədəd bayram hədiyyəsi verilmişdir.



ARDNŞ-nin müəssisə və təşkilatların balansında olan binalarda və sosial obyektlərdə yerləşən 15 minə yaxın məcburi köçkün ailələrinə qayğı göstərilir və onlardan 3006 nəferi işlə təmin olunmuşdur.




# XXII. MALİYYƏ

ERNST & YOUNG

Ernst & Young Holdings (CIS) B.V.
Hyatt International Center
Hyatt Tower III, 1st Floor
Izmir Street, 1033
Baku, AZ1065, Azerbaijan

Tel: +994 (12) 490 7020
Fax: +994 (12) 490 7017
www.ey.com/Azerbaijan

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Hyatt Internəşnl Senter
Hyatt Tauer III, 1-ci Mərtəbə
İzmir küçəsi, 1033
Bakı, AZ1065, Azərbaycan

Tel: +994 (12) 490 7020
Faks: +994 (12) 490 7017

## Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Rəhbərliyinə Müstəqil Auditorun Hesabatı

Biz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ("Şirkət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2010-cu il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş ümumi gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici qeydlərin icmalından ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

***Konsolidasiya edilmiş maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti***
Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***
Bizim vəzifəmiz apardığımız audit əsasında həmin konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə konsolidasiya edilmiş maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mühakiməsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin münasibliyinin və rəhbərlik tərəfindən edilmiş ehtimalların məntiqiliyinin qiymətləndirilməsi, o cümlədən ümumilikdə konsolidasiya edilmiş maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***
Bizim fikrimizcə, konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2010-cu il tarixinə Qrupun maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

*Ernst & Young Holdings (CIS) B.V.*

30 iyun 2011-ci il

A member firm of Ernst & Young Global Limited

Cədvəl XXII-1

| | Qeyd | 31 dekabr 2010 | 31 dekabr 2009 |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| | | | |
| Cari aktivlər | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 1,000,161 | 773,506 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 9 | 617,793 | 53,844 |
| Ticarət və sair debitor borcları | 10 | 2,405,691 | 2,110,644 |
| Mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | 26,581 | 28,921 |
| Mal-material ehtiyatları | 11 | 808,572 | 707,458 |
| Sair cari maliyyə aktivləri | 13 | 12,312 | 7,178 |
| | | | |
| Cəmi cari aktivlər | | 4,871,110 | 3,681,551 |
| | | | |
| Uzunmüddətli aktivlər | | | |
| Əsas vəsaitlər | 14 | 8,244,627 | 7,946,556 |
| Qudvil | 36 | 123,448 | 106,905 |
| Qudvildən başqa qeyri-maddi aktivlər | 15 | 499,813 | 521,237 |
| Birgə müəssisələrə investisiyalar | 16 | 248,870 | 103,061 |
| Əlaqəli müəssisələrə investisiyalar | 17 | 351,085 | 315,353 |
| Birgə müəssisələrdən kredit üzrə debitor borcları | 18 | 280,259 | 311,891 |
| Depozitlər | 9 | 399,011 | 873,169 |
| Təxirə salınmış vergi aktivi | 33 | 408,972 | 645,623 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 13 | 79,148 | 74,068 |
| Sair uzunmüddətli aktivlər | 12 | 220,640 | 254,147 |
| | | | |
| Cəmi uzunmüddətli aktivlər | | 10,855,873 | 11,152,010 |
| | | | |
| CƏMİ AKTİVLƏR | | 15,726,983 | 14,833,561 |
| | | | |
| KAPİTAL | | | |
| Nizamnamə kapitalı | 27 | 632,732 | 622,726 |
| Əlavə ödənilmiş səhm kapitalı | 27 | 236,526 | - |
| Bölüşdürülməmiş mənfəət | | 6,691,653 | 6,778,784 |
| Məcmu məzənnə fərqləri | | (105,095) | (143,258) |
| | | | |
| Qrupun səhmdarlarına aid olan kapital | | 7,455,816 | 7,258,252 |
| Qeyri-nəzarət payı | | 704,279 | 782,809 |
| | | | |
| CƏMİ KAPİTAL | | 8,160,095 | 8,041,061 |



**Cədvəl XXII-2**

| | Qeyd | 31 dekabr 2010 | 31 dekabr 2009 |
|---|---|---|---|
| | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| | | | |
| **Cari öhdəliklər** | | | |
| Kreditor borcları | 19 | 2,445,829 | 2,087,755 |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | 20 | 996,832 | 388,080 |
| Mənfəət vergisi üzrə kreditor borcları | | 90,892 | 102,503 |
| Sair vergilər üzrə kreditor borcları | 21 | 190,233 | 187,295 |
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar | 23 | 199,077 | 102,292 |
| Alış üzrə təxirə salınmış kreditor borcları | 26 | 272,935 | 36,687 |
| | | | |
| | | | |
| **Cəmi cari öhdəliklər** | | **4,195,798** | **2,904,612** |
| | | | |
| | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli borc öhdəlikləri | 20 | 2,062,844 | 2,463,894 |
| Alış üzrə təxirə salınmış kreditor borcları | 26 | - | 272,267 |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər | 22 | 324,632 | 170,727 |
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar | 23 | 282,194 | 356,506 |
| Təxirə salınmış gəlirlər | 24 | 101,183 | 105,778 |
| Təxirə salınmış vergi öhdəliyi | 33 | 509,140 | 478,027 |
| Sair uzunmüddətli öhdəliklər | 25 | 91,097 | 40,689 |
| | | | |
| | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **3,371,090** | **3,887,888** |
| | | | |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **7,566,888** | **6,792,500** |
| | | | |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **15,726,983** | **14,833,561** |
| | | | |

30 iyun 2011-ci il tarixində Qrup adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.




**Cədvəl XXII-3**

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| Gəlirlər | 28 | 5,527,265 | 4,195,981 |
| Satışların maya dəyəri | 29 | (3,293,415) | (2,078,209) |
| **Cəmi mənfəət** | | **2,233,850** | **2,117,772** |
| Paylaşdırma xərcləri | 29 | (198,031) | (155,230) |
| Ümumi və inzibati xərclər | 29 | (302,687) | (229,871) |
| Əsas vəsaitlərin silinməsindən zərərlər | | (23,915) | (8,511) |
| Sosial xərclər | | (199,904) | (159,479) |
| Kəşfiyyat və qiymətləndirmə xərcləri | 29 | (6,742) | (11,298) |
| Tədqiqat və işlənmə xərcləri | 29 | (21,917) | (15,279) |
| Sair əməliyyat xərcləri | 29 | (326,270) | (313,883) |
| Sair əməliyyat gəlirləri | 30 | 178,578 | 204,708 |
| **Əməliyyat fəaliyyətindən mənfəət** | | **1,332,962** | **1,428,929** |
| Maliyyə gəlirləri | 31 | 67,175 | 67,678 |
| Maliyyə xərcləri | 32 | (175,191) | (163,211) |
| Məzənnə fərqi üzrə xalis zərər | | (91,510) | (958) |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | 16 | 6,390 | (12,887) |
| Əlaqəli müəssisələrin maliyyə nəticələrində pay | 17 | 99,080 | 89,854 |
| Birgə və əlaqəli müəssisələrin silinməsindən zərərlər | | (902) | (40,062) |
| **Vergidən əvvəl mənfəət** | | **1,238,004** | **1,369,343** |
| Mənfəət vergisi xərci | 33 | (582,264) | (475,765) |
| **İl üzrə mənfəət** | | **655,740** | **893,578** |
| **Sair ümumi gəlir:** | | | |
| Məzənnə fərqləri | | (16,363) | (17,771) |
| **İl üzrə cəmi ümumi gəlir** | | **639,377** | **875,807** |
| **Mənfəət aiddir:** | | | |
| Qrupun səhm sahibləri | | 670,987 | 890,307 |
| Qeyri-nəzarət payı | | (15,247) | 3,271 |
| | | **655,740** | **893,578** |
| **Cəmi ümumi gəlir aiddir:** | | | |
| Qrupun səhmdarlarına | | 709,150 | 862,670 |
| Qeyri-nəzarət payına | | (69,773) | 13,137 |
| | | **639,377** | **875,807** |




**Cədvəl XXII-4**

| | | Baş müəssisənin səhmdarlarına aid olan hissə | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Qeyd | Əlavə ödənilmiş səhm kapitalı | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Məzənnə fərqi | Cəmi | Qeyri-nəzarət payı | Cəmi kapital |
| **1 yanvar 2009-cu il tarixinə qalıq** | | **-** | **622,726** | **6,432,136** | **(115,621)** | **6,939,241** | **747,045** | **7,686,286** |
| İl üzrə mənfəət | | - | - | 890,307 | - | 890,307 | 3,271 | 893,578 |
| Sair ümumi gəlir / (xərc) | | - | - | - | (27,637) | (27,637) | 9,866 | (17,771) |
| **2009-cu il üzrə cəmi ümumi gəlir / (xərc)** | | **-** | **-** | **890,307** | **(27,637)** | **862,670** | **13,137** | **875,807** |
| Törəmə müəssisədəki qeyri-nəzarət payının alışı | | - | - | - | - | - | (6,327) | (6,327) |
| Törəmə müəssisənin alışı | 36 | - | - | (257,621) | - | (257,621) | - | (257,621) |
| Törəmə müəssisələrin nizamnamə kapitalında artım | | - | - | - | - | - | 28,954 | 28,954 |
| Dövlətə ayırmalar | 27 | - | - | (286,038) | - | (286,038) | - | (286,038) |
| **31 dekabr 2009-cu il tarixinə qalıq** | | **-** | **622,726** | **6,778,784** | **(143,258)** | **7,258,252** | **782,809** | **8,041,061** |
| İl üzrə mənfəət | | - | - | 670,987 | - | 670,987 | (15,247) | 655,740 |
| Sair ümumi gəlir / (xərc) | | - | - | - | 38,163 | 38,163 | (54,526) | (16,363) |
| **2010-cu il üzrə cəmi ümumi gəlir / (xərc)** | | - | - | **670,987** | **38,163** | **709,150** | **(69,773)** | **639,377** |
| Törəmə müəssisənin alışı | 36 | - | 10,006 | (228,356) | - | (218,350) | - | (218,350) |
| Nizamnamə kapitalında artım | 27 | 236,526 | - | (114,060) | - | 122,466 | - | 122,466 |
| Dövlətə ayırmalar | 27 | - | - | (415,702) | - | (415,702) | - | (415,702) |
| Törəmə müəssisələr tərəfindən elan edilmiş dividendlər | | - | - | - | - | - | (8,757) | (8,757) |
| **31 dekabr 2010-cu il tarixinə qalıq** | | **236,526** | **632,732** | **6,691,653** | **(105,095)** | **7,455,816** | **704,279** | **8,160,095** |

**Cədvəl XXII-5**

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti | | | |
| Vergidən əvvəl mənfəət | | 1,238,004 | 1,369,343 |
| Düzəlişlər: | | | |
| Əsas vəsaitlərin köhnəlməsi | 29 | 649,641 | 590,655 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 15 | 16,006 | 13,744 |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | 14 | 360,047 | 241,639 |
| Ticarət və sair debitor borcları üzrə ehtiyatın geri qaytarılmasından gəlir | 29 | (288,435) | (523,671) |
| Ehtiyatların dəyişilməsi | | 53,240 | (62,939) |
| Mənfəət və zərərə aid edilən aktivlərin ləğv olunması üzrə öhdəliyin dəyişilməsi | | 110,565 | 77,568 |
| Əsas vəsaitlərin silinməsindən zərər | | 66,915 | 74,712 |
| Birgə nəzarət edilən müəssisələrin silinməsindən zərərlər | 16 | - | 39,114 |
| Maliyyə gəlirləri | 31 | (67,175) | (67,678) |
| Maliyyə xərcləri | 32 | 175,191 | 163,211 |
| Məzənnə fərqləri | | (34,236) | 8,126 |
| Əlaqəli və birgə müəssisələrin maliyyə nəticələrində pay | 16,17 | (105,470) | (76,967) |
| Sair nağdsız əməliyyatlar | | (38,946) | - |
| Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti | | 2,135,347 | 1,846,857 |
| Ticarət və sair debitor borclarında azalma | | 152,500 | 625,666 |
| Mal-material ehtiyatlarında (artım) / azalma | | (51,421) | 41,889 |
| Kreditor borclarında artım / (azalma) | | 103,335 | (375,677) |
| Vergilər üzrə kreditor borclarında artım / (azalma) | | 4,912 | (185,624) |
| Ehtiyatlarda azalma | 23 | (64,820) | (82,285) |
| Digər aktivlərdə artım | | (40,844) | (23,730) |
| Əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitləri | | 2,239,009 | 1,847,096 |
| Ödənilmiş mənfəət vergisi | | (341,594) | (478,009) |
| Ödənilmiş faizlər | | (106,356) | (105,504) |
| Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri | | 1,791,059 | 1,263,583 |
| İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti | | | |
| Törəmə müəssisələrinin əldə edilməsi, əldə edilmiş pul vəsaitlərini çıxmaqla | | 5,393 | (36,688) |
| Əsas vəsaitlərin alınması | | (1,419,838) | (1,142,261) |
| Qeyri-maddi aktivlərin alınması | | (10,577) | (20,151) |
| Əlaqəli və birgə müəssisələrə əlavə sərmayə | 16,17 | (42,942) | (19,221) |
| Depozitlər | 9 | (104,320) | (338,986) |
| Üçüncü tərəflərə təqdim olunmuş maliyyələşdirmə | | (15,459) | (161,636) |
| Alınmış faizlər | | 55,125 | 57,642 |
| Alınmış dividentlər | | 63,440 | 64,659 |
| İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri | | (1,469,178) | (1,596,642) |
| Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti | | | |
| Uzunmüddətli borc öhdəliklərindən daxilolmalar | | 485,762 | 1,052,021 |
| Qısamüddətli borc öhdəliklərindən daxilolmalar | | 87,104 | 155,865 |

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| Qısamüddətli borc öhdəliklərindən daxilolmalar | | 87,104 | 155,865 |
| Uzunmüddətli borc öhdəliklərinin geri qaytarılması | | (361,354) | (337,713) |
| Qısamüddətli borc öhdəliklərinin geri qaytarılması | | (65,890) | (174,608) |
| Nizamnamə kapitalında artım | | 99,986 | 200,000 |
| Borc vəsaitləri üzrə məhdudiyyət qoyulmuş pul vəsaitlərində dəyişiklik | | 35,301 | 68,366 |
| Dövlətə ayırmalar | 27 | (374,530) | (242,577) |
| Alış üzrə ödənişlər | 26 | (32,992) | - |
| | | | |
| | | | |
| Maliyyələşdirmə fəaliyyəti üzrə (istifadə edilən) / daxil olan xalis pul vəsaitləri | | (126,613) | 721,354 |
| Xalis məzənnə fərqləri | | 31,387 | (134,959) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım | | 226,655 | 253,336 |
| İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 773,506 | 520,170 |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 8 | **1,000,161** | **773,506** |

## 1 Qrup və Onun Fəaliyyəti

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("ARDNŞ") 13 sentyabr 1992-ci il tarixli Prezident Fərmanı ilə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmış və Azərbaycan Respublikasında fəaliyyət göstərir. Şirkətin fəaliyyətinin səmərəliliyini artırmaq üçün ARDNŞ bir neçə dəfə yenidən strukturlaşdırılmışdır. Hazırda ARDNŞ müxtəlif sahələrdə fəaliyyət göstərən 20 struktur bölmələrindən ibarətdir. ARDNŞ və onun struktur bölmələri neftin hasilatı, nəql və satışı və emalı sahəsində fəaliyyət göstərirlər. ARDNŞ-ın əsas fəaliyyəti neft, qaz və qaz kondensatlarının hasilatı, emalı və nəqli, eləcə də neftin, qazın və neft və qaz məhsullarının satışından ibarətdir. ARDNŞ 100 faiz Azərbaycan dövlətinə ("Dövlət") məxsusdur.

2 aprel 2010-cu il tarixində ARDNŞ Azərbaycan Respublikasında neft-kimya məhsullarının istehsalı ilə məşğul olan "Azərikimya" dövlət şirkətinin ("Azərikimya SC") səhmdar kapitalının 100 faizini əldə etmişdir. Bu alışdan sonra Azərikimya SC ARDNŞ-ın nəzdində Azərikimya İstehsalat Birliyinə ("Azərikimya İB") çevrilmişdir. (Ətraflı məlumat üçün Qeyd 36-ya baxın.)

1 iyul 2009-cu il tarixində ARDNŞ Azərbaycan Respublikasında qaz təchizatçısı olan dövlətə məxsus "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin ("Azəriqaz QSC") səhmdar kapitalının 100 faizini əldə etmişdir. Bu alışdan sonra Azəriqaz QSC ARDNŞ-ın nəzdində Azəriqaz İstehsalat Birliyinə ("Azəriqaz İB") çevrilmişdir. Ətraflı (məlumat üçün Qeyd 36-ya baxın.)

Şirkətin hüquqi ünvanı: Neftçilər prospekti 73, AZ 1000 Bakı, Azərbaycan Respublikası.

**2 Maliyyə Hesabatlarının Hazırlanmasının Əsası və Mühüm Mühasibat Uçotu Prinsipləri**

**Maliyyə hesabatlarının hazırlanmasının əsasları.** ARDNŞ-in, onun törəmə, əlaqəli və birgə müəssisələrinin (birlikdə "Qrup" adlandırılır) konsolidasiya edilmiş hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("BMUSŞ") tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartlarına ("BMHS") uyğun hazırlanmışdır. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən mühüm mühasibat uçotu prinsipləri aşağıda göstərilir. Bu mühasibat uçotu prinsipləri təqdim edilən bütün dövrlərə müvafiq olaraq tətbiq edilmişdir.

**Konsolidasiya prinsipləri.** Törəmə müəssisələr fəaliyyətlərindən mənfəət əldə etmək məqsədilə maliyyə və əməliyyat siyasətlərinə Qrupun nəzarət etmək imkanı olduğu bütün müəssisələrdir (xüsusi təyinatlı müəssisələr daxil olmaqla); Qrupun bu müəssisələrin səsvermə hüquqlu səhmlərində payı adətən 50 faizdən artıq olur. Qrupun digər müəssisəyə nəzarət edib-etməməsi barədə qərar qəbul edərkən hazırda istifadə oluna bilən və ya çevrilə bilən potensial səsvermə hüquqlarının mövcudluğu və təsiri nəzərə alınır. Törəmə müəssisələr, onların əməliyyatları üzrə effektiv nəzarət Qrupa keçdiyi tarixdən tam olaraq konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir və nəzarətin itirildiyi tarixdən konsolidasiya edilmiş maliyyə hesabatlarından çıxarılır.

Şirkətdaxili əməliyyatlar, qalıqlar və Qrup şirkətləri arasındakı əməliyyatlar üzrə realizasiya olunmamış gəlirlər konsolidasiya edilmiş maliyyə hesabatlarından silinir. Bundan əlavə, realizasiya olunmamış zərərlər, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarından çıxarılır, lakin köçürülmüş aktivin dəyərsizləşmə göstəricisi kimi nəzərə alınır. Lazım olduqda, törəmə müəssisələrin uçot siyasəti Qrup tərəfindən qəbul edilmiş qaydalara uyğun olmaq üçün dəyişdirilir.

**Müəssisələrin birləşməsi (1 yanvar 2010-cu ildən sonra).** Müəssisələrin birləşməsi alış metodu üzrə uçota alınır. Alışın dəyəri alış tarixindəki ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləği və satın alınan müəssisədə qeyri-nəzarət payı məbləğinin məcmusu şəklində ölçülür. Hər bir müəssisə birləşməsi üçün alıcı müəssisə satın alınan müəssisədə qeyri-nəzarət payını ya ədalətli dəyərlə, ya da satın alınan müəssisənin xalis müəyyən edilə bilən aktivlərinin proporsional payı ilə ölçür. Çəkilən alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə aid edilir. Qrup hər

hansı müəssisəni satın aldıqda, onun uyğun təsnifləşdirmə və müqavilə şərtləri, iqtisadi şərait və uyğun şərtlərə əsasən tərtib olunma üçün nəzərdə tutulmuş maliyyə aktiv və passivlərini qiymətləndirir. Bura əsas müqavilədə əlaqədar törəmə alətlərin satın alınan müəssisə tərəfindən ayrılması da aid edilir.

Müəssisələrin mərhələli birləşməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə hər əvvəlki mərhələdə sahib olduğu pay alış tarixindəki ədalətli dəyərlə yenidən qiymətləndirilir və yaranan gəlir və ya zərər il üzrə mənfəət və ya zərər kimi əks etdirilir.

Müəssisələrin birləşməsi nəticəsində alıcı müəssisə tərəfindən qəbul edilmiş hər bir şərti öhdəlik alış tarixində onun ədalətli dəyərində ölçülür. Aktiv və ya passiv kimi təsnifləşdirilən şərti öhdəliklərin ədalətli dəyərində olan sonrakı dəyişikliklər Beynəlxalq Mühasibat Standartlı ("BMS") 39 əsasında gəlir və ya zərər kimi, ya da sair ümumi gəlirdə dəyişiklər kimi uçota alınır. Kapital kimi təsnifləşdirilirən şərti öhdəlik kapitalda əvəzləşdirilənə qədər yenidən qiymətləndirilməməlidir.

**Müəssisələrin birləşməsi (1 yanvar 2010-cu il tarixindən əvvəl).** Müəssisələrin birləşməsi alış metodu ilə uçota alınırdı. Alış ilə birbaşa bağlı olan əməliyyat məsrəfləri alış məsrəflərinə aid edilirdi. Qeyri-nəzarət payı (bundan əvvəl azlığın payı adlanan) satın alınan müəssisənin xalis müəyyən edilə bilən aktivlərinin proporsional payı kimi uçota alınırdı.

Müəssisələrin mərhələli birləşməsi ayrı ayrı pillələrlə uçota alınırdı. Əlavə alınmış pay əvvəlki pillələrdə uçota alınmış qudvilə təsir göstərmir.

Əgər müəssisə birləşməsi müqavilənin şərtlərində pul vəsaitlərinin hərəkətinə əhəmiyyətli dərəcədə təsir edəcək dəyişikliklərin nəticəsində baş vermirsə, hər hansı müəssisənin Qrup tərəfindən satın alınması zamanı satın alınan müəssisə tərəfindən əsas müqavilədən ayrılmış əlaqədar törəmə alətlər yenidən qiymətləndirilmirdi.

Şərti öhdəlik yalnız və yalnız Qrup mövcud öhdəliyə malik olduğu, iqtisadi məxaricin baş verməsi ehtimalının baş verməməsi ehtimalından daha böyük olduğu və etibarlı proqnozun müəyyən edilə bildiyi zaman uçota alınırdı. Şərti öhdəliyə edilən sonrakı düzəlişlər qudvilin bir hissəsi kimi uçota alınırdı.

**Qeyri-nəzarət payı olan səhmdarlarla əməliyyatlar – 1 yanvar 2010-cu il tarixindən sonra**

Nəzarətin itirilmədiyi halda Qrupun törəmə müəssisədə olan iştirak payındakı dəyişiklik kapital əməliyyatları kimi uçota alınmalıdır (yəni pay sahibləri ilə olan əməliyyatlar kimi). Bu cür hallarda nəzarət və qeyri-nəzarət paylarının balans dəyərlərinə, törəmə müəssisədə uyğun iştirak payının dəyişməsini əks etdirəcək

şəkildə düzəliş verilməlidir. Qeyri-nəzarət payına verilən düzəliş məbləği və ödənilən məbləğ arasındakı fərq birbaşa kapitalda uçota alınmalıdır və Qrupun pay sahiblərinə aid edilməlidir.

**Qeyri-nəzarət payı olan səhmdarlarla əməliyyatlar - "baş müəssisə modeli" - 1 yanvar 2010-cu il tarixinə qədər**

Qrup qeyri-nəzarət payı olan səhmdarlarla əməlyyatları Qrupa daxil olmayan tərəflərlə əməliyyatlar kimi uçota alır. Qeyri-nəzarət payının alınması qudvilin yaranmasına səbəb olur. Qudvil, alınmış qeyri-nəzarət payının balans dəyərindən artıq ödənilmiş məbləği əks etdirir. Törəmə müəssisələrin xalis aktivlərinin balans dəyəri ödənilmiş məbləğin dəyərindən artıq olduqda, yaranan fərq mənfəət və ya zərərdə qeydə alınır. Törəmə müəssisə üzərində nəzarət itirilmədən, törəmə müəssisədəki iştirak payında baş verən dəyişiklik kapital əməliyyatı kimi uçota alınır.

Birgə nəzarət altında olan müəssisələrlə birləşmələr

Qrup birgə nəzarət altında olan müəssisələrin birləşdirilməsini mühasibat uçotunun alış metodu ilə əks etdirir.

**Əlaqəli müəssisələrə investisiyalar.** Əlaqəli müəssisələr Qrupun əhəmiyyətli dərəcədə təsir göstərdiyi, lakin nəzarət etmədiyi müəssisələrdir. Əlaqəli müəssisələrə investisiya qoyuluşları maliyyə vəziyyəti haqqında hesabatda investisiyalar üzrə yığılmış dəyərsizləşmə çıxılmaqla, əlaqəli müəssisədəki xalis aktivlərdə Qrupun payındakı alışdan sonra dəyişiklikləri üstə gəlməklə, ilkin dəyərlə uçota alınır. Əlaqəli müəssisəyə aid olan qudvil investisiyanın balans dəyərinə daxil edilir. Belə qudvil amortizasiya edilmir və ya dəyərsizləşmə üzrə ayrıca olaraq yoxlanılmır.

Alışdan sonra əlaqəli müəssisələrin mənfəətində və ya zərərində Qrupun payı mənfəət və ya zərərdə, sair ümumi gəlir və ya zərərdə qeydə alınan xalis aktivlərdə dəyişikliklərdə isə Qrupun payı sair ümumi gəlir və ya zərərdə qeydə alınır. Alış tarixindən sonra yaranmış məcmu dəyişikliklər investisiyanın balans dəyərinə təsir göstərir. Əgər əlaqəli müəssisənin zərərində Qrupun payı, onun əlaqəli müəssisədəki payına, eləcə də Qrupun əlaqəli müəssisədəki investisiya qoyuluşunun müddətinin artırılması ilə əlaqədar yaranan hər hansı debitor borclarına bərabər və ya ondan artıq olarsa, Qrup yalnız həmin əlaqəli müəssisənin adından üzərinə öhdəlik götürdüyü və ya ödənişlər etdiyi halda, gələcək zərərləri qeydə alır.

Qrup və onun əlaqəli müəssisələri arasında aktivlərin köçürülməsi ilə bağlı əməliyyatlar üzrə realizasiya olunmamış gəlirlər Qrupun əlaqəli müəssisələrdəki payına proporsional həcmdə silinir. Bundan əlavə, realizasiya olunmamış zərərlər həmçinin köçürülən aktivlərin dəyərsizləşməsini sübuta yetirən əməliyyat olmadığı halda silinir. Lazım olduqda əlaqəli müəssisələrin uçot siyasəti Qrup tərəfindən qəbul edilmiş qaydalara uyğun olmaq üçün dəyişdirilir.

**Birgə fəaliyyətdə iştirak payı.** İki və ya daha çox tərəfin (sahibkarların) birgə nəzarət tətbiq edilməsi şərtilə həyata keçirdikləri iqtisadi fəaliyyəti əks etdirən müqavilə razılaşmasıdır. Birgə nəzarət yalnız iqtisadi fəaliyyətlə əlaqədar strateji maliyyə və əməliyyat qərarları sahibkarların birgə razılığı ilə tələb edildikdə mövcud olur. Birgə nəzarət olunan müəssisə, Qrupun öz sahibkarları ilə birlikdə nəzarət etdiyi iqtisadi fəaliyyəti həyata keçirmək üçün müəssisə, tərəfdaşlıq və ya digər müəssisənin təsis olunmasını nəzərdə tutan birgə fəaliyyətdir.

Birgə nəzarət olunan müəssisələrin maliyyə nəticələri, aktivləri və öhdəlikləri pay iştirakı üzrə uçot metoduna əsasən konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarına daxil edilir. Pay iştirakı üzrə uçot metoduna əsasən birgə nəzarət olunan müəssisədəki investisiya alış tarixindən sonra birgə nəzarət olunan müəssisənin xalis aktivlərində Qrupun payındakı dəyişikliklər daxil olmaqla və alınmış ödənişlər və investisiyanın dəyərindəki hər hansı dəyərsizləşmə çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda uçota alınır. Birgə nəzarət olunan müəssisənin mənfəət və ya zərərində Qrupun payı ümumi gəlir haqqında hesabatda və birgə nəzarət olunan müəssisənin uçota aldığı hər hansı gəlir və xərclər sair ümumi gəlir və ya zərərdə əks etdirilir.

Birgə nəzarət olunan müəssisələrin maliyyə hesabatları Qrupda olduğu kimi eyni hesabat dövrü üçün hazırlanır. Lazım olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün həmin maliyyə hesabatlarına düzəlişlər edilir.

Qrup birgə fəaliyyətə bir daha birgə nəzarət etmədikdə və ya əlaqəli müəssisəyə əhəmiyyətli təsir göstərmədikdə və ya iştirak payı satış üçün nəzərdə tutulduqda, pay iştirakı üzrə uçot metodunu istifadə etmir.

Hasilatın Pay Bölgüsü haqqında Sazişlər (HPBS) ilə tənzimlənən Qrupun kəşfiyyat və hasilat seqmenti üzrə bəzi fəaliyyət növləri birgə fəaliyyət vasitəsilə həyata keçirilir. Bu halda sahibkarlar birgə fəaliyyətdə birbaşa mülkiyyət payına sahib olur və onun aktivlərinə birgə nəzarət edirlər. Bu cür fəaliyyət birgə nəzarət olunan aktivlər kimi uçota alınır. Müvafiq olaraq, Qrupun birgə nəzarət olunan aktivlər və öhdəliklərdəki payı, eləcə də birgə nəzarət olunan aktivlər ilə bağlı gəlir və xərclər Qrupun payına proporsional şəkildə qeydə alınır.

HPBS, kommersiya neft və qaz şirkətinin təcrübəsindən istifadə etməklə mineral ehtiyatların hasilatı üsuludur. Yekun hasilatın miqdarından asılı olmayaraq, mineral ehtiyatlar üzrə mülkiyyət hüququ və əksər hallarda ehtiyatların hasilatı üçün yaradılmış bütün əsas vəsaitlər üzrə qanuni hüquqlar Dövlətə məxsusdur. Dövlət, razılaşdırılmış qiymət formuluna əsasən məhsul və ya nağd pulla təchiz edilmiş məhsullardan müəyyən faiz götürür. Müqavilə tərəfləri ancaq müəyyən xərcləri və razılaşdırılmış mənfəət faizini əldə etmək hüququna malik ola bilərlər. O, həmçinin müəyyən vaxt müddətindən sonra ehtiyatları hasil etmək hüququ qazana bilər.

Əməliyyat şirkəti HPBS-i yerinə yetirmək üçün bir və ya bir neçə podratçı tərəflərin yaratdığı hüquqi şəxsdir.

Müxtəlif HPBS-lərdə podratçı tərəf olan Qrup, HPBS-i sazişin şərtlərinə əsasən qiymətləndirir və uçota alır. O, HPBS-ə əsasən hasil edilmiş neftdə və qazda ancaq öz payını gəlir kimi uçota alır. Dövlətin adından hasil edilərək satılan neft və qaz üzrə yaranan gəlir və ya çəkilmiş xərclər Qrupun hesabatlarında qeydə alınmır. Qrup, Dövlətin agenti kimi çıxış edərək nefti və qazı hasil edir və çatdırır, yaxud nefti və qazı sataraq gəliri Dövlətin hesabına köçürür.

BMS 38 və BMS 16 əsasında, müvafiq olaraq, qeyri-maddi aktivlər və ya əsas vəsaitlər kimi uçota alınmalı olan xərclər müəssisənin bir çox iqtisadi risklərə məruz qaldığı və aktivlər üzrə ehtimal edilən gələcək iqtisadi mənfəət əldə etdiyi təqdirdə uçota alınır. Alış, işlənmə və kəşfiyyat xərcləri konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında göstərilən uçot qaydalarına uyğun olaraq qeydə alınır.

Köhnəlmə, tükənmə və ya amortizasiyaya məruz qalmış aktivlər HPBS-in qüvvədə olduğu dövrdə və ya müvafiq aktivlərin gözlənilən faydalı istifadə müddəti ərzində (bu müddətlərdən hansı daha qısa olarsa) hazırkı uçot siyasətində nəzərdə tutulan müvafiq tükənmə və ya köhnəlmə metoduna əsasən xərc silinir.

**Xarici valyuta çevrilmələri.** Konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa cür qeyd edilmədiyi halda min Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur.

Qrupun konsolidasiya edilmiş müəssisələrinin funksional valyutaları onların fəaliyyət göstərdiyi əsas iqtisadi mühitlərin valyutaları hesab edilir. ARDNŞ və onun tabeliyində olan 20 struktur bölməsinin funksional valyutası və Qrupun hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan AZN-dır. Buna baxmayaraq, Qrupun törəmə, əlaqəli və birgə nəzarət olunan müəyyən müəssisələrində investisiyalarının böyük hissəsi üzrə debitor borcları, gəlirlər, xərclər və borc öhdəlikləri ABŞ dolları və YTL ilə qiymətləndirildiyinə, çəkildiyinə, ödənildiyinə və ya ölçüldüyünə görə həmin müəssisələrdə, müvafiq olaraq, ABŞ dolları və Türk lirəsi ("YTL") funksional valyuta hesab edilir.

Xarici valyuta ilə aparılan əməliyyatlar əvvəlcə əməliyyat tarixinə qüvvədə olan müvafiq valyuta məzənnələrini tətbiq etməklə, Qrupun müvafiq müəssisələrinin funksional valyutası ilə qeydə alınır.

Qrupun müvafiq müəssisəsinin funksional valyutası ilə ölçülməyən monetar aktiv və öhdəliklər, maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan müvafiq valyuta məzənnələrinə əsasən həmin müəssisənin funksional valyutasına çevrilir.

Qrupun müvafiq müəssisələrinin funksional valyutalarında yenidən ölçülmə nəticəsində yaranan məzənnə gəlir və zərərləri mənfəət və ya zərərdə qeydə alınır.

Qrup müəssisələrinin əməliyyat nəticələri və maliyyə vəziyyəti həmin müəssisələrin funksional valyutası Qrupun hesabat valyutalarından fərqli olduqda və Qrupun hesabat valyutası ilə ölçülmədikdə (bu müəssisələrdən heç birinin funksional valyutası hiperinflyasiya iqtisadiyyatlı ölkələrin valyutası deyil) aşağıdakı şəkildə hesabat valyutasına çevrilir:

(I) hər bir maliyyə vəziyyəti haqqında hesabat üzrə aktiv və öhdəliklər, maliyyə vəziyyəti haqqında hesabat tarixində qüvvədə olan yekun məzənnə ilə çevrilir;

(II) hər bir ümumi gəlir haqqında hesabat üzrə gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (əgər həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadıqda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir); və

(III) bütün məzənnə fərqləri kapital hesabında ayrıca komponent (məzənnə fərqi) kimi əks etdirilir.

31 dekabr 2010-cu il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları = 0.7979 AZN, 1 YTL = 0.5139 AZN, 100 Yapon yeni = 0.9798 AZN (2009: 1 ABŞ dolları = 0.8031 AZN, 1 YTL = 0.5315 AZN, 100 Yapon yeni = 0.8713 AZN).

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya köhnəlmə olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər əməliyyatın həyata keçirilməsində maraqlı olan, yaxşı məlumatlandırılmış və bir-birindən asılı olmayan alıcı və satıcı arasında aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləğdir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər kommersiya cəhətdən müstəqil şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, kommersiya cəhətdən müstəqil şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər.

İlkin dəyər alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya pul vəsaitlərinin ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

Amortizasiya olunmuş maya dəyəri əsas məbləğin qaytarılmasını çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və müvafiq maliyyə vəziyyəti haqqında hesabatın aktiv və öhdəliklərinin balans dəyərinə daxil edilir.

Effektiv faiz-metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.



**Maliyyə aktivləri.** Qrup maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: a) mənfəət və ya zərərdə ədalətli dəyərlə göstərilən maliyyə aktivləri; b) kreditlər və debitor borcları; c) ödəniş tarixinədək saxlanılan maliyyə aktivləri və d) satıla bilən maliyyə aktivləri. Bu təsnifləşdirmə maliyyə aktivlərinin əldə edilməsi məqsədindən asılıdır. Rəhbərlik maliyyə aktivlərini ilkin uçot zamanı təsnifləşdirir.

Maliyyə aktivlərinin qiymətləndirilməsi onların aşağıdakı təsnifatından asılıdır:

(a) Mənfəət və ya zərərdə ədalətli dəyərlə göstərilən maliyyə aktivləri. Mənfəət və ya zərərdə ədalətli dəyərlə göstərilən maliyyə aktivləri satış üçün nəzərdə tutulan maliyyə aktivləri (maliyyə aktivi əsasən qısa müddətdə satış üçün əldə edildiyi təqdirdə bu kateqoriyada təsnifləşdirilir) və ilkin olaraq mənfəət və ya zərərdə ədalətli dəyərlə uçota alınan maliyyə aktivləridir. Derivativlər heclər kimi müəyyən edilmədiyi təqdirdə, satış üçün nəzərdə tutulan aktivlər kimi təsnifləşdirilir. Bu kateqoriyaya daxil olan aktivlər cari aktivlər kimi təsnifləşdirilir.

(b) Kreditlər və debitor borcları. Kreditlər və debitor borcları bazarda sərbəst surətdə alınıb satıla bilməyən, təsbit edilmiş və ya müəyyən edilə bilən ödənişlərlə qeyri-derivativ maliyyə aktivləridir. Ödəmə müddəti maliyyə vəziyyəti haqqında hesabat tarixindən sonra 12 aydan çox olan kreditlər və debitor borcları istisna olmaqla, bunlar cari aktivlər kimi təsnifləşdirilir. Bu istisna olunmuş aktivlər isə uzunmüddətli aktivlər kimi təsnifləşdirilir. Kreditlər və debitor borcları maliyyə vəziyyəti haqqında hesabatda debitor borcları kimi əks etdirilir.

(c) Ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızları. Bu kateqoriyaya Qrupun ödəniş müddətinədək saxlamaq niyyəti və imkanı olan qiyməti təyin edilmiş sabit və ya ödəniş müddəti müəyyən edilmiş qeyri-derivativ maliyyə aktivləri daxildir. Rəhbərlik ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızlarını ilk dəfə uçota alınması ərəfəsində təsnifləşdirilməsini müəyyənləşdirir və hər maliyyə vəziyyəti haqqında hesabat tarixində təsnifləşdirmənin uyğunluğunu yenidən qiymətləndirir. Ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızları amortizasiya olunmuş dəyərdə uçota alınır.

(d) Satıla bilən maliyyə aktivləri. Satıla bilən maliyyə aktivləri bu kateqoriya üçün nəzərdə tutulan və yaxud hər hansı digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-derivativlərdir. Rəhbərliyin maliyyə vəziyyəti haqqında hesabat tarixindən etibarən 12 ay ərzində investisiyaları satmaq niyyəti olmadığına görə bu aktivlər uzunmüddətli aktivlər kimi tanınır.

Maliyyə aktivlərinin müntəzəm alışı və satışı, əqdin bağlandığı tarixdə (yəni, Qrup aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə) uçota alınır. İnvestisiyalar əvvəlcə mənfəət və ya zərərdə ədalətli dəyərdə uçota alınmayan bütün maliyyə aktivləri üzrə əməliyyat xərcləri daxil olmaqla, ədalətli dəyərlə uçota alınır. Mənfəət və ya zərərdə ədalətli dəyərdə əks etdirilən maliyyə aktivləri əvvəlcə ədalətli dəyərdə uçota alınır, əməliyyat xərcləri isə ümumi gəlirlər haqqında hesa-

batda xərcə yazılır. Satıla bilən maliyyə aktivləri və mənfəət və ya zərərdə ədalətli dəyərdə əks etdirilən maliyyə aktivləri sonradan ədalətli dəyərlə uçota alınır. Kreditlər və debitor borcları effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə uçota alınır.

"Mənfəət və ya zərərdə ədalətli dəyərdə əks etdirilən maliyyə aktivlərinin" ədalətli dəyərində dəyişikliklərə görə yaranan gəlir və ya zərər onların yarandığı dövrdə ümumi gəlir haqqında hesabatda "sair gəlir/(zərər)" sətrində əks etdirilir. Mənfəət və ya zərərdə ədalətli dəyərdə əks etdirilən maliyyə aktivlərindən yaranan dividend gəlirləri Qrupun ödənişləri almaq hüququ müəyyən edildikdə ümumi gəlir haqqında hesabatda sair gəlirlərin tərkibində uçota alınır.

Xarici valyutada ifadə olunan və satıla bilən qiymətli kağızlar kimi təsnifləşdirilən monetar qiymətli kağızların ədalətli dəyərindəki dəyişikliklər qiymətli kağızların amortizasiya edilmiş dəyərində və balans dəyərində baş verən dəyişikliklər nəticəsində yaranan məzənnə fərqləri kimi təhlil edilir. Monetar qiymətli kağızlar üzrə məzənnə fərqləri mənfəət və ya zərərdə uçota alınır; qeyri-monetar qiymətli kağızlar üzrə məzənnə fərqləri kapitalda uçota alınır. Satıla bilən qiymətli kağızlar kimi təsnifləşdirilən monetar və qeyri-monetar qiymətli kağızların ədalətli dəyərindəki dəyişikliklər kapitalda uçota alınır.

Satıla bilən maliyyə aktivləri kateqoriyasında təsnifləşdirilən qiymətli kağızlar satıldıqda və ya dəyərsizləşdikdə, kapitalda qeydə alınan ədalətli dəyər üzrə yığılmış düzəlişlər ümumi gəlir haqqında hesabatda investisiya qiymətli kağızlarının satışından yaranan gəlir və zərər kimi əks etdirilir. Satıla bilən qiymətli kağızlar üzrə effektiv faiz metoduna əsasən hesablanmış faizlər ümumi gəlir haqqında hesabatda sair gəlirlərin tərkibində uçota alınır. Satıla bilən pay alətləri üzrə dividendlər Qrupun ödənişləri almaq hüququ müəyyən edildikdə ümumi gəlir haqqında hesabatda sair gəlirlərin bir hissəsi kimi uçota alınır.

Sərbəst surətdə alınıb-satılan investisiya qiymətli kağızlarının ədalətli dəyəri cari bazar qiymətlərinə əsaslanır. Maliyyə aktivləri bazarı (həmçinin birjaya çıxarılmayan qiymətli kağızlar üzrə) aktiv olmadığı təqdirdə, Qrup, ədalətli dəyəri qiymətləndirmə üsullarından istifadə etməklə müəyyən edir. Bu üsullara bazar göstəricilərindən maksimum istifadə etmək və müəssisənin göstəricilərindən daha az asılı olmağı nəzərdə tutan, müstəqil tərəflər arasındakı ən son əməliyyatlar, mahiyyət etibarı ilə eyni xarakter daşıyan sair maliyyə alətlərinə istinad, diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətinin təhlili və opsiyonların qiymətləndirilməsi modelləri daxildir.

Qrup hər bir maliyyə vəziyyəti haqqında hesabat tarixində maliyyə aktivlərinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını müəyyən edir. Satıla bilən qiymətli kağızlar kimi təsnifləşdirilən pay qiymətli kağızlar ilə əlaqədar qiymətli kağızın ədalətli dəyərinin onun maya dəyərindən əhəmiyyətli dərəcədə və ya davamlı şəkildə azalması, həmin qiymətli kağızların



dəyərsizləşməsi əlaməti kimi nəzərə alınır. Satıla bilən maliyyə aktivləri üzrə bu cür dəlil olduqda, alış dəyəri ilə cari ədalətli dəyər arasında fərq kimi qiymətləndirilən ümumi zərər, əvvəlki dövrdə mənfəət və ya zərərdə həmin aktiv üzrə qeydə alınmış hər hansı dəyərsizləşmə üzrə zərər çıxılmaqla, kapitaldan silinərək ümumi gəlir haqqında hesabatda qeydə alınır. Ümumi gəlir haqqında hesabatda pay alətləri üzrə qeydə alınan dəyərsizləşmə üzrə zərər mənfəət və ya zərərdə bərpa edilmir.

**Maliyyə öhdəlikləri.** Qrup öz maliyyə fəaliyyətini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) satış üçün nəzərdə tutulan maliyyə öhdəlikləri, həmçinin maliyyə derivativləri daxil olmaqla və (b) sair maliyyə öhdəlikləri. Satış üçün nəzərdə tutulan öhdəliklər ədalətli dəyərdə uçota alınır. Həmin öhdəliklərin dəyərindəki dəyişikliklər onların yarandığı dövrdə konsolidasiya edilmiş ümumi gəlir haqqında hesabatda uçota alınır. Sair maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Maliyyə aktivlərinin uçotdan silinməsi.** Qrup aşağıdakı hallarda maliyyə aktivlərini uçotdan silir: (I) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (II) Qrup bu aktivlər üzrə mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (III) Qrup bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Maliyyə öhdəliklərinin uçotdan silinməsi.** Qrup maliyyə öhdəliyini bu öhdəlik üzrə məsuliyyətdən azad olduqda, həmin öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda uçotdan silir. Mövcud maliyyə öhdəliyi eyni borcverən tərəfindən əhəmiyyətli dərəcədə fərqli şərtlər ilə başqa bir öhdəlik ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, bu cür mübadilə və ya dəyişiklik müvafiq balans məbləğindəki fərqin hər hansı çəkilmiş xərclər və komissiya haqları ilə birlikdə mənfəət və ya zərərdə uçota alınması şərtilə, ilkin öhdəliyin uçotdan silinməsi və yeni öhdəliyin uçota alınması kimi nəzərə alınır.

**Maliyyə zəmanəti razılaşmaları.** Maliyyə zəmanəti razılaşmaları maliyyə aləti üzrə şərtlərə əsasən ödənilməli olan vaxtda borclu tərəfin ödəməni yerinə yetirə bilmədiyi zaman yaranan zərərin əvəzinin Qrup tərəfindən ödənilməsini tələb edən razılaşmalardır. Maliyyə zəmanəti razılaşmaları ilkin olaraq birbaşa zəmanətin emissiyası ilə bağlı olan sövdələşmə xərcləri nəzərə alınmaqla ədalətli dəyər əsasında öhdəlik kimi uçota alınır. Daha sonra, öhdəlik hesabat tarixinə olan cari

borcun ödənilməsi üçün tələb olunan xərclərin və yığılmış amortizasiya çıxılmaqla qeydə alınan məbləğin daha yüksək olan dəyəri ilə ölçülür.

**Ticarət və sair debitor borcları.** Ticarət və sair debitor borcları effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə qeydə alınır. Qrup əvvəlcə fərdi olaraq mühüm olan maliyyə aktivləri və ya fərdi olaraq mühüm olmayan maliyyə aktivləri qrupu üçün dəyərsizləşmənin obyektiv sübutunun olub-olmamasını test edir. Əgər Qrup fərdi olaraq test edilmiş maliyyə aktivinin dəyərsizləşməsi üçün obyektiv sübutun olmadığını müəyyən edərsə, aktivi eyni kredit risk xarakteristikası olan maliyyə aktivləri qrupuna daxil edir və bu qrup üçün kollektiv dəyərsizləşmə testini keçirir. Fərdi olaraq dəyərsizləşmə testi edilmiş və dəyərsizləşmə üzrə zərərin qeydə alındığı aktivlər kollektiv dəyərsizləşmə testinə daxil edilmir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat, Qrupun müəyyən edilmiş ilkin müddətdə borc məbləğlərini tam toplaya bilməyəcəyinə obyektiv sübutlar mövcud olduqda yaradılır. Ehtiyatın məbləği, aktivin balans dəyəri ilə əvvəlki effektiv faiz dərəcəsinə əsasən diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin dəyəri arasındakı fərqi təşkil edir. Ehtiyatın məbləği mənfəət və ya zərər kimi uçota alınır. Debitor borcunun dəyərsizləşməsi məsələsinə baxarkən Qrupun nəzərə aldığı əsas amillər həmin debitor borcunun vaxtı keçmiş statusu və onun realizasiya oluna bilməsi yaxud hər hansı girov təminatının olmasıdır. Əlavə olaraq, dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən digər əsas meyarlar aşağıda göstərilir:

- qarşı tərəfin əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Qrupun qarşı tərəf haqqında əldə etdiyi maliyyə məlumatları ilə təsdiqlənməsi;
- qarşı tərəfin müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması;
- qarşı tərəfə təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun (əgər varsa) dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Ticarət və sair debitor borcları müştərilər və borcalanlar tərəfindən ödənildikdə və ya başqa oxşar əməliyyatlar olduqda debitor borcu hesabından silinir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri.** Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilənədək və ilkin ödəmə müddəti üç ay və ya az olan sair qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

Məhdudiyyət qoyulmuş pul vəsaitləri. Məhdudiyyət qoyulmuş pul vəsaitləri nağd pul və pul vəsaitlərinin ekvivalentlərindən ayrıca göstərilir. Məhdudiyyət qoyulmuş

qalıqlar pul vəsaitlərinin hərəkəti hesabatının tərtib edilməsi məqsədilə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə aid edilmir.

**Kreditor borcları.** Kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə ölçülür.

**Borc öhdəlikləri.** Borc öhdəlikləri əvvəlcə borc öhdəlikləri ilə bağlı emissiya xərcləri çıxılmaqla, əldə edilmiş daxilolmaların ədalətli dəyərində qeydə alınır. Borc öhdəlikləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

Əsas vəsaitlərin tikintisini maliyyələşdirmək üçün alınmış borc öhdəlikləri üzrə faiz xərcləri aktivi istifadəyə yararlı vəziyyətə gətirmək üçün onun tikintisinin tamamlanması və ya hazırlanması üçün tələb olunan dövr ərzində kapitallaşdırılır. Borc öhdəlikləri üzrə sair xərclər mənfəət və ya zərərdə əks etdirilir.

**Əsas vəsaitlər.** Qrup əsas vəsaitlərinin BMHS-ə keçid tarixində (1 yanvar 2007-ci il) ədalətli dəyərlə ölçülməsi və həmin tarixdə ədalətli dəyərin şərti hesablanmış maya dəyəri kimi istifadə edilməsi üsulunu seçmişdir. Ədalətli dəyər, bazar məlumatlarına əsasən və köhnəlmə hesablanmış əvəzləşdirmə dəyəri üsulundan istifadə etməklə müəyyən edilir. BMHS-ə keçid prosesindən sonra əsas vəsaitlər yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərdə uçota alınır.

**Əsas vəsaitlər (davamı).** 1 yanvar 2007-ci il tarixindən sonra alınmış aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və kvalifikasiya olunan aktivlər və borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Maliyyə lizinqi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də əsas vəsaitlərə daxildir.

**Kəşfiyyat və qiymətləndirmə xərcləri.** Mülkiyyətin lizinqə götürülməsi xərcləri ehtiyatların dəyəri müəyyən edilənədək kapitallaşdırılır. İqtisadi cəhətdən səmərəli kəşfiyyat edilmədikdə, bu məsrəflər xərc hesabına yazılır. Əsas vəsaitlər və ya qeyri-maddi aktivlər üzrə kapitallaşdırma xərclərin xarakterinə uyğun şəkildə aparılır.

Qrup kəşfiyyat və qiymətləndirmə fəaliyyətini həmin resursların istehsalının iqtisadi cəhətdən əsaslandırılması müəyyən edilənə qədər, kəşfiyyat və qiymətləndirmə xərclərini kapitallaşdırmaqla uçota alır. İqtisadi cəhətdən əsaslandırılmayan resurslar ilə bağlı kəşfiyyat və qiymətləndirmə xərcləri konsolidasiya edilmiş ümumi gəlir haqqında hesabatda əməliyyat xərclərinə əlavə edilir.

**Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin işlənib təkmilləşdirilməsi.** Platformalar, boru kəmərləri kimi infrastruktur qurğuların tikilməsi, quraşdırılması və ya tamamlanması və kommersiya cəhətdən təsdiqlənmiş quyuların qazılması üzrə xərclər onların xarakterinə uyğun olaraq əsas vəsaitlər və qeyri-maddi aktivlər kimi kapitallaşdırılır. Konkret yataqda işlənmə tamamlandıqdan sonra o, istehsal aktivlərinə (neft və qaz əmlakına) köçürülür.

Neft və qaz hasilatı qurğuları üzrə təxmin edilən sökülmə xərclərinin cari dəyəri (ləğvetmə və ərazinin bərpası xərcləri daxil olmaqla) öhdəlik yarandıqda uçota alınır və istehsalın həcmindən asılı olaraq amortizasiya metodundan istifadə etməklə balans dəyərinə daxil edilir.

Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır.

Hər bir hesabat tarixində rəhbərlik, əsas vəsaitlər üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa dəyərini təxmin edir. Aktivin bərpa dəyəri, aktivin və ya pul vəsaitlərini yaradan biznes vahidlərinin satış xərcləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa dəyərinə qədər azaldılır və dəyərsizləşmə üzrə hər hansı zərər ümumi gəlir haqqında hesabatda qeydə alınır. Dəyərsizləşmə üzrə zərərin daha olmamasına və ya azala biləcəyinə dair əlamətlər olduqda, aktiv və ya pul vəsaitlərini yaradan biznes vahidləri üzrə əvvəlki illərdə qeydə alınmış dəyərsizləşmə zərəri ləğv edilir.

Əsas vəsaitlərin satışından yaranan gəlir və zərər alınmış vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərə daxil edilir.

**Köhnəlmə.** Neft və təbii qaz əmlakı ilə bağlı əsas vəsaitlər üzrə köhnəlmə istehsal həcmindən asılı olaraq köhnəlmə metoduna əsasən hesablanır.

Neft və qaz aktivləri üçün köhnəlmə təsdiqlənib işlənilmiş ehtiyatlar və ya uyğun olduqda cəmi təsdiqlənmiş ehtiyatlar üzrə hər bir yataq üçün hesablanır. Birgə istifadə olunan neft-qaz əmlakı və avadanlıqları (məs, daxili təchizat sistemləri, emal qurğuları və s.) cəmi təsdiqlənmiş ehtiyatlar üzrə köhnəlmə hesablanır.

Torpaq üçün köhnəlmə hesablanmır. Neft-qaz əmlakı və avadanlığından başqa əsas vəsaitlər onların təxmin edilən faydalı istifadə müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən köhnəlmə hesablanır. Tikilməkdə olan aktivlər üçün köhnəlmə hesablanmır.

Qrupun əsas vəsaitlərinin (neft-qaz əmlakından başqa) təxmin edilən faydalı istifadə müddəti aşağıda göstərilir:

**Köhnəlmə (davamı).**

| | |
|---|---|
| Binalar və tikililər | 12 - 40 il |
| Maşın və avadanlıqlar | 3 - 47 il |
| Gəmilər | 25 il. |

Əsas vəsaitlərin faydalı istifadə müddəti hər il nəzərdən keçirilir və lazım olduqda onların faydalı istifadə müddətindəki dəyişikliklər sonrakı dövrdən etibarən uçota alınır.

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Əgər Qrup aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözləyərsə və əlavə qalıq dəyərinin mövcud olmadığı nəzərdə tutulursa, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

**Əməliyyat lizinqi.** Qrup lizinq alan qismində çıxış etdikdə və lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və faydalar lizinq verən tərəfindən Qrupa ötürülmədikdə, əməliyyat lizinqi müqavilələri üzrə cəmi ödənişlər lizinqin müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən mənfəət və ya zərərdə qeydə alınır. Lizinqin müddəti lizinq alan tərəfindən əmlakın lizinqə götürülməsi üçün əlavə şərtlərlə birlikdə müqavilənin imzalanması ləğv oluna bilməyən dövrdür. Lizinq müddəti ləğv edilə bilməyən elə müddətdir ki, lizinq alan aktivi həmin müddətə lizinqə götürmək müqaviləsini imzalamış və hər hansı əlavə müddətləri də nəzərə almaqla lizinq alan əlavə ödənişlər etməklə və ya əlavə ödənişlər etmədən lizinq müddətinin əvvəlində bu hüququn istifadə edilməsinə kifayət qədər əmin olduğu halda, əmlakın lizinq müddətini artırmaq hüququna malikdi.

Əmlak, əməliyyat lizinqinin şərtlərinə əsasən lizinqə verildikdə lizinq ödənişləri üzrə debitor borcları lizinqin ümumi müddəti ərzində bərabər çıxılmalar metodundan istifadə etməklə lizinq gəliri kimi uçota alınır.

**Qudvil.** Qudvil ilkin olaraq məcmu ödənişin və qeyri-nəzarət payının müəyyən edilə bilən xalis aktivlər və güman olunan öhdəliklərdən artıq hissə olan dəyər kimi hesablanır. Əgər bu məbləğ əldə edilmiş törəmə müəssisənin xalis aktivlərinin ədalətli dəyərindən azdırsa, bu fərq gəlir və ya zərər kimi qeydə alınır.

İlkin tanınmadan sonra qudvil maya dəyərindən hər hansı qalıq dəyərsizləşmə zərərini çıxmaqla ölçülür. Dəyəsizləşmə testi üçün müəssisələrin birləşməsindən yaranan qudvil, yaranma tarixindən başlayaraq Qrupun birləşmədən fayda götürə biləcək hər bir pul vəsaitlərini yaradan vahidlərinə alınan müəssisənin sair aktiv və ya

öhdəliklər bu vahidlərə ayırmasından asılı olmayaraq paylanır. Qudvil pul vəsaitlərini yaradan vahidinin bir hissəsi olduğu və vahid nəzdində fəaliyyətin bir hissəsi ləğv olunduğu təqdirdə həmin fəaliyyətə aid edilən qudvil onun ləğv olunmasından yaranan gəlir və zərərin müəyyən edilməsi üçün ləğv olunan fəaliyyətin balans dəyərinə daxil olunur. Bu cür hallarda silinən qudvil ləğv olunan fəaliyyətin müvafiq dəyəri və pul vəsaitlərini yaradan qalan vahidin dəyəri əsasında ölçülür.

**Qeyri-maddi aktivlər.** Qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və dəyərsizləşmə zərərini çıxmaqla, maya dəyərində qeydə alınır. Qeyri-maddi aktivlərə hüquqlar və proqram təminatı, patentlər, lisenziyalar, müştəri ilə münasibətlər, ticarət adı, sudan istifadə hüquqları və işlənmə layihələri daxildir.

Qeyri-maddi aktivlərin faydalı istifadə müddəti məhdud və ya qeyri-müəyyən olaraq qiymətləndirilir. Məhdud faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər onların faydalı iqtisadi müddəti ərzində amortizasiya edilir və dəyərsizləşə bilməsinə dair əlamət mövcud olduqda dəyərsizləşmə üzrə qiymətləndirilir. Məhdud faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər üzrə amortizasiya dövrü və amortizasiya metodu ən azı hər bir hesabat dövrünün sonunda nəzərdən keçiri–lir. Gözlənilən faydalı istifadə müddəti və ya aktiv üzrə daxil olacaq gələcək iqtisadi səmərənin gözlənilən istifadə modelində baş verən dəyişikliklər müvafiq olaraq amortizasiya dövrünü və ya metodunu dəyişdirməklə uçot təxminlərində dəyişikliklər kimi qeydə alınır. Məhdud faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri ümumi gəlir haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq xərc kateqoriyasında tanınır.

**Qeyri-maddi aktivlər (davamı).** Qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər amortizasiya edilmir, lakin fərdi qaydada və ya pul vəsaitlərini yaradan biznes vahidləri səviyyəsində hər il dəyərsizləşmə üzrə yoxlanılır. Qeyri-müəyyən faydalı istifadə müddətinin qiymətləndirilməsi qeyri-müəyyən istifadə müddətinin uyğun olmaqda davam edə biləcəyini müəyyən etmək üçün hər il nəzərdən keçirilir. İstifadə müddəti uyğun olmadıqda, istifadə müddəti sonrakı dövrdən etibarən qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

a) Hüquqlar və proqram təminatı

Proqram təminatı yığılmış amortizasiyanı çıxmaqla, maya dəyərində qeydə alınır. Amortizasiya, bu cür aktivlərin təxmin edilən faydalı istifadə müddətləri ərzində bərabər çıxılmalar metoduna əsasən hesablanır. Torpaq üzərində mülkiyyət hüquqlarına su bəndlərindən, fabrik ərazisindən, liman ərazisindən, sahənin işlənməsi, sahə və su ötürmə xəttindən istifadə hüquqları daxildir. Petkim Petrokimya Holding A.S. ("Petkim") şirkətinin alışı zamanı (Qeyd 26) əldə edilmiş qeyri-maddi

aktivlər əvvəlcə 30 may 2008-ci il tarixinə BMHS 3-ə əsasən ədalətli dəyərdə uçota alınmış, və qeyri-müəyyən faydalı istifadə müddətinə malik olduğu üçün amortizasiya olunmayan su ötürmə xətti istisna olmaqla, alış tarixindən başlayaraq qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətləri ərzində amortizasiya edilmişdir.

b) Müştəri ilə münasibətlər

Petkim şirkətinin xalis aktivlərinin bir hissəsi kimi əldə edilmiş müştəri ilə münasibətlər əvvəlcə 30 may 2008-ci il tarixinə BMHS 3-ə əsasən ədalətli dəyərdə uçota alınmış və alış tarixindən başlayaraq onların 22 illik faydalı istifadə müddətləri ərzində amortizasiya edilmişdir (Qeyd 15).

c) Petkim ticarət adı

Petkim şirkətinin alışı zamanı əldə edilmiş Petkim ticarət adı əvvəlcə 30 may 2008-ci il tarixinə BMHS 3-ə əsasən ədalətli dəyərdə uçota alınmışdır. Petkim ticarət adı qeyri-müəyyən faydalı istifadə müddətinə malik olduğu üçün amortizasiya edilmir (Qeyd 15).

d) Sudan istifadə hüquqları

Petkim şirkətinin alışı zamanı əldə edilmiş sudan istifadə hüquqları əvvəlcə 30 may 2008-ci il tarixinə BMHS 3-ə əsasən ədalətli dəyərdə uçota alınmış və alış tarixindən başlayaraq onların 47 illik faydalı istifadə müddətləri ərzində amortizasiya edilmişdir (Qeyd 15).

e) İşləmə layihələri

Petkim şirkətinin alışı zamanı əldə edilmiş işlənmə layihələri əvvəlcə 30 may 2008-ci il tarixinə BMHS 3-ə əsasən ədalətli dəyərdə uçota alınmış və alış tarixindən başlayaraq onların 5 illik faydalı istifadə müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya edilmişdir. İşlənmə layihələri ilə bağlı çəkilmiş xərclər (yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılması və sınaqdan keçirilməsinə aid olan) layihənin texniki-iqtisadi əsaslandırılmasını nəzərə alaraq gerçəkləşəcəyi ehtimal edildikdə və yalnız xərclər etibarlı şəkildə qiymətləndirilə bildikdə, qeyri-maddi aktivlər kimi uçota alınır. Tədqiqat və işlənmə fəaliyyəti ilə bağlı sair xərclər yarandığı dövrdə xərc kimi uçota alınır. Qeyri-maddi aktivlər dəyərsizləşdikdə, onların balans dəyəri bərpa dəyərinə azaldılır.

Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddətləri hər bir maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və lazım olduqda onlara düzəlişlər edilir.

**Mənfəət vergisi.** Konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında mənfəət vergisi maliyyə vəziyyəti haqqında hesabatın tarixinə qüvvədə olan və ya əsasən

qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri sair ümumi gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa sair vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

**Mənfəət vergisi (davamı).** Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və konsolidasiya edilmiş maliyyə hesabatlarında onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün tam hesablanır. Təxirə salınmış vergi aktivi, qüvvədə olan və ya maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə (və qanunvericiliyə) əsasən hesablanır və müvafiq təxirə salınmış vergi aktivinin realizasiya ediləcəyi və ya təxirə salınmış vergi öhdəliyinin yerinə yetiriləcəyi halda tətbiq edilməsi gözlənilir.

Təxirə salınmış vergi aktiv və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, eləcə də qalıqları xalis şəkildə əvəzləşdirmək niyyəti mövcud olduğu halda təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə və ya vergiyə cəlb edilən ayrı-ayrı müəssisələrə tətbiq edilmiş vergilərə aid olduqda həyata keçirilə bilər.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır.

Təxirə salınmış mənfəət vergisi, Qrupun müvəqqəti fərqlərin bərpası dövrünə nəzarət etməsi və müvəqqəti fərqlərin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal olunan hallar istisna olmaqla, törəmə və əlaqəli müəssisələrə investisiyaların qoyulmasından yaranan müvəqqəti fərqlər üçün hesablanır.

Təxirə salınmış mənfəət vergisi, aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatın, eləcə də əsas vəsaitlərin ilkin dəyəri üzrə müvafiq düzəlişlərin uçota alınması və sonrakı dövrdə qiymətləndirilməsindən yaranan müvəqqəti fərqlər üçün tam şəkildə hesablanır.

**Mal-material ehtiyatları.** Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərdə qeydə alınır. Maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri, hasilat xərcləri, nəqliyyat və istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir.

**Dövlət qrantları.** Dövlət qrantları onların Qrup tərəfindən alınması və Qrupun bu qrantlarla bağlı bütün şərtləri yerinə yetirəcəyi haqda əsaslı əminlik yarandıqda ədalətli dəyərlə uçota alınır. Əsas vəsaitlərin alınması ilə bağlı alınmış qrantlar uzunmüddətli öhdəliklərdə təxirə salınmış gəlir kimi uçota alınır və müvafiq aktivlərin gözlənilən faydalı istifadə müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən mənfəət və ya zərərdə gəlirə aid edilir.

Gəlirlər ilə bağlı alınmış qrantlar təxirə salınır və onların kompensasiya edəcəyi xərclərə uyğunlaşdırılması üzrə tələb olunan dövr ərzində mənfəət və ya zərərə daxil edilir.

**Aktivlərin ləğv olunması üzrə öhdəliklər.** Qrup qurğu və ya avadanlığın bir hissəsinin sökülməsi və ya ləğv edilməsi və onların yerləşdiyi ərazini bərpa etməsi üzrə öhdəliyə malik olduqda və həmin öhdəliklə bağlı əsaslı təxminlər irəli sürüldükdə aktivlərin silinməsi ilə bağlı xərclər üzrə öhdəliklər uçota alınır. Neft və təbii qazın hasilatı və ya nəqli üçün nəzərdə tutulan qurğular kimi yeni qurğularla bağlı öhdəliklər tikinti və ya quraşdırılma zamanı uçota alınır. Aktivlərin ləğv olunması üzrə öhdəlik qanunvericilikdə baş vermiş dəyişiklik ilə əlaqədar olaraq qurğunun istismar dövrü ərzində yarana bilər. Uçota alınmış məbləğ yerli şərait və tələblərə uyğun olaraq müəyyən edilmiş gözlənilən gələcək xərclərin cari dəyərini əks etdirir.

Bundan əlavə, əsas vəsaitlərin maya dəyərində aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün təxmin edilən öhdəliklərin məbləği həcmində düzəliş aparılır.

Gələcək xərclərin məbləği və müddəti ilə bağlı təxminlərdəki dəyişikliklərə görə öhdəliyin cari dəyərində baş vermiş hər hansı dəyişiklik ehtiyat və əsas vəsaitlər üzrə kapitallaşdırılmış müvafiq xərclərə düzəliş kimi göstərilir. Tamamilə köhnəlmiş qurğu və ya avadanlığın sökülməsi və ya ləğv edilməsi üçün gələcək xərclərin məbləği və müddəti ilə bağlı təxminlərdəki dəyişikliklər ümumi gəlir haqqında hesabatda uçota alınır. Diskontlaşdırılmış dəyərə düzəliş nəticəsində öhdəliyin cari dəyərində baş vermiş dəyişikliklər ümumi gəlir haqqında hesabatda maliyyə xərcləri kimi göstərilir.

**Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar.** Öhdəliklər və məsrəflər üzrə ehtiyatlara qeyri-müəyyən müddət və ya məbləğə malik olan öhdəliklər daxildir. Qrup keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi üçün Qrupdan iqtisadi resursların sərf olunmasının ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar uçota alınır. Ehtiyatlar gələcək əməliyyat zərərləri üçün uçota alınmır.

Bir sıra analoji öhdəliklər mövcud olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi məqsədilə resursların sərf olunması ehtimalı ümumilikdə bütün öhdəliklər üçün müəyyən edilir. Ehtiyat, hətta öhdəlik ilə eyni sinfə daxil olan hər-hansı bir ayrıca maddə üzrə resursların sərf olunması ehtimalı az olduqda belə qeydə alınır.

Ehtiyatlar vergidən əvvəl faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəl faiz dərəcəsi pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi uçota alınır.

**Dövlətə ayırmalar.** Dövlətə ayırmalar hökumətin xüsusi qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı-ayrı dövlət agentliklərinə və hökumətin həyata keçirdiyi layihələrə Qrup tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır.

**Əlavə Dəyər Vergisi.** Vergi orqanları satış və alış əməliyyatları üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis ödənilməsinə icazə verir.

ƏDV üzrə kreditor borcu: ƏDV üzrə kreditor borcu maliyyə vəziyyəti haqqında hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, müştərilərə satışların tanınması zaman vergi orqanlarına ödənilməli olan satış üzrə ƏDV məbləğidir. Maliyyə vəziyyəti haqqında hesabat tarixində əvəzləşdirilməmiş satışlar üzrə ƏDV (əvəzləşdirilən ƏDV) həmçinin ƏDV üzrə kreditor borcuna daxildir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə ehtiyat lazım olduqda ƏDV daxil olmaqla, debitor borcunun ümumi məbləğində qeydə alınır. ƏDV üzrə müvafiq təxirə salınmış öhdəlik vergi məqsədləri üçün debitor borcu silinənə qədər saxlanılır.

Büdcədən tələb edilə bilən ƏDV: Büdcədən tələb edilə bilən ƏDV maliyyə vəziyyəti haqqında hesabat tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Büdcədən tələb edilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

**Gəlirlərin uçotu.** Gəlirlər, Qrupun adi fəaliyyət gedişində satılmış mallar və ya göstərilmiş xidmətlərə görə alınmış və ya alınacaq məbləğin ədalətli dəyərini əks etdirir. Gəlirlər, Qrup daxilində satışlar silinməklə ƏDV, mənfəət, güzəşt və satışdan tutulan sair vergilər (əgər mövcuddursa) çıxılmaqla göstərilir.

Xam neftin satışından yaranan gəlirlər adətən neftin tankerə və ya digər nəqliyyat vasitələrinə yükləndiyi zaman xam neft üzrə mülkiyyət hüququ ilə bağlı risk və faydaların ötürüldüyü anda qeydə alınır. Neft məhsullarının satışından yaranan gəlirlər adətən məhsulların yükləndiyi zaman məhsul üzrə mülkiyyət hüququ ilə bağlı risk və faydaların ötürüldüyü anda qeydə alınır. Təbii qazın satışından yaranan gəlirlər qaz sayğaclarındakı göstəricilərə (hər ay nəzarət edilir) və sonuncu göstəricidən hesabat dövrünün sonuna qədər istehlakçıların proqnozlaşdırılan qaz

sərfiyyatına əsasən hesablanır. Təbii qazın qiyməti və qazın nəqli tarifləri Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən müəyyən edilir.

Digər malların satışından yaranan gəlirlər mallar üzrə mülkiyyət hüququ ilə bağlı risk və faydaların ötürüldüyü anda qeydə alınır.

Xidmətlərin realizasiyası müqavilə üzrə göstəriləcək ümumi xidmətlərə proporsional olaraq faktiki göstərilmiş xidmətlərə əsasən qiymətləndirilən konkret əməliyyatın tamamlanma mərhələsinə istinadən həmin xidmətlərin göstərildiyi uçot dövründə qeydə alınır.

Faiz gəlirləri effektiv faiz metodundan istifadə etməklə maliyyələşdirmə vaxtına proporsional şəkildə gəlirə daxil edilir.

**Xam neftin overlifti/anderlifti.** Xam neftin overlifti və ya anderlifti birgə fəaliyyətdəki tərəfdaşın əldə etdiyi neftin həcmi ilə onun hasilatdakı iştirak payı arasındakı fərqdən yaranır. Anderlift, satış kimi xam neftin yüklənmə məntəqəsində anderlifter tərəfindən overlifterə satışı zamanı uçota alınır. Overlift, alış kimi xam neftin overlifter tərəfindən anderlifterdən alınması zaman uçota alınır. Anderliftin həcmi Qrupun maliyyə vəziyyəti haqqında hesabatında aktiv kimi, overliftin həcmi isə öhdəlik kimi göstərilir. Overlift öhdəliyi və ya anderlift aktivinin ilkin uçotu yüklənmə tarixinə xam neftin bazar qiyməti ilə aparılır. Overlift/anderlift öhdəlikləri və aktivlərinin hesabat tarixindən sonrakı dövrdə uçotu müvafiq əməliyyat sazişlərində nəzərdə tutulan şərtlərdən asılıdır. Bu cür şərtlər tərəflər arasında overlift/anderlift qalıqlarının nağd pulla hesablaşmasına imkan yaradarsa, həmin qalıqlar ilkin uçotdan sonrakı hesabat tarixlərinə ədalətli dəyərdə yenidən qiymətləndirilir. Xam neftin təhvili nəticəsində yaranmış overlift/anderlift qalıqları ilkin uçotdan sonrakı hesabat tarixlərinə balans dəyəri və ədalətli dəyərdən ən aşağı olanı ilə qeydə alınır.

**İşçilərə ödənişlər.** Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (məs, səhiyyə xidmətləri və uşaq bağçaları) Qrupun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Seqmentlər üzrə məlumat.** Əməliyyat seqmentləri haqqında məlumat daxili hesabat qaydalarına əsasən əməliyyat məsələləri ilə bağlı Qrupun əsas qərar qəbul edən şəxsinə təqdim edildiyi formatda göstərilir. Gəlirləri, maliyyə nəticələri və ya aktivləri bütün seqmentlərin on faizini və ya artıq hissəsini təşkil edən seqmentlər ayrıca açıqlanır.

**Əlaqəli tərəflər.** Əlaqəli tərəflər haqqında məlumat BMS 24-ə "Əlaqəli tərəflər barədə açıqlamalar" uyğun olaraq açıqlanır.

Dövlətin iqtisadi və sosial siyasəti Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir edir. Dövlət tərəfindən Qrupun üzərinə Azərbaycan Respublikasındakı müştərilərə dövlətin nəzarət etdiyi qiymətlərlə davamlı olaraq neft və qaz təchiz etmək öhdəliyi qoyulmuşdur. Dövlətlə əməliyyatlara Qeyd 33-də göstərilən vergilər daxildir.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər.

Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

**Maraqların ötürülməsi haqqında müqavilələr.** Qrupun maliyyələşdirilən tərəf kimi iştirak etdiyi maraqların ötürülməsi haqqında müqavilə maliyyələşdirən tərəfin hər iki tərəfin iştirak payı olduğu layihədə maliyyələşdirilən tərəfin hasilatdan əvvəlki xərclərinin bir hissəsini və ya hamısını ödəmək üçün razılaşdığı müqavilədir. Layihə uğursuz olduqda, maliyyələşdirən tərəfin maliyyələşdirilən tərəfin adından çəkdiyi xərclər ona ödənilmir. Layihə uğurlu olarsa, maliyyələşdirən tərəfin çəkdiyi xərclər maliyyələşdirilən tərəfə aid olan hasilatdakı pay üzrə daxilolmalardan nağd pul şəklində və ya maliyyələşdirilən xərclər bərpa edilənə qədər hasilatdan qeyri-proporsional yüksək pay əldə etməklə ödənilir.

Maraqların ötürülməsi haqqında müqavilələrin şərtlərindən asılı olaraq, Qrup həmin müqavilələri maliyyələşdirmə müqaviləsi və ya alqı-satqı müqaviləsi kimi tanıyır.

Maliyyələşdirmə müqavilələrində maliyyələşdirən tərəfin maliyyələşdirilən tərəfi maliyyə vəsaiti ilə təmin etməsi və təmin edilmiş vəsaitlər üzrə borcverəndən faiz alması ehtimal edilir. Bu halda əlavə hasilat hüququ müqaviləni dəstəkləyən təminat kimi çıxış edir.

Alqı-satqı müqaviləsində maliyyələşdirilən tərəf effektiv olaraq layihədəki payını tam və ya qismən maliyyələşdirən tərəfə satır. Layihə uğurlu olduğu təqdirdə, malilyyələşdirən tərəfin daxilolmalardakı payının artması müqabilində layihəni maliyyələşdirməsi tələb olunur və maliyyələşdirilən tərəfin daxilolmalardakı payı azalır.

Layihələrin kəşfiyyat mərhələsində layihələrin nəticələri və maliyyələşdirən tərəfin maliyyələşdirilən tərəfin adından çəkilmiş xərcləri qaytarması ehtimalı qeyri-müəyyən olduqda, Qrup maraqların ötürülməsi ilə bağlı əməliyyatları və qalıqları konsolidasiya edilmiş maliyyə hesabatlarında qeydə almır.



**Yenidən təsnifləşdirmələr**

Cari ilin maliyyə hesabatlarının təqdimatına uyğunlaşmaq məqsədilə keçən ilin Konsolidasiya Edilmiş Maliyyə Vəziyyəti Haqqında Hesabatda, Konsolidasiya Edilmiş Ümumi Gəlirlər Haqqında Hesabatda və müvafiq qeydlərdə müəyyən yenidən təsnifləşdirmələr aparılmışdır. Bunlar Qrupun maliyyə vəziyyətinə, əməliyyatların nəticələrinə və kapitala əhəmiyyətli təsir göstərməmişdir.

| | | | |
|---|---|---|---|
| Konsolidasiya Olunmuş Maliyyə Vəziyyəti Haqqında Hesabat | | | |
| | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin məhdudiyyət qoyulmuş pul vəsaitlərinin yenidən təsnifləşdirilməsi | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 698,600 | 74,906 | 773,506 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 128,750 | (74,906) | 53,844 |
| | | | |
| Debitor borcları, sair uzunmüddətli aktivlər, sair qısamüddətli aktivlər və sair uzunmüddətli maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi | | | |
| Ticarət və sair debitor borcları | 2,129,774 | (19,130) | 2,110,644 |
| Sair uzunmüddətli aktivlər | 316,263 | (62,116) | 254,147 |
| Sair uzunmüddətli maliyyə aktivləri | - | 74,068 | 74,068 |
| Sair qısamüddətli aktivlər | - | 7,178 | 7,178 |
| | | | |
| Konsolidasiya Edilmiş Ümumi Gəlirlər Haqqında Hesabat | | | |
| Ümidsiz borclar üçün yaradılmış ehtiyatın geri qaytarılmasından gəlirin yenidən təsnifləşdirilməsi | | | |
| Satışların maya dəyəri | (2,898,902) | 820,693 | (2,078,209) |
| Sair əməliyyat gəlirləri | 1,025,401 | (820,693) | 204,708 |





### 3. Əhəmiyyətli uçot təxminləri və Mülahizələri

Qrup hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr irəli sürür. Konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və hesabat tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**Neft və qaz ehtiyatlarının qiymətləndirilməsi.** Neft və qaz ehtiyatları Qrupun investisiya sahəsində qərar qəbul edilməsi prosesində əsas elementlərdir. Onlar həmçinin dəyərsizləşmə üzrə yoxlanmanın mühüm elementidir. Təsdiqlənmiş neft və qaz ehtiyatlarında, xüsusilə də təsdiqlənib işlənilmiş ehtiyatlarda baş vermiş dəyişikliklər ümumi gəlir haqqında hesabatda əks olunan istehsal həcmindən asılı olaraq amortizasiya xərclərinə təsir göstərir.

Təsdiqlənmiş neft və qaz ehtiyatları mövcud iqtisadi və əməliyyat şəraitində (yəni qiymətləndirmə tarixinə qiymətlər və xərclər) geoloji və mühəndislik məlumatlarının gələcək illərdə məlum yataqlardan məsrəflərin ödənilməsini kifayət qədər əminliklə göstərdiyi xam neft və təbii qazın qiymətləndirilmiş miqdarıdır. Təsdiqlənib işlənilmiş ehtiyatlar dedikdə mövcud quyularda mövcud avadanlıqlar və onların istismar üsulları vasitəsi ilə bərpa edilməsi gözlənilə bilən ehtiyatlar başa düşülür. Neft və qaz ehtiyatlarının ilkin qiymətləndirmələri mahiyyət etibarı ilə qeyri-müəyyəndir, mülahizələrin tətbiq edilməsini tələb edir və gələcəkdə yenidən baxılmalıdır. Müvafiq olaraq, təsdiqlənib işlənilmiş və ya təsdiqlənmiş ehtiyatlara əsaslanan maliyyə və uçot ölçüləri də (tükənmə və amortizasiya xərcləri və aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatlar) dəyişə bilər.

**Neft və qaz ehtiyatlarının qiymətləndirilməsi (davamı).** Təsdiqlənmiş ehtiyatlar rezervuarlara və quyulara dair mövcud məlumatlara istinadən qiymətləndirilir. Yeni məlumatlara (misal üçün, məhsulun qiymətləri, müqavilə şərtləri və ya işlənmə planları daxil olmaqla, qazma və hasilatla bağlı fəaliyyət və ya iqtisadi amillərdə dəyişikliklər) əsasən təsdiqlənmiş ehtiyatlarla bağlı bütün qiymətləndirmələrə (artırılması və ya azaldılması istiqamətində) yenidən baxılmalıdır. İşlənmə planları haqqında yeni məlumatların əldə edilməsi nəticəsində karbohidrogen ehtiyatlarının texniki istismar müddətində baş verən dəyişikliklər illik yenidən qiymətləndirmələrin aparılmasının əsas səbəbidir. İşlənmə və hasilat fəaliyyəti haqqında yeni məlumatların

əldə edilməsi nəticəsində karbohidrogen ehtiyatlarının texniki istismar müddətində baş verən dəyişikliklər illik yenidən qiymətləndirmələrin aparılmasının əsas səbəbidir.

Ümumiyyətlə, işlənməmiş və ya qismən işlənmiş yataqlarla bağlı ehtiyatlar üzrə qiymətləndirmələr, işlənməmiş və ya tükənən yataqlara nisbətən, gələcək istismar müddəti ərzində daha böyük qeyri-müəyyənliyə məruz qalır. Yataqda hasilat işləri başlandıqda, əlavə quyuların qazılmasına və ya hasilat şəraitində olan rezervuarın uzunmüddətli fəaliyyətinə dair əlavə məlumatlar əldə etdikdən sonra, təsdiqlənmiş ehtiyatların miqdarına gələcəkdə yenidən baxılmalıdır. Bu yataqlar işləndikcə, yeni məlumatlar dəyişikliklərə gətirib çıxara bilər.

1 yanvar 2010-cu il tarixinə ARDNŞ-in təsdiqlənmiş ehtiyatları Neft Mühəndisləri Cəmiyyətinin qaydalarına uyğun olaraq müstəqil rezervuar mühəndisləri tərəfindən hazırlanmış hesabatlara əsaslanır. ARDNŞ müvafiq hesabat ilinin sonu üçün ehtiyatlar ilə bağlı məlumatları yerli geloloqlar tərəfindən görülmüş işlər əsasında yeniləmişdir.

**Aktivlərin ləğv olunması üzrə öhdəliklər.** Bundan sonra Qeyd 22-də müzakirə edildiyi kimi, rəhbərlik neft və qaz hasilatı obyektlərinin, kəmərlərin və köməkçi avadanlıqların istismardan çıxarılması və bu aktivlərin gələcək dəyəri və faydalı istifadə müddətinə dair təxminlərə əsasən ətraf mühitin bərpası məqsədilə gələcək xərclər üçün ehtiyatlar yaradır. Gələcək aktivlərin dəyərsizləşməsi üzrə öhdəliklərin müəyyənləşdirilməsi mürəkkəb məsələdir və rəhbərlikdən uzaq gələcəkdə baş verəcək öhdəliklərin silinməsinə dair təxminlərin və mülahizələrin yaradılmasını tələb edir. Mövcud öhdəliklərin ölçüsündə baş verən dəyişikliklər təxmin edilmiş vaxt, gələcək xərclər və ya qiymətləndirmədə istifadə edilmiş diskont dərəcələrində baş verən dəyişikliklər nəticəsində yarana bilər.

Qrup, aktivlərin silinməsi üzrə öhdəliklərini BMHŞK 1, İstismardan Çıxarılma, Bərpa üzrə Mövcud və Oxşar Öhdəliklərdə Dəyişikliklər haqqında qaydalara uyğun olaraq qiymətləndirir. Ehtiyat kimi uçota alınmış məbləğ mövcud öhdəliyin maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan qanunvericiliyə və qaydalara uyğun olaraq yerinə yetirilməsi üçün tələb olunan məsrəflər üzrə ən dəqiq təxminləri əks etdirir və həmçinin qanunvericilik, qaydalar və onlara dair müvafiq şərhlərin dəyişdirilməsi və yenidən işlənməsi ilə əlaqədar olaraq dəyişə bilər. Hökumət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Bu səbəbdən Qrupun aktivlərin silinməsi üzrə əsas öhdəlikləri uçota alınmış məbləğlərdən fərqli ola bilər. Bu ehtiyatlar subyektiv xarakter daşıdığına görə belə xərclərin məbləği və yaranma müddəti ilə bağlı qeyri-müəyyənlik mövcuddur. Neft və qaz hasilatı obyektlərinin istismardan çıxarılması, o cümlədən ləğv etmə və sahənin bərpası xərcləri ilə bağlı təxmin edilmiş öhdəlik 31 dekabr 2010-cu il tarixinə 324,632 AZN (2009: 170,727 AZN) təşkil etmişdir. Bu şərtlərdən hər hansı birinin dəyişməsi Qrupun ayırdığı ehtiyatlar üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Rəhbərlik ləğv etmə və sahənin bərpa xərclərini diskontlaşdırmaq üçün istifadə edilən diskont dərəcələrini pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və lazım gəldikdə müvafiq öhdəliyə xas olan riskləri əks etdirən vergidən əvvəl faiz dərəcəsi kimi müəyyən edir. 31 dekabr 2010-cu il tarixinə istifadə edilmiş diskont dərəcəsi 6.91 faiz (2009: 8.4 faiz) təşkil etmişdir. Rəhbərlik hesab edir ki, bu diskont dərəcəsi hesabat tarixinə Azərbaycanda neft və qazın kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və paylanması sahəsinə aid olan bütün risk və qeyri-müəyyənlikləri müvafiq olaraq əks etdirir.

Hesablama zamanı istifadə edilmiş təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 1 faiz çox / az olsaydı, ehtiyatın balans dəyəri, müvafiq olaraq, 89,252 AZN az / 151,395 AZN çox olardı.

**BOTAŞ Petroleum Pipeline Corporation ("BOTAŞ") şirkəti ilə bağlanmış müqavilə qiyməti.** Şahdəniz HPBS (Qeyd 17) çərçivəsində Qrupa məxsus olan təbii qaz BOTAŞ şirkətinə satılır. Müqavilənin qiymət düsturu 4 iyun 2010-cu il tarixli Məktub Razılaşmasına əsasən BOTAŞ şirkəti ilə qiymətə yenidən baxılması nəticəsində dəyişmişdir. Qazın satış qiymətinin hesablanmasının komponentlərindən biri olan qazın nəql edildiyi aydan əvvəl altı ardıcıl ay ərzində Platt's şirkətinin aylıq nəşr etdirdiyi Yanacağın Qiymətinə dair Hesabatda rəsmi olaraq dərc olunan "Gasoil 0.2" göstəricisinin orta qiyməti olmuşdur. Gasoil göstəricisinin dərc olunması 31 dekabr 2009-cu il tarixindən etibarən dayandırılmışdır və müvafiq olaraq müqavilə qiyməti bir daha 31 mart 2010-cu il tarixində imzalanmış Qaz Müqaviləsində göstərilən qaydada hesablana bilməmişdir. Bir daha dərc olunmayan Gasoil göstəricisinin əvəz edilməsi haqqında hər hansı razılaşma olmadığına görə, 2010-cu ilin yanvar-mart ayları üzrə sonuncu dəfə dərc edilmiş Gasoil göstəricisi Qaz Müqaviləsinin şərtlərinə uyğun olaraq şərti müqavilə qiymətinin hesablanması üçün istifadə edilir.

**Ətraf mühitin qorunması ilə bağlı öhdəliklər.** Qeyd 23-də göstərildiyi kimi, Qrup yaranmasından əvvəlki dövrlərdə göstərdiyi fəaliyyət və irsi olaraq həyata keçirdiyi əməliyyatlar nəticəsində əsasən Abşeron yarımadası ərazisində ətraf mühitə dəymiş zərərin ödənilməsi üçün təxmin edilən xərclər üçün ehtiyat ayırır. Ehtiyat kimi uçota alınmış məbləğ mövcud öhdəliyin maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan qanunvericiliyə və qaydalara uyğun olaraq yerinə yetirilməsi üçün tələb olunan məsrəflər üzrə ən dəqiq təxminləri əks etdirir və həmçinin qanunvericilik, qaydalar və onlara dair müvafiq şərhlərin dəyişdirilməsi və yenidən işlənməsi ilə əlaqədar olaraq dəyişə bilər. Hökumət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Bu səbəbdən Qrupun ətraf mühitin bərpası üzrə əsas öhdəlikləri uçota alınmış məbləğlərdən fərqli




ola bilər. Bu ehtiyatların subyektiv xarakter daşıdığına görə belə xərclərin məbləği və yaranma müddəti ilə bağlı qeyri-müəyyənlik mövcuddur. 31 dekabr 2010-cu il tarixinə ətraf mühitin bərpası ilə bağlı təxmin edilmiş öhdəlik 416,419 AZN (2009: 416,544 AZN) təşkil etmişdir. Bu şərtlərdən hər hansı birinin dəyişməsi Qrupun ayırdığı ehtiyatlar üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Rəhbərlik ətraf mühitin bərpası xərclərini diskontlaşdırmaq üçün istifadə edilən diskont dərəcələrini pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və lazım gəldikdə hesabat tarixinə müvafiq öhdəliyə xas olan riskləri əks etdirən vergidən əvvəl faiz dərəcəsi kimi müəyyən edir. 31 dekabr 2010-cu il tarixinə istifadə edilmiş diskont dərəcəsi 6.91 faiz (2009: 8.4 faiz) təşkil etmişdir. Rəhbərlik hesab edir ki, bu diskont dərəcələri Azərbaycan Respublikasında neft və qazın kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və paylanması sahəsinə aid olan bütün risk və qeyri-müəyyənlikləri müvafiq olaraq əks etdirir. Bu şərtlərdən hər hansı birində baş verən dəyişiklik Qrup tərəfindən uçota alınan ehtiyatlarda düzəlişlərin aparılması ilə nəticələnə bilər.

Hesablama zamanı istifadə edilmiş təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 1 faiz çox/az olsaydı, ehtiyatın balans dəyəri müvafiq olaraq 7,091 AZN az / 7,307 AZN çox olardı.

**Əsas vəsaitlər və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti.** Rəhbərlik, əsas vəsaitləri və qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddətini və müvafiq amortizasiya xərclərini müəyyən edir. Bu təxminlər, Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, o zaman rəhbərlik amortizasiya xərcini artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri balansdan siləcəkdir. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu, gələcəkdə amortizasiya dərəcələri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

**Təxirə salınmış vergi aktivinin uçotu.** Təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivləri realizasiya oluna biləcəyi məbləğdə uçota alınır. Vergiyə cəlb olunan gələcək mənfəət və gələcəkdə yaranması ehtimal edilən vergi faydasının məbləğini ehtimal edərkən Rəhbərlik son üç ilin vergiyə cəlb olunan mənfəətindən və mövcud şəraitdə məqbul hesab edilən gələcək gəlirlər üzrə təxminlərdən istifadə edir.





**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi.** Bərpa edilə bilməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitlərə əsasən rəhbərlik hər bir hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin olub-olmamasını müəyyən edir. Bu cür göstəricilərə aşağıdakılar daxildir: Qrupun biznes planlarında baş verən dəyişikliklər, qeyri-rentabelli fəaliyyətə gətirib çıxaran əmtəə qiymətlərində dəyişikliklər, məhsul qarışıqlarında olan dəyişikliklər və neft və qaz əmlakına gəldikdə isə - təxmin edilmiş təsdiqlənmiş ehtiyatların əhəmiyyətli dərəcədə azalması. Qudvil və digər qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər hər il və digər vaxtlarda dəyərsizləşmə göstəriciləri olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır. Digər qeyri-maliyyə aktivləri bərpa edilə bilməyən balans dəyərinə dair göstəricilərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

İstifadə dəyəri hesablanarkən rəhbərlik aktivlər və yaxud pul vəsaitlərini yaradan vahidlər üzrə gələcək pul vəsaitlərinin hərəkətini təxmin edir və onların cari dəyərini hesablamaq üçün uyğun diskont dərəcəsini seçir.

2010-cu ildə bəzi pul vəsaitlərini yaradan vahidlərin gözləniləndən zəif nəticə göstərməsinə görə Qrup həmin pul vəsaitlərini yaradan vahidlərin bərpa dəyərlərini təhlil etmişdir və nəticədə 360,047 AZN (2009: 241,639 AZN) məbləğində dəyərsizləşmə xərci yaranmışdır. Bu aktivlər Qrupun Neft və Qaz seqmentində istifadə edilir. Potensial olaraq dəyərsizləşmiş aktivin balans dəyərinin hesablanması üçün dəyərsizləşmənin tələb olunduğunu müəyyən edərkən aktivin balans dəyəri onun bərpa dəyəri ilə müqayisə edilir. Aktivin bərpa dəyəri onun satışı üzrə məsrəflər çıxılmaqla, ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Qrupun fəaliyyətinin xarakterini nəzərə alaraq, potensial alıcılıar ilə danışıqlar aparılmayana qədər aktivin ədalətli dəyəri haqqında məlumat əldə etmək adətən çətindir. Müvafiq olaraq, başqa cür qeyd olunmadığı halda aşağıda göstərilən dəyərsizləşmə üzrə xərclərin müəyyən edilməsində istifadə edilən bərpa dəyəri istifadə dəyəridir. Qrup adətən istifadə dəyərini rəhbərliyin təsdiq etdiyi maliyyə büdcəsindəki diskont edilmiş pul vəsaitlərinin hərəkəti modelindən istifadə edərək təxmin edir.

**İstifadə dəyərinin hesablanmasında istifadə edilən əsas fərziyyələr**

Neft yataqları üçün istifadə dəyərinin hesablanması aşağıdakı fərziyyələrə görə çox həssasdır:

Hasilatın həcmi: İstehsalın təxmin edilən həcmi yataqlar ilə bağlı ətraflı məlumatlara əsaslanır və uzunmüddətli planlaşdırma prosesinin bir hissəsi kimi rəhbərlik tərəfindən təsdiqlənmiş yataqlar üzrə inkişaf planlarını nəzərə alır. Təxminlərə görə ümumi hasilat növbəti 15 il üçün 10 faiz azalsaydı, bu 95,984 AZN məbləğində əlavə dəyərsizləşmə xərcinin yaranması ilə nəticələnərdi.

Ümumi marja: Ümumi marja əvvəlki ilin faktiki rəqəmlərinə əsaslanır. Bu marjalar proqnozlaşdırılan inflyasiya dərəcəsinə uyğun olaraq büdcə dövrü ərzində artırılır.

Kapital məsrəfləri: Təxmin edilən hasilatın həcmini təmin etmək üçün zəruri olan kapital məsrəfləri müəyyən neft yatağı üzrə uzunmüddətli inkişaf planlarına əsaslanır.

Xam neftin qiyməti: Proqnozlaşdırılan istehlak qiymətləri ictimaiyyətə açıq olur.

Diskont dərəcəsi: Pul vəsatlərinin hərəkəti üzrə proqnozlara tətbiq edilən vergidən sonrakı diskont dərəcəsi 12.81 faizdir (2009: 13.55 faiz). Diskont dərəcəsinin hesablanması Qrup ilə bağlı spesifik vəziyyətlərə və əməliyyat seqmentlərinə əsaslanır və kapitalın orta çəkili dəyərindən ("WACC") irəli gəlir. WACC hesablanarkən kapitalın dəyəri oxşar qrup məlumatlarından istifadə etməklə təxmin edilir və borcun dəyəri Qrupun xidmət etməli olduğu faiz hesablanan borc öhdəliklərinə əsaslanır. Xüsusi risklər ayrı-ayrı beta amillərini, bazar riskini və Qrupun həcmini tətbiq etməklə nəzərə alınır. Beta amilləri ictimaiyyətə açıq olan bazar məlumatlarına əsasən hər il qiymətləndirilir. Əgər hesablamada istifadə edilən təxmin edilmiş WACC rəhbərliyin təxmin etdiyindən 1 faiz yuxarı və ya aşağı olarsa, o zaman dəyərsizləşmə zərərinin məcmu məbləği, müvafiq olaraq, 26,054 AZN yuxarı və ya 11,899 AZN aşağı olacaqdır.

İnflyasiya dərəcələri ilə bağlı təxminlər: İstifadə edilən dərəcələr Beynəlxalq Val–yuta Fondunun ("BVF") proqnozlarına əsaslanır.

Aksiz vergisi və ixrac rüsumları: Neft və neft məhsulları üzrə aksiz vergisi və ixrac rüsumları Neft və Qaz əmlakı və avadanlıqları üçün vacib amildir.

**Debitor borclarının** dəyərsizləşməsi üzrə ehtiyatlar. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar müştərilərin debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır. Müştərinin əhəmiyyətli maliyyə çətinlikləri, onun müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt təxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

Debitor borcları üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir.

Dəyərsizləşmə üzrə zərərlərə qarşı qiymətləndirilən debitor borcları üzrə pul vəsaitlərinin gələcək hərəkəti həmin aktivlərin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, rəhbərliyin keçmişdə baş vermiş zərər halları nəticəsində vaxtı keçəcək məbləğlərin həcmi ilə münasibətdə təcrübəsinə və vaxtı keçmiş məbləğlərin geri ödənilməsinə əsasən təxmin edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş şəraitin təsirini aradan qaldırmaq məqsədilə əvvəlki təcrübə müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

**4. Yeni və ya yenidən īşlənmiş standartların və onlara dair şərhlərin tətbiqi**

**a) 1 yanvar 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minmiş standartlar**

Aşağıdakı yeni standartlar və onlara dair şərhlər 1 yanvar 2010-cu il tarixindən Qrup üçün qüvvəyə minmişdir:

**BMHŞK 17, Nağd olmayan aktivlərin səhmdarlar arasında bölüşdürülməsi** (1 iyul 2009-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu şərh, nağd olmayan aktivlərin səhmdarlara dividend şəklində ödənilməsi zaman uçot qaydasını əks etdirir. Müəssisə, nağd olmayan aktivlərin dividend şəklində səhmdarlara ödənilməsi öhdəliyini bölüşdürüləcək aktivlərin ədalətli dəyərində qiymətləndirməlidir. Bölüşdürülmüş nağd olmayan aktivlərin silinməsindən yaranan gəlir və ya zərər müəssisə tərəfindən dividendlər ödənildikdən sonra il üzrə mənfəət və ya zərərdə qeydə alınmalıdır. Qrup yenidən işlənmiş standartın hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir etmədiyi qənaətinə gəlmişdir.

**BMS 27, Konsolidasiya edilmiş və fərdi maliyyə hesabatları** (2008-ci ilin yanvar ayında yenidən işlənmişdir; 1 iyul 2009-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Yenidən işlənmiş BMS 27 şirkətdən ümumi gəlirlərin baş müəssisə sahiblərinə və qeyri-nəzarət paya (bundan əvvəl "azlığın payı") qeyri nəzarət payı üzrə nəticələrin defisiti olduğu təqdirdə belə aid edilməsini tələb edir (əvvəlki standart əksər hallarda artıq zərərlərin baş müəssisənin sahiblərinə aid edilməsini tələb edirdi). Bundan əlavə, yenidən işlənmiş standartda göstərilir ki, baş müəssisənin törəmə müəssisədəki iştirak payında nəzarətin itirilməsi ilə nəticələnməyən dəyişikliklər səhm alətləri üzrə əməliyyatlar kimi uçota alınmalıdır. Standart həmçinin törəmə müəssisə üzrə nəzarətin itirilməsi nəticəsində yaranan hər hansı mənfəət və ya zərərin müəssisə tərəfindən necə qiymətləndirilməsini müəyyənləşdirir. Nəzarətin itirildiyi tarixdə keçmiş törəmə müəssisədə saxlanılmış investisiyalar ədalətli dəyərlə ölçülməlidir.

Əvvəllər Qrupun müəssisə üzərində nəzarəti və ya əhəmiyyətli təsiri itdikdə, investisiyaların nəzarətin və ya əhəmiyyətli təsirin itmə tarixinə balans dəyəri saxlanılan iştirak paylarının əlaqəli müəssisələr, birgə müəssisələr və ya maliyyə aktivləri kimi sonrakı uçotu məqsədilə istifadə edilən dəyərə çevrilirdi. Qrup 1 yanvar 2010-cu il və ya bu tarixdən sonra həyata keçirilmiş əməliyyatlara yeni uçot qaydaları tətbiq etmişdir. Bunun nəticəsində maliyyə hesabatlarında əvvəllər əks etdirilmiş məbləğlərə hər hansı düzəlişlərin aparılması zəruri olmamışdır.

**BMHS 3, Müəssisələrin birləşməsi** (2008-ci ilin yanvar ayında yenidən işlənmişdir; alış tarixi 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan birinci illik hesabat dövrünün

başlanğıcı və ya sonra olan müəssisələrin birləşməsi üçün qüvvəyə minir). Yenidən işlənmiş BMHS 3 müəssisələrə nəzarət olunmayan iştirak paylarının əvvəlki BMHS 3 üsulundan (alıcının əldə edilmiş müəssisənin identifikasiya edilə bilən xalis aktivlərində proporsional payı) istifadə etməklə və ya ədalətli dəyərlə qiymətləndirilməsi imkanını verir. Yenidən işlənmiş BMHS 3 müəssisələrin birləşməsində alış metodunun tətbiqi üzrə daha ətraflı təlimat verir. Qudvilə aid olan hissənin hesablanması məqsədilə, hər bir mərhələli alış prosesində bütün aktiv və öhdəliklərin ədalətli dəyərlə qiymətləndirilməsi tələbi hesabatdan çıxarılmışdır. Bunun əvəzində alıcı müəssisələrin mərhələli birləşməsi zamanı satın alınan müəssisədə hər əvvəlki mərhələdə sahib olduğu payını alış tarixindəki ədalətli dəyərlə yenidən qiymətləndirməli və yaranan gəlir və ya zərəri (əgər gəlir və ya zərər əldə edilmişdirsə) il üzrə mənfəət və ya zərər kimi əks etdirməlidir. Alış ilə bağlı xərclər müəssisələrin birləşməsi əməliyyatından ayrıca tanınır və qudvil kimi yox, xərc kimi uçota alınır. Alıcı şirkət alış tarixində alış ilə bağlı hər hansı şərti məbləğ üzrə öhdəliyi alış tarixində uçota almalıdır. Alış tarixindən sonra bu öhdəliyin dəyərindəki dəyişikliklər qudvilin təshih edilməsi yolu ilə deyil, tətbiq edilən digər BMHS-lərə uyğun olaraq uçota alınır. Yenidən işlənmiş BMHS 3 yalnız bir neçə müəssisənin iştirakı ilə müəssisələrin birləşməsini və təkcə müqavilə əsasında həyata keçirilmiş müəssisələrin birləşməsini əhatə edir. Qrup yenidən işlənmiş standartın hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir etmədiyi qənaətinə gəlmişdir.

**Qrup üzrə pul şəklində səhm əsasında ödənişlər - BMHS 2, Səhm əsasında ödənişlər standartına dəyişikliklər** (1 yanvar 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklərdə səhm əsasında ödənişlərin konsolidasiya edilmiş və müstəqil maliyyə hesabatlarında təsnifləşdirilməsi üsulları aydın şəkildə müəyyən edilir. Həmin dəyişikliklər qüvvədən düşmüş BMHŞK 8 və BMHŞK 11-də göstərilən təlimatı əks etdirir. Bu əlavələr standart üzrə şərhdə əvvəllər nəzərdə tutulmayan planları əhatə etmək üçün BMHŞK 11-də verilmiş təlimatı daha ətraflı açıqlayır. Dəyişikliklərdə həmçinin standarta Əlavədə göstərilən anlayışların izahı verilir. Qrup bu dəyişikliklərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına hər hansı əhəmiyyətli təsirini gözləmir.

**Müvafiq hecləşdirilən maddələr – BMS 39 Dəyişiklik, Maliyyə alətləri: Tanınması və qiymətləndirilməsi** (1 iyul 2009-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlərə retrospektiv qaydada tətbiq edilməklə qüvvəyə minir). Bu dəyişiklik hecləşdirilən risk və ya nağd pul axınlarının bir hissəsi üçün hecləşdirmə uçotunun tətbiq edilə bilməsini müəyyən edən prinsiplərin ayrı-ayrı vəziyyətlərdə necə istifadə edildiyini göstərir. Qrup bu dəyişikliklərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına hər hansı əhəmiyyətli təsirini gözləmir.

**BMHS 1, Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə tətbiq edilməsi** (2008-ci ilin dekabr ayında edilmiş dəyişikliyi nəzərə alaraq, 1 iyul 2009

və ya bu tarixdən sonra başlayan dövr üçün BMHS-ə uyğun hazırlanmış ilk maliyyə hesabatlarına tətbiq edilir). Yenidən işlənmiş BMHS 1, istifadəçilərin Standarta edilmiş dəyişiklikləri başa düşməsi və mənimsəməsini asanlaşdırmaq üçün əvvəlki versiyaya edilmiş struktur dəyişikliklər ilə birlikdə öz məzmununu saxlamışdır. Qrup yenidən işlənmiş standartın hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir etmədiyi qənaətinə gəlmişdir.

**BMHS-i ilk dəfə tətbiq edən müəssisələr üçün əlavə istisnalar – BMHS 1-ə dəyişikliklər, BMHS-in ilk dəfə tətbiq edilməsi** (1 yanvar 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər tam xərc metodundan istifadə edən müəssisələrin neft və qaz aktivlərinin uçotu ilə bağlı BMHS-ləri retrospektiv qaydada tətbiq etməkdən, həmçinin, qüvvədə olan icarə müqavilələrinə malik olan müəssisələrin həmin müqavilələri, müəssisələrin milli uçot standartlarını tətbiq edəcəyi təqdirdə əldə edəcəkləri nəticələr ilə eyni olduqda, BMHŞK 4 'Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi" Şərhinə uyğun olaraq təsnifləşdirməkdən azad edir. Bu dəyişikliklər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına hər hansı təsir göstərməyəcəkdir.

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarının təkmilləşdirilməsi (2009-cu ilin aprel ayında dərc edilmişdir; BMHS 2, BMS 38, BMHŞK 9 və BMHŞK 16-ya dəyişikliklər 1 iyul 2009-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir; BMHS 5, BMHS 8, BMS 1, BMS 7, BMS 17, BMS 36 və BMS 39-a dəyişikliklər 1 yanvar 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Təkmilləşdirmələr aşağıdakı standartlara və onlara dair şərhlərə edilmiş əsaslı dəyişikliklər** və düzəlişlərdən ibarətdir: müəssisələr tərəfindən ümumi nəzarət olunan əməliyyatlara qoyuluşlar və birgə müəssisələrin yaradılmasının BMHS 2-yə uyğun olmadığının aydınlaşdırılması; BMHS 5 və digər standartlarda satış üçün nəzərdə tutulan uzunmüddətli aktivlər (və ya silinmə qruplarının) və ya dayandırılmış əməliyyatlar üzrə məlumatların açıqlanması tələblərinin aydınlaşdırılması; BMHS 8-ə əsasən hesabat verilən bütün seqmentlər üzrə cəmi aktiv və öhdəliklərin qiymətləndirilməsi ilə bağlı hesabatın hazırlanması tələbi (yalnız bu cür məbləğlər müntəzəm olaraq rəhbər işçiyə təqdim edildikdə); müəssisənin öz pay alətləri hesabına yerinə yetirilmiş bəzi öhdəliklərin uzunmüddətli öhdəliklər kimi təsnifləşdirilməsi üçün BMS 1-yə dəyişikliyin edilməsi; yalnız aktivlərin uçota alınmasına təsir göstərən xərclərin investisiya fəaliyyəti kimi təsnifləşdirilməsi üçün BMS 7-ə dəyişikliyin edilməsi; hətta lizinq müddətinin sonunda torpaq üzrə mülkiyyət hüququnu ötürmədən, bəzi uzunmüddətli torpaq lizinqlərinin BMS 17-yə uyğun olaraq maliyyə lizinqi kimi təsnifləşdirilməsi; müəssisənin başçısı və ya agent qismində fəaliyyət göstərməsini müəyyən etmək üçün BMS 18-də əlavə təlimatın verilməsi; gəlir yaradan vahidin aktivlərin birləşməsindən əvvəl əməliyyat seqmentindən artıq olmayacağının BMS 36-da aydınlaşdırılması; müəssisələrin birləşməsi nəticəsində əldə edilmiş qeyri-maddi aktivlərin ədalətli dəyərinin qiymətləndirilməsi ilə bağlı BMS 38-ə dəyişikliyin edilməsi; (I) müəssisələrin birləşməsi ilə nəticələnə bilən opsion müqavilələrinin

BMS 39-a daxil edilməsi, (II) nağd pul axınlarının hecləşdirilməsi alətləri üzrə gəlir və ya zərərin səhmdar kapitalından il üzrə mənfəət və zərərə köçürülməsi müddətinin BMS 39-da aydınlaşdırılması və (III) hətta opsion icra edilərkən borcverənə dəymiş zərər borcalan tərəfindən ödənildikdə, qabaqcadan ödəniş opsionunun əsas müqavilə ilə sıx əlaqəli olduğunu göstərmək üçün BMS 39-a dəyişikliyin edilməsi; ümumi nəzarət olunan əməliyyatlar birgə müəssisələrin yaradılmasızamanı əldə edilmiş müqavilələrdəki əlavə elementli derivativlər BMHŞK 9-a uyğun olmadığının aydınlaşdırılması; və hecinq alətlərinin özü hecləşdirilən xarici fəaliyyət tərəfindən saxlanıla bilməməsi haqqında məhdudiyyətin BMHŞK 16-dan çıxarılması. Bundan əlavə, törəmə müəssisə üzərində nəzarətin itirildiyi halda BMHS 5-ə əsasən maddələrin "satış üçün nəzərdə tutulan" kimi təsnifləşdirilməsini nəzərdə tutan 2008-ci ilin may ayında Beynəlxalq Maliyyə Hesabatı Standartlarının İllik Təkmilləşdirilməsi çərçivəsində dərc edilmiş dəyişikliklər 1 iyul 2009-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

Yuxarıda başqa cür göstərilmədiyi halda, hazırkı dəyişikliklər və şərhlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

**(b) Qüvvəyə minmə tarixindən əvvəl tətbiq edilən standartlara dəyişikliklər**

Qrup Beynəlxalq Maliyyə Hesabatı Standartlarının illik təkmilləşdirilməsi prosesi çərçivəsində 2010-cu ilin may ayında dərc edilmiş BMS 1 "Maliyyə hesabatlarının təqdimatı" Standartına dəyişiklikləri qəbul etmişdir. Bu dəyişiklik səhmdar kapitalında dəyişikliklər haqqında hesabatın təqdim edilməsi və məzmunu ilə bağlı tələbləri əks etdirir. Səhmdar kapitalında dəyişikliklər haqqında hesabatda dövrün əvvəlinə və dövrün sonuna kapitalın hər bir komponenti üzrə balans dəyərinin üzləşdirilməsi təqdim edilməlidir. Bununla kapitalın hər bir komponentinin ayrı-ayrı maddələri üzrə sair ümumi gəlirlərin maliyyə hesabatlarına qeydlərdə təhlil edilə bilməsinə görə hesabatın məzmunu sadələşdirilmişdir.

**(c) Buraxılmış, lakin qüvvəyə minməmiş və Qrup tərəfindən qüvvəyə minmə tarixindən əvvəl qəbul olunmamış standartlar**

1 yanvar 2011-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə Qrup üçün məcburi xarakter daşıyan və Qrup tərəfindən qüvvəyə minmə tarixindən əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur:

**BMHS 9, "Maliyyə Alətləri Hissə 1: Təsnifləşdirmə və Qiymətləndirmə".** 2009-cu ilin noyabr ayında dərc edilmiş BMHS 9 39 saylı BMS-də maliyyə aktivlərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi bölmələrini əvəz edir. Onun əsas fərqləri aşağıda göstərilir. 2010-cu ilin oktyabr ayında BMHS 9 yenidən işlənmişdir. Yenidən işlənmiş BMHS 9 maliyyə öhdəliklərinin təsnifləşdirilməsini və qiymətləndirilməsini əhatə edir. Bu Standartın əsas xüsusiyyətləri aşağıda göstərilir:

- Maliyyə aktivləri iki qiymətləndirmə kateqoriyasında təsnifləşdirilməlidir: ilkin qiymətləndirmədən sonra ədalətli dəyərlə qiymətləndirilən aktivlər və ilkin qiymətləndirmədən sonra amortizasiya edilmiş dəyərlə qiymətləndirilən aktivlər. Təsnifləşdirmə ilə bağlı qərar ilkin uçot zamanı qəbul edilməlidir. Təsnifləşdirmə, müəssisənin maliyyə alətlərinin idarə edilməsi üzrə biznes modeldən və alət üzrə nağd pul axınlarının xüsusiyyətindən asılıdır.
- Maliyyə aləti yalnız borc aləti olduqda ilkin qiymətləndirmədən sonra amortizasiya edilmiş dəyərlə qiymətləndirilir. Eyni zamanda bu aktiv aşağıdakı tələblərə cavab verməlidir: (i) müəssisənin biznes modelinin məqsədi aktivi saxlamaq yolu ilə onun yaratdığı nağd pul axınlarını əldə etməkdən ibarətdir və (ii) aktivin yaratdığı nağd pul axınları yalnız əsas məbləği və faiz ödənişlərini əks etdirir (yəni, maliyyə aləti yalnız 'kreditin ən sadə xüsusiyyətlərinə' malikdir). Bütün sair borc alətləri mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə qiymətləndirilməlidir.
- Bütün pay alətləri ilkin qiymətləndirmədən sonra ədalətli dəyərlə qiymətləndirilməlidir. Satış üçün nəzərdə tutulan pay alətləri mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə qiymətləndirilməli və əks etdirilməlidir. Bütün digər pay qoyuluşları ilə bağlı ədalətli dəyərlə yenidən qiymətləndirmə üzrə realizasiya edilməmiş və realizasiya edilmiş gəlir və zərərlərin mənfəət və zərər kimi deyil, sair ümumi gəlirlər kateqoriyasında uçota alınması üçün ilkin uçot zamanı yekun seçim edilə bilər. Ədalətli dəyərlə yenidən qiymətləndirmə üzrə gəlir və xərclər mənfəət və zərərə aid edilmir. Bu seçim hər bir maliyyə aləti üçün fərdi qaydada tətbiq edilə bilər. Dividendlər, investisiya üzrə gəlirləri əks etdirdi zaman mənfəət və ya zərərdə göstərilməlidir.
- Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi ilə bağlı BMS 39-un əksər tələbləri dəyişdirilmədən BMHS 9-a köçürülmüşdür. Əsas dəyişiklik mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə qeydə alınan maliyyə öhdəlikləri kateqoriyasına aid edilmiş öz kredit riski üzrə dəyişikliklərin effektinin müəssisələr tərəfindən sair ümumi gəlirlərin tərkibində açıqlanması tələbindən ibarətdir.

1 yanvar 2013-cü il tarixindən BMHS 9 məcburi şəkildə tətbiq edilir, lakin həmin standartın bu tarixdən əvvəl tətbiqinə icazə verilir. Hazırda Qrup bu standartın tətbiqi nəticələrini, onun maliyyə hesabatlarına təsirini və tətbiq olunma tarixini nəzərdən keçirir.

**Səhm emissiyalarının təsnifləşdirilməsi – BMS 32 Standartına dəyişiklik** (8 oktyabr 2009-cu il tarixində dərc edilmişdir; 1 fevral 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişiklik xarici valyutada ifadə olunan müəyyən səhm emissiyaları üzrə daxilolmaları maliyyə derivativləri kimi təsnifləşdirilməkdən azad edir.

Qrup bu standartın tətbiqi nəticələrini, onun maliyyə hesabatlarına təsirini və tətbiq olunma tarixini nəzərdən keçirir.

**Əlaqəli tərəflər barədə açıqlamalar standartına dəyişiklik** (2009-cu ilin

noyabr ayında dərc edilmişdir və 1 yanvar 2011-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). BMS 24 2009-cu ildə yenidən nəzərdən keçirilmiş və nəticədə: (a) əlaqəli tərəf anlayışı sadələşdirilmiş, onun mənası dəqiqləşdirilmiş və uyğunsuzluqlar aradan qaldırılmışdır və (b) dövlət müəssisələr barədə açıqlamaların təqdim edilməsi ilə bağlı tələblər qismən azad edilmişdir. Hazırda Qrup bu şərhin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

**BMHŞK 19, Maliyyə öhdəliklərinin pay alətləri ilə ödənilməsi** (1 iyul 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu şərh müəssisənin borc öhdəliklərinin yerinə yetirilməsi üzrə şərtləri yenidən nəzərdən keçirdiyi və nəticədə borclu tərəfin qarşı tərəfə pay alətlərinin buraxılması hesabına öhdəliyin yerinə yetirildiyi hallarda uçot qaydasını müəyyən edir. Gəlir və ya zərər pay alətlərinin ədalətli dəyərinin borc öhdəliyinin balans dəyəri ilə müqayisəsi əsasında mənfəət və ya zərərdə əks etdirilir. Hazırda Qrup bu şərhin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

**Minimal maliyyələşdirmə tələbləri həcmində qabaqcadan ödənişlər – BMHŞK 14-ə Dəyişiklik** (1 yanvar 2011-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişiklik yalnız müəyyən edilmiş ödənişlərdən ibarət pensiya planları çərçivəsində minimal ödənişləri həyata keçirməli olan müəssisələrə aid edildiyi üçün məhdud təsirə malikdir. Dəyişiklik həmçinin, minimal maliyyələşdirmə tələblərinin tətbiq edildiyi pensiya planları üzrə könüllü ödənişlər ilə bağlı BMHŞK 14-ün nəzərdə tutulmayan nəticələrini aradan qaldırır. Hazırda Qrup bu şərhin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarının təkmilləşdirilməsi (2010-cu ilin may ayında dərc edilmişdir və 1 yanvar 2011-ci il tarixindən qüvvəyə minir).** Təkmilləşdirmələr aşağıdakı standartlara və onlara dair şərhlərə edilmiş əsaslı dəyişikliklər və izahatlardan ibarətdir: yenidən işlənmiş BMHS 1-ə uyğun olaraq: (I) əvvəlki mühasibat qaydalarına uyğun olaraq hesablanmış balans dəyəri əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə hər bir maddənin şərti hesablanmış dəyəri kimi istifadə edilə bilər (əgər həmin maddə əmsalların tənzimlənməsi tələbi ilə üzləşən əməliyyatlarda istifadə edilmişdirsə) (II) müəyyən hadisənin nəticəsində yaranmış yenidən qiymətləndirmə BMHS-ə uyğun hazırlanmış ilk maliyyə hesabatlarının əhatə etdiyi dövr ərzində baş verməsindən asılı olmayaraq, əsas vəsaitlərin şərti hesablanmış dəyəri kimi istifadə oluna bilər və (III) BMHS-i ilk dəfə tətbiq edən müəssisələr BMHS-ə uyğun birinci aralıq hesabatı ilə BMHS-ə uyğun birinci maliyyə hesabatları arasındakı müddət ərzində öz uçot siyasətinə və BMHS 1-də nəzərdə tutulan istisnalara dəyişiklik edərsə, həmin dəyişiklikləri izah etməlidir; yenidən işlənmiş BMHS 3-ə uyğun olaraq (i) mövcud iştirak paylarını əks etdirməyən və müəssisənin likvidasiyası halında xalis aktivlərdə proporsional həcmdə pay əldə etmək hüququ verməyən nəzarət olunmayan iştirak payı ədalətli dəyərlə qiymətləndrilməlidir (BMHS-də başqa qiymətləndirmə üsulu

nəzərdə tutulmadığı halda), (II) müəssisələrin birləşməsi nəticəsində dəyişdirilməmiş və ya könüllü şəkildə dəyişdirilmiş səhm əsasında ödəniş şərtlərinə dair tövsiyələrin verilməsi və (III) yenidən işlənmiş BMHS 3-ün (2008-ci ilin yanvar ayında dərc edilmişdir) qüvvəyə mindiyi tarixdən əvvəl baş vermiş müəssisələrin birləşməsi nəticəsində yaranan şərti ödənişlərin BMHS 3-ün əvvəlki versiyasının tələblərinə uyğun olaraq nəzərə alınması göstərilməlidir; yenidən işlənmiş BMHS 7 məlumatların açıqlanması sahəsində bəzi tələbləri dəqiqləşdirir, o cümlədən (I) maliyyə risklərinin xarakteri və səviyyəsi barədə məlumatının keyfiyyət və kəmiyyət acıqlamalarının qarşılıqlı əlaqəsinə xüsusi diqqət yetirilir (II) şərtlərinə yenidən baxılmış və əks təqdirdə vaxtı keçmiş və ya dəyərsizləşmiş maliyyə aktivlərinin balans dəyərinin açıqlanması tələb olunmur, (III) girov təminatının ədalətli dəyəri ilə bağlı məlumatların açıqlanması tələbi onun maddi təsirinin açıqlanmasına dair daha ümumi tələb ilə əvəzləşdirilmişdir; (IV) müəssisənin hesabat dövrü ərzində əldə edilmiş məbləği yox, hesabat tarixinə istifadə hüququndan məhrum edilmiş girov təminatının məbləğini açıqlaması aydınlaşdırılır; yenidən işlənmiş BMS 27 (2008-ci ilin yanvar ayında edilmiş dəyişiklikləri nəzərə alaraq) bu standarta edilmiş dəyişikliklər nəticəsində BMS 21, BMS 28 və BMS 31 standartlarında yaranan dəyişikliklər ilə bağlı keçid qaydalarını aydınlaşdırır; yenidən işlənmiş BMS 34-də yığcam aralıq maliyyə hesabatlarında açıqlanmalı olan əhəmiyyətli hadisələr və əməliyyatlara dair əlavə nümunələr, o cümlədən ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyasının səviyyələri arasında yerdəyişmələr, maliyyə aktivlərinin təsnifatındakı dəyişikliklər və ya müəssisənin maliyyə alətlərinin ədalətli dəyərinə təsir göstərən fəaliyyət şəraiti və iqtisadi vəziyyətdəki dəyişikliklər əks etdirilir; və yenidən işlənmiş BMHŞK 13 mükafatlandırma ilə bağlı ödənişlərin ədalətli dəyərinin qiymətləndirilməsi üsulunu müəyyənləşdirir. Qrup vaxtından əvvəl qəbul etdiyi BMS 1 üzrə dəyişikliklər istisna olmaqla, bu dəyişikliklərin onun maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edəcəyini gözləmir.

**BMHS-i ilk dəfə qəbul edən müəssisələrin BMHS 7-yə uyğun olaraq müqayisəli məlumatları açıqlamaq tələbindən məhdud həcmdə azad edilməsi – BMHS 1-ə Dəyişiklik** (1 iyul 2010-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişiklik BMHS-i ilk dəfə qəbul edən müəssisələri 2009-cu ilin mart ayında BMHS 7 "Maliyyə Alətləri: Məlumatların Açıqlanması" Standartına edilmiş dəyişikliklərə uyğun olaraq müqayisəli məlumatları açıqlamaq tələbindən azad edir. BMHS 1-ə edilmiş bu dəyişiklik BMHS-i ilk dəfə qəbul edən müəssisələri BMHS 7-yə edilmiş düzəlişləri tətbiq edərkən istifadə olunan eyni azadolmalar ilə təmin edir. Qrup bu dəyişikliklərin onun maliyyə hesabatlarına hər hansı təsirini gözləmir.

**Məlumatların açıqlanması – Maliyyə aktivlərinin ötürülməsi – BMHS 7-yə Dəyişiklik** (2010-cu ilin oktyabr ayında dərc edilmişdir və 1 iyul 2011-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişiklik maliyyə aktivlərinin ötürülməsi zamanı yaranan riskin həcminə dair məlumatların

əlavə açıqlanmasını tələb edir. Həmin dəyişiklik şirkətin balansında olan qarşı tərəfə ötürülmüş maliyyə aktivlərinin növləri üzrə aşağıdakı məlumatların açıqlanması tələbini əhatə edir: aktivlə bağlı risk və faydaların xarakteri, dəyəri və təsviri. Eyni zamanda istifadəçiyə aktivlə bağlı maliyyə öhdəliyinin həcmini, eləcə də maliyyə aktivi və onunla bağlı maliyyə öhdəliyi arasında qarşılıqlı əlaqəni anlamaq imkanı yaradan məlumatların açıqlanması zəruridir. Maliyyə aktivin uçotdan çıxarıldıqda, lakin, şirkətin hələ də müəyyən risklərə məruz qaldığı və ötürülmüş aktivlə bağlı müəyyən faydalar əldə etmək iqtidarında olduğu təqdirdə, belə riskin həcminin istifadəçiyə aydın olması üçün əlavə məlumatların açıqlanması tələb olunur. Hazırda Qrup yenidən işlənmiş standartın onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

**BMHS 10, "Konsolidə edilmiş Maliyyə Hesabatları"** hər növ müəssisələrin konsolidasiyası üçün əsas kimi götürülə biləcək model ilə təmin edir. Standart nəzarət prosesinin çətin olduğu hallar: potensial səsvermə hüququ, agentlik münasibətləri, müəyyən aktivlərin və səsvermə hüququnun həlledici olmadığı şərtlərin mövcud olduğu hallarda nəzarət üçün tələbləri müəyyən edir. Bundan əlavə BMHS 10 agentlik münasibətləri üçün xüsusi istiqamətləndirici proqram təqdim edir. Bu stan–dart həmçinin BMS 27-dən dəyişməz qalan mühasibat uçotu tələblərini və konsolidasiya prosedurlarını ehtiva edir. BMHS 10 ŞDK-12 "Konsolidasiya-Xüsusi Məqsədli Müəssisələr" və BMS 27 "Konsolidasiya edilmiş və Müstəqil Maliyyə Hesabatlarında olan konsolidasiya" tələblərini əvəz edir və 1 Yanvar 2013-cü il tarixindən və sonra başlayan dövrlər üçün qüvvəyə minir. Hal-hazırda Qrup BMHS 10-un qəbulunun onun maliyyə vəziyyətinə və fəaliyyətinə mümkün təsirini qiymətləndirir.

**BMHS 11, "Birgə Layihələr"** Layihə tərəflərindən layihədə iştirakdan yaranan hüquq və öhdəliklərin tanınmağını tələb etməklə vahid prinsip əsasında yanaşma təqdim edir, hansıki birgə layihələrin uçotunu təkmilləşdirir. Birgə layihənin təsnifləşdirilməsi müqavilədən irəli gələn hüquq və vəzifələrin qiymətləndirilməsi ilə müəyyən edilir. Standartda ancaq 2 layihə növü təqdim olunur: birgə əməliyyat və birgə müəssisə. BMHS 11 birgə müəssisələrin uçot metodu olan proporsional konsolidasiyanı aradan qaldırır. BMHS 11 BMS 31 "Birgə Müəssisələrdə İştirak payları" və ŞDK-13 "Birgə İdarəolunan Müəssisələr-Sahibkarlar tərəfindən qeyri-monetar töhfələr" tələblərini əvəz edir və 1 Yanvar 2013-cü il tarixindən və sonra başlayan dövrlər üçün qüvvədə olacaqdır. Hal-hazırda Qrup BMHS 11-in qəbulunun onun maliyyə vəziyyətinə və fəaliyyətinə mümkün təsirini qiymətləndirir.

**BMHS 12, "Digər Müəssisələrdə iştirak payının açıqlanması"** standartı 2011-ci il may ayında buraxılmış yeni standartdır, bu standart bütün növ iştirak payılarının (törəmə müəssisələr, birgə müqavilələr, əlaqəli müəssisələr və konsolidə edilməmiş tərkib müəssisələr) açıqlanması tələblərini ətraflı şəkildə özündə əks etdirir. BMHS 12 2013-cü il yanvarın 1-də və ya ondan sonrakı dövrlər üçün qüvvədədir, qüvvəyə minmə tarixindən əvvəl tətbiqinə icazə verilir. Standartın tətbiqi yeni açıqlamaların he-

sabatda əks olunmasını tələb edir, ancaq Qrupun maliyyə vəziyyətinə və ya fəliyyətinə hec bir təsiri olmayacaq.

**BMHS 13 "Ədalətli Dəyərin Ölçülməsi"** BMHS 13 "ədalətli dəyər" termini izah edir, ədalətli dəyərin ölçülməsi qaydalarını müəyyən edir və ədalətli dəyər ölçülmələrin açıqlanmasını tələb edir. Bu standart ədalətli dəyərlə ölçülmələrin digər BMHS-la tələb olunduğu və ya icazə verildiyi hallarda tətbiq olunur. Bu standart aktivin və ya öhdəliyin ədalətli dəyərdə ölçülməsinə dair yeni tələbləri təqdim etmir, BMHS-na uyğun ədalətli dəyərlə ölçülənləri dəyişmir və ədalətli dəyərin dəyişməsini nə cür təqdim olunmasını açıqlamır. BMHS 13 2013-cü il yanvarın 1-də və ya ondan sonrakı tarixdə başlanan illik dövrlər üçün qüvvədədir. Qüvvəyə minmə tarixindən əvvəl tətbiqinə icazə ve–rilir. Standartın tətbiqi Qrupun ədalətli dəyərlərdə ölçülən aktiv və öhdəliklərinə təsiri ola bilər. Hal-hazırda Qrup BMHS 13-ün qəbulunun onun maliyyə vəziyyətinə və fəaliyyətinə mümkün təsirini qiymətləndirir.

Yuxarıda göstərilən hallardan başqa, yeni standartlar və şərhlərin Qrupun maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir.

**BMS 12-yə edilən dəyişiklik** 2010-cu ilin dekabrında MUBSK BMS 12 Təxirə Salınmış Vergilərə "Müvafiq aktivlərin bərpa olunması" adlı dəyişiklik edib. Bu dəyişikliklər ədalətli dəyərlə ölçülən investisiya mülkiyyəti üçün təxirə salınmış vergilərin müəyyən edilməsi məsələsini əhatə edir. Bu dəyişikliklər ədalətli dəyərlə qiymətləndirilmiş investisiya mülkiyyətinə hesablanmış tarixə salınmış verginin balans dəyərinin satış vasitəsi ilə bərpa olunması fərziyyəsini təqdim edir. Dəyisikliklər həm də ŞDK 21 Gəlir Vergisi - Yenidən qiymətləndirilən amortizasiya olunmayan aktivlərin bərpa olunması adlı əlavənin də BMS 12-yə əlavə edilməsini nəzərdə tutur. Dəyişiklik 1 yanvar 2012-ci il və ondan sonrakı tarixdə başlanan illik dövrlər üçün qüvvədədir və qüvvəyə minmə tarixindən əvvəl tətbiqinə icazə verilir.

## 5. Seqmentlər üzrə Məlumat

Əməliyyat seqmentləri – biznes fəaliyyəti həyata keçirərək mənfəət əldə edən və ya xərclərin yaranmasını nəzərdə tutan, fəaliyyət nəticələri əməliyyat məsələləri ilə bağlı əsas qərarları qəbul edən şəxs tərəfindən müntəzəm olaraq təhlil edilən və haqqında ayrıca maliyyə məlumatları mövcud olan müəssisə komponentləridir.

Qrup məhsul və xidmətlərə görə biznes vahidlərinə bölünmüşdür və dörd hesabat seqmentinə ayrılmışdır:

- Neft və qaz – neft və qaz məhsullarının hasilatını əks etdirir
- Neftayırma – xam neft və qaz kondensatının ayrılmasını əks etdirir
- Tikinti – inzibati binaların və neft və qaz kondensatının hasilatı üçün aktivlərin tikintisini əks etdirir
- Satış və paylaşdırma – xam neft, təbii qaz, neft məhsulları və qaz kondensatının nəqli və satışını əks etdirir.

Yuxarıda göstərilən əməliyyat hesabat seqmetlərini yaratmaq üçün heç bir əməliyyat seqmetləri cəmlənməyib.

Qrupun seqmentləri ayrı-ayrı müştərilərə yönələn strateji biznes bölmələrini əks etdirir. Rəhbərlik resursların bölüşdürülməsi və fəaliyyətin qiymətləndirilməsi üçün ayrı ayrılıqda biznes vahidlərinin əməliyyatlarının nəticələsinə nəzarət edir. Əməliyyat seqmetləri arasında olan əməliyyatlara tədbiq edilən qiymətlər üçüncü tərəflərlə olan əməliyyatlara təqdbiq olunan qiymətlər kimi bazar mühitində yaranır.

Rəhbərlik hər bir seqmentin fəaliyyətini vergidən sonrakı mənfəət göstəricisinə əsasən qiymətləndirir.

**Hesabat seqmentləri üzrə mənfəət və ya zərər, aktiv və öhdəliklər haqqında məlumat**

31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə Qrupun əsas hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:





## 5. Seqmentlər üzrə nəlumat

| | Neft və qaz | Neftayırma | Tikinti | Satış və paylaşdırma | Bölüşdürül-məmiş (*) | Konsolidasiya düzəlişi (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| 2010 | | | | | | | |
| | | | | | | | |
| Gəlirlər | | | | | | | |
| Kənar müştərilər | 2,641,923 | 1,653,144 | 151,241 | 1,079,421 | 1,536 | - | 5,527,265 |
| Seqmentlər arası | 605,728 | 20,617 | 551,754 | 263,430 | (2,132) | (1,439,397) | - |
| Cəmi gəlirlər | 3,247,651 | 1,673,761 | 702,995 | 1,342,851 | (596) | (1,439,397) | 5,527,265 |
| | | | | | | | |
| Maliyyə gəlirləri | 28,163 | 20,187 | 10 | 1,886 | 55,198 | (38,269) | 67,175 |
| Digər əməliyyat gəlirləri | 15,550 | 352,589 | 74,067 | 802,219 | 693,250 | (1,759,097) | 178,578 |
| Hazır məhsul üzrə mal-material ehtiyatlarında və başa çatdırılmamış işlərdə dəyişikliklər | 20,007 | 843 | 17,760 | 6,019 | 402 | - | 45,031 |
| İstifadə edilən xammal və xərc materialları | (584,806) | (1,272,576) | (312,992) | (804,281) | (47,758) | 1,356,749 | (1,665,664) |
| İşçilər üzrə xərclər | (180,066) | (145,735) | (143,484) | (87,192) | (128,597) | 129,984 | (555,090) |
| Əsas vəsaitlərin köhnəlməsi | (322,505) | (131,342) | (57,651) | (144,194) | (62,861) | 68,912 | (649,641) |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | (360,047) | - | - | - | - | - | (360,047) |
| Ticarət və digər debitor borclarının dəyərsizləşməsi | 32,100 | (26,260) | (501) | 196,579 | (1,665) | (15,127) | 185,126 |
| Əsas vəsaitlərin silinməsi üzrə gəlir – zərər çıxılmaqla | 207,015 | 86 | (18,314) | (2,114) | (210,588) | - | (23,915) |
| Kommunal xərclər | (1,956) | (167,669) | (3,909) | (220) | (3,993) | 6,199 | (171,548) |
| Nəqliyyat və nəqliyyat vasitələrinin istismarı | (124,481) | (2,575) | (55,880) | (25,026) | (12,555) | 105,369 | (115,148) |
| Mədən vergisi | (121,559) | - | - | (24) | - | - | (121,583) |
| Mənfəət vergisindən başqa sair vergilər | (29,234) | (7,220) | (3,343) | (6,943) | (15,582) | - | (62,322) |
| Təmir və texniki xidmət xərcləri | (145,190) | (29,858) | (68,318) | (38,608) | (31,078) | 67,087 | (245,965) |
| Yanacaq xərcləri | (1,245) | (4,455) | (3,934) | (683) | (78) | 3,681 | (6,714) |
| Enerji xərcləri | (17,493) | (19,577) | (1,174) | (2,617) | (1,290) | 1,322 | (40,829) |
| Sair | (505,213) | (480,366) | (11,012) | (221,378) | (403,339) | 1,236,640 | (384,668) |
| Maliyyə xərcləri | (56,440) | (83,905) | (1,625) | (12,622) | (20,599) | - | (175,191) |
| Məzənnə fərqi üzrə zərər (xalis) | (11,168) | (49,364) | (59) | (21,813) | (10,008) | - | (92,412) |
| Sosial xərclər | (10,383) | (14,995) | (2,762) | (42) | (171,722) | - | (199,904) |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | - | - | - | - | 43,077 | (36,687) | 6,390 |
| Əlaqəli müəssisələrin maliyyə nəticələrində pay | - | - | - | 6,271 | 92,809 | - | 99,080 |
| Mənfəət vergisi xərci | (251,110) | 31,530 | (16,826) | (285,441) | (60,417) | - | (582,264) |
| Seqmentin nəticələri | 827,590 | (356,901) | 93,048 | 702,627 | (297,990) | (312,634) | 655,740 |

(*) – bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik departamentləri üzrə gəlir və xərclər və sair qrup səviyyəsində idarə edilməyən funksiyalar daxildir.

(**) – seqment daxili gəlir və xərclər konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Konsolidsiya düzəlişləri kimi göstərilən məbləğlər şirkətdaxili əməliyyatları daxil edir.

## 5. Seqmentlər üzrə məlumat (davamı)

| | Neft və qaz | Neftayırma | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Konsolida-siya düzəlişi (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| Əlaqəli müəssisələrə investisiyalar | 13 | - | - | 97,094 | 253,978 | - | 351,085 |
| Birgə müəssisələrə investisiyalar | 221 | 133 | 2 | 1,787 | 246,727 | - | 248,870 |
| Hesabat seqmentinə aid olan sair aktivlər | 7,069,808 | 776,256 | 1,155,059 | 6,541,487 | 4,910,515 | (5,326,097) | 15,127,028 |
| | | | | | | | |
| Hesabat seqmentinə aid olan cəmi aktivlər | 7,070,042 | 776,389 | 1,155,061 | 6,640,368 | 5,411,220 | (5,326,097) | 15,726,983 |
| | | | | | | | |
| | | | | | | | |
| Hesabat seqmentinə aid olan sair öhdəliklər | (1,982,439) | (917,933) | (706,685) | (6,372,791) | (2,292,653) | 4,705,613 | (7,566,888) |
| | | | | | | | |
| Hesabat seqmentinə aid olan cəmi öhdəliklər | (1,982,439) | (917,933) | (706,685) | (6,372,791) | (2,292,653) | 4,705,613 | (7,566,888) |
| | | | | | | | |
| Kapital məsrəfləri (***) | | | | | | | |
| Əlavələr - ARDNŞ | 615,260 | 43,422 | 125,761 | 397,152 | 136,730 | - | 1,318,325 |
| Əlavələr – Törəmə müəssisələr | 194,539 | 52,831 | 359 | 53,955 | - | - | 301,684 |
| Müəssisələrin birləşməsi nəticəsində alışlar | - | 48,316 | - | 327 | 11,919 | - | 60,562 |
| | | | | | | | |
| Cəmi kapital məsrəfləri | 809,799 | 144,569 | 126,120 | 451,434 | 148,649 | - | 1,680,571 |

(*) – bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik departamentləri üzrə aktiv və öhdəliklər və sair qrup səviyyəsində idarə edilməyən funksiyalar daxildir.

(**) – seqment daxili qalıqlar konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Konsolidsiya düzəlişləri kimi göstərilən məbləğlər şirkətdaxili qalıqları daxil edir.

(***) - Kapital məsrəfləri maliyyə alətləri, təxirə salınmış vergi aktivləri, əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər və sığorta müqavilələri üzrə yaranan hüquqlardan başqa uzunmüddətli aktivlər üzrə daxilolmaları əks etdirir.

## 5. Seqmentlər üzrə məlumat (davamı)

31 dekabr 2009-cu il tarixində tamamlanan il üzrə Qrupun əsas hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

| | Neft və qaz | Neftayırma | Tikinti | Satış və paylaşdırma | Bölüşdürül-məmiş (*) | Konsolida-siya düzəlişi (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| 2009 | | | | | | | |
| Gəlirlər | | | | | | | |
| Kənar müştərilər | 2,440,400 | 1,071,361 | 51,591 | 515,051 | 117,578 | - | 4,195,981 |
| Seqmentlər arası | 182,046 | 256,553 | 474,083 | 443,892 | 132,390 | (1,488,964) | - |
| Cəmi gəlirlər | 2,622,446 | 1,327,914 | 525,674 | 958,943 | 249,968 | (1,488,964) | 4,195,981 |
| Maliyyə gəlirləri | 23,423 | 22,601 | 464 | (775) | 21,965 | - | 67,678 |
| Digər əməliyyat gəlirləri | 179,050 | 40,851 | 58,521 | 118,476 | 344,340 | (536,530) | 204,708 |
| Hazır məhsul üzrə mal-material ehtiyatlarında və başa çatdırılmamış işlərdə dəyişikliklər | 8,615 | (320) | 13,412 | - | (1,005) | - | 20,702 |
| İstifadə edilən xammal və xərc materialları | (541,362) | (897,564) | (221,988) | (566,439) | (70,879) | 1,035,827 | (1,262,405) |
| İşçilər üzrə xərclər | (194,635) | (38,087) | (125,684) | (126,898) | (130,385) | 159,913 | (455,776) |
| Əsas vəsaitlərin köhnəlməsi | (275,672) | (122,677) | (49,086) | (140,907) | (56,872) | 54,559 | (590,655) |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | (228,981) | - | - | - | (13,000) | 342 | (241,639) |
| Ticarət və digər debitor borclarının dəyərsizləşməsi | 533,321 | (28,736) | (3,009) | 31,318 | (4,759) | (4,465) | 523,670 |
| Əsas vəsaitlərin silinməsi üzrə gəlir – zərər çıxılmaqla | 257,738 | 7,739 | (22,131) | (277,913) | 26,056 | - | (8,511) |
| Kommunal xərclər | (2,587) | (31,072) | (2,414) | (501) | 2,800 | 2,316 | (31,458) |
| Nəqliyyat və nəqliyyat vasitələrinin istismarı | (129,249) | (327) | (47,306) | (12,036) | (10,037) | 89,807 | (109,148) |
| Mədən vergisi | (120,508) | - | (11) | - | - | - | (120,519) |
| Mənfəət vergisindən başqa sair vergilər | (24,632) | (37,317) | (4,161) | (6,865) | (4,592) | - | (77,567) |
| Təmir və texniki xidmət xərcləri | (105,985) | (12,875) | (52,510) | (17,715) | (19,704) | 65,511 | (143,278) |
| Yanacaq xərcləri | (1,530) | (2,575) | (343) | (52) | (81) | 323 | (4,258) |
| Enerji xərcləri | (17,456) | (488) | (110) | (744) | (1,178) | 514 | (19,462) |
| Sair | (205,606) | (101,569) | (55,288) | (93,297) | (636,534) | 760,255 | (332,039) |
| Maliyyə xərcləri | (53,530) | (88,334) | (2,443) | (8,211) | (19,483) | 8,790 | (163,211) |
| Məzənnə fərqi üzrə zərər (xalis) | (2,582) | 7,192 | (74) | (7,995) | 2,501 | - | (958) |
| Sosial xərclər | (11,386) | (12,764) | (1,190) | (74) | (134,065) | - | (159,479) |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | - | - | (23,730) | - | 10,843 | - | (12,887) |
| Əlaqəli müəssisələrin maliyyə nəticələrində pay | 71 | - | - | 10,649 | 79,134 | - | 89,854 |
| Mənfəət vergisi xərci | (265,120) | 11,246 | (6,713) | (78,589) | (9,397) | (127,192) | (475,765) |
| Seqmentin nəticələri | 1,443,843 | 42,838 | (20,120) | (219,625) | (374,364) | 21,006 | 893,578 |

(*) – bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik departamentləri üzrə gəlir və xərclər və sair qrup səviyyəsində idarə edilməyən funksiyalar daxildir.
(**) – seqment daxili gəlir və xərclər konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Konsolidsiya düzəlişləri kimi göstərilən məbləğlər şirkətdaxili əməliyyatları daxil edir.

## 5. Seqmentlər üzrə məlumat (davamı)

| | Neft və qaz | Neftayırma | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Konsolidasiya düzəlişi (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Əlaqəli müəssisələrə investisiyalar | 13 | - | - | 107,516 | - | - | 315,353 |
| Birgə müəssisələrə investisiyalar | - | 133 | 1 | 601 | 102,326 | - | 103,061 |
| Hesabat seqmentinə aid olan sair aktivlər | 6,133,190 | 4,781,670 | 1,156,616 | 2,969,379 | 4,603,005 | (5,228,713) | 14,415,147 |
| **Hesabat seqmentinə aid olan cəmi aktivlər** | **6,133,203** | **4,781,803** | **1,156,617** | **3,077,496** | **4,913,155** | **(5,228,713)** | **14,833,561** |
| Hesabat seqmentinə aid olan sair öhdəliklər | (2,259,113) | (3,985,358) | (785,999) | (4,015,704) | (1,594,577) | 5,848,251 | (6,792,500) |
| **Hesabat seqmentinə aid olan cəmi öhdəliklər** | **(2,259,113)** | **(3,985,358)** | **(785,999)** | **(4,015,704)** | **(1,594,577)** | **5,848,251** | **(6,792,500)** |
| **Kapital məsrəfləri (***)** | | | | | | | |
| Əlavələr - ARDNŞ | 505,011 | 69,275 | 124,365 | 95,175 | 124,821 | - | 918,647 |
| Əlavələr – Törəmə müəssisələr | 239,765 | 37,151 | - | 18,111 | - | - | 295,027 |
| Müəssisələrin birləşməsi nəticəsində alışlar | - | - | 1,048 | 785,996 | - | - | 787,044 |
| **Cəmi kapital məsrəfləri** | **744,776** | **106,426** | **125,413** | **899,282** | **124,821** | - | **2,000,718** |

(*) – bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik departamentləri üzrə aktiv və öhdəliklər və sair qrup səviyyəsində idarə edilməyən funksiyalar daxildir.

(**) – seqment daxili qalıqlar konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Konsolidsiya düzəlişləri kimi göstərilən məbləğlər şirkətdaxili qalıqları daxil edir.

(***) Kapital məsrəfləri maliyyə alətləri, təxirə salınmış vergi aktivləri, əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər və sığorta müqavilələri üzrə yaranan hüquqlardan başqa uzunmüddətli aktivlər üzrə daxilolmaları əks etdirir.

## 5. Seqmentlər üzrə Məlumat (davamı)

### Coğrafi məlumat

Hər bir ayrıca ölkə üzrə əhəmiyyətli olan gəlirlər aşağıdakı cədvəldə göstərilir:

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| Azərbaycan | 3,484,201 | 2,764,292 |
| Türkiyə | 1,583,968 | 1,113,186 |
| Gürcüstan | 459,096 | 318,503 |
| | | |
| **Cəmi konsolidasiya edilmiş gəlirlər** | **5,527,265** | **4,195,981** |

Təhlil müştərinin aid olduğu ölkəyə əsaslanır. Azərbaycan mənşəli ofşor şirkətlərindən yaranan gəlirlər "Azərbaycan" sətrində göstərilir. Gəlirlərə əsas fəaliyyətdən yaranan gəlirlər, faiz gəlirləri və sair əməliyyat gəlirləri daxildirlər.

Hər bir ayrıca ölkə üzrə əhəmiyyətli olan kapital məsrəfləri aşağıdakı cədvəldə göstərilir:

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| Azərbaycan | 1,616,361 | 1,934,972 |
| Türkiyə | 11,498 | 37,151 |
| Gürcüstan | 33,168 | 26,119 |
| Sair | 19,544 | 2,476 |
| | | |
| **Cəmi kapital məsrəfləri** | **1,680,571** | **2,000,718** |

Təhlil aktivlərin yerləşdirilməsinə əsaslanır. Kapital məsrəfləri maliyyə alətləri, təxirə salınmış vergi aktivləri və əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər istisna olmaqla uzunmüddətli aktivlər üzrə daxilolmaları əks etdirir.

## 6 . Maliyyə Risklərinin İdarə Edilməsi

Maliyyə risk amilləri. Fəaliyyətin adi gedişində Qrup alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri dəyişmələri nəticəsində yaranan bazar riskləri ilə üzləşir. Bazar qiymətlərindəki bu cür dəyişikliklər, dərəcəsindən asılı olaraq, Qrupun maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Qrupun ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Qrupun maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Qrupun əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. İdarəetmə üzrə müəyyən edilmiş rəsmi prosedurların olmamasına baxmayaraq, Qrupun rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

(I) Xarici valyuta riski

Qrup fəaliyyətin adi gedişində əsasən ABŞ dolları məzənnəsi ilə əlaqədar olaraq müxtəlif xarici valyuta üzrə məzənnə riskinə məruz qalır. Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, uçota alınmış aktiv və öhdəliklərdən yaranır (bu aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə).

Qrupun borc öhdəliklərinin və satışlarının əksər hissəsi, həmçinin xarici müştərilər üzrə debitor borcları ABŞ dolları ilə ifadə edilir. 31 dekabr 2010-cu il tarixində başa çatan il ərzində ABŞ dollarının AZN-ə qarşı dəyərində əhəmiyyətli azalma olmamışdır. Lakin buna baxmayaraq, Qrupun törəmə müəssisəsi olan STEAŞ-nin borc öhdəliklərinin əhəmiyyətli hissəsi ABŞ dolları ilə ifadə olunduğundan 31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə Qrupun ümumi gəlir haqqında hesabatında 92,412 AZN (2009: 958 AZN) məbləğində məzənnə fərqi üzrə xalis zərər qeydə alınmışdır.

Rəhbərlik Qrupun xarici valyuta riskini heçləşdirmir.

Bütün digər dəyişənlərin sabit qalması şərtilə, Qrupun vergidən sonra mənfəətinin ABŞ dolları, Avro və Yapon yenası üzrə məzənnələrdəki mümkün dəyişikliklərə qarşı həssaslıq təhlili aşağıdakı cədvəldə göstərilir:

| 2010 | Məzənnələrdəki dəyişikliklər (+/-) | Vergidən sonra mənfəətə təsir |
|---|---|---|
| | | |
| ABŞ DOLLARI/AZN | 8.35% | 53,544/(53,544) |
| YAPON YENASI/AZN | 10% | (11,865)/11,865 |
| ABŞ DOLLARI/YTL | 10% | (140,318)/140,318 |

| 2009 | Məzənnələrdəki dəyişikliklər (+/-) | Vergidən sonra mənfəətə təsir |
|---|---|---|
| | | |
| ABŞ DOLLARI/AZN | 15.6% | 140,574/(140,574) |
| YAPON YENASI/AZN | 10% | (10,327)/10,327 |
| ABŞ DOLLARI/YTL | 10% | (138,596)/138,596 |

Qrupun bütün digər valyutalar üzrə məzənnə dəyişikliklərinə məruz qalması riski əhəmiyyətli deyil.

(II) Malların qiymət riski

Qrupun satışlarının əhəmiyyətli hissəsi Azərbaycan hökuməti tərəfindən tənzimlənsə də, Qrup hələ də neft bazarındakı qiymət dəyişikliklərinə görə müəyyən qiymət riskinə məruz qalır. Hazırda Qrup qiymətlərdəki dəyişkənliyinin təsirini azaltmaq məqsədilə derivativ maliyyə alətlərindən istifadə etmir.

(III) Faiz dərəcəsi riski

Qrup dəyişkən faiz dərəcəli maliyyə öhdəlikləri üzrə faiz dərəcəsi riskinə məruz qalır. Bu riskin azaldılması məqsədilə Qrupun rəhbərliyi cari faiz dərəcəsinin müntəzəm təhlilini aparır və bu təhlildən asılı olaraq rəhbərlik maliyyələşməni sabit və ya dəyişkən dərəcə əsasında əldə edilməsinin daha əlverişli olub-olmamasına dair qərar qəbul edir. Cari bazarda sabit və ya dəyişkən faiz dərəcəsi ilə baş vermiş dəyişiklik əhəmiyyətli hesab edildiyi təqdirdə rəhbərlik müəyyən borcun daha əlverişli faiz dərəcəsi ilə yenidən maliyyələşdirməsini nəzərdən keçirə bilər.

Faiz dərəcələrində dəyişikliklər əsasən borc öhdəliklərinin ədalətli dəyərinə (sabit faizli borclar) və ya gələcək pul vəsaitlərinin hərəkətinə (dəyişkən faizli borclar) təsir edir. Rəhbərlik Qrupun risklərinin sabit və ya dəyişkən faiz dərəcələri üzrə təsirini müəyyən etmə rəsmi siyasətinə malik deyil. Lakin, yeni borc öhdəliklərinin cəlb edilməsi zamanı rəhbərlik ödəniş tarixinədək gözlənilən müddət ərzində həmin borc öhdəlikləri üzrə sabit və ya dəyişkən faiz dərəcələrinin daha əlverişli olacağına

dair qərar qəbul etmək üçün öz mülahizələrindən istifadə edir.

Faiz hesablanan öhdəlik və aktivlərin əksəriyyəti üzrə dəyişkən faiz dərəcəsi LİBOR-un dəyişməsi nəticəsində Qrupu faiz ödənişlərinin və gəlirlərinin dəyişməsinə məruz qoyur. Qrupun dəyişkən faizli aktivlərinə Carlina Overseas Corp birgə müəssisəsindən ("Carlina") debitor borcu daxildir. Qrup bu debitor borcu ilə əlaqədar LİBOR-un dəyişməsi riskinə məruz qalır.

Kreditlər və borc öhdəlikləri üzrə ödəniləcək və alınacaq faiz dərəcələrindəki mümkün dəyişikliklərə qarşı həssaslıq təhlili aşağıdakı cədvəldə əks etdirilir.

| Kreditlər və borc öhdəlikləri, alınacaq kreditlər çıxılmaqla | Baza dərəcələrində artım/azalma | Vergidən sonra mənfəətə təsir |
|---|---|---|
| | | |
| **2010** | +100/-25 | 9,100 / (2,275) |
| **2009** | +100/-25 | 8,549 / (2,137) |

**Kredit riski və kredit risklərinin konsentrasiyası.** Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Qrupa dəyə biləcək potensial maliyyə zərəridir.

Qrupun kredit riskinə məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, o cümlədən məhdudiyyət qoyulmuş pul vəsaitləri daxil olmaqla, debitor borcları və alınacaq kreditlərdən ibarətdir.

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | 1,000,161 | 773,506 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri (Qeyd 9) | 617,793 | 53,844 |
| Depozitlər (Qeyd 9) | 399,011 | 873,169 |
| Ticarət debitor borcları (Qeyd 10) | 1,785,191 | 1,617,092 |
| Birgə müəssisələrə verilən kreditlər (Qeyd 18) | 280,259 | 311,891 |
| Sair debitor borcları (Qeyd 10) | 654 | 80,951 |
| Sair cari maliyyə aktivləri (Qeyd 13) | 12,312 | 7,178 |
| Sair uzunmüddətli maliyyə aktivləri (Qeyd 13) | 79,148 | 74,068 |
| Verilmiş maliyyə qarantiyaları | 383,062 | 460,111 |
| **Cəmi maksimal kredit riski** | **4,557,591** | **4,251,810** |
| Maliyyə zəmanətləri – digər tərəflərin borcları üçün alınmış zəmanətlər | (244,854) | (200,268) |
| **Alınmış qarantiyaları çıxmaqla cəmi kredit riski** | **4,312,737** | **4,051,542** |

Qrup pul vəsaitlərini Azərbaycan Respublikasında tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrupun pul vəsaitlərinin əksər hissəsi Azərbaycan Hökumətinin nəzarətində olan Azərbaycan Beynəlxalq Bankında ("ABB") yerləşdirilir. 31 dekabr 2010-cu il tarixinə ABB-də saxlanılan pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, eləcə də məhdudiyyət qoyulmuş pul vəsaitləri 1,516,928 AZN (2009: 1,371,451 AZN) təşkil etmişdir. Qrup hesablarının olduğu bankların statusuna daim nəzarət edir.

Debitor borcları əsasən satılmış xam neft, neft məhsulları və təbii qaza görə yerli və xarici müştərilər, o cümlədən əlaqəli tərəflərlə yaranmış qalıqlardan ibarətdir. ARDNŞ, Azərbaycan Hökumətinin nəzarətində olan müəyyən müştərilərin, o cümlədən Azərbaycan Respublikasında fəaliyyət göstərən Azərenerji ASC və AZAL QSC kimi ictimai əhəmiyyətli müəssisələri xam neft, neft məhsulları və təbii qazla fasiləsiz təchizatını təmin etmək öhdəliyini daşıyır. Qrupun bu müştərilərlə münasibətlərinə tətbiq edilən faktiki hesablaşma şərtləri Azərbaycan Hökumətinin qəbul etdiyi sosial və iqtisadi qərarlardan əhəmiyyətli dərəcədə asılıdır. Qrupun özəl sektorda fəaliyyət göstərən müştərilər və əlaqəli olmayan digər üçüncü şəxslərlə ticarət balansından yaranan kredit riski onların ödəmə qabiliyyətini daimi nəzarət altında saxlamaqla azaldılır. Gələcəkdə qaytarılması gözlənilməyən bütün debitor borclar üçün konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında dəyərsizləşmə üzrə ehtiyatlar hesablandığına görə Qrup mövcud debitorlarla bağlı yüksək kredit riskinə məruz qalmadığını hesab edir.

31 dekabr 2010-cu il tarixinə 244,854 AZN (476,461,417 YTL) (2009: 200,268 AZN (376,797,795 YTL)) məbləğində zəmanətlər termoplast və lif materiallarının satışına görə STEAŞ şirkətinin yerli və xarici müştəriləri tərəfindən təqdim edilmişdir.

Qeyd 18-də açıqlandığı kimi, 31 dekabr 2010-cu il tarixinə Qrupun SOCAR Pet–roleum üzrə 17,024 AZN (31 dekabr 2009: 8,749 AZN) məbləğində debitor borcu və Carlina üzrə 263,235 AZN (31 dekabr 2009: 303,142 AZN) məbləğində debitor borcu olmuşdur. Carlina-nın səhmdarları ilə Qrupun törəmə müəssisəsi olan Azərbaycan (EySC) Limited şirkəti ("AzAÇG") arasında imzalanmış 28 dekabr 2006-cı il tarixli "Səhmlərin Girovu və Saxlanması haqqında Saziş"ə və 12 aprel 2007-ci il tarixli "Səhmlərin Təminat kimi verilməsi və Saxlanması haqqında Saziş"ə uyğun olaraq Carlina-nın səhmdarları Carlina tərəfindən əldə edilmiş və ya əldə ediləcək bütün gəlir və vəsaitlərdə bütün hüquq və paylarını və Carlina-dakı səhmlərini və hər hansı digər kapital paylarını AzAÇG-nin xeyrinə girov qoymuşlar.

Dövlət və özəl sektor, eləcə də digər kateqoriyadan olan əsas müştərilərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı cədvəldə göstərilir:

| | Ticarət və sair debitor borcları | | Dəyərsizləşmə üzrə ehtiyat | | Xalis debitor borcları | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | **2010** | **2009** | **2010** | **2009** | **2010** | **2009** |
| **Dövlət nəzarətində olan müştərilər** | | | | | | |
| "Azərenerji" ASC | 45,043 | 1,279,498 | (15,225) | (1,251,184) | 29,818 | 28,314 |
| "Azal" QSC | - | 195,469 | - | (154,108) | - | 41,361 |
| "Azərikimya" SC | - | 74,917 | - | (74,917) | - | - |
| Sair | 131,397 | 184,822 | (29,004) | (19,294) | 102,393 | 165,528 |
| **Cəmi dövlət nəzarətində olan müştərilər** | **176,440** | **1,734,706** | **(44,229)** | **(1,499,503)** | **132,211** | **235,203** |
| | | | | | | |
| **Özəl və digər sektorda fəaliyyət göstərən müştərilər** | **1,790,132** | **1,564,536** | **(136,498)** | **(101,696)** | **1,653,634** | **1,462,840** |
| **Cəmi debitor borcları** | **1,966,572** | **3,299,242** | **(180,727)** | **(1,601,199)** | **1,785,845** | **1,698,043** |

**Likvidlik riski.** Likvidlik riski Qrupun ödəmə vaxtı çatmış maliyyə öhdəliklərinin yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsinə Qrupun yanaşması həm adi, həm də qeyri-adi şəraitdə, münasib olmayan zərər çəkməyərək və ya Qrupun nüfuzuna ziyan vurmayaraq, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən Qrup kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlayır, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlanması daxildir. Rəhbərlik, Qrupun likvidlik ehtiyatı üzrə davamlı proqnozlara gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən nəzarət edir.

Qrupun bütün maliyyə öhdəlikləri qeyri-derivativ maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Qrupun maliyyə öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatın tarixindən müqavilədə nəzərdə tutulan ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 12 ay ərzində ödənilməli olan qalıqlar təxminən onların balans dəyərinə bərabərdir.

| 31 dekabr 2010-cu il | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| | | | | | |
| Cəmi maliyyə kreditor borcları | 2,318,949 | 272,935 | - | - | 2,591,884 |
| Faiz hesablanan borc öhdəlikləri | 98,347 | 977,443 | 1,856,868 | 464,577 | 3,397,235 |
| Sair maliyyə öhdəlikləri | - | 15,606 | 10,620 | 23,776 | 50,002 |
| **Cəmi gələcək ödənişlər, gələcək əsas məbləğ və faiz ödənişləri daxil olmaqla** | **2,417,296** | **1,265,984** | **1,867,488** | **488,353** | **6,039,121** |

31 dekabr 2009-cu il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| 31 dekabr 2009-cu il | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| | | | | | |
| Cəmi maliyyə kreditor borcları | 1,894,009 | 36,687 | 272,267 | - | |
| Faiz hesablanan borc öhdəlikləri | 120,632 | 387,820 | 2,136,333 | 595,430 | 3,240,215 |
| **Cəmi gələcək ödənişlər, gələcək əsas məbləğ və faiz ödənişləri daxil olmaqla** | **2,014,641** | **424,507** | **2,408,600** | **595,430** | **5,443,178** |

**Kapitalın idarə edilməsi.** Kapitalın idarə edilməsində Qrupun əsas məqsədi düzgün investisiya qərarları qəbul etməklə biznes əməliyyatlarının maliyyələşdirilməsi və davam etdirilməsi üçün güclü kapital bazasının təmin edilməsi və hökumətin, investorun və kreditorun işgüzar fəaliyyətinin dəstəklənməsindən ibarətdir.

Qrupun idarə etdiyi məcmu kapital aşağıdakı cədvəldə göstərilir:

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| Cəmi borc öhdəlikləri (Qeyd 20) | 3,059,676 | 2,851,974 |
| Qrupun səhmdarlarına aid olan cəmi kapital | 7,455,816 | 7,258,252 |
| Çıxılsın: pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | (1,000,161) | (773,506) |
| **Cəmi idarə edilən kapital** | **9,515,331** | **9,336,720** |

Qrupdan vaxtaşırı olaraq dövlət büdcəsinə və Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən müxtəlif layihələrə vəsait köçürməsi tələb olunur.

İl ərzində Qrupun kapitalın idarə edilməsi üzrə yanaşmasında heç bir dəyişiklik olmamışdır.

**Maliyyə alətlərinin ədalətli dəyəri.** Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır və iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş olan və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

(I) Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri. Sabit faizli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır. İstifadə edilmiş diskont dərəcələri qarşı tərəfin kredit riskindən asılıdır. Debitor borclarının balans dəyəri ödəmə müddətlərinin qısa olmasına görə təxminən onların ədalətli dəyərinə bərabərdir.

(II) Amortizasiya olunmuş dəyərdə qeydə alınan öhdəliklər. Kreditor borcları və əlaqəli tərəflər üzrə kreditor borclarının balans dəyəri onların ödəmə müddətlərinin qısa olmasına görə təxminən onların ədalətli dəyərinə bərabərdir. Bütün borcların dövrün sonuna mövcud bazar şərtləri ilə əldə edilməsinə görə uzunmüddətli borc öhdəliklərinin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

### 7. Əlaqəli Tərəflərlə Əməliyyatlar və Qalıqlar

Qrupun baş rəhbərliyinə ARDNŞ Prezidenti və on Vitse-Prezident daxildir. Qrupun baş rəhbərliyinin bütün üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir. Baş rəhbərliyin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq əmək haqqı və mükafatlar, eləcə də Qrupun müəyyən şirkətlərində Direktorlar şurasının üzvləri olduqlarına görə ödənişlər almaq hüququna malikdirlər. 2010-cu il ərzində baş rəhbərliyə cəmi ödənişlər 268 AZN (2009: 168 AZN) təşkil etmişdir.

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya hesablaşmalar üzrə əhəmiyyətli qalıqlara malik olduğu əlaqəli tərəflərlə münasibətlər aşağıda göstərilir.

31 dekabr 2010-cu il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıda əks etdirilir:

| | Qeyd | Dövlət və onun nəzarətində olan müəssisələr | Əlaqəli və birgə müəssisələr |
|---|---|---|---|
| | | | |
| Ticarət debitor borclarının ümumi məbləği | 6 | 176,440 | 617,232 |
| Ticarət və digər debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar | 6 | (44,229) | - |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 176,935 | - |
| Depozit | 8,9 | 1,345,666 | - |
| ƏDV və sair vergilər üzrə debitor borcları | | 435,441 | - |
| Mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | 26,581 | - |
| Təchizatçılara ödənişlər | | 6,040 | - |
| Birgə müəssisələrdən kredit üzrə debitor borcları | 18 | - | 280,259 |
| ABB-dən alınmış borc öhdəlikləri (3 faizdən 3.5 faizədək sabit faiz dərəcəsi və LİBOR + 2 faizdən LİBOR + 3.5 faizədək dəyişkən faiz dərəcələri) | 20 | (1,734,303) | - |
| Azərbaycan Respublikası Maliyyə Nazirliyindən alınmış borc öhdəlikləri | 20 | (34,025) | - |
| Azərbaycan Respublikası Maliyyə Nazirliyi vasitəsilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankından alınmış borc öhdəlikləri | 20 | (143,825) | - |
| Ticarət və digər kreditor borcları | | (93,872) | (418,536) |
| Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) ödəniləcək məbləğlər | | (1,109,362) | - |
| Sair vergilər üzrə kreditor borcları | | (177,478) | - |
| Mənfəət vergisi üzrə kreditor borcları | | (88,913) | - |

31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir:

| | Qeyd | Dövlət və onun nəzarətində olan müəssisələr | Əlaqəli və birgə müəssisələr |
|---|---|---|---|
| Təbii qazın satışı | | 210,622 | - |
| Neft məhsullarının satışı | | 243,487 | 186,901 |
| Göstərilmiş xidmətlər | | 19,647 | 65,142 |
| Depozitlər üzrə faiz gəlirləri | 8,9 | 24,737 | - |
| Əlaqəli müəssisələrdən alınmış kreditlər üzrə faizlər | 18 | - | 11,590 |
| Mənfəət vergisi | 33 | (301,758) | - |
| Aksiz vergisi | 28 | (389,549) | - |
| Qiymət markası üzrə vergi | 28 | (315,467) | - |
| Mədən vergisi | 29 | (121,583) | - |
| Sair vergilər | | (202,595) | - |
| Kommunal xərclər | | (65,972) | - |
| Sair əməliyyat xərcləri | | (62,227) | (655,721) |
| Sosial sığorta ayırmaları | | (105,380) | - |
| Sosial xərclər | 27 | (454,297) | - |
| Nəqliyyat xərcləri | | (6,487) | (8) |
| Ekologiya xidmətləri və ətraf mühitin mühafizəsi | | (2,896) | (17,388) |
| Əsas vəsaitlər və mal-material ehtiyatlarının alınması | | (34,098) | (166,512) |
| Birgə müəssisələrdən alınmış dividendlər | 16 | - | 5,692 |
| Əlaqəli müəssisələrdən alınmış dividendlər | 17 | - | 57,748 |

31 dekabr 2009-cu il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıda əks etdirilir:

| | Qeyd | Dövlət və onun nəzarətində olan müəssisələr | Əlaqəli və birgə müəssisələr və əməliyyat şirkətləri |
|---|---|---|---|
| Debitor borclarının ümumi məbləği | 6 | 1,734,706 | 818,730 |
| Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar | 6 | (1,499,503) | - |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 185,093 | - |
| Depozit | 8,9 | 1,200,072 | - |
| ƏDV və sair vergilər üzrə debitor borcları | | 307,078 | - |
| Mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | 25,813 | - |
| Birgə müəssisələrdən kredit üzrə debitor borcları | 18 | - | 311,891 |
| ABB-dan alınmış borc öhdəlikləri (müqavilə üzrə faiz dərəcələri: LİBOR + 2 faizdən LİBOR + 3 faizədək) | 20 | (1,743,663) | - |
| Azərbaycan Respublikası Maliyyə Nazirliyi vasitəsilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankından alınmış borc öhdəlikləri | 20 | (132,403) | - |
| Ticarət və digər kreditor borcları | | (63,780) | (198,980) |
| Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) ödəniləcək məbləğlər | | (1,098,830) | - |
| Sair vergilər üzrə kreditor borcları | | (187,295) | - |
| Mənfəət vergisi üzrə kreditor borcları | | (102,503) | - |

31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə ARDNF-a ödəniləcək məbləğlər ARDNF adından satılan xam neftə görə kənar tərəflərdən Qrupa köçürülən vəsaitlər və xam neftin qiymətindəki fərqə görə vergilərdən ibarətdir (21-ci Qeydə bax).

### 7. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

31 dekabr 2009-cu il tarixində tamamlanan il üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir:

| | Qeyd | Dövlət və onun nəzarətində olan müəssisələr | Əlaqəli və birgə müəssisələr və əməliyyat şirkətləri |
|---|---|---|---|
| Təbii qazın satışı | | 298,809 | 25 |
| Neft məhsullarının satışı | | 231,336 | 85,178 |
| Göstərilmiş xidmətlər | | 29,094 | 39,480 |
| Depozitlər üzrə faiz gəlirləri | 8,9 | 21,951 | - |
| Əlaqəli müəssisələrdən alınmış kreditlər üzrə faizlər | 18 | - | 20,033 |
| Mənfəət vergisi | 33 | (361,123) | - |
| Aksiz vergisi | 28 | (362,209) | - |
| Qiymət markası üzrə vergi | 28 | (196,268) | - |
| Mədən vergisi | 29 | (120,519) | - |
| Sair vergilər | | (104,537) | - |
| Kommunal xərclər | | (52,761) | (3,194) |
| Sair əməliyyat xərcləri | | (94,671) | (173,898) |
| Sosial sığorta ayırmaları | | (79,692) | - |
| Sosial xərclər | 27 | (318,298) | - |
| Nəqliyyat xərcləri | | (15,588) | - |
| Əsas vəsaitlər və mal-material ehtiyatlarının alınması | | (57,116) | (99,438) |
| Birgə müəssisələrdən alınmış dividendlər | 16 | - | (6,178) |
| Əlaqəli müəssisələrdən alınmış dividendlər | 17 | - | (58,481) |

**Əlaqəli tərəflərlə əməliyyatların aparılması şərtləri.**

Hökumətə və hökumət nəzarəti altında olan təşkilatlara satışlar və onlardan satınalmalar Azərbaycan Hökuməti tərəfindən tənzimlənən bazar qiymətləri ilə həyata keçirilir. Digər əlaqəli tərəflərə satışlar və onlardan satınalmalar bir-birindən asılı olmayan tərəflər arasında aparılan əməliyyatların şərtləri əsasında həyata keçirilir. İlin sonuna olan qalıqlar təminatlı deyildirlər və hesablaşmalar nağd şəkildə aparılır. Əlaqəli tərəflər üzrə debitor və ya kreditor borcları üzrə heç bir zəmanət təqdim olunmamışdır. Əlavə olaraq Qeyd 18-də birgə müəssisədən alınmış zəmanət təsvir edilir.

## 8. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

| | 2010 | 2009 |
|---|---|---|
| ABŞ dolları ilə bank qalıqları | 710,148 | 618,971 |
| AZN ilə bank qalıqları | 178,333 | 83,055 |
| YTL ilə bank qalıqları | 56,182 | 28,267 |
| Avro ilə bank qalıqları | 46,644 | 36,848 |
| Digər valyuta ilə bank qalıqları | 7,849 | 4,660 |
| Kassada olan pul vəsaitləri | 1,005 | 1,705 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **1,000,161** | **773,506** |

31 dekabr 2010-cu il tarixinə ABŞ dolları ilə bank qalıqlarına ABB-də müvafiq olaraq yerləşdirilmiş 240,513 AZN və 47,874 AZN (2009: müvafiq olaraq 214,469 AZN və 112,434 AZN) məbləğlərində iki tələbli depozitlər daxildirlər. 31 dekabr 2010-cu və 2009-cu il tarixlərində tamamlanan illər ərzində bu depozitlər, illik faiz dərəcəsi 0.5 faizdən 1.5 faizədək dəyişən bank marjası çıxılmaqla, overnayt dərəcəyə əsaslanmışdırlar. Bundan əlavə, 31 dekabr 2010-cu il tarixinə ABŞ dolları ilə bank qalıqlarına ABB-də illik 2.85 faiz ilə yerləşdiirlmiş 79,790 AZN (2009: sıfır) məbləğində tələbli depozit daxildir.

31 dekabr 2010-cu il tarixinə YTL ilə bank qalıqlarına Halkbank-da illik 8.2 faiz ilə yerləşdirilmiş bir aydan az ödəniş müddəti olan 42,663 AZN (2009: sıfır) məbləğində müddətli depozit daxildir.

Tələbli depozitlərin ilkin ödəmə müddəti üç aydan az olur. Bank hesablarında olan bütün qalıqlar və depozitlərin vaxtı keçməmiş və dəyərsizləşməmişdir.

31 dekabr 2009-cu il tarixinə ABŞ dolları ilə bank qalıqlarına 23 dekabr 2005-ci il tarixində AzAÇG, BNP Paribas və Societe Generale ("SG") arasında imzalanmış müvafiq "Hesablar haqqında Saziş"ə və BNP Paribas ilə imzalanmış "Sindikatlaşdırılmış Kredit Saziş"inə uyğun olaraq, Qrupun öz müştərilərindən Məsrəf Neftinin (MN) satışı ilə bağlı əldə etdiyi vəsaitləri toplamaq üçün istifadə edilən BNP Paribas bankındakı 60,233 AZN məbləğində cari hesab daxildir. Həmin sazişin şərtlərinə uyğun olaraq, Qrupun BNP Paribas bankındakı cari hesabından ödənişlər əsasən Qrupun Azəri-Çıraq-Günəşli ("AÇG") HPBS-dakı iştirakçı payı ilə bağlı məsrəflərlə məhdudlaşır. (Qeyd 20-yə baxın).

Bundan əlavə, 31 dekabr 2009-cu il tarixinə ABŞ dolları ilə bank qalıqlarına Qrupun birbaşa olaraq öz müştərilərindən Ehtiyat Mənfəət Neftinin ("EMN") (Qrupa aid olan gündə 7,000 barel mənfəət nefti) satışından əldə etdiyi vəsaitləri əks etdirən Lalaben LLC ("Lalaben") şirkətinin BNP Paribas bankındakı cari hesabındakı 14,673 AZN məbləğində vəsaitlər daxildir. Lalaben ilə imzalanmış "EMN Avans Ödənişi haqqında Saziş"ə uyğun olaraq, Qrup xam neftin satılmasından əldə edilən vəsaitləri Lalaben kreditini ödəmək üçün istifadə edir. Müvafiq sazişlərə uyğun olaraq Lalaben BNP Paribas bankındakı cari hesabında olan vəsaitlər mənfəət nefti tarifləri, əməliyyat xərcləri və mənfəət vergisinin ödənişlər ilə məhdudlaşır.

31 dekabr 2010-cu il tarixində tamamlanan il ərzində Qrup BNP Paribas bankı və Lalaben-dən alınmış kreditləri tam ödəmişdir.

## 9. Məhdudiyyət qoyulmuş pul vəsaitləri və depozitlər

Qısamüddətli məhdudiyyət qoyulmuş pul vəsaitləri və depozitlər

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| ABB-də depozit hesabı – ABŞ dolları ilə | 578,478 | - |
| Əsas vəsaitlərin alınması üçün akkreditiv | 21,026 | 21,210 |
| Məhdudiyyət qoyulmuş digər pul vəsaitləri | 18,289 | 32,634 |
| **Cəmi qısamüddətli məhdudiyyət qoyulmuş pul vəsaitləri və depozitlər** | **617,793** | **53,844** |

Uzunmüddətli depozitlər

31 dekabr 2010-cu və 2009-cu illər tarixlərində Qrupun 399,011 AZN və 873,169 AZN məbləğlərində uzunmüddətli depozitləri ABB-də olan müvafiq depozitlərdən ibarət idi.

31 dekabr 2010-cu il tarixinə cəmi qısamüddətli və uzunmüddətli depozitlərə Qrupun 2008-ci və 2010-cu illərin may aylarında ABB-dən götürdüyü kredit vəsaitləri üzrə öhdəliklərin təminatı kimi ABB-də 977,489 AZN (2009: 873,169 AZN) məbləğində saxlanılan müddətli depozitlər daxildir (Qeyd 20). Bu depozitlər üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 1.5 faizdən 3.35 faizədək dəyişən marja təşkil edir. ABB-də yerləşdirilmiş depozitlərin ödəmə müddəti 27 iyul 2014-cü il tarixində başa çatır.

## 10. Ticarət və sair debitor borcları

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| Debitor borcları | 1,912,523 | 3,167,702 |
| Dəyərsizləşmə zərəri üzrə ehtiyatı çıxılmaqla | (127,332) | (1,550,610) |
| **Cəmi debitor borcları** | **1,785,191** | **1,617,092** |
| Büdcədən tələb edilə bilən ƏDV | 375,433 | 295,706 |
| Qabaqcadan ödəmələr | 138,405 | 97,005 |
| Neftin anderlifti üzrə debitor borcları | 16,566 | - |
| Sair vergilər üzrə debitor borcları | 89,442 | 19,890 |
| Sair debitor borcları | 54,049 | 131,540 |
| Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla (sair debitor borcları) | (53,395) | (50,589) |
| **Cəmi debitor borcları** | **2,405,691** | **2,110,644** |

Debitor borcları əsasən Qrupun müştərilərinə satılmış xam neft, neft məhsulları və təbii qaza görə alınacaq məbləğləri əks etdirir. Qrup aşağıda göstərilənlər istisna olmaqla təminat şəklində girov saxlamır.

31 dekabr 2010-cu il tarixinə 1,656,439 AZN (2009: 1,580,660 AZN) məbləğində debitor borcları, əsasən ABŞ dolları olmaqla, xarici valyutalarda ifadə olunmuşdur.

Büdcədən tələb edilə bilən ƏDV maliyyə vəziyyəti haqqında hesabatın tarixinə alışlar üzrə əvəzləşdirilməmiş ƏDV-ni əks etdirir. Büdcədən tələb edilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıda göstərilir:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| **1 yanvar tarixinə** | **1,601,199** | **2,462,576** |
| İl ərzində ayrılmış əlavə ehtiyat | 60,543 | 297,022 |
| İl ərzində ümidsiz borclar kimi silinmiş debitor borcları | (1,233,296) | (337,706) |
| Debitor borcları üzrə dəyərsizləşmə ehtiyatının geri qaytarılması | (247,719) | (820,693) |
| **31 dekabr tarixinə** | **180,727** | **1,601,199** |

Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş maliyyə aktivlərinin müddət üzrə təhlili:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| 1-30 gün vaxtı keçmiş | 18,356 | 1,675 |
| 1-3 ay vaxtı keçmiş | 2,813 | 2,118 |
| 3 aydan çox vaxtı keçmiş | 10,899 | 8,308 |
| **Cəmi vaxtı keçmiş debitor borcları** | **32,068** | **12,101** |

31 dekabr 2010-cu il tarixinə 32,068 AZN (2009: 12,101 AZN) məbləğində debitor borclarının vaxtı keçmişdir, lakin Qrup 28,790 AZN (2009: AZN 10,705) məbləğində zəmanət məktubları və akkreditivlər saxlamışdır.

### 11. Mal-material ehtiyatları

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| Xammal və ehtiyat hissələri | 469,201 | 441,955 |
| Hazır məhsul | 153,664 | 109,054 |
| Yolda olan mallar | 67,642 | 37,353 |
| Başa çatdırılmamış işlər | 56,027 | 55,606 |
| Xam neft | 53,142 | 51,151 |
| Sair | 8,896 | 12,339 |
| **Cəmi mal-material ehtiyatları** | **808,572** | **707,458** |

**12. Sair uzunmüddətli aktivlər**

31 dekabr 2010-cu il tarixinə sair uzunmüddətli aktivlər əsasən 186,676 AZN (2009: 231,263 AZN) məbləğində əsas vəsaitlərin alınması üçün uzunmüddətli ödənişləri və 13,527 AZN (2009: 11,952 AZN) məbləğində maraqların ötürülməsi razılaşmasından irəli gələn debitor borclarını əks etdirir.

**13. Sair maliyyə aktivləri**

5 oktyabr 2009-cu il tarixində Palmali ilə imzalanmış kredit müqaviləsinə uyğun olaraq, Qrup 30 sentyabr 2013-cü il tarixinə qədər illik LİBOR üstə gəl 4 faiz dərəcəsi şərti ilə 75 milyon ABŞ dolları (59,843 AZN) məbləğində kredit ayırmışdır. Kredit və əsas məbləğ hər rüb ödənilməlidir.

6 noyabr 2009-cu il tarixində Qrup kredit müqaviləsinə əlavə imzalamışdır. Bu əlavəyə əsasən kreditin məbləği 100 milyon ABŞ dollarına qədər (80,310 AZN) artırılmışdır. 30 mart 2010-cu il tarixində kreditin məbləği 120 milyon ABŞ dollarına (95,748 AZN) qədər artırılmışdır və kreditin ödəmə müddəti 30 sentyabr 2015-ci il tarixinədək uzadılmışdır.

31 dekabr 2010 və 2009-cu il tarixlərində Palmali-yə verilmiş kredit üzrə debitor borcunun balans dəyəri müvafiq olaraq 91,460 AZN və 81,246 AZN olmuşdur.

Qrup və Palmali-nin səhmdarları arasında 7 oktyabr 2009-cu il tarixində imzalanmış Səhmlərin girovu haqqında Sazişə və Korporativ zəmanətə uyğun olaraq qarşı tərəf 514 ümumi təsdiqlənmiş və buraxılmış səhmdən 340 səhmi və Palmalidəkı müvafiq iştirak payını yuxarıda qeyd olunan kredit müqaviləsinin yerinə yetirilməsinin təminatı kimi girov qoymuşdur. Bundan əlavə, xam neft və neft məhsullarının nəqli ilə bağlı 20 mart 2008-ci il tarixində Qrupun törəmə müəssisələrindən biri ilə imzalanmış nəqliyyat xidmətləri üzrə müqaviləyə uyğun olaraq, Palmali əldə etdiyi və ya əldə edəcək ümumi gəlirlər və vəsaitlərdəki bütün hüquq və paylarını Qrupun xeyrinə girov qoymuşdur. Yuxarıda qeyd olunan girov müqavilələri Palmali-nin Qrup qarşısına öhdəliklərini tam yerinə yetirənədək qüvvədə qalacaqdır.




## 14. Əsas Vəsaitlər

Əsas vəsaitlərin balans dəyərinin hərəkəti aşağıdakı cədvəldə göstərilir:

| | Binalar və tikililər | Neft və qaz əmlakı və | Maşın və | Gəmilər | Digər | Başa çatdırıl-mamış işlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər:** | | | | | | | |
| **1 yanvar 2009-cu il** | **991,312** | **3,896,943** | **1,648,496** | **398,598** | **875,058** | **672,361** | **8,482,768** |
| Əlavələr | 14,678 | 456,593 | 91,245 | 25,304 | 38,791 | 566,912 | **1,193,523** |
| Müəssisələrin birləşməsi nəticəsində alışlar | 196,852 | 517,774 | 9,504 | - | 7,711 | 55,203 | **787,044** |
| Silinmələr | (47,305) | (25,693) | (26,316) | (97) | (4,618) | (66,630) | **(170,659)** |
| Köçürmələr | (107,929) | 401,240 | 43,652 | 81 | 7,955 | (344,999) | **-** |
| Hesabat valyutasına çevrilmə | | 2,676 | 9,363 | - | 6,188 | (6,525) | **16,942** |
| **31 dekabr 2009-cu il** | **1,052,848** | **5,249,533** | **1,775,944** | **423,886** | **931,085** | **876,322** | **10,309,618** |
| Əlavələr | 45,463 | 588,916 | 80,955 | 34,515 | 127,264 | 732,500 | **1,609,613** |
| Müəssisələrin birləşməsi nəticəsində alışlar | 8,000 | 327 | 42,830 | - | 99 | 9,305 | **60,561** |
| Silinmələr | (1,438) | (186,556) | (16,033) | (2,234) | (8,365) | (122,525) | **(337,151)** |
| Köçürmələr | 62,949 | 297,032 | 89,609 | 61 | 8,755 | (458,406) | **-** |
| Hesabat valyutasına çevrilmə | | (83,794) | (35,141) | - | 51,108 | (4,758) | **(75,817)** |
| **31 dekabr 2010-cu il** | **1,164,590** | **5,865,458** | **1,938,164** | **456,228** | **1,109,946** | **1,032,438** | **11,566,824** |
| **Köhnəlmə və dəyərsizləşmə:** | | | | | | | |
| **1 yanvar 2009** | **(183,709)** | **(835,194)** | **(244,227)** | **(54,875)** | **(49,332)** | **(141,364)** | **(1,508,701)** |
| İl üzrə köhnəlmə xərci | (67,311) | (385,466) | (153,575) | (28,456) | (28,013) | - | **(662,821)** |
| Silinmələr | 26,341 | 10,335 | 14,621 | 97 | 1,186 | 307 | **52,887** |
| Köçürmələr | 6,181 | (68,156) | 3,026 | (37) | (8,253) | 67,239 | **-** |
| Dəyərsizləşmə | (158) | (131,965) | 1,933 | (13,000) | - | (98,449) | **(241,639)** |
| Hesabat valyutasına çevrilmə | (355) | (90) | (1,950) | - | (393) | - | **(2,788)** |
| **31 dekabr 2009-cu il** | **(219,011)** | **(1,410,536)** | **(380,172)** | **(96,271)** | **(84,805)** | **(172,267)** | **(2,363,062)** |
| İl üzrə köhnəlmə xərci | (68,726) | (410,921) | (166,519) | (28,816) | (45,037) | - | **(720,019)** |
| Silinmələr | 3,429 | 79,744 | 10,340 | 1,002 | 5,582 | 11,822 | **111,919** |
| Köçürmələr | (723) | (83,374) | (2,617) | - | (2,596) | 89,310 | **-** |
| Dəyərsizləşmə | - | (190,133) | (1,924) | - | - | (167,990) | **(360,047)** |
| Hesabat valyutasına çevrilmə | 299 | 2,437 | 5,939 | - | 334 | 3 | **9,012** |
| **31 dekabr 2010-cu il** | **(284,732)** | **(2,012,783)** | **(534,953)** | **(124,085)** | **(126,522)** | **(239,122)** | **(3,322,197)** |
| **Xalis qalıq dəyəri:** | | | | | | | |
| **31 dekabr 2010-cu il** | **879,858** | **3,852,675** | **1,403,211** | **332,143** | **983,424** | **793,316** | **8,244,627** |
| **31 dekabr 2009-cu il** | **833,837** | **3,838,997** | **1,395,772** | **327,615** | **846,280** | **704,055** | **7,946,556** |
| **1 yanvar 2009-cu il** | **807,603** | **3,061,749** | **1,404,269** | **343,723** | **825,726** | **530,997** | **6,974,067** |

31 dekabr 2010-cu il tarixinə silinmiş əsas vəsaitlərə Dövlət tərəfindən təsdiqlənmiş sosial proqram çərçivəsində dövlət müəssisələrinin balansına köçürülmüş xalis qalıq dəyəri 54,049 AZN olan (2009: 43,451 AZN) aktivlər daxildir. Bu məbləğ dövlətə ödənişlər kimi uçota alınmışdır (Qeyd 27). Aktivlərin həmin il ərzində tikilməsinə/əldə edilməsinə və dövlət müəssisələrinin balansına keçirilməsinə görə rəhbərlik hesab edir ki, həmin aktivlərin dövlət müəssisələrinin balansına keçirilmə tarixində ədalətli dəyəri təxminən tikinti/alışın dəyərinə bərabərdir.

Müəssisələrin birləşməsi nəticəsində alışlar 2 aprel 2010-cu il tarixində Azərikimya SC-nin və 25 fevral 2010-cu il tarixində SOCAR Bosphorus Energy şirkətinin alışı nəticəsində əldə edilmiş müvafiq olaraq 48,316 AZN və 12,245 AZN məbləğində əsas vəsaitləri əks etdirir (Qeyd 36).

## 15 . Qeyri-maddi aktivlər qudvildən başqa

31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə, qudvil istisna olmaqla, qeyri-maddi aktivlərin hərəkəti və müvafiq yığılmış amortizasiya aşağıdakı cədvəldə göstərilir:

| | **Torpaq və əmlak üzərində mülkiyyət hüquqları** | **Sudan istifadə hüquqları** | **Ticarət adı** | **Müştəri ilə münasibətlər** | **Sair qeyri-maddi aktivlər** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər:** | | | | | | |
| **1 yanvar 2009-cu il** | **167,381** | **200,794** | **38,339** | **101,766** | **13,813** | **522,093** |
| Əlavələr | - | - | - | - | 20,151 | 20,151 |
| Hesabat valyutasına çevrilmə | 1,351 | 1,630 | 335 | 755 | 16 | 4,087 |
| **31 dekabr 2009-cu il** | **168,732** | **202,424** | **38,674** | **102,521** | **33,980** | **546,331** |
| Əlavələr | - | - | - | - | 10,577 | 10,577 |
| Silinmələr | - | - | - | - | (8) | (8) |
| Hesabat valyutasına çevrilmə | (5,237) | (6,310) | (1,281) | (2,973) | (189) | (15,990) |
| **31 dekabr 2010-cu il** | **163,495** | **196,114** | **37,393** | **99,548** | **44,360** | **540,910** |
| **Amortizasiya və dəyərsizləşmə:** | | | | | | |
| 1 yanvar 2009-cu il | **(2,578)** | **(2,874)** | **-** | **(3,106)** | **(2,792)** | **(11,350)** |
| İl üzrə amortizasiya xərci | (3,769) | (4,203) | - | (3,770) | (2,002) | (13,744) |
| **31 dekabr 2009-cu il** | **(6,347)** | **(7,077)** | **-** | **(6,876)** | **(4,794)** | **(25,094)** |
| İl üzrə amortizasiya xərci | (3,869) | (4,383) | - | (4,662) | (3,092) | (16,006) |
| Silinmələr | - | - | - | - | 3 | 3 |
| **31 dekabr 2010-cu il** | **(10,216)** | **(11,460)** | **-** | **(11,538)** | **(7,883)** | **(41,097)** |
| **Xalis qalıq dəyəri:** | | | | | | |
| **31 dekabr 2010-cu il** | **153,279** | **84,654** | **37,393** | **88,010** | **36,477** | **499,813** |
| **31 dekabr 2009-cu il** | **162,385** | **95,347** | **38,674** | **95,645** | **29,186** | **521,237** |
| **1 yanvar 2009-cu il** | **164,803** | **197,920** | **38,339** | **98,660** | **11,021** | **510,743** |

31 dekabr 2010-cu il tarixində qeyri-maddi aktivlərin balans dəyərinə 2008-ci ilin may ayında müəssisələrin birləşməsi nəticəsində alınmış 37,393 AZN (2009: 38,674 AZN) məbləğində Petkim ticarət nişanı daxildir (Qeyd 26). 31 dekabr 2010-cu il tarixinə Petkim ticarət nişanının balans dəyəri onun bərpa dəyəri ilə müqayisə edilərək, dəyərsizləşmə üzrə yoxlanılmışdır. Bərpa dəyəri royalti yanaşmasından kənarlaşma tətbiq etməməklə müəyyən edilmişdir. Bu metodologiyayanı tətbiq etmək üçün Qrup ticarət nişanının dəyərini onun Petkim şirkətinə aid olmasına görə qənaət edilmiş royaltilərin kapitallaşdırılması yolu ilə hesablamışdır. Hesablama zamanı 0.2 faiz royalti dərəcəsi istifadə edilmişdir və dəyərsizləşmənin yoxlanması zamanı WACC-a əsasən 11 il üçün 10.6 faizlik diskont dərəcəsi tətbiq edilmişdir. Aparılmış yoxlamanın nəticəsində Petkim ticarət nişanı üzrə dəyərsizləşmə müəyyən edilməmişdir.

2010-cu il ərzində uçota alınmış 16,006 AZN (2009: 13,744 AZN) məbləğində cəmi amortizasiya xərcləri 7,474 AZN məbləğində (2009: 6,910 AZN) satışların maya dəyərinə, 5,300 AZN məbləğində (2009: 4,395 AZN) marketinq, satış və paylaşdırma xərclərinə və 3,232 AZN məbləğində (2009: 2,439 AZN) ümumi və inzibati xərclərə bölüşdürülmüşdür.

## 16. Birgə Müəssisələrə İnvestisiyalar

Qrupun birgə müəssisələrə investisiya qoyuluşlarının balans dəyərinin hərəkəti aşağıdakı cədvəldə göstərilir:

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| **1 yanvar 2010-cu il tarixinə balans dəyəri** | | **103,061** | **113,685** |
| Birgə müəssisələrə investisiyalara əlavələr | | 104,113 | 18,920 |
| Birgə müəssisələrin vergidən sonrakı maliyyə nəticələrində pay | | 6,390 | (12,887) |
| Birgə müəssisələrdən alınmış dividendlər | 7 | (5,692) | (6,178) |
| Birgə müəssisələrdən debitor borcları ilə əvəzləşdirilmiş zərər | | - | 18,788 |
| Birgə müəssisələrin uçotdan silinməsi | | - | (39,114) |
| Məzənnə fərqləri | | 154 | (78) |
| Sair | | 40,844 | 9,925 |
| **31 dekabr 2010-cu il tarixinə balans dəyəri** | | **248,870** | **103,061** |

1 iyul 2009-cu il tarixində Caspian Drilling Company ("CDC") şirkəti digər investorun sahib olduğu səhmlərin 45 faizini almışdır və Qrup faktiki olaraq ARNDŞ əsas səhmdarına çevrilmişdir. Müvafiq olaraq CDC 1 iyul 2009-cu il tarixindən etibarən törəmə müəssisə kimi təsnifləşdirilmişdir. 2009-cu ilin oktyabr ayında Anshad Petrol və Shirvan Oil şirkətləri bağlanmışdır. 2010-cu ildə Caspian Offshore Fabricators şirkəti ləğv edilmişdir.

| Adı | Cari aktivlər | Uzun-müddətli aktivlər | Cari öhdəlik-lər | Uzunmüd-dətli öhdəliklər | Gəlir | Mənfəət/ (zərər) | İştirak payı (%) | Təsis edildiyi ölkə |
|---|---|---|---|---|---|---|---|---|
| Carlina | 61,573 | 137,596 | (147,181) | (227,983) | 32,835 | (53,373) | 51% | Virciniya adaları (Britaniya) |
| Azgerneft | 18,365 | 22,644 | (19,799) | - | 26,640 | 6,692 | 40% | Azərbaycan |
| Azeri Fugro | 406 | 112 | (339) | (37) | 551 | (255) | 60% | Azərbaycan |
| Azfen | 16,575 | 6,340 | (9,072) | - | 36,008 | 207 | 60% | Azərbaycan |
| Bosshelf LLC | 13,788 | 460 | (13,766) | (74) | 34,297 | 204 | 50% | Azərbaycan |
| Azturqaz | 297 | 872 | (953) | - | 594 | (171) | 50% | Azərbaycan |
| Azeri M.I. Drilling Fluids | 51,407 | 3,614 | (41,463) | - | 95,812 | 10,419 | 51% | Azərbaycan |
| SOCAR – KPŞ | 555 | 620 | (1,107) | - | 3,442 | - | 50% | Azərbaycan |
| Oil and Gas Proservice | 4,390 | 132 | (763) | (613) | 3,424 | 1,316 | 30% | Azərbaycan |
| Ekol Mühəndislik Xidmətləri | 3,727 | 11,460 | (6,856) | (287) | 14,736 | (99) | 51% | Azərbaycan |
| Caspian Shipyard Company | 13,517 | 1,450 | (259) | - | 17,501 | 1,974 | 20% | Azərbaycan |
| SOCAR Petroleum QSC | 13,098 | 47,899 | (5,551) | (34,569) | 185,856 | 136 | 51% | Azərbaycan |
| SOCAR-UGE | 422 | 13,023 | (1,445) | - | - | (1,756) | 97% | Azərbaycan |
| SOCAR Umid | 2,028 | 129,629 | (18,123) | - | - | - | 80% | Azərbaycan |
| Sarmatia | 1,224 | - | (15) | - | 70 | (275) | 25% | Polşa |
| SOCAR Baglan LLC | 5,984 | 2,820 | (522) | (8,868) | - | (687) | 51% | Azərbaycan |
| SOCAR AQŞ | 226,638 | 3,542 | (38,590) | (46,308) | 144,028 | 71,396 | 51% | Azərbaycan |
| **Cəmi** | **433,994** | **382,213** | **(305,804)** | **(318,739)** | **595,794** | **35,728** | | |

31 dekabr 2009-cu il tarixinə Qrupun birgə müəssisələrində iştirak payı və həmin müəssisələrin maliyyə göstəriciləri haqqında ümumi məlumat, o cümlədən ümumi aktivlər, öhdəliklər, gəlir, mənfəət və ya zərər haqqında məlumat aşağıda əks etdirilir:

| Adı | Cari aktivlər | Uzun-müddətli aktivlər | Cari öhdəlik-lər | Uzun-müddətli öhdəlik-lər | Gəlir | Mənfəət/ (zərər) | İştirak payı (%) | Təsis edildiyi ölkə |
|---|---|---|---|---|---|---|---|---|
| Carlina | 15,109 | 200,615 | (112,841) | (262,150) | 18,812 | (36,842) | 51% | Virciniya adaları (Britaniya) |
| Azgerneft | 15,520 | 18,023 | (11,920) | - | 18,530 | 3,080 | 40% | Azərbaycan |
| Azeri Fugro | 760 | 42 | (404) | - | 886 | (18) | 60% | Azərbaycan |
| Azfen | 20,703 | 3,581 | (10,644) | - | 25,371 | 128 | 60% | Azərbaycan |
| Bosshelf LLC | 8,217 | 404 | (8,379) | (38) | 9,576 | 54 | 50% | Azərbaycan |
| Azturqaz | 380 | 859 | (827) | - | 732 | (129) | 50% | Azərbaycan |
| Caspian Offshore Fabricators | 1,120 | 17 | (104) | - | 571 | (15) | 50% | Azərbaycan |
| Azeri M.I. Drilling Fluids | 40,883 | 2,938 | (33,541) | - | 68,215 | 6,654 | 51% | Azərbaycan |
| SOCAR – KPŞ | 324 | 289 | (545) | - | 3,269 | (37) | 50% | Azərbaycan |
| Oil and Gas Proservice | 2,194 | 222 | (133) | (80) | 3,244 | 1,509 | 30% | Azərbaycan |
| Ekol Mühəndislik Xidmətləri | 4,462 | 7,156 | (8,608) | - | 9,509 | 278 | 51% | Azərbaycan |
| Caspian Shipyard Company | 17,774 | 2,201 | (721) | - | 52,812 | 10,556 | 20% | Azərbaycan |
| Energy Solutions Group | 59 | 3 | (507) | - | - | (15) | 51% | Azərbaycan |
| SOCAR Petroleum QSC | 9,965 | 24,773 | (13,997) | - | 81,928 | 144 | 51% | Azərbaycan |
| SOCAR-UGE | 124 | 12,605 | (242) | - | - | (1,405) | 97% | Azərbaycan |
| SOCAR Umid | 1,848 | 8,505 | (2,165) | - | - | (204) | 80% | Azərbaycan |
| Sarmatia | 451 | - | (290) | - | 79 | (1,524) | 25% | Polşa |
| SOCAR AQŞ | 111,366 | 2,783 | (20,851) | (19,411) | 118,468 | 46,530 | 51% | Azərbaycan |
| **Cəmi** | **251,259** | **285,016** | **(226,719)** | **(281,679)** | **412,002** | **28,744** | | |

2010-cu ilin mart ayında Qrup SOCAR CSCR birgə müəssisəsinin yaradılması məqsədilə digər iştirakçı ilə birgə saziş imzalamışdır. Müəssisənin məcmu kapitalı 0.1 AZN, Qrupun iştirak payı isə 51 faiz təşkil edir. Müəssisə 2011-ci ilin aprel ayında yaradılmışdır. 2010-cu ildə bu müəssisə hər hansı əməliyyat həyata keçirməmişdir.

2010-cu ilin iyun ayında Qrup SOCAR CAPE birgə müəssisəsinin yaradılması məqsədilə digər iştirakçı ilə birgə saziş imzalamışdır. Müəssisənin məcmu kapitalı 100 AZN, Qrupun iştirak payı isə 51 faiz təşkil edir. 2010-cu ildə bu müəssisə hər hansı əməliyyat həyata keçirməmişdir.

2010-cu ilin sentyabr ayında Qrup AGRI LNG Project birgə müəssisəsinin yaradılması məqsədilə digər iştirakçı ilə birgə saziş imzalamışdır. Müəssisənin məcmu kapitalı 76 AZN, Qrupun iştirak payı isə 33.33 faiz təşkil edir. 2010-cu ildə bu müəssisə hər hansı əməliyyat həyata keçirməmişdir.

31 dekabr 2010 və 2009-cu il tarixlərinə Qrupun Carlina və Energy Solutions Group birgə müəssisələrinə investisiya qoyuluşlarının balans dəyəri sıfıra bərabərdir. 31 dekabr 2010-cu il tarixinə Qrupun Carlina-nın uçota alınmamış zərərlərində payı həmin şirkətdəki investisiya payından artıq olmuşdur və 74,041 AZN (2009: 46,821 AZN) təşkil etmişdir.

## 17. Əlaqəli müəssisələrə īnvestisiyalar

Qrupun əlaqəli müəssisələrdəki investisiya qoyuluşlarının balans dəyərinin hərəkəti aşağıdakı cədvəldə göstərilir:

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| **1 yanvar 2010-cu il tarixinə balans dəyəri** | | **315,353** | **292,732** |
| Əlaqəli müəssisələrə investisiyaların dəyəri | | 3,829 | 301 |
| Əlaqəli müəssisələrin vergidən sonrakı maliyyə nəticələrində pay | | 99,080 | 89,854 |
| Əlaqəli müəssisələrdən alınmış dividentlər | 7 | (57,748) | (58,481) |
| Əlaqəli müəssisələrin uçotdan silinməsi | | (902) | (948) |
| Məzənnə fərqləri | | (8,527) | (8,105) |
| **31 dekabr 2010-cu il tarixinə balans dəyəri** | | **351,085** | **315,353** |

2010-cu ildə SOCAR Rodan və SOCAR ASM müəssisələri ləğv edilmişlər.

31 dekabr 2010-cu il tarixinə Qrupun əsas əlaqəli müəssisələrində iştirak payı və həmin müəssisələrin maliyyə göstəriciləri haqqında ümumi məlumat, o cümlədən ümumi aktivlər, öhdəliklər, gəlir, mənfəət və ya zərər haqqında məlumat aşağıda əks etdirilir:

| Adı | Cəmi aktivlər | Cəmi öhdəliklər | Gəlir | Mənfəət/ (zərər) | İştirak payı (%) | Təsis edildiyi ölkə |
|---|---|---|---|---|---|---|
| Azərbaycan BTC MMC | 764,572 | (535,896) | 273,569 | 240,480 | 23% | Kayman adaları |
| Caspian Geophysical | 4,544 | (80) | 6,123 | (1,351) | 45% | Azərbaycan |
| AzLab | 918 | (2) | 733 | 61 | 50% | Azərbaycan |
| Azeri Drilling Company | 11,523 | (89) | 20,037 | 7,890 | 35% | Azərbaycan |
| Azerbaijan John Brown | 128 | (2) | 414 | 16 | 40% | Azərbaycan |
| Cross Caspian Oil and Gas Logistics | 12,788 | (100) | 108,224 | 126 | 34% | Azərbaycan |
| SOCAR – ASM | 4,305 | (85) | 14,750 | 2,344 | 30% | Azərbaycan |
| Atəşgah Sığorta Şirkəti | 20,465 | (3,699) | 16,734 | 326 | 10% | Azərbaycan |
| Caspian Pipe Coatings MMC | 7,712 | (10) | 3,024 | 47 | 50% | Azərbaycan |
| Supra Holdinq | 2,442,178 | (10,211) | 15,775,048 | 68,290 | 50% | Malta |
| Cənubi Qafqaz Boru Kəməri Şirkəti | 1,054,694 | (997,512) | 169,213 | 60,475 | 10% | Kayman adaları |
| Cənubi Qafqaz Boru Kəməri Şirkəti Holdinq Şirkəti | 19,820 | (19,189) | 1,209 | 1,176 | 10% | Kayman adaları |
| Azərbaycan Qaz Təchizatı Şirkəti | 68,193 | (68,181) | 145,967 | - | 8% | Kayman adaları |
| **Cəmi** | **4,411,840** | **(1,635,056)** | **16,535,045** | **379,880** | | |

31 dekabr 2009-cu il tarixinə Qrupun əsas əlaqəli müəssisələrində iştirak payı və həmin müəssisələrin maliyyə göstəriciləri haqqında ümumi məlumat, o cümlədən ümumi aktivlər, öhdəliklər, gəlir, mənfəət və ya zərər haqqında məlumat aşağıda əks etdirilir:

| Adı | Cəmi aktivlər | Cəmi öhdəliklər | Gəlir | Mənfəət/ (zərər) | İştirak payı (%) | Təsis edildiyi ölkə |
|---|---|---|---|---|---|---|
| Azərbaycan BTC MMC | 710,130 | (52,815) | 266,223 | 241,033 | 23% | Kayman adaları |
| Caspian Geophysical | 3,923 | (1,926) | 8,891 | 1,916 | 45% | Azərbaycan |
| AzLab | 914 | (237) | 741 | 154 | 50% | Azərbaycan |
| Azerbaijan John Brown | 65 | (8) | 236 | (39) | 40% | Azərbaycan |
| Cross Caspian Oil and Gas Logistics | 5,290 | (5,208) | 65,493 | (176) | 34% | Azərbaycan |
| SOCAR – ASM | 8,353 | (7,814) | 30,309 | 118 | 30% | Azərbaycan |
| Atəşgah Sığorta Şirkəti | 18,646 | (11,905) | 14,359 | 870 | 10% | Azərbaycan |
| Caspian Pipe Coatings MMC | 7,482 | (677) | 795 | (2,232) | 50% | Azərbaycan |
| Supra Holdinq | 1,489,456 | (1,387,350) | 8,359,374 | 49,777 | 50% | Malta |
| Cənubi Qafqaz Boru Kəməri Şirkəti | 1,096,686 | (66,891) | 169,173 | 107,986 | 9.8% | Kayman adaları |
| Cənubi Qafqaz Boru Kəməri Şirkəti Holdinq Şirkəti | 21,091 | (614) | 1,403 | 1,370 | 10% | Kayman adaları |
| Azərbaycan Qaz Təchizatı Şirkəti | 9,396 | (9,383) | 50,013 | - | 8% | Kayman adaları |
| **Cəmi** | | | | | | |

31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə Qrupun Azərbaycan Qaz Təchizatı Şirkətində ("AQTŞ") 8 faiz iştirak payı olmuşdur. AQTŞ Azərbaycan Respublikası Yanacaq və Energetika Nazirliyi və Qrupun 10 faiz iştirak payı olan Xəzər dənizində qaz yatağının kəşfiyyatı, işlənməsi və hasilatı ilə bağlı şah dəniz hasilatın pay bölgüsü haqqında sazişin ("Şahdəniz HPBS") podratçı şirkətləri ilə birlikdə yaradılmışdır. AQTŞ Şah Dəniz yatağındakı qazın satışı ilə bağlı marketinq, mühasibat uçotu, billinq, ödəniş və digər inzibati fəaliyyət haqqında hesabatların hazırlanması üçün yaradılmışdır və mənfəət götürmədən/zərərə düşmədən fəaliyyət göstərir. Qrup AQTŞ üzərində əhəmiyyətli təsirə malikdir.

### 18. Birgə müəssisələrdən kredit üzrə debitor borcları

Birgə müəssisələrdən kredit üzrə debitor borcları SOCAR Petroleum və Carlina-ya verilmiş kreditlərdən ibarətdir. 31 dekabr 2010-cu il tarixinə Carlinanın debitor borcunun balans dəyəri 263,235 AZN (2009: 303,142 AZN) təşkil etmişdir. Həmin kredit üzrə illik faiz dərəcəsi hər rüb ödənilməsi şərti ilə LİBOR üstə gəl 2.5 faiz təşkil edir. Kreditin son ödəmə müddəti 28 dekabr 2014-cü il tarixində başa çatır. Carlinanın səhmdarları ilə AzAÇG arasında imzalanmış 28 dekabr 2006-cı il tarixli "Səhmlərin girovu və saxlanması haqqında saziş"ə və 12 aprel 2007-ci il tarixli "Səhmlərin Təminat kimi verilməsi və saxlanması haqqında Saziş"ə uyğun olaraq, Carlina-nın səhmdarları Carlina tərəfindən əldə edilmiş və ya əldə ediləcək bütün gəlir və vəsaitlərdə bütün hüquq və paylarını və Carlinadakı bütün səhmlərini və kapital paylarını AzAÇG-nin xeyrinə girov qoymuşlar. Qrupun rəhbərliyi hesab edir ki, həmin girovun dəyəri bu debitor borclarının balans dəyəri üçün kifayət qədər təminat yaradır.

Kredit sazişinin şərtlərinə uyğun olaraq, rübün sonunda Carlina hesablanmış faizi vaxtında ödəyə bilmədikdə, LİBOR üstə gəl 4.5 defolt faizi hesablanır. 31 dekabr 2010-cu və 2009-cu il tarixlərində başa çatan illər üzrə hesablanmış faiz gəlirləri, müvafiq olaraq, 11,590 AZN və 20,033 AZN təşkil etmişdir.

31 dekabr 2010 və 2009-cu il tarixlərinə Carlinanın debitor borcu üzrə Qrupa heç bir faiz ödənilmədiyinə görə həmin debitor borcunun vaxtı keçmişdir. Nəticədə, 2010-cu və 2009-cu illər ərzində əsas məbləğin ödənilməmiş hissəsi üzrə LİBOR üstə gəl 4.5 defolt faizi hesablanmışdır. 31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə vaxtı ötmüş debitor borclarının məbləğləri 64,504 AZN və 52,914 AZN təşkil etmişdir. Qeyd 37-də Carlina ilə bağlı hesabat tarixindən sonra baş verən hadisələr təsvir edilir. 2010-cu ildə Qrup bu debitor borcu ilə əlaqədar 95,748 AZN (2009: sıfır) məbləğində dəyərsizləşmə ehtiyatı tanımışdır.

SOCAR Petroleum şirkətindən 17,024 AZN məbləğində (2009: 8,749 AZN) kredit üzrə debitor borcu tələb əsaslıdır və faizsizdir.

## 19 Kreditor Borcları

| | | 2010 | 2009 |
|---|---|---|---|
| Kreditor borcları | | 2,191,712 | 1,604,814 |
| Hesablanmış öhdəliklər | | 111,272 | 289,195 |
| Sair kreditor borcları | | 15,965 | - |
| | | | |
| **Cəmi maliyyə kreditor borcları** | | **2,318,949** | **1,894,009** |
| | | | |
| Neftin overlifti üzrə öhdəliklər | | 39,796 | 120,453 |
| Müştərilərdən alınmış avanslar | | 48,163 | 31,603 |
| İşçilərə ödəniləcək məbləğlər | | 38,921 | 41,690 |
| **Cəmi kreditor borcları** | | **2,445,829** | **2,087,755** |

31 dekabr 2010-cu il tarixinə 1,670,226 AZN (2009: 1,513,741 AZN) məbləğində kreditor borcları, əsasən ABŞ dolları olmaqla, xarici valyutalarda ifadə olunmuşdur. Kreditor borclarına əsasən Qrupun təchizatçıları tərəfindən göstərilmiş qazma, nəqletmə və kommunal xidmətlər ilə bağlı ödəniləcək vəsaitlər daxildir.

Hesablanmış öhdəliklər AÇG və Şahdəniz HPBS-in operatoru tərəfindən hazırlanmış hesabatlarda göstərilən hesablanmış müvafiq öhdəliklərdə Qrupun payını əks etdirir.

Neftin overlifti üzrə öhdəliklər Qrupun AÇG və Şahdəniz HPBS-dəki iştirakçı payından artıq əldə edilmiş neftdən ibarətdir və Qrupun gələcək hasilatındakı paylarından fiziki ötürüləcək nefti əks etdirir.

## 20. Borc öhdəlikləri

| | 2010 | 2009 |
|---|---|---|
| **Qısamüddətli borc öhdəlikləri** | | |
| ABB-dan alınmış kredit vəsaiti | 585,353 | 16,065 |
| Deutsche Bank-dan alınmış kredit vəsaiti | 77,962 | 64,248 |
| Xalqbankdan alınmış kredit vəsaiti | 50,000 | 93,002 |
| Akbank T.A.Ş-dən alınmış kredit vəsaiti | 27,807 | 28,010 |
| Maliyyə Nazirliyindən alınmış kredit vəsaiti | 21,800 | - |
| Türkiye Garanti Bankasi A. Ş-dən alınmış kredit vəsaiti | 15,890 | 16,005 |
| Bank of Georgia-dan alınmış kredit vəsaiti | 14,014 | - |
| Yaponiya İxrac-İdxal Bankından alınmış kredit vəsaiti | 4,483 | - |
| Sair qısamüddətli borc öhdəlikləri | 12,246 | 6,883 |
| Hesablanmış ödəniləcək faizlər | 15,553 | 16,773 |
| Uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | 171,724 | 147,094 |
| | | |
| **Cəmi qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi** | **996,832** | **388,080** |
| | | |
| **Uzunmüddətli borc öhdəlikləri** | | |
| ABB-dan alınmış kredit vəsaiti | 1,148,950 | 1,727,598 |
| Akbank T.A.Ş/Türkiye Garanti Bankası A. Ş-dən alınmış kredit vəsaiti | 500,528 | 500,175 |
| BNP Paribas-dan alınmış kredit vəsaiti | 152,852 | - |
| Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankından (YBƏB) alınmış kredit vəsaiti | 143,825 | 132,403 |
| Yapı Kredi Bankdan alınmış kredit vəsaiti | 111,048 | - |
| ABN Amro/Citibank-dan alınmış kredit vəsaiti | - | 163,297 |
| West LB-dən alınmış kredit vəsaiti | 58,626 | - |
| Natixis S.A.-dan alınmış kredit vəsaiti | 56,484 | 24,093 |
| Societe Generale-dan alınmış kredit vəsaiti | 39,096 | - |
| Maliyyə Naziliyindən alınmış kredit vəsaiti | 12,225 | - |
| Lalaben-dən alınmış kredit vəsaiti | - | 49,454 |
| Beynəlxalq İnkişaf Assosiasiyasından (BİA) alınmış kredit vəsaiti | 5,251 | 6,926 |
| Sair uzunmüddətli borc öhdəlikləri | 5,683 | 7,042 |
| | | |
| **Çıxılsın:** | | |
| Uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | (171,724) | (147,094) |
| **Cəmi uzunmüddətli borc öhdəlikləri** | **2,062,844** | **,463,894** |
| **Cəmi borc öhdəlikləri** | **3,059,676** | **,851,974** |

Deutsche Bank-dan alınmış kredit vəsaiti. 29 oktyabr 2009-cu il tarixində Deutsche Bank Qrupa 12 ay müddətinə 80,000 min ABŞ dolları (64,000 AZN) məbləğində kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 2 faiz təşkil edir. 2010-cu ilin oktyabr ayında Qrup krediti tam olaraq ödəmiş və həmin bankla 12 ay müddətinə yeni kredit sazişini imzalamışdır. Bu kreditin cəmi məbləği 100,000 min ABŞ dolları (79,790 AZN), illik faiz dərəcəsi isə LİBOR üstə gəl 1.5 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 77,962 AZN (2009: 64,248 AZN) təşkil etmişdir.

ABB-dan alınmış kredit vəsaitləri. 21 may 2007-ci il tarixində ABB Qrupa 21 may 2010-cu il tarixinədək 36 ay müddətinə 50,000 min ABŞ dolları (39,895 AZN) limitində kredit xətti ayırmışdır. Bu kredit xətti üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 2 faiz təşkil etmişdir. 31 dekabr 2010-cu il tarixinə istifadə olunmuş kredit vəsaitləri Qrup tərəfindən tam şəkildə geri ödənilmişdir.

24 oktyabr 2007-ci il tarixində ABB Qrupa 24 oktyabr 2010-cu il tarixinədək 36 ay müddətinə 60,000 ABŞ dolları (47,874 AZN) limitində kredit xətti ayırmışdır. Bu kredit xətti üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 3 faiz təşkil etmişdir. 31 dekabr 2010-cu il tarixinə istifadə olunmuş kredit vəsaitləri Qrup tərəfindən tam şəkildə geri ödənilmişdir.

6 dekabr 2007-ci il tarixində ABB Qrupa 6 dekabr 2010-cu il tarixinədək 36 ay müddətinə ümumi məbləği 40,000 ABŞ dolları (31,196 AZN) həcmində əlavə kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 3 faiz təşkil etmişdir. 31 dekabr 2010-cu il tarixinə kredit Qrup tərəfindən tam şəkildə geri ödənilmişdir.

22 may 2008-ci il tarixində ABB Qrupa 22 may 2011-ci il tarixinədək 36 ay müddətinə 665 milyon ABŞ dolları (530,604 AZN) məbləğində kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 2 faiz təşkil edir. Həmin kredit üçün təminat şəklində ABB-də 665 milyon ABŞ dolları (530,604 AZN) məbləğində xüsusi depozit yerləşdirilmişdir (Qeyd 9). 31 dekabr 2010-cu il tarixinə həmin kredit üzrə qalıq 528,335 AZN (2008: 532,186 AZN) təşkil etmişdir.

29 dekabr 2008-ci il tarixindən 30 sentyabr 2009-cu il tarixinə qədər dövr ərzində Qrupun törəmə müəssisəsi olan "Azərikimya" SC-nin Qrup tərəfindən alınmasından əvvəl Qrup ABB-dən ümumi məbləği 39,000 AZN olan bir neçə kredit almışdır. Qrup ilə birləşmədən sonra bu kreditlərin şərtləri ABB ilə yenidən müzakirə edilmişdir. Yenidən baxılmış şərtlərə uyğun olaraq kreditlərin ödəmə müddəti 16 may 2011-ci il tarixində başa çatır və illik faiz dərəcəsi 3 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə həmin kreditlərin cəmi balans dəyəri 38,400 AZN təşkil etmişdir.

21 iyul 2009-cu il tarixində ABB Qrupa 2016-cı ilin iyul ayınadək Qrupun mövcud borclarının yenidən maliyyələşdirilməsi və investisiya fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə 84 ay müddətinə 750 milyon AZN məbləğində kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi 3 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə

qalıq 750,000 AZN (2009: 750,000 AZN) təşkil etmişdir ki, bunun da 125,000 AZN-i cari hissəyə aid olmuşdur.

27 iyul 2009-cu il tarixində Qrup ABB-dən 22 iyul 2014-cü il tarixinədək 3.5 sabit faiz dərəcəsi ilə 420,000 min ABŞ dolları (337,302 AZN) məbləğində yeni kredit almışdır. 2009-cu il ərzində Qrup, bu kredit vəsaiti üzrə daxilolmalar hesabına Viani şirkətinə olan 227 milyon ABŞ dolları (182,304 AZN) məbləğində borcunu ödəmişdir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 335,118 AZN (2009: 337,302 AZN) təşkil etmişdir. Bu borc öhdəliyinə ABB-də yerləşdirilmiş 420 milyon ABŞ dolları (335,118 AZN) məbləğində xüsusi nağd depozitlə təminat verilmişdir (Qeyd 9).

20 may 2010-cu il tarixində Qrup ABB-dən 20 may 2013-cü il tarixinədək 3.5 faiz dərəcəsi ilə 80,000 min ABŞ dolları (64,288 AZN) məbləğində yeni kredit almışdır. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 63,832 AZN (2009: sıfır) təşkil etmişdir. Bu borc öhdəliyinə ABB-də yerləşdirilmiş 80 milyon ABŞ dolları (63,832 AZN) məbləğində xüsusi nağd depozitlə təminat verilmişdir (Qeyd 9).

1 iyul 2010-cu il tarixində Qrup ABB-dən 2011-ci ilin aprel ayına qədər 1.65 faiz dərəcəsi ilə 20,000 min ABŞ dolları (15,958 AZN) məbləğində yeni kredit almışdır. Bu kredit vəsaiti üzrə daxilolmalar Azərbaycan Respublikasında qazlaşdırma proqramının tətbiqinə yönəldilmişdir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 10,639 AZN (2009: sıfır) təşkil etmişdir. Bu borc öhdəliyinə ABB-də yerləşdirilmiş 20 milyon ABŞ dolları (16,019 AZN) məbləğində xüsusi nağd depozitlə təminat verilmişdir (Qeyd 9).

4 avqust 2010-cu il tarixində Qrup ABB-dən 4 aprel 2011-ci il tarixinədək 14 faiz dərəcəsi ilə 30 milyon ABŞ dolları (23,937 AZN) məbləğində yeni kredit almışdır. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 7,979 AZN (2009: sıfır) təşkil etmişdir.

14 may 2010-cu il tarixində ABB Qrupa 40 milyon ABŞ dolları (31,916 AZN) məbləğində kredit xətti ayırmışdır. Bu kredit xəttinə Qrupun ABB-də olan 40 milyon ABŞ dolları (31,916 AZN) məbləğində depozitlə təminat verilmişdir. 31 dekabr 2010-cu il tarixinə Qrup bu kredit xəttindən istifadə etməmişdir.

Akbank T.A.Ş-dən alınmış kredit vəsaiti. 4 dekabr 2009-cu il tarixində Akbank T.A.Ş Qrupa 6 aprel 2011-ci il tarixində ödənilmək şərti ilə 35,000 min ABŞ dolları (27,927 AZN) məbləğində kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi 2.1 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 27,807 AZN (2009: 28,010 AZN) təşkil etmişdir.

Akbank T.A.Ş./Türkiye Garanti Bankası A.Ş.-dən alınmış kredit vəsaiti. 2008-ci ilin may ayında Qrup aparıcı kreditorlar qismində çıxış edən Türkiye Garanti Bankası A.Ş. və Akbank T.A.Ş-dən ümumi həcmi 625 milyon ABŞ dolları təşkil edən sindikatlaşdırılmış kredit vəsaiti almışdır. 2008-ci ilin may ayından 2012-ci ilin may ayınadək bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 3 faiz, 2012-ci ilin may

ayından 2017-ci ilin may ayınadək isə LİBOR üstə gəl 4 faiz təşkil edir. Kreditin 2011-ci ildən başlayaraq əvvəlcədən müəyyən edilmiş 7 (yeddi) illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. Kreditin ödəmə müddəti 30 iyun 2017-ci il tarixində başa çatır. Bu kredit sazişinin şərtlərinə uyğun olaraq, borc öhdəlikləri Qrupa Petkim Şirkətinin alınmasının maliyyələşdirilməsi üçün verilmişdir (Qeyd 26). Qrup Petkim şirkətinin səsvermə hüquqlu səhmlərinin 51 faizinə sahib olan STEAŞ törəmə müəssisəsindəki 99.75 faizlik iştirak payını bu kredit əvəzinə girov qoymuşdur. 31 dekabr 2010-cu il tarixinə həmin kredit üzrə qalıq 500,528 AZN (2009: 500,175) təşkil etmişdir ki, bunun da 16,585 AZN-i cari hissəyə aid olmuşdur.

Türkiye Garanti Bankasi A. Ş-dən alınmış kredit vəsaiti. 4 dekabr 2009-cu il tarixində Türkiye Garanti Bankasi A. Ş Qrupa 4 aprel 2011-ci il tarixində ödənilmək şərti ilə 20,000 min ABŞ dolları (16,005 AZN) məbləğində kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi 1.95 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 15,890 AZN (2009: 16,005 AZN) təşkil etmişdir.

ABN Amro/Citibank-dan alınmış kredit vəsaiti. 2008-ci ilin fevral ayında Qrup ilə ABN AMRO Bank N. V London filialı və Citibank N.A London filialının başçılığı ilə xarici banklar sindikatı arasında 610 milyon ABŞ dolları (486,719 AZN) həcmində kreditin ayrılmasına dair kredit sazişi imzalanmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 1.75 faiz təşkil edir və 2010-cu ilin fevral ayından başlayaraq kreditin üç yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. Kreditin ödəmə müddəti 1 aprel 2011-ci il tarixində başa çatır. Bu kredit vəsaiti üzrə daxilolmalar Petkim şirkətinin alınmasına yönəldilmişdir. Bu kredit üzrə minimal faiz tələbləri və cəmi borc limiti daxil olmaqla, müəyyən maliyyə və qeyri-maliyyə şərtləri mövcuddur. 31 dekabr 2010-cu il tarixində kredit Qrup tərəfindən tam şəkildə geri ödənilmişdir (2009: 163,297 AZN).

Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankından alınmış kredit vəsaiti. 1 iyul 2009-cu il tarixindən etibarən Qrupun tabeliyinə keçmiş Azəriqaz QSC 2000-ci ilin aprel ayında Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı ilə 20 sentyabr 2009-cu il tarixindən başlayaraq 60 yarımillik hissədə ödənilmək şərti ilə illik 1.5 faiz dərəcəsi ilə 15,462,232 min Yapon yeni məbləğində kredit sazişi imzalamışdır. Kreditin ödəmə müddəti 20 sentyabr 2039-cu il tarixində başa çatır. Bu kredit vəsaiti üzrə daxilolmalar Azərbaycan Respublikasında qazlaşdırma proqramının tətbiqinə yönəldilmişdir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 143,825 AZN (2009: 132,403) təşkil etmişdir ki, bunun da 4,866 AZN-i cari hissəyə aid olmuşdur.

2 aprel 2010-cu il tarixindən etibarən Qrupun tabeliyinə keçmiş "Azərikimya" SC 26 fevral 1998-ci il tarixində Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı ilə 21 iyul 2001-ci il tarixindən başlayaraq 20 yarımillik hissədə ödənilmək şərti ilə illik 2.5 faiz dərəcəsi ilə 9,150,250 min Yapon yeni məbləğində kredit sazişi imzalamışdır. Kreditin ödəmə müddəti 21 yanvar 2011-ci il tarixində başa çatır. Bu kredit hesabına

daxilolmalar buxar əmələ gətirən avadanlığın quraşdırılmasına yönəldilmişdir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 4,483 AZN təşkil etmişdir.

Lalaben-dən alınmış kredit vəsaiti. 20 iyul 2007-ci il tarixində Qrup ilə Lalaben arasında Avans Ödənişi haqqında Saziş imzalanmışdır. 2007-ci ildə Avans ödənişi haqqında Saziş çərçivəsində ARDNŞ-ın qaz hasil edən aktivlərinin yenilənməsi və təmiri məqsədilə Qrupa 300 milyon ABŞ dolları (240,930 AZN) ("EMN krediti") məbləğində maliyyə vəsaiti ayrılmışdır. Lalaben öz növbəsində BNP Paribas, ABN Amro Bank N.V. və Societe Generale banklarının rəhbərliyi ilə banklar və maliyyə təşkilatları sindikatından 300 milyon ABŞ dolları (239,370 AZN) məbləğində borc vəsaiti almışdır. EMN Kredit Sazişinə uyğun olaraq Qrupa təqdim edilmiş kredit vəsaitləri üzrə illik faiz dərəcəsi aşağıdakı kimi olmuşdur: 20 iyul 2007-ci il tarixdən 20 iyul 2010-cu il tarixinə qədər dövr üçün LİBOR üstə gəl 0.6 faiz, 20 iyul 2010-cu il tarixdən 20 iyul 2011-ci il tarixinə qədər dövr üçün LİBOR üstə gəl 0.75 faiz, 20 iyul 2011-ci il tarixdən 20 iyul 2012-ci il tarixinə qədər dövr üçün LİBOR üstə gəl 0.9 faiz və 20 iyul 2012-ci il tarixdən sazişin müddətinin sonuna qədər dövr üçün LİBOR üstə gəl 0.975 faiz. Həmin borc vəsaiti üzrə faiz və əsas məbləğ hər rübün sonunda ödənilir. EMN Kredit Sazişi çərçivəsində ayrılmış borc öhdəliklərinin ödəmə müddəti 20 iyul 2013-cü il tarixində başa çatır.

EMN Kredit Sazişinin şərtlərinə uyğun olaraq Ehtiyat Mənfəət Neftinin satışından əldə edilmiş gəlirlər Qrupun EMN Kredit Sazişi üzrə Lalaben qarşısında öhdəlikləri tam şəkildə yerinə yetirilənə qədər müştərilər tərəfindən birbaşa olaraq Lalaben-in BNP Paribas bankındakı cari hesablarına köçürülür.

EMN Kredit Sazişinə əsasən Lalaben-ə ödəniləcək məbləğ 31 dekabr 2010-cu il tarixinə tam şəkildə geri ödənilmişdir (31 dekabr 2009: 49,454 AZN).

Natixis S.A. Bank-dan alınmış kredit vəsaiti. 16 dekabr 2009-cu il tarixində Natixis S.A. Bank (Fransa) Qrupa 36 ay müddətinə 30 milyon ABŞ dolları məbləğində kredit ayırmışdır. Bu kredit 2010-cu ildən başlayaraq qabaqcadan müəyyən edilmiş ödənişlərlə geri qaytarılmalıdır. Həmin kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 5 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 17,409 AZN (2009: 24,093 AZN) təşkil etmişdir ki, bunun da 8,704 AZN-i cari hissəyə aid olmuşdur.

2010-cu ilin may ayında Qrup ilə Natixis S.A. Bank arasında 31 may 2013-cü il tarixinədək 36 ay müddətinə 50 milyon ABŞ dolları məbləğində yeni kredit sazişi imzalanmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 3.75 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 39,075 AZN (31 dekabr 2009: sıfır) təşkil etmişdir ki, bunun da 13,298 AZN-i cari hissəyə aid olmuşdur.

BİA-dan alınmış kredit vəsaiti. Azəriqaz QSC 1996-cı ilin iyul ayında BİA ilə 15 dekabr 2001-ci il tarixindən başlayaraq 29 yarımillik hissədə ödənilmək şərti ilə hesabat tarixində Dünya Bankının Valyuta Səbətinin Kreditlərinə tətbiq edilən 7.79 faiz dərəcəsi ilə 17,234 min ABŞ dolları məbləğində kredit sazişi imzalamışdır. Kreditin

müddəti 15 iyun 2016-cı il tarixində başa çatır. Bu kredit vəsaiti üzrə daxilolmalar Azərbaycan Respublikasında qazlaşdırma proqramının tətbiqinə yönəldilmişdir. 31 dekabr 2010-cu il tarixində bu kredit üzrə qalıq 5,251 AZN (2009: 6,926 AZN) təşkil etmişdir ki, bunun da 131 AZN-i cari hissəyə aid olmuşdur.

BNP Paribas-dan alınmış kredit vəsaiti. 19 mart 2010-cu il tarixində Qrup ilə BNP Paribas arasında 2013-cü ilin mart ayında ödənilmək şərtilə ümumi korporativ məqsədlər üçün 250 milyon ABŞ dolları məbləğində yeni kredit sazişi imzalanmışdır. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə 200 milyon ABŞ dolları istifadə edilmişdir. Həmin kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 4 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 152,852 AZN (2009: sıfır) təşkil etmişdir.

WEST LB-dən alınmış kredit vəsaiti. 2010-cu ilin iyul ayında Qrup ilə WEST LB Bankı arasında 2013-cü ilin iyul ayınadək 75 milyon ABŞ dolları məbləğində yeni kredit sazişi imzalanmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 3.85 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə həmin kredit üzrə qalıq 58,626 AZN (2009: sıfır) təşkil etmişdir.

YapıKredi Bank-dan alınmış kredit vəsaiti. 2010-cu ilin iyul ayında Qrup ilə YapıKredi Bank arasında 2013-cü ilin iyul ayınadək 100 milyon ABŞ dolları məbləğində yeni kredit sazişi imzalanmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 3.65 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə həmin kredit üzrə qalıq 79,790 AZN (2009: sıfır) təşkil etmişdir.

2010-cu ilin avqust ayında Qrup YapıKredi Bank-dan 2012-ci ilin yanvar ayındadək 4,150 min ABŞ dolları məbləğində daha bir kredit vəsaiti cəlb etmişdir. Bu kredit üzrə illik faiz dərəcəsi 5.5 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 3,311 AZN (2009: sıfır) təşkil etmişdir.

2010-cu ilin dekabr ayında Qrup 2013-cu ilin dekabr ayınadək 35 milyon ABŞ dolları məbləğində yeni kredit sazişi imzalamışdır. Bu kredit üzrə illik faiz dərəcəsi LİBOR üstə gəl 4 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 27,947 AZN (2009: sıfır) təşkil etmişdir.

Societe Generale-dan alınmış kredit vəsaiti. 2010-cu ilin dekabr ayında Societe Generale Qrupa 2013-cü ilin dekabr ayınadək 36 ay müddətinə ümumi korporativ məqsədlər üçün 50 milyon ABŞ dolları məbləğində kredit ayırmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi 4 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 39,096 AZN (2009: sıfır) təşkil etmişdir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyindən alınmış kredit vəsaiti. 17 fevral 2003-cü il tarixində Maliyyə Nazirliyi Azərikimya SC-yə 1 yanvar 2008-ci il tarixinədək 3 il müddətinə 12,400 AZN məbləğində kredit ayırmışdır. Kreditin vaxtında ödənilməməsinə baxmayaraq, heç bir sanksiya tətbiq etməmişdir. Bu kredit üzrə illik faiz dərəcəsi 1 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 12,400 AZN təşkil etmişdir.

20 noyabr 2003-cü il tarixində Maliyyə Nazirliyi "Azərikimya" SC-yə 20 noyabr 2007-ci il tarixinədək 4 il müddətinə 9,400 AZN məbləğində kredit ayırmışdır. Kreditin vaxtında ödənilməməsinə baxmayaraq, heç bir sanksiya tətbiq etməmişdir. Bu kredit üzrə faiz sıfıra bərabərdir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 9,400 AZN təşkil etmişdir.

Qrup kredit müqaviləsinin şərtlərinin dəyişdirilməsi, o cümlədən borcun bağışlanması üçün Maliyyə Nazirliyi ilə danışıqlar aparır. Qrup rəhbərliyi bu danışıqların müsbət nəticələnəcəyinə ümid edir.

15 iyul 2009-cu il tarixində Maliyyə Nazirliyi Azərikimya SC-yə 1 dekabr 2013-cü il tarixinədək 4 il müddətinə 8,584 AZN məbləğində kredit ayırmışdır. Bu kredit üzrə nominal illik faiz sıfıra bərabərdir və pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və hesabat tarixinə müvafiq öhdəliyə xas olan riskləri əks etdirən vergidən əvvəl faiz dərəcəsi hesab edilən 2.5 effektiv faiz dərəcəsinə əsasən diskontlaşdırılmışdır. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 8,021 AZN təşkil etmişdir.

19 aprel 2010-cu il tarixində Maliyyə Nazirliyi Qrupa 1 iyun 2014-cü il tarixinədək 4 il müddətinə 4,204 AZN məbləğində kredit ayırmışdır. Bu kredit üzrə nominal illik faiz sıfıra bərabərdir və pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və hesabat tarixinə müvafiq öhdəliyə xas olan riskləri əks etdirən vergidən əvvəl faiz dərəcəsi hesab edilən 2.5 effektiv faiz dərəcəsinə əsasən diskontlaşdırılmışdır. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 4,204 AZN təşkil etmişdir.

Bank of Georgia-dan alınmış kredit vəsaiti. 2010-cu ilin iyul ayında Qrup ilə Bank of Georgia arasında 2011-ci ilin dekabr ayınadək 23,574 min ABŞ dolları məbləğində kredit sazişi imzalanmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi 13 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 14,014 AZN (31 dekabr 2009: sıfır) təşkil etmişdir.

Xalqbankdan alınmış kredit vəsaiti. 2009-cu ilin dekabr ayında Qrup ilə Xalqbank arasında 28 yanvar 2010-cu il tarixinədək 1 ay müddətinə 93,002 AZN məbləğində kredit sazişi imzalanmışdır. 2010-cu ilin yanvar ayında Qrup bu kredit müqaviləsi üzrə öhdəliyini tam yerinə yetirmişdir.

2010-cu ilin iyul ayında Qrup ilə Xalqbank arasında 2011-ci ilin mart ayınadək 8 ay müddətinə 50,000 AZN məbləğində yeni kredit sazişi imzalanmışdır. Bu kredit üzrə illik faiz dərəcəsi 3.15 faiz təşkil edir. 31 dekabr 2010-cu il tarixinə bu kredit üzrə qalıq 50,000 AZN (2009: sıfır) təşkil etmişdir. Xalqbank-dan alınmış kredit 2011-ci ildə tam şəkildə geri ödənilmişdir.

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| Valyutalar: | | |
| - ABŞ dolları | 2,036,591 | 1,863,207 |
| - AZN | 872,543 | 845,752 |
| - Yapon yeni | 148,308 | 132,403 |
| - YTL | 1,773 | 2,537 |
| - Gürcü larisi | 461 | 8,075 |
| | | |
| **Cəmi borc öhdəlikləri** | **3,059,676** | **2,851,974** |

## 21. Vergilər üzrə sair kreditor borcları

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| ARDNF-ə ödəniləcək məbləğ | 7122,834 | 122,981 |
| Qiymət marjası üzrə ödəniləcək vergi | 18,317 | 12,984 |
| Ödəniləcək ƏDV | 12,809 | 10,176 |
| Əmlak vergisi və rüsumlar | 10,895 | 8,326 |
| Əmək haqqı vergisi | 4,851 | 2,690 |
| Vergi cərimələri və faizləri | 2,255 | 1,104 |
| Sosial sığorta ayırmaları | 1,211 | 2,632 |
| Ödəniləcək sair vergilər | 17,061 | 26,402 |
| | | |
| | | |
| **Cəmi ödəniləcək sair vergilər** | **190,233** | **187,295** |

2008-ci ildə adi ixrac vergisindən başqa, Qrup xam neftin dövlət büdcəsi ilə müəyyən edilmiş qiymətdən (2009-cu ildə bir barrel üçün 50 ABŞ dolları) artıq qiymətlə satışından əldə etdiyi gəlirin müəyyən hissəsinin Azərbaycan Respublikası Dövlət Neft Fonduna ("ARDNF") köçürülməsinə görə cavabdeh olmuşdur. 2010-cu və 2009-cu illər ərzində Qrupa qarşı belə vergilər tətbiq edilməmişdir.

## 22. Aktivlərin ləğv olunması üzrə öhdəliklər

Qrup neft-qaz avadanlıqlarının istismardan çıxarılması və ətraf mühitin təmizlənməsi ilə bağlı hüquqi və praktiki təcrübədən irəli gələn öhdəlik daşıyır. Aktivlərin ləğv olunması üzrə müvafiq öhdəliklər üçün ehtiyatların hərəkəti aşağıda göstərilir:

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| **1 yanvar tarixinə balans dəyəri** | | **170,727** | **86,201** |
| | | | |
| Əlavələr | | 16,162 | (2,064) |
| Diskontlaşdırılmış dəyərə düzəliş | 32 | 14,252 | 6,865 |
| Diskont dərəcəsindəki dəyişikliyin təsiri | | 124,402 | 79,911 |
| Məzənnə fərqləri | | (911) | (186) |
| | | | |
| **31 dekabr tarixinə balans dəyəri** | | **324,632** | **170,727** |

Qrup neft və qaz hasilatı qurğularının silinməsi və müvafiq boru kəmərləri üzrə gələcək dəyər üçün həmin qurğuların sökülməsinin cari dəyəri əsasında diskontlaşdırma prinsipi ilə tam ehtiyat yaradır. Ehtiyat mövcud texnologiyadan istifadə etməklə cari qiymətlərə əsasən hesablanmış və pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və hesabat tarixinə müvafiq öhdəliyə xas olan riskləri əks etdirən faiz dərəcəsi hesab edilən vergidən əvvəl faiz dərəcələrinə əsasən diskontlaşdırılmışdır. Bu xərclərin mədənlər və neft-qaz əmlakı üzrə faydalı istifadə müddəti (müvafiq olaraq hesabat tarixindən etibarən 14-72 il) ərzində yaranması gözlənilir.

31 dekabr 2010-cu il tarixinə aktivlərin ləğv olunması üzrə öhdəliklərə xüsusilə sahənin bərpası üzrə təxmin edilmiş öhdəliklərə aid olan 53,034 AZN (2009: 34,582 AZN) daxildir. 31 dekabr 2010-cu il tarixinə neft-qaz hasilatı obyektləri, boru kəmərləri və müvafiq emal və avadanlıqların istismardan çıxarılması ilə bağlı təxmin edilən xərclər, o cümlədən ləğvetmə və sahənin bərpası xərcləri 241,819 AZN (2009: 102,579 AZN) təşkil etmişdir və neft-qaz əmlakı və avadanlığının maya dəyərinə daxil edilmişdir.

Diskont edilmiş nağd pul hərəkətlərinin hesablanması zamanı aşağıdakı inflyasiya dərəcələri tətbiq edilmişdir:

| İl | 2011 | 2012 | 2013 | 2014 | 2015 və sonra |
|---|---|---|---|---|---|
| İnflyasiya dərəcəsi | 6.0% | 4.0% | 3.0% | 3.0% | 3.0% |

Yaradılmış ehtiyat, qurğular və kəmərlərin gələcək xərcləri üzrə ən dəqiq təxminlərə və onların faydalı istifadə müddətinə əsaslansa da, bu xərclərin məbləği və yaranma müddəti ilə bağlı qeyri-müəyyənlik mövcuddur.

HPBS-lərə aid aktivlərin ləğv olunması üzrə öhdəliklər podratçılar tərəfindən çəkilmiş kapital məsrəflərinə əsasən müəyyən edilir. Bunlar podratçılar tərəfindən çəkilmiş kapital məsrəflərinin 10 faizi ilə məhdudlaşır və onların ödənilməsi müvafiq HPBS-lərin başa çatma müddətləri ilə əlaqədardır. Hökumət orqanları qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Müvafiq olaraq, Qrupun əsas öhdəlikləri uçota alınmış məbləğlərdən fərqli ola bilər.

## 23 Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar

Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatların hərəkəti aşağıda göstərilir:

| | Qeyd | Ətraf mühit ilə bağlı öhdəliklər | Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər | İstifadə edilməmiş məzuniyyətə görə öhdəliklər | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2009-cu il tarixinə balans dəyəri** | | **446,925** | **49,543** | **6,990** | **503,458** |
| Təxminlərdə dəyişiklik | | (51,172) | 4,320 | 19,264 | (27,588) |
| Öhdəliklərin tükənməsi | | (50,118) | (8,564) | (23,421) | (82,103) |
| Diskontlaşdırılmış dəyərə düzəliş | 32 | 35,754 | 3,960 | - | 39,714 |
| Diskont dərəcəsindəki dəyişiklik | | 35,155 | (9,838) | - | 25,317 |
| | | | | | |
| **31 dekabr 2009-cu il tarixinə balans dəyəri** | | **416,544** | **39,421** | **2,833** | **458,798** |
| o cümlədən: | | | | | |
| Cari | | 89,665 | 9,794 | 2,833 | 102,292 |
| Uzunmüddətli | | 326,879 | 29,627 | - | 356,506 |
| | | | | | |
| **1 yanvar 2010-cu il tarixinə balans dəyəri** | | **416,544** | **39,421** | **2,833** | **458,798** |
| Təxminlərdə dəyişiklik | | (12,284) | 11,013 | 28,836 | 27,565 |
| Öhdəliklərin tükənməsi | | (33,810) | (7,647) | (23,363) | (64,820) |
| Diskontlaşdırılmış dəyərə düzəliş | 32 | 34,990 | 3,215 | - | 38,205 |
| Diskont dərəcəsindəki dəyişiklik | | 10,979 | 10,544 | | 21,523 |
| | | | | | |
| **31 dekabr 2010-cu il tarixinə balans dəyəri** | | **416,419** | **56,546** | **8,306** | **481,271** |
| o cümlədən: | | | | | |
| Cari | | 179,879 | 10,892 | 8,306 | 199,077 |
| Uzunmüddətli | | 236,540 | 45,654 | - | 282,194 |

Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2006-cı il tarixli 1697 nömrəli Sərəncamına uyğun olaraq Qrup, Abşeron yarımadasında fəaliyyət göstərməsi nəticəsində ətraf mühitin çirklənməsi ilə əlaqədar olaraq "Ətraf Mühitin Bərpası üzrə Kompleks Tədbirlər Planı" hazırlamış və təsdiqləmişdir. 2009-cu ildə Qrup Tədbirlər Planında Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Sərəncamına uyğun olaraq düzəlişlər aparmışdır. Bu məqsədlə ayrılmış ehtiyat ətraf mühitin bərpası üzrə çəkiləcək gələcək xərclərin cari dəyərində uçota alınmışdır. Qrup, müvafiq xərclərin 2011-2013-cü illər ərzində çəkiləcəyini proqnozlaşdırır.

Qrup, əmək funksiyasını yerinə yetirərkən işçinin sağlamlığına və səhhətinə ziyan vurulduqda, habelə bu səbəbdən həlak olması ilə əlaqədar onun ailə üzvlərinə kompensasiyanın ödənilməsi üçün məsuliyyət daşıyır. Kompensasiya məbləği zərər çəkmiş işçilərə ödənilmiş əmək haqlarına uyğun olaraq hesablanır. ARDNŞ, əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlərin cari dəyərini 6.91 faizlik diskont dərəcəsi ilə hesablamışdır. Əmək funksiyasını yerinə yetirərkən sağlamlığına və səhhətinə ziyan dəymiş işçilərə ömürlük müavinətlərin hesablanması zamanı ARDNŞ ömür uzunluğunu kişilər üçün 70 yaş, qadınlar üçün isə 75 yaş müəyyən etmişdir. Qeyd 22-də göstərilən inflyasiya dərəcələri orta əmək haqqındakı artıma uyğun olaraq tətbiq edilmişdir.

## 24. Təxirə salınmış gəlirlər

Qrup Bakı şəhərinin ətraf qəsəbələrinin və Azərbaycan Respublikasının rayonlarının qazlaşdırılması məqsədilə dövlət qrantı almışdır və bu qrantları aşağıdakı cədvəldə göstərildiyi kimi təxirə salınmış gəlirlərdə uçota almışdır:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| **1 yanvar tarixinə balans dəyəri** | **105,778** | **-** |
| | | |
| Müəssisələrin birləşməsi nəticəsində alışlar | - | 110,178 |
| Müvafiq köhnəlməyə uyğun təxirə salınmış gəlirlərin amortizasiyası | (4,595) | (4,400) |
| | | |
| **31 dekabr tarixinə balans dəyəri** | **101,183** | **105,778** |

## 25 Sair Uzunmüddətli Öhdəliklər

Sair uzunmüddətli öhdəliklərə aşağıdakılar daxildir:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| Əmək fəaliyyətinə xitam verilməsi ilə bağlı ödənişlər üzrə ehtiyatın yaradılması | 39,529 | 39,095 |
| Rəhbər işçilərə həvəsləndirici mükafatların verilməsi üzrə ehtiyatın yaradılması | 1,730 | 1,594 |
| Sair öhdəliklər | 49,838 | - |
| | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **91,097** | **40,689** |

Qrup Türkiyə Respublikasının Əmək Qanununa uyğun olaraq bir il əmək fəaliyyəti göstərmiş və kifayət qədər əsaslandırılmamış səbəbə görə əmək müqaviləsinə xitam verilmiş və ya hərbi xidmətə çağırılmış, vəfat etmiş və ya 25 illik əmək fəaliyyətindən (qadınlar üçün 20 il) sonra təqaüdə çıxmış hər bir işçiyə əmək fəaliyyətinin dayandırılması ilə bağlı təminatlar ödəməlidir. 31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə hər bir xidmət ili üzrə ödəniləcək məbləğ maksimum 1 AZN məbləğinədək məhdudlaşdırılmış bir aylıq əmək haqqından ibarətdir.

Maliyyə tələbləri olmadığına görə öhdəlik maliyyələşdirilmir. Ehtiyat işçilərin təqaüdə çıxması ilə bağlı Qrupun gələcəkdə yaranması ehtimal edilən öhdəliyinin cari dəyərinin təxmin edilməsi vasitəsilə hesablanır. 19 saylı BMS-ə uyğun olaraq müəssisələrin pensiya planında nəzərdə tutulan öhdəliyini hesablamaq üçün aktuari üsulları tətbiq edilməlidir. Müvafiq olaraq, ümumi öhdəliyin hesablanması üçün aşağıdakı aktuari fərziyyələri istifadə edilmişdir:

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| Diskont dərəcəsi (%) | | 4.66 | 5.92 |
| Təqaüdə çıxma ehtimalı (%) | | 100 | 100 |

Əmək fəaliyyətinin hər bir ili üçün maksimal öhdəliyin inflyasiyaya görə artması əsas fərziyyə hesab edilir. Buna görə, tətbiq edilmiş diskont dərəcəsi gələcəkdə baş verəcək inflyasiyanın gözlənilən təsirinə düzəliş etdikdən sonra gözlənilən faktiki dərəcəni əks etdirir.

Əmək müqaviləsinə xitam verilməsi üzrə təminatların hərəkəti aşağıdakı cədvəldə göstərilir:

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| **1 yanvar tarixinə balans dəyəri** | | **39,095** | **44,233** |
| Aktuari zərəri və xidmətlərin dəyəri | | 5,998 | 4,032 |
| İl ərzində ödənişlər | | (6,031) | (11,789) |
| Sair | | 467 | 2,619 |
| **31 dekabr tarixinə balans dəyəri** | | **39,529** | **39,095** |

Cəmi 5,998 AZN (2009: 4,032 AZN) məbləğində aktuari zərəri və xidmətlərin dəyəri ümumi və inzibati xərclərə daxil edilmişdir.

Sair öhdəliklər əsasən ayrı-ayrı neft və qaz layihələrinə əsasən Qrupun öz

## 26. Alış üzrə təxirə salınmış kreditor borcları

30 may 2008-ci il tarixində Qrup törəmə müəssisəsi olan STEAŞ vasitəsilə əsas etibarı ilə Türkiyədə, eləcə də beynəlxalq bazarlarda müxtəlif neft-kimya məhsullarının istehsalı və satışı ilə məşğul olan aparıcı neft-kimya konserni Petkim Petrokimya Holding A.Ş-də ("Petkim") səsvermə hüquqlu səhmlərinin 51 faizini almışdır.

Petkim şirkətinin alınması ilə əlaqədar olaraq Qrupun Türkiyə Özəlləşdirmə İdarəsi Nazirliyinə ("İdarə") 380 milyon ABŞ dolları (317,832 AZN) məbləğində təxirə salınmış pul ödənişi yaranmışdır. 40 milyon ABŞ dolları (32,992 AZN) məbləğində təxirə salınmış pul ödənişi 30 may 2010-cu il tarixində ödənilmişdir. Qalan məbləğ isə İdarəyə 30 may 2011-ci il tarixində ödənilməlidir. İdarəyə ödəniləcək borc məbləği LİBOR üstə gəl 1 faiz dərəcəsi daşıyır.

31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə təxirə salınmış alış ödənişinin balans dəyəri müvafiq olaraq 272,935 AZN və 308,954 AZN təşkil etmişdir.

## 27. Nizamnamə kapitalı və bölüşdürülməmiş mənfəət

Nizamnamə kapitalı

Qrupun baş müəssisəsi olan ARDNŞ dövlət müəssisəsi hüquqi statusuna malikdir. Qrup təsis edildiyi tarixdə Azərbaycan Hökuməti Qrupun nizamnamə kapitalına 22,726 AZN köçürmə etmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 dekabr 2008-ci il tarixli, 436s nömrəli Sərəncamına uyğun olaraq Qrupun nizamnamə kapitalı 600,000 AZN məbləğində artırılmışdır. Qrup, bu məbləğin 400,000 AZN-lik hissəsini 2008-ci ildə, qalan hissəsini isə 2009-cu ildə əldə etmişdir.

2010-cu il ərzində Qrupun nizamnamə kapitalı 246,532 AZN artırılmışdır. Bu artım qismən digər dövlət müəssisəsi olan "Azərikimya" SC-nin alınması (Qeyd 36) ilə əlaqədardır. Bu alış nəticəsində "Azərikimya" SC-nin 10,006 AZN məbləğində nizamnamə kapitalı Qrupun nizamnamə kapitalı ilə birləşdirilmişdir. Artımın 236,526 AZN məbləğində qalan hissəsi isə Nazirlər Kabinetinin 22 oktyabr 2010-cu il tarixli, 183 nömrəli qərarına əsasən təmin edilmişdir. Bu qərara əsasən nizamnamə kapitalı 2010-cu il ərzində dövlət büdcəsindən Qrupun nizamnamə kapitalının artırılmasına yönəldilmiş 99,986 AZN məbləğində nağd pul hesabına, 22,480 AZN büdcəyə ödəniləcək məbləğlərlə əvəzləşdirilmişdir və 114,060 AZN bölüşdürülməmiş mənfəət hesabına keçirilmişdir. Qrupun artırılmış nizamnamə kapitalı 2010-cu ilin yanvar ayında qeydiyyata alınmışdır.

Dövlətə ayırmalar

Dövlətin qərarlarına uyğun olaraq vaxtaşırı Qrupdan dövlət büdcəsi, ayrı-ayrı dövlət idarələri və hökumətin həyata keçirdiyi layihələr üçün pul şəklində birbaşa maliyyə qoyuluşlar etməsi və ya inşaat və təmir işlərinin maliyyələşdirilməsi vaxtaşırı tələb olunur. 2010-cu il ərzində bu cür qoyuluşların və maliyyələşdirmənin məbləğləri müvafiq olaraq 190,712 AZN və 224,990 AZN (2009: müvafiq olaraq 143,698 AZN və 142,340 AZN) təşkil etmişdir və əsasən Azərbaycan Respublikasında mövcud olan, həmçinin yeni istirahət, nəqliyyat, təhsil və tibb infrastrukturunun təmiri və yenidən qurulması üçün istifadə edilmişdir.

## 28. Gəlirlərin kateqoriyalar üzrə təhlili

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| Xalis neft məhsulları | 1,748,931 | 1,524,504 |
| Neft-kimya məhsulları | 1,651,468 | 1,068,525 |
| Xalis xam neft | 1,160,595 | 939,154 |
| Təbii qaz | 766,735 | 549,963 |
| Sair gəlirlər | 199,536 | 113,835 |
| | | |
| | | |
| **Cəmi gəlirlər** | **5,527,265** | **4,195,981** |

Xam neftin satışından əldə olunan gəlirlər, xam neftin beynəlxalq bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiyməti arasındakı qiymət marjası üzrə müvafiq vergi çıxılmaqla göstərilir. Bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiymət arasındakı fərqə 30 faiz dərəcəsində vergi tətbiq edilir və vergi məbləği Dövlət Büdcəsinə köçürülür.

Neft məhsullarının satışından yaranan gəlirlər 389,549 AZN (2009: 362,209 AZN) məbləğində aksiz vergisi çıxılmaqla göstərilir.

AÇG HPBS üzrə hasil edilmiş xam neftin və Şah Dəniz HPBS üzrə hasil edilmiş kondensatın satışından yaranan gəlirlərdən yuxarıda göstərilən aksiz və qiymət marjası üzrə vergilər tutulmur.

## 29. Xərclərin kateqoriyalar üzrə təhlili

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| İstifadə edilən xammal və xərc materialları | | 1,672,378 | 1,266,663 |
| Əsas vəsaitlərin köhnəlməsi | | 649,641 | 590,655 |
| Əmək haqqı, maaş və sosial müdafiə xərcləri | | 555,090 | 455,776 |
| Təmir və texniki xidmət xərcləri | | 245,965 | 143,278 |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | 14 | 360,047 | 241,639 |
| Kommunal xərclər | | 212,377 | 50,920 |
| Mədən vergisi | | 121,583 | 120,519 |
| Nəqliyyat və nəqliyyat vasitələrinin istismarı | | 115,148 | 109,148 |
| Mənfəət vergisindən başqa sair vergilər | | 62,322 | 77,567 |
| Amortizasiya xərcləri | 15 | 16,006 | 13,744 |
| Əvvəlki illərdə debitor borcları üzrə dəyərsizləşmə üzrə ehtiyatın geri qaytarılması/debitor borclarının dəyərsizləşməsi çıxılmaqla | | (288,435) | (523,671) |
| Sair | | 426,940 | 257,532 |
| **Cəmi satış dəyəri, kəşfiyyat və qiymətləndirmə, paylaşdırma, ümumi və inzibati, tədqiqat və işlənmə və sair əməliyyat xərcləri** | | **4,149,062** | **2,803,770** |

2010-cu ildə Qrup ayrı-ayrı müştərilərindən qismən nağd pul vəsaitlərinin yığılması və qismən müştərilər qarşısında kreditor borclarının əvəzləşdirilməsi vasitəsilə 2009-cu ildə silinmiş 197,007 AZN məbləğində debitor borclarını yığmışdır. Əlavə olaraq 2010-cu ildə Qrup birgə müəssisələrdən alınacaq kredit borcları üzrə 95,748 AZN məbləğində ehtiyat yaratmışdır (Qeyd 18).

## 30. Sair əməliyyat gəlirləri

| | | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| Sair malların satılması və xidmətlərin göstərilməsi | | 138,956 | 204,708 |
| Sığorta gəlirləri | | 10,996 | - |
| Sair | | 28,626 | - |
| | | | |
| **Cəmi sair əməliyyat gəlirləri** | | **178,578** | **204,708** |

## 31. Maliyyə gəlirləri

| | | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| Depozitlər və bank hesabları üzrə faiz gəlirləri | | 45,100 | 44,664 |
| Əlaqəli tərəflərə verilmiş kreditlər üzrə faizlər | | 11,590 | 20,033 |
| Sair | | 10,485 | 2,981 |
| | | | |
| **Cəmi maliyyə gəlirləri** | | **67,175** | **67,678** |

## 32. Maliyyə xərcləri

| | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| | | | |
| Faiz xərcləri | | 122,734 | 117,460 |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatlar: diskontlaşdırılmış dəyərə düzəliş | 22 | 14,252 | 6,865 |
| Ətraf mühit ilə bağlı öhdəliklər üçün ehtiyatlar: diskontlaşdırılmış dəyərə düzəliş | 23 | 34,990 | 35,754 |
| Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üçün ehtiyatlar: diskontlaşdırılmış dəyərə düzəliş | 23 | 3,215 | 3,960 |
| Borc öhdəlikləri üzrə kapitallaşdırılmış xərclər çıxılmaqla | | - | (828) |
| **Konsolidasiya edilmiş ümumi gəlir haqqında hesabatda uçota alınmış cəmi maliyyə xərcləri** | | **175,191** | **163,211** |

## 33. Mənfəət vergisi

Mənfəət vergisi üzrə xərclər aşağıdakılardan ibarətdir:

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| Cari vergi xərcləri | 301,758 | 361,123 |
| Təxirə salınmış vergi xərci | 280,506 | 114,642 |
| **İl üzrə mənfəət vergisi xərci** | **582,264** | **475,765** |

Gözlənilən və faktiki vergi xərclərinin tutuşdurulması aşağıda göstərilir:

| | 2010 | 2009 |
|---|---|---|
| | | |
| **Vergidən əvvəl mənfəət** | **1,238,004** | **1,369,343** |
| Qanunvericiliklə müəyyən edilmiş 20 faiz vergi dərəcəsinə əsasən hesablanmış mənfəət vergisi (2009: 22 faiz) | 247,601 | 301,255 |
| Müəyyən törəmə müəssisələr üzrə müxtəlif vergi dərəcələrinin effekti (25 faiz) | 18,931 | 7,104 |
| Vergiyə cəlb edilən dividend gəlirləri (10 faiz) | (12,173) | - |
| Vergi məqsədləri üçün çıxılmayan xərclər və ya vergidən azad edilməyən gəlirlərin vergi effekti: | | |
| - Vergidən azad edilən gəlirlər | (71,714) | (79,008) |
| - Gəlirdən çıxılmayan xərclər | 325,555 | 199,440 |
| Keçmiş illərin zərərləri üzrə tanınmamış təxirə salınmış vergi aktivi | (18,713) | - |
| Tanınmamış vergi aktivləri üzrə ehtiyat ayırmaları | 88,654 | 13,238 |
| Əvvəlki illərin cari vergisi üzrə düzəlişlər | 3,097 | (1,518) |
| Mənfəət vergisi dərəcəsindəki dəyişikliyin təsiri (20 faiz) | - | 41,514 |
| Sair | 1,026 | (6,260) |
| **İl üzrə mənfəət vergisi xərci** | **582,264** | **475,765** |

Gəlirdən çıxılmayan xərclər, həmçinin gələcəkdə vergiyə cəlb olunan mənfəətdən çıxılmayacaq vaxtı keçmiş debitor borcları üzrə ehtiyat da daxil olmaqla, əsasən gəlirdən çıxılmayan əməliyyatlar üzrə xərclərdən, o cümlədən sosial yönümlü və işçilər üzrə xərclərdən ibarətdir. Tanınmamış təxirə salınmış vergi aktivləri üzrə ehtiyat ayırmaları əsasən Qrupun törəmə müəssisələrinin yığılmış vergi zərərlərini əks etdirir və bu vergi zərərlərinin istifadəsi gözlənilmir.

31 dekabr 2010-cu və 2009-cu il tarixlərində tanınmamış təxirə salınmış vergi aktivlərinin məbləği 163,187 AZN və 74,533 AZN təşkil etmişdir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 1 yanvar 2010-cu il tarixindən etibarən Azərbaycan Respublikasında mənfəət vergisi dərəcəsi 22 faizdən 20 faizə azaldılmışdır.

BMHS və müvafiq vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə məlumatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| | **1 yanvar 2010-cu il** | **Mənfəət / (zərər) tanınmışdır** | **Çevirmə fərqi** | **31 dekabr 2010-cu il** |
|---|---|---|---|---|
| | | | | |
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Hesablanmış gəlirlər | 8,250 | (7,301) | - | 949 |
| Keçmiş illərin zərərləri | - | 129,686 | - | 129,686 |
| Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat | 430,253 | (377,901) | - | 52,352 |
| Mal-material ehtiyatları | 14,303 | 2,861 | (3) | 17,161 |
| Əsas vəsaitlər | 130,890 | 14,649 | 128 | 145,667 |
| Öhdəliklər və məsrəflər üzrə | 81,104 | (43,623) | 692 | 38,173 |
| Kreditor borcları | - | 4,229 | - | 4,229 |
| Sair | (19,177) | 38,223 | 1,709 | 20,755 |
| **Təxirə salınmış vergi aktivi** | **645,623** | **(239,177)** | **2,526** | **408,972** |

| | 1 yanvar 2010-cu il | Mənfəət / (zərər) tanınmışdır | Çevirmə fərqi | 31 dekabr 2010-cu il |
|---|---|---|---|---|
| | | | | |
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Hesablanmış öhdəliklər | (2,648) | 9,490 | (32) | 6,810 |
| Əlaqəli və birgə müəssisələrə investisiya qoyuluşları | - | (47,186) | - | (47,186) |
| Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat | (74,821) | 56,271 | 117 | (18,433) |
| Mal-material ehtiyatları | 14,702 | (15,152) | - | (450) |
| Əsas vəsaitlər | (469,250) | (38,425) | 9,708 | (497,967) |
| Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar | 30,979 | (24,653) | (52) | 6,274 |
| Keçmiş illərin zərərləri | 23,022 | (13,233) | (283) | 9,506 |
| Əmək müqaviləsinə xitam verilməsi üzrə ödənişlər | 8,449 | 295 | (290) | 8,454 |
| Sair | (8,460) | 31,264 | 1,048 | 23,852 |
| **Təxirə salınmış vergi öhdəliyi** | **(478,027)** | **(41,329)** | **10,216** | **(509,140)** |

BMHS və müvafiq vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə məlumatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər yaranır. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| | 1 yanvar 2009-cu il | Müəssisələrin birləşməsi nəticəsində əldə edilmiş | Mənfəət / (zərər) tanınmışdır | 31 dekabr 2009-cu il |
|---|---|---|---|---|
| | | | | |
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Hesablanmış gəlir | 46,095 | - | (37,845) | 8,250 |
| Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat | 441,019 | 99,816 | (110,582) | 430,253 |
| Mal-material ehtiyatları | 11,652 | 1,504 | 1,147 | 14,303 |
| Əsas vəsaitlər | 53,472 | (33,047) | 110,465 | 130,890 |
| Öhdəliklər və məsrəflər üzrə | 106,602 | 18,025 | (43,523) | 81,104 |
| Sair | 52 | 13,094 | (32,323) | (19,177) |
| **Təxirə salınmış vergi aktivi** | | **99,392** | **(112,661)** | **645,623** |

| | 1 yanvar 2009-cu il | Mənfəət / (zərər) tanınmışdır | Çevirmə fərqi | 31 dekabr 2009-cu il |
|---|---|---|---|---|
| | | | | |
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Hesablanmış öhdəliklər | (5,970) | 15,461 | (12,139) | (2,648) |
| Əlaqəli və birgə müəssisələrə investisiya qoyuluşları | (16,315) | 16,315 | - | - |
| Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat | (30,459) | (5,107) | (39,255) | (74,821) |
| Mal-material ehtiyatları | 12,872 | 1,830 | - | 14,702 |
| Əsas vəsaitlər | | (4,639) | 10,394 | (469,250) |
| Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar | 20,851 | (8,133) | 18,261 | 30,979 |
| Keçmiş illərin zərərləri | 14,479 | 8,543 | - | 23,022 |
| Əmək müqaviləsinə xitam verilməsi üzrə ödənişlər | 9,432 | (983) | - | 8,449 |
| Sair | (8,485) | (25,268) | 25,293 | (8,460) |
| | | | | |
| **Təxirə salınmış vergi öhdəliyi** | | **(1,981)** | **2,554** | |

Qrup konsolidasiya edilmiş vergi bəyannaməsini təqdim etmir. Qrupun cari strukturu baxımından Qrupun ayrı-ayrı müəssisələrinin vergi zərərləri və cari vergi aktivləri Qrupun digər müəssisələrinin cari vergi öhdəlikləri və vergiyə cəlb olunan mənfəəti ilə əvəzləşdirilə bilməz. Bu səbəbdən təxirə salınmış vergi aktiv və öhdəliklər yalnız vergiyə cəlb olunan eyni müəssisəyə aid olduqda qarşılıqlı şəkildə əvəzləşdirilir.

Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq bir dövrdə yaranmış vergi zərərləri beşilədək davam edən sonrakı dövrlərə keçirilə bilər.

Qrup, törəmə müəssisəsi olan AzAÇG vasitəsilə AÇG HPBS-in iştirakçısıdır. Lakin, AzAÇG AÇG HPBS-də Podratçı tərəf kimi xüsusi şəkildə göstərilməmişdir. Nəticədə, onun vergi ödəyicisi statusu aydın şəkildə müəyyən edilmir. Müvafiq vergi orqanları ilə cari danışıqlara əsasən rəhbərlik hesab edir ki, Podratçı Tərəf statusu retrospek–tiv olaraq veriləcək və beləliklə AzAÇG artıq vergi ödəyicisi statusunu almış hesab edilir. Hazırda Şirkət AÇG HPBS-nin müddəalarına uyğun olaraq 25 faiz dərəcəsində mənfəət vergisi hesablayır və ödəyir. Vergi orqanları tərəfindən AzAÇG-yə verilmiş və 19 sentyabr 2019-cu il tarixinə qədər qüvvədə olan ƏDV şəhadətnaməsinə uyğun olaraq AzAÇG-yə AÇG HPBS üzrə Podratçı tərəflər üçün nəzərdə tutulan sıfır dərəcəsində ƏDV tətbiq edilir.

Bundan əlavə, Qrup törəmə müəssisəsi olan Azərbaycan (Şah Dəniz) MMC ("AzŞD") vasitəsilə Şah Dəniz HPBS-nin iştirakçısıdır. Şah Dəniz HPBS-nin müddəalarına uyğun

olaraq hər bir Podratçı tərəfin mənfəət vergilərinə görə Azərbaycan Respublikasının müvafiq qurumları cavabdehdir. AzŞD Azərbaycan Respublikasında müəyyən adi əməliyyat vergilərindən azad edilmişdir. Vergi orqanları tərəfindən AzŞD-yə verilmiş və 3 iyun 2026-cı il tarixinə qədər qüvvədə olan ƏDV şəhadətnaməsinə uyğun olaraq AzŞD-yə Şah Dəniz HPBS üzrə Podratçı Tərəflər üçün nəzərdə tutulan sıfır dərəcəsində ƏDV tətbiq edilir.

Qrup törəmə müəssisəsi olan Petkim şirkəti vasitəsilə Türkiyədə fəaliyyət göstərir (Qeyd 26). Türkiyədə mənfəət vergisi dərəcəsi 20 faiz təşkil edir. Türkiyə Respublikasının qanunvericiliyinə uyğun olaraq dividendlər Türkiyədə fəaliyyət göstərən qeyri-rezident şəxslərə 15 faiz dərəcəsində mənbədə tutulan vergi tətbiq edilmir. Mənfəət vergisi rüblük ödənilir. Bundan əlavə, Türkiyənin Mənfəət Vergisi haqqında Qanunvericiliyində müəssisələr üçün bir çox güzəştlər nəzərdə tutulur. Bu güzəştlərə vergi bazasının müəyyən edilməsi zamanı investisiyaların 25 faizə qədər mənfəətdən çıxılması da daxildir.

## 34. Əhəmiyyətli nağdsız īnvestisiya və maliyyələşdirmə fəaliyyətləri

Aşağıda pul vəsaitlərinin hərəkəti haqqında hesabata daxil edilməyən və pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin istifadəsini tələb etməyən investisiya və maliyyələşdirmə əməliyyatları göstərilmişdir:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| **Nağdsız şəkildə investisiya əməliyyatları** | | |
| Əsas vəsaitlərin dövlətə köçürülməsi | 54,049 | 43,451 |
| İnvestisiya qoyulan şirkətə əsas vəsait qoyuluşu | 65,000 | - |
| Əsas vəsaitlərin üçüncü tərəflərə köçürülməsi | 250 | - |
| | | |
| | | |
| **Nağdsız şəkildə investisiya əməliyyatları** | **119,299** | **43,451** |

## 35. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

Əməliyyat mühiti. Qrupun əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Bazar iqtisadiyyatlı yeni ölkə kimi hazırda Azərbaycan daha yetkin bazar iqtisadiyyatına xas olan biznes və tənzimləyici infrastruktura malik deyildir.





Azərbaycan Respublikasında iqtisadi şərait inkişaf etsə də, iqtisadi vəziyyətdə yeni yaranmış bazar iqtisadiyyatına səciyyəvi xüsusiyyətlər müşahidə olunmaqdadır. Bunlara milli valyutanın Azərbaycan Respublikasından xaricdə əksər ölkələrdə sərbəst dönərli valyuta hesab edilməməsi və bununla məhdudlaşmayan bu kimi xüsusiyyətlər daxildir. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır.

Azərbaycan Respublikasında iqtisadi sabitliyin gələcək perspektivləri hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən, eləcə də vergi, hüquqi, normativ və siyasi hadisələrin gedişatından xeyli dərəcədə asılıdır. Rəhbərlik Qrupun əməliyyatlarına təsir göstərə biləcək bütün iqtisadi tendensiyaları, eləcə də onların Qrupun maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq iqtidarında deyildir.

Azərbaycan iqtisadiyyatı dünyanın digər bölgələrindəki bazar tənəzzülü və iqtisadi inkişaf tempinin aşağı düşməsinə həssasdır. Azərbaycan hökuməti tərəfindən bir sıra sabitləşdirmə tədbirlərinin görülməsinə baxmayaraq, Qrupun və onun qarşı tərəflərinin kapitaldan istifadəsi və kapitalın dəyəri ilə bağlı qeyri-müəyyənlik davam etməkdədir ki, bu da Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və biznes perspektivlərinə təsir göstərə bilər. Hazırda biznes fəaliyyətinin sabitliyini təmin etmək üçün rəhbərlik hesab etdiyi bütün münasib tədbirlərin görülməsinə baxmayaraq, yuxarıda təsvir edilmiş sahələrdə vəziyyətin gözlənilməz dərəcədə pisləşməsi Qrupun maliyyə vəziyyətinə və fəaliyyətinin nəticələrinə hazırda dəqiq müəyyən edilə bilməyən mənfi təsir göstərə bilər.

Bu qeyri-müəyyənliklərin gələcəkdə aydınlaşdırılmasından yarana biləcək hər hansı düzəlişlər əlavə edilən maliyyə hesabatlarında əks etdirilməmişdir. Belə düzəlişlər (əgər varsa), məlum olduğu və təxmin edildiyi dövrdə hesabatda göstəriləcəkdir.

Məhkəmə prosedurları. Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Qrupa qarşı iddialar irəli sürülür. Qrupun rəhbərliyi öz təxminlərinə və daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı müvafiq olaraq konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlardan başqa heç bir əhəmiyyətli zərər olmayacaqdır.

Vergi qanunvericiliyi. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericili–yi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Qrupun rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi



düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaqdır və Qrupun potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır. Müvafiq olaraq, 31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

Ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər. Hazırda Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Qrup, ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin mühafizəsi haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı Qrup tərəfindən ətraf mühitin bərpası öhdəliyi üzrə yaradılmış ehtiyatdan artıq əhəmiyyətli öhdəliklər mövcud deyil. Qeyd 23-ə baxın.

Qrup öz məhsulları, əməliyyatları və digər fəaliyyətləri ilə əlaqədar olaraq ətraf mühitin mühafizəsi haqqında bir sıra qanun və qaydalara riayət etməlidir. Bu qanun və qaydalara əsasən Qrup və ya digər müəssisələr tərəfindən əvvəlki illərdə kimyəvi və ya neft maddələrinin ləğv edilməsi və ya tullantısı nəticəsində ətraf mühitə dəymiş ziyanı aradan qaldırmalıdır. Bu cür vəziyyət neftayırma zavodları, kimya müəssisələri, neft mədənləri, xidmət məntəqələri, terminallar və tullantıların ləğv edilməsi məntəqələri kimi müxtəlif ərazilərdə mövcud ola bilər. Bundan əlavə, Qrupun əvvəlki illərdə satılmış aktivlər və ya bağlanmış obyektlər ilə bağlı öhdəlikləri ola bilər. Ətraf mühitə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əsas tələb və bununla bağlı xərcləri müəyyən etmək mahiyyətcə çətindir. Lakin, ətraf mühit üzrə məlum öhdəliklərin qiymətləndirilmiş dəyəri Qrupun uçot siyasətinə uyğun olaraq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmişdir. Gələcək xərclərin məbləğinin nəzərəçarpan ola bilməsi və bu cür xərclərin qeydə alındığı dövrdə Qrupun əməliyyat nəticələri üçün əhəmiyyətli ola bilməsinə baxmayaraq bununla bağlı məbləğlərin müəyyən edilməsi praktiki deyildir. Qrup, bu cür xərclərin Qrupun maliyyə vəziyyətinə və ya likvidliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcəyini gözləmir.

Qrup həmçinin neft və təbii qaz hasilatı obyektlərinin və əlaqəli kəmərlərin istismardan çıxarılması ilə bağlı öhdəliklərə malikdir. Bu fəaliyyət növləri ilə bağlı təxmin edilmiş xərclər üzrə ehtiyat yaradılır, lakin, həmin öhdəliklərin uzunmüddətli olmasına görə, bu cür xərclərin məbləği və vaxtı ilə bağlı qeyri-müəyyənlik mövcuddur. Qrup, bu cür ehtiyatlar üzrə dəqiqliklə təxmin edilə biləcək hər hansı dəyişikliyin Qrupun əməliyyat nəticələri, maliyyə vəziyyəti və ya likvidliyinə təsirinin əhəmiyyətli olmayacağını hesab edir.

Xüsusi maliyyə şərtlərinə riayət olunması. Qrup aldığı borc öhdəlikləri üzrə müqavilələrdə nəzərdə tutulan xüsusi maliyyə şərtlərinə riayət etmək məcburiyyətindədir. Bu cür xüsusi şərtlərə əməl edilməməsi Qrup üçün mənfi nəticələrə, o cümlədən borc öhdəliklərinin dəyərinin artmasına və defolt vəziyyətinin elan edilməsinə gətirib çıxara bilər. Rəhbərlik hesab edir ki, 31 dekabr 2010-cu və 2009-cu il tarixlərinə Qrup qüvvədə olan bütün xüsusi maliyyə şərtlərinə riayət etmişdir.

Alınmış və verilmiş zəmanətlər. 31 dekabr tarixinə alınmış və verilmiş zəmanətlər aşağıdakı cədvəldə əks etdirilir.

| | 2010 | 2009 |
|---|---|---|
| **Alınmış zəmanətlər** | | |
| | | |
| Alınmış zəmanət məktubları | 145,543 | 186,991 |
| Birbaşa sifarişlərin toplanması sistemi (DOCS) çərçivəsində Bank zəmanətləri | 106,392 | 21,695 |
| Sair | 1,028 | 5 |
| | | |
| **Cəmi alınmış zəmanətlər** | **252,963** | **208,691** |

| | 2010 | 2009 |
|---|---|---|
| **Verilmiş zəmanətlər** | | |
| | | |
| Petkim şirkətinin alınması üçün verilmiş zəmanət məktubu | 296,778 | 363,103 |
| Verilmiş zəmanət çekləri | 35,973 | 37,205 |
| Verilmiş zəmanət məktubları | 22,303 | 30,836 |
| Birbaşa sifarişlərin toplanması sistemi (DOCS) çərçivəsində Bank zəmanətləri | 28,008 | 28,967 |
| | | |
| **Cəmi verilmiş zəmanətlər** | **383,062** | **460,111** |

31 dekabr 2010-cu il tarixinə Qrupun Petkim şirkətinin (Qeyd 26) alınması üçün 500,528 AZN (Qeyd 20) məbləğində kredit üzrə kreditor borcu olmuşdur. Həmin kredit sazişlərinə uyğun olaraq Qrupa məxsus olan Petkim şirkətinin səhmlərinin 51 faizi kreditor bankların xeyrinə girov qoyulmuşdur (Qeyd 20).

Petkim şirkətinin səhmlərinin əldə edilməsi ilə bağlı alınmış yuxarıda qeyd olunan borc vəsaiti üzrə müəyyən xüsusi şərtlər mövcuddur. Buraya pul və pul şəklində olmayan dividendlərin ödənilməsi, eləcə də Petkim şirkətindən alınmış dividendlərin investisiyası ilə bağlı şərtlər daxildir. Bundan əlavə, Qrup bir neçə xüsusi maliyyə və qeyri-maliyyə şərtlərinə riayət etməlidir. Xüsusi maliyyə şərtlərinə əsasən şirkətin kapitalı, konsolidasiya edilmiş borc təminatı, konsolidasiya edilmiş faiz təminatı və borca-xidmət əmsalları daxildir. Bu xüsusi şərtlər yerinə yetirilmədiyi təqdirdə yuxarıda qeyd olunmuş banklar kreditin ödənilməmiş hissəsini geri çağırmaq hüququna malikdir. Qrup konsolidasiya edilmiş borc təminatı və konsolidasiya edilmiş faiz təminatı əmsallarına riayət edilmədiyi halda ona qarşı sanksiyaların tətbiq edilməyəcəyinə dair razılıq sənədi əldə etmişdir. Eyni kredit sazişində nəzərdə tutulan digər şərt isə Petkim şirkətinin ətraf mühitlə bağlı qüvvədə olan qanunvericiliyə əməl etməsini təmin etmək üçün Qrupun Petkim şirkətində zəruri işlərin müəyyən edilməsi və tamamlanması öhdəliyini öz üzərinə götürməsidir.

"Səhmlərin Alqı-satqı Müqaviləsi"nə əsasən Qrup, bu Müqaviləni imzaladıqdan sonra növbəti üç il ərzində Petkim şirkətinin nəzarət səhm paketində dəyişikliyə səbəb olacaq miqdarda səhmlərin ötürülməsi üçün İdarənin razılığınının alınması öhdəliyini öz üzərinə götürmüşdür.

Qrup Petkim terminalında infrastruktur və xidmətlərin həyata keçirilməsi üçün müəyyən məbləğdə investisiya qoyuluşlarının həyata keçirilməsi, zavodların hasilat həcminin artırılması və "Səhmlərin alqı-satqı müqaviləsinin" imzalanmasından sonra növbəti üç il ərzində yeni zavodların qurulması üçün öhdəlik götürmüşdür. Qrup həmçinin, Etilen zavodunda istehsalın davam etdirilməsi və Qrupa təsir göstərməyən gözlənilməz hadisələr istisna olmaqla, "Alqı-satqı Müqaviləsi"nin imzalanmasından sonra ən azı üç il ərzində müəyyən məbləğdə investisiya qoyuluşlarının həyata keçirilməsi üçün öhdəlik götürmüşdür.

Qrup Petkim şirkətinin alınmasından əvvəlki dövrə aid olan bütün əməliyyatlara, uçota alınmamış debitor borclarına, kreditor borclarına və öhdəliklərə görə məsuliyyət daşıyır. Qrup yuxarıda qeyd olunan məsələlər üzrə İdarə və ya Petkim şirkəti üçün öhdəlik yarada bilən iddia irəli sürmək və ya müqaviləni ləğv etmək hüququna malik olmadığını qəbul etmişdir və öhdəlik götürmüşdür. Bu öhdəlik səhmlərin davamlı köçürülməsi üçün etibarlı sayılacaqdır.

Azəriqaz İB-nin öhdəliyi. Azəbaycan Respublikasının Bakı şəhəri və ətraf rayonlar və Respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilmiş ölkə Prezidentinin 14 aprel 2009-cu il tarixli 80 saylı Sərəncamına uyğun olaraq, Azəriqaz İB

sözügedən ərazilərin qazlaşdırılması imkanlarının təkmilləşdirilməsi ilə bağlı müəyyən öhdəliklər daşıyır. Həmin fərmana uyğun olaraq Azəriqaz İB köhnə magistral və yerli qaz kəmərlərinin yenilənməsi, yeni yaşayış massivlərinin/regionların/ucqar rayonların qazlaşdırılması, eləcə də magistral qaz xətlərinin, sənaye obyektlərində və əhalinin köhnə qaz sayğaclarının yenilənməsi ilə məşğul olacaqdır.

Rəhbərlik Qrupun 2011-2013-cu illər ərzində həmin proqramın həyata keçirilməsi ilə bağlı məsrəflərinin 1,071,000 AZN məbləğində olacağını təxmin edir.

AQTŞ qarşısında şərti öhdəlik. AQTŞ və Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyi arasında imzalanmış 27 fevral 2003-cü il tarixli "Qazın alqı-satqısına dair müqavilə"yə (hazırda bu müqavilə üzrə alış hüquqları Qrup tərəfindən həyata keçirilir) uyğun olaraq, Qrup müqavilədə qeyd olunduğu kimi, satıcının minimal illik qaz satışı həcmini almaq öhdəliyinə malikdir. Satıcının minimal illik qaz satışı həcminin alınması üzrə öhdəliyin məbləği 86,840 min ABŞ dolları (69,290 AZN) təşkil edir.

AÇG HPBS-də iştirak payı. 31 dekabr 2010-cu il tarixinə AÇG HPBS-nin Operatoru olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bir sıra kapital öhdəlikləri və əməliyyat lizinqi üzrə müqavilələr bağlamışdır. Qrup həmin öhdəliklər və əməliyyat lizinqində 10 faizlik payının müvafiq olaraq 654,407 AZN ekvivalentinə bərabər olan 820,162 min ABŞ dolları (2009: 386,143 AZN ekvivalentinə bərabər olan 480,815 min ABŞ dolları) və 11,234 min AZN ekvivalentinə bərabər olan 13,988 min ABŞ dolları (2009: 51,532 AZN ekvivalentinə bərabər olan 64,585 min ABŞ dolları) təşkil edəcəyini təxmin etmişdir.

Şahdəniz HPBS-də iştirak payı. 31 dekabr 2010-cu il tarixinə Şahdəniz HPBS-nin Operatoru olan BP Exploration Shahdeniz Limited şirkəti (Şahdəniz HPBS-nin Operatoru) bir sıra kapital öhdəlikləri üzrə müqavilələr bağlamışdır. Qrup həmin öhdəliklərdə 10 faizlik payının 43,400 AZN ekvivalentinə bərabər olan 54,041 min ABŞ dolları təşkil edəcəyini təxmin etmişdir (2009: 12,415 AZN ekvivalentinə bərabər olan 15,559 min ABŞ dolları).

AQTŞ-də iştirak payı ilə bağlı şərti öhdəliklər. Qeyd 17-də göstərildiyi kimi, Qrupun AQTŞ-də iştirak payı 8 faiz təşkil edir. AQTŞ ilə bağlanılmış müqavilələrə əsasən Qrupun AQTŞ-nin fəaliyyəti ilə bağlı aşağıdakı öhdəlikləri vardır:

- Qaz müqaviləsi. BOTAŞ şirkəti ilə imzalanmış müqaviləyə əsasən AQTŞ 2010-cu il və sonrakı illərdə Qaz Müqaviləsində müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə təqribən 6.3 milyard kub metr qaz hasil edəcəkdir.
- Gürcüstan hökuməti qarşısında qaz öhdəliyi. Gürcüstan Neft və Qaz

Korporasiyası ilə imzalanmış müqaviləyə əsasən AQTŞ Müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə 2010-cu ildə təqribən 0.3 milyard kub metr qaz hasil edəcəkdir. 2011-ci ildə isə bu rəqəm 0.5 milyard kub metrə qədər artırılacaqdır.

- Bakı-Tbilisi-Ceyhan neft boru kəməri şirkəti ("BTC") ilə imzalanmış alqı-satqı müqaviləsi. Bu müqaviləyə əsasən AQTŞ 2010-cu ildən başlayan müqavilə ilində və "Plato dövrü" olan sonrakı üç il ərzində Müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə təqribən 0.23 milyard kub metr qaz hasil edəcəkdir.
- Qaz müqaviləsinə əsasən AQTŞ-nin fəaliyyəti Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında "Azərbaycan təbii qazının Türkiyə Respublikasına tədarükü" haqqında 12 mart 2001-ci il tarixli Hökumətlərarası Sazişə əsasən ("Azərbaycan-Türkiyə Hökumətlərarası saziş") hökumət tərəfindən təmin edilir. AQTŞ tərəfindən nəql ediləcək qazın həcmi ilə bağlı yuxarıda qeyd olunmuş öhdəliklər Şahdəniz HPBS üzrə podratçı tərəflər və ARDNŞ (Azərbaycan hökumətinin adından və tapşırığı ilə) arasında imzalanmış Neftin kəşfiyyatı və hasilatı üzrə alış müqavilələri (NKHAM) ilə təmin edilir.

Şahdəniz HPBS üzrə podratçı tərəflər və qrup AQTŞ-nin yuxarıda qeyd olunan öhdəliklərinin yerinə yetirilməsi məqsədilə, AQTŞ-nin mənfəət götürmədən və zərər çəkmədən zəruri qaz həcmini AQTŞ-yə tədarük etmək və satmaq üçün öhdəlik daşıyır.

Bundan əlavə, NKHAM-da nəzərdə tutulduğu kimi Şahdəniz HPBS üzrə podratçı tərəflər və qrup AQTŞ-ə bütün nəqliyyat məsrəflərini və üçüncü tərəflərin öhdəliklərini ödəyəcəkdir.

Neftin daşınması üzrə öhdəliklər. 1 avqust 2002-ci il tarixində Qrup və AÇG HPBS-nin digər iştirakçıları ("İxracatçılar Qrupu") BTC şirkəti ilə AÇG yatağında məhsulların nəqli haqqında müqavilə ("AÇG MN") bağlamışdır və 3 fevral 2004-cü il tarixində bu Müqaviləyə əlavələr edilmişdir. Bu müqaviləyə əsasən īxracatçılar qrupu (qrup daxil olmaqla) hər bir iştirakçı tərəfindən qərb īxrac marşrutu ilə göndərilən hər hansı məhsul istisna olmaqla, AÇG yatağından bütün xam neftin BTC neft boru kəməri vasitəsilə daşınması üzrə öhdəlik götürmüşdür. Qrup Bakı-Tbilisi-Ceyhan neft boru kəməri tam istehsal həcmi ilə işləyənədək xam neftin dəmir yolu vasitəsilə daşınmasına razılıq vermişdir. Lakin, AÇG MN-ə uyğun olaraq Qrup BTC-nin istehsal həcminin kifayət qədər olduğu halda, digər daşınma imkanlarından istifadə edilməməsinə dair razılıq vermişdir.

BTC neft boru kəməri 2006-cı ilin may ayında istismara verilmişdir. Boru kəmərinin

doldurulması üçün AÇG yatağından 10 milyon barel neft istifadə edilmişdir və BTC neft boru kəməri vasitəsilə neft ilə yüklənmiş ilk tanker 4 iyun 2006-cı il tarixində Türkiyənin Aralıq Dəniz sahilində yerləşən Ceyhan terminalından yola salınmışdır. Gündəlik istehsal həcmi 1,000,000 bareldən artıq olan BTC neft boru kəməri İxracatçılar Qrupunun əsas ixrac marşrutu kimi istifadə edilir.

Məhsulların Nəqli haqqında müqaviləyə uyğun olaraq, 3 fevral 2004-cü il tarixində BTC, īxracatçılar qrupu, qrupun nümayəndəsi, BTC-nin kreditorları və təminat üzrə zamini, eləcə də AÇG īxracatçılar qrupunun kreditorları və təminat üzrə zamini arasında Birbaşa müqavilə imzalanmışdır. Tərəflər BTC tarifinin ödənişini neft və neftin satışından gəlirlər üzrə birinci dərəcəli ödəniş kimi təsdiqləmişdir.

EMN. Qeyd 20-də göstərildiyi kimi, EMN Kredit Sazişinin şərtlərinə uyğun olaraq Ehtiyat Mənfəət Neftinin satışından əldə edilmiş gəlirlər Qrupun EMN-nin buraxılma tarixinə qədər EMN Kredit Sazişi üzrə Lalaben qarşısında öhdəlikləri tam şəkildə yerinə yetirilənə qədər müştərilər tərəfindən birbaşa olaraq Lalabenin BNP Paribas bankındakı cari hesablarına köçürülür.

Layihə məsrəfləri üzrə ehtiyat. 20 iyul 2007-ci il tarixində Lalaben, Blueprint Trading, ABN Amro Bank N.V, BNP Paribas (Londonda və Cenevrədə yerləşən filiallar daxil olmaqla), Societe Generale və Qrup arasında imzalanmış Kreditorlararası Saziş qüvvədə olduğu dövr ərzində BNP Paribas-da Məsrəf Neftinin yığım hesablarında olan qalıqlar Qrupun AÇG HPBS-dəki payının maliyyələşdirilməsi üçün kifayət qədər olmadıqda, Qrup AÇG HPBS-dəki payının maliyyələşdirilməsi məqsədilə mənfəət neftinin satışından yaranan gəlirləri tətbiq etməlidir. Bu məqsədlə Qrup layihə üzrə məsrəflərinin maliyyələşdirilməsi üçün 22,341 AZN ekvivalentinə bərabər olan 28,000 min ABŞ dolları məbləğində dəyişkən qalıq saxlamalı və belə bir ehtiyat EMN-nin buraxılma tarixində əldə edilən mənfəət nefti (APP) və EMN üzrə daxilolmalar vasitəsilə maliyyələşdirilə bilər. Layihə üzrə məsrəflərin maliyyələşdirilməsi üçün ehtiyatlar həmçinin daşınma tariflərinin və AzAÇG-nin komisyon haqlarının ödənilməsi üçün istifadə edilə bilərdi. Qeyd 8-də göstərildiyi kimi, 31 dekabr 2010-cu il tarixində tamam–lanan il ərzində Qrup EMN Avans Ödənişi Sazişinə əsasən Lalaben qarşısında öhdəliklərini tam şəkildə yerinə yetirmişdir. Bu tarixdən başlayaraq Kreditorlararası Saziş qüvvəsini itirir.

Mənfəət vergisi üzrə ehtiyat. Kreditorlararası Sazişin şərtlərinə uyğun olaraq və bu Sazişin buraxılış tarixinə qədər Qrupun bütün mənfəət vergisi mənfəət neftinin gəlirlərindən ödənilir. Məsrəf nefti üzrə gəlirlər mənfəət vergisinin ödənilməsi üçün istifadə edilə bilməz. Bu məqsədlə Qrupdan və Lalaben-dən EMN və APP üzrə Qrupun rüblük proqnozlaşdırılan mənfəət vergisinin 110 faizinin BNP Paribasda Lalabenin EMN

və Qrupun APP hesablarındakı müvafiq vergi ehtiyatı üzrə sub-hesablarında saxlaması tələb olunur.

Tarif ehtiyatları. Kreditorlararası Sazişin şərtlərinə uyğun olaraq və bu Sazişin buraxılış tarixinə qədər Qrup və Lalaben Mənfəət Nefti ilə bağlı növbəti ay üçün proqnozlaşdırılan daşınma tariflərinin 110 faizini BNP Paribas-da müvafiq hesablarda saxlamalıdırlar.

APP və EMN hesablarından ödənişlər üzrə məhdudiyyət ("Mənfəət nefti üzrə hesablar"). Avans ödənişi haqqında sazişlərin (Qeyd 20) və müvafiq Kreditorlararası Sazişin qüvvədə olma müddəti ərzində Qrupun ödənişləri ilə bağlı aşağıdakı öhdəliklərə riayət edilməsi üçün Mənfəət nefti hesablarında saxlanılan vəsaitlər BNP Paribas-da gəlirlər hesabında olan məsrəf nefti üzrə saxlanılan vəsaitlərlə müqayisədə prioritet olaraq istifadə ediləcəkdir:

- mənfəət nefti tarifləri;
- əməliyyat xərcləri; və
- mənfəət vergisi.

EMN Avans Ödənişi Sazişi ilə bağlı Birbaşa Müqavilələr. EMN Avans Ödənişi haqqında Sazişin qüvvədə olma müddəti ərzində Qrup 20 iyul 2007-ci il tarixində Lalaben, BNP Paribas (İsveçrə) SA və BNP Paribas London Filialı ilə Birbaşa Müqavilə bağlamışdır. Bu müqaviləyə uyğun olaraq, Lalaben EMN-nin buraxılma tarixinə qədər EMN Avans Ödənişi haqqında Saziş ilə bağlı bütün hüquqları BNP Paribas (İsveçrə) SA Bankına həvalə etmişdir.

## 36. Müəssisələrin birləşməsi

"Azərikimya" İB. 2 aprel 2010-cu il tarixində Qrup "Azərikimya" SC-nin səhmdar kapitalının 100 faizini əldə etmişdir. "Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2010-cu il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasında neft-kimya məhsullarının istehsalı ilə məşğul olan "Azərikimya" SC ARDNŞ-ın tabeliyinə verilmişdir. "Azərikimya" SC-nin idarə olunması hüquqlarının təhlili nəticələrinə əsasən ARDNŞ rəhbərliyi, "Azərikimya" SC üzrə nəzarətin ötürülməsi tarixini 2 aprel 2010-cu il hesab etmək qərarına gəlmişdir. Bu satınalma əməliyyatından sonra "Azərikimya" SC ARDNŞ-in təşkilati-hüquqi strukturunda "Azərikimya" İB-ə çevrilmişdir.

"Azərikimya" İB-nin alışı ilə bağlı ədalətli dəyərin bölüşdürülməsi və alış üzrə ödənişlərə dair ətraflı məlumat aşağıdakı cədvəldə göstərilir:

| | | Alış üzrə tanınmış ədalətli dəyər |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 5,382 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | | 10 |
| Debitor borcları | | 63,364 |
| Mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | - |
| Mal-material ehtiyatları | | 49,693 |
| Əsas vəsaitlər | | 48,316 |
| | | **166,765** |
| **Öhdəliklər** | | |
| Kreditor borcları | | (254,739) |
| Uzunmüddətli borc öhdəliklərinin qısamüddətli və cari hissəsi | | (71,193) |
| Mənfəət vergisi üzrə kreditor borcları | | (27,571) |
| Vergilər üzrə sair kreditor borcları | | (17,714) |
| Sair ehtiyatlar | | (1,384) |
| Uzunmüddətli borc öhdəlikləri | | (12,514) |
| | | **(385,115)** |
| **Müəyyən edilə bilən xalis öhdəliklərin ədalətli dəyəri** | | **(218,350)** |

ARDNŞ "Azərkimya" SC-nin üzərində idarə hüquqlarını Azərbaycan Respublikasının Hökuməti tərəfindən tənzimlənən əməliyyat nəticəsində heç bir köçürmə aparmadan əldə etmişdir. Qrupun maliyyə hesabatlarının hazırlanmasının əsasları və mühüm mühasibat uçotu prinsiplərinə uyğun olaraq, birgə nəzarət altında olan əməliyyatlar alış metodu əsasında aparılır. Bu məqsədlər üçün Qrup alınan müəssisənin ədalətli dəyərini müəyyənləşdirmişdir.

Müəssisənin ədalətli dəyəri mənfidir və onun xalis aktivlərinin ədalətli dəyərinə bərabərdir. Müəssisənin ədalətli dəyərinin mənfi olmasının səbəbləri aşağıda amillər ilə izah edilir:

- Əsas istehsalat avadanlığı köhnəlməsi, yüksək dərəcədə amortizasiya hesablanması, məhsuldarlığının aşağı olması, enerji istehlakı dərəcələrinin yüksək olması və potensial ekoloji problemlərin mövcud olması;
- Bəzi məhsullar üzrə bazarda güclü tələbatın olmaması və ya aşağı əlavə dəyərə malik olması;
- Bir çox rəqib şirkətlərlə müqayisədə Şirkətin regional nəqliyyat infrastrukturu baxımından mövqeyinin aşağı olması və nəticədə təchizat kanalları və ixracat marşrutlarına əhəmiyyətli dərəcədə məhdudiyyətlərin tətbiq edilməsi.

Əməliyyatın ümumi nəzarət altında olmasına görə əldə edilmiş müəssisənin ədalətli dəyəri ilə köçürülmüş ödəniş (sıfır) məbləği arasındakı fərq kapitalda səhmdarlara ödəniş kimi qeydə alınmışdır.

Alış tarixindən etibarən "Azərikimya" İB Qrupun vergidən əvvəl mənfəətinə 88,785 AZN gəlir və 37,474 AZN zərər əlavə etmişdir. Əgər birləşmə ilin əvvəlində baş tutsa idi, ümumi gəlir haqqında hesabatda tanınan məbləğdən dövr üçün daimi (cari) fəaliyyətdən əldə olunan xalis mənfəət 37,318 AZN az və daimi (cari) fəaliyyətdən əldə olunan gəlir isə 114,722 AZN çox olardı.

"Azəriqaz" İB. 1 iyul 2009-cu il tarixində Qrup "Azəriqaz" QSC-nin səhmdar kapitalının 100 faizini əldə etmişdir. "Neft və qaz sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2009-cu il tarixli 366 saylı Sərəncamına uyğun olaraq "Azəriqaz" QSC ARDNŞ-ın tabeliyinə verilmişdir. "Azəriqaz" QSC-nin idarə olunması hüquqlarının təhlili nəticələrinə əsasən ARDNŞ rəhbərliyi, "Azəriqaz" QSC üzrə nəzarətin ötürülməsi tarixini 1 iyul 2009-cu il hesab etmək qərarına gəlmişdir. Şirkət, Azərbaycan Respublikası ərazisində qazın istehsalçılar, istehlakçılar və qaz anbarları arasında qaz kəmərləri vasitəsilə nəqlini, eləcə də qazın ixrac üçün Rusiya, Gürcüstan və İrana tranzitini həyata keçirir. Bu satınalma əməliyyatından sonra "Azəriqaz" QSC ARDNŞ-ın strukturunda "Azəriqaz" İB-ə çevrilmişdir.

"Azəriqaz" QSC-nin alışı ilə bağlı ədalətli dəyərin bölüşdürülməsi və alış üzrə ödənişlərə dair ətraflı məlumat aşağıdakı cədvəldə göstərilir:

| | | Müəssisələrin birləşməsindən dərhal əvvəl BMHS-ə uyğun balans dəyəri | Təyin edilmiş ədalətli dəyər |
|---|---|---|---|
| | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 3,398 | 3,398 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | | 403 | 403 |
| Debitor borcları | | 684,998 | 545,186 |
| Mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | 32 | 32 |
| Mal-material ehtiyatları | | 72,756 | 69,507 |
| Əsas vəsaitlər | | 601,283 | 787,044 |
| Qeyri-maddi aktivlər | | 14 | 14 |
| Sair uzunmüddətli aktivlər | | 5 | 5 |
| Kreditor borcları | | (1,291,498) | (1,265,163) |
| Uzunmüddətli borc öhdəliklərinin qısamüddətli və cari hissəsi | | (17,209) | (11,734) |
| Mənfəət vergisi üzrə kreditor borcları | | (29,677) | (43,835) |
| Vergilər üzrə sair kreditor borcları | | (164,915) | (185,957) |
| Sair ehtiyatlar | | (808) | (15,371) |
| Təxirə salınmış gəlirlər | | (110,178) | (110,178) |
| Uzunmüddətli borc öhdəlikləri | | (130,034) | (130,034) |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər | | (330) | (330) |
| Təxirə salınmış vergi aktivi | | - | 99,392 |
| **Törəmə müəssisənin xalis öhdəlikləri** | | **(381,760)** | **(257,621)** |





ARDNŞ "Azəriqaz" QSC-nin üzərində idarə hüquqlarını Azərbaycan Respublikasının Hökuməti tərəfindən tənzimlənən əməliyyat nəticəsində heç bir köçürmə aparmadan əldə etmişdir. Qrupun maliyyə hesabatlarının hazırlanmasının əsasları və mühüm mühasibat uçotu prinsiplərinə uyğun olaraq, birgə nəzarət altında olan əməliyyatlar alış metodu əsasında aparılır. Bu məqsədlər üçün Qrup alınan müəssisənin ədalətli dəyərini müəyyənləşdirmişdir.

Müəssisənin ədalətli dəyəri mənfidir və onun xalis aktivlərinin ədalətli dəyərinə bərabərdir. Müəssisənin ədalətli dəyərinin mənfi olmasının səbəbləri aşağıdakı amillər ilə izah edilir:

İnhisarçılıq xarakterinə görə "Azəriqaz" İB-nin öz boru kəmərləri şəbəkəsini istismar etməsi və təkmilləşdirməsi və bunun əhəmiyyətli kapital məsrəfləri tələb etməsi;

Gəlirlərin hesablanması üçün "Azəriqaz" İB tərəfindən istifadə edilən daşınma tariflərinin Hökumət tərəfindən tənzimlənməsi və bunun tənzimlənməsinin qeyri-müəyyən vaxt müddətinə gözlənilməsi. Yaxın gələcəkdə bazarın liberallaşmasının gözlənilməməsi;

"Azəriqaz" İB-nin rəhbərliyinin gəlirlərin yığılması və özünün ödəmə qabiliyyətinin çevik şəkildə təkmilləşdirilməsini gözləməməsi.

Əməliyyatın ümumi nəzarət altında olmasına görə əldə edilmiş müəssisənin ədalətli dəyəri ilə köçürülmüş ödəniş (sıfır) məbləği arasındakı fərq kapitalda səhmdarlara ödəniş kimi qeydə alınmışdır.

Sair alışlar. 2010-cu il ərzində Qrup Türkiyədə SOCAR Bosphorus Energy törəmə müəssisəni almışdır (2009-cu il ərzində Qrup həmçinin Gürcüstanda, Ukraynada bir sıra törəmə müəssisələri, eləcə də CDC-dəki nəzarət payını almışdır). Bu alışlar Qrupun BMHS-ə uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

**Qudvil**

Qudvilin balans dəyərinin hərəkəti aşağıdakı cədvəldə göstərilir:

| | **2010** | **2009** |
|---|---|---|
| | | |
| **1 yanvar tarixinə balans dəyəri** | **106,905** | **82,837** |
| Törəmə müəssisələrin alışı | 16,543 | 24,068 |
| | | |
| **31 dekabr tarixinə balans dəyəri** | **123,448** | **106,905** |

31 dekabr 2010-cu və 2009-cu il tarixlərində qudvil əsasən Petkim şirkətinin alışı ilə əlaqəli olmuşdur. (Qeyd 26). Petkim şirkətinin səhmlərinin alışı nəticəsində əldə edilmiş müəssisənin aktivləri, öhdəlikləri və şərti öhdəliklərinin ədalətli dəyərində alıcının iştirak payından artıq ödənilmiş məbləğ konsolidasiya edilmiş maliyyə hesabatlarında qudvil kimi uçota alınmışdır.

31 dekabr 2010-cu il tarixinə qudvilin balans dəyəri onun bərpa dəyəri ilə müqayisə edilərək, dəyərsizləşmə üzrə yoxlanılmışdır. Bərpa dəyəri Petkim şirkətinin istifadə dəyərinə əsasən müəyyən edilmişdir. Həmin hesablamalar zamanı rəhbərlik tərəfindən təsdiqlənmiş 11 illik maliyyə büdcələrinə əsaslanan vergidən əvvəl pul vəsaitlərinin hərəkəti üzrə proqnozlardan istifadə edilmişdir. 11 illik dövrü əhatə edən pul vəsaitlərinin hərəkəti 2021-ci ilədək qüvvədə olan hazırkı layihələrə əsaslanmışdır. Rəhbərlik hesab edir ki, pul vəsaitlərinin hərəkəti haqqında bu proq–nozlar dəqiq və etibarlıdırlar. 11 ildən artıq müddətə pul vəsaitlərinin hərəkəti üzrə proqnozlar gözlənilən artım dərəcələri ilə ekstrapolyasiya edilib və sonra onların xalis cari dəyəri ilə diskontlaşdırılmışdır. Qudvilin dəyərsizləşmə testdə həssas olan mühüm fərziyyələr aşağıdakılardır:

- Qiymətləndirmə nəticəsinin Qrup tərəfindən nəzərə alınmış müvafiq olaraq 8 faizdən 16 faizədək və 12.8 faiz dərəcələrində faizlər, vergilər, köhnəlmə və amortizasiyadan əvvəlki mənfəət (EBITDA)/xalis satışlar dəhlizi və WACC-a qarşı həssasdır;

- faizlər, vergilər, köhnəlmə və amortizasiyadan əvvəlki mənfəət (EBITDA)/xalis satışlar əmsalı qrupun 2011-ci il və sonrakı illər üçün tərtib etdiyi büdcəsinə uyğundur; WACC (12.81 faiz) isə makroiqtisadi və sektor üzrə spesifik parametrlərə əsaslanır;

- Təxmin olunan pul vəsaitlərinin hərəkəti üzrə artım dərəcəsi 3 faiz tətbiq olunmuşdur;

Dəyərsizləşmə üzrə yoxlamanın nəticəsində heç bir dəyərsizləşmə müəyyən edilməmişdir.

Hesablama zamanı istifadə edilmiş təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 1 faiz çox/az olsaydı, təxmin edilən istifadə dəyərinin məbləği müvafiq olaraq 230 AZN az / çox olardı.





# MUNDƏRİCAT


| | | |
|---|---|---|
| I. | NEFT STRATEGİYASI AZƏRBAYCANI YENİ QƏLƏBƏLƏRƏ APARIR | 1 |
| II. | AZƏRBAYCAN RESPUBLIKASI DÖVLƏT NEFT ŞIRKƏTININ TƏŞKILATI STRUKTURU | 8 |
| III. | ARDNŞ VƏ XARICI ŞIRKƏTLƏRIN TƏSİSÇİLİYİ İLƏ YARADILMIŞ BİRGƏ MÜƏSSİSƏLƏR, ƏMƏLİYYAT ŞİRKƏTLƏRİ VƏ ALYANSLAR HAQQINDA | 9 |
| IV. | GEOFİZİKİ VƏ GEOLOJİ İŞLƏR | 11 |
| V. | NEFT VƏ QAZ YATAQLARININ İŞLƏNMƏSİ | 17 |
| VI. | QAZMA | 21 |
| VII. | NEFT-QAZ HASİLATI | 24 |
| VIII. | QAZIN YIĞILMASI VƏ NƏQLİ | 30 |
| IX. | NEFT QAZ EMALI VƏ NEFT-KİMYA | 35 |
| X. | MAYA DƏYƏRİ | 43 |
| XI. | PERSONAL VƏ ƏMƏK HAQQI | 47 |
| XII. | MEXANİKA VƏ ENERGETİKA | 51 |
| XIII. | KAPİTAL QOYULUŞU VƏ ƏSASLI TƏMİR | 59 |
| XIV. | ƏSASLI TƏMIR | 63 |
| XV. | MADDİ-TEXNİKİ TƏCHİZAT | 68 |
| XVI. | ELM VƏ TEXNİKA | 71 |
| XVII. | KADRLARLA IŞ | 77 |
| XVIII. | ƏMƏYİN MÜHAFİZƏSİ | 94 |
| XIX. | EKOLOGIYA | 96 |
| XX. | NƏQLİYYAT | 99 |
| XXI. | SOSİAL MƏSƏLƏLƏR | 112 |
| XXII. | MALİYYƏ | 119 |




Azərbaycan Respublikası
Dövlət Neft Şirkəti

Azərbaycan Respublikası, AZ1000,
Bakı, Neftçilər Prospekti, 73
Tel.: (99412) 521-03-32
Faks: (99412) 521-03-83
E-mail: info@socar.az
Web site: www.socar.az

SOCAR